AFƏT SÜLEYMANOVA, TƏRANƏ BAĞIROVA,
İLHAMƏ MURADOVA

# ƏDƏBİYYAT

*Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün
«Ədəbiyyat» fənni üzrə*

**DƏRSLİK**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin
24.05.2016-cı il tarixli 354 №-li əmri ilə təsdiq edilmişdir.*



Təhsil

**BAKI–2016**

Çap üçün deyil

İxtisas redaktoru: **Aydın Əhmədov**

Dil redaktoru: **Zahid Xəlil**
*filologiya elmləri doktoru, professor*

**Süleymanova A., Bağırova T., Muradova İ.**
Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün «Ədəbiyyat» fənni üzrə dərslik. Bakı, «Təhsil», 2016, 208 səh.

**Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.**

**Dərsliklə bağlı rəy, irad və təkliflərin tahsil_az@yahoo.com və derslik@edu.gov.az elektron ünvanlara göndərilməsi xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2016**

Çap üçün deyil



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Çap üçün deyil

## «ƏDƏBİYYAT» FƏNNİ VASİTƏSİLƏ NƏYİ ÖYRƏNƏCƏKSƏN

Əziz məktəbli, yəqin ki, bu kitabı ilk dəfə görəndə düşünmüsən: «Görəsən, bu fənn vasitəsilə mən nəyi öyrənəcəyəm? Görəsən, burada nədən bəhs edilir? Bu dərslik mənə hansı bilik və bacarıqlara yiyələnməkdə kömək edəcək?»

Əvvəlcə, gəl aydınlaşdıraq, görək «ədəbiyyat» nə deməkdir. «Ədəbiyyat» ərəb dilindəki «ədəb» sözündən yaranıb. Mənası tərbiyə, əxlaq, mərifət deməkdir. Ədəbiyyat söz sənəti olub, sözün qüdrəti ilə insanları ədəb-ərkana, yüksək əxlaqi keyfiyyətlərə dəvət edir. Ədəbi nümunələrdə yazıçı hiss və düşüncələrini bədii nümunələr vasitəsilə insanlara ötürür. Belə nümunələrdə həyat hadisələri oxuculara obrazlı şəkildə çatdırılır. Bu o deməkdir ki, bədii əsərlərdə ətrafda baş verən hadisələr olduğu kimi deyil, yazıçının təsəvvür etdiyi kimi əks olunur. Oxucu da həmin hadisələrə yazıçının gözü ilə baxır.

Sən artıq dörd il ərzində çoxlu bədii mətn oxumusan. Elə mətnlərlə tanış olmusan ki, orada şəhərlərimizin, kəndlərimizin, dağlarımızın, düzlərimizin gözəllikləri təsvir edilib. Bəzi mətnlərdə keçmişdə, yaxud müasir dövrümüzdə baş verən hadisələr nəql edilib. Elə mətnlər də oxumusan ki, orada kiminsə yaxşı, ya da pis hərəkətindən bəhs edilib və həmin hərəkətlər oxucunun mühakiməsinə verilib. Bəzən də hansısa tarixi hadisələrin, ya da elmi axtarışların nəticələri haqqında qısa məlumatlarla tanış olmusan. Əvvəllər bütün bunlar sənin üçün yalnız mətn idi. İndi isə öyrənəcəksən ki, bədii nümunələri təşkil edən mətnlər xüsusiyyətlərinə görə müxtəlifdir. Bu baxımdan sən həm bu dərs ili boyu, həm də qarşıdan gələn illərdə təsviri, nəqli, mühakimə və tədqiqat xarakterli mətnlərlə tanış olacaq, onları bir-birindən fərqləndirə biləcəksən.



Çap üçün deyil

Lakin bu, «Ədəbiyyat» fənninin yeganə məqsədi deyil. Bu fənn vasitəsilə sən bədii nümunələrin oxusunun təşkili yollarını, əsərin ideya və məzmununu müəyyən etməyin üsullarını da öyrənəcəksən. Həmçinin əsərlərin quruluşunu və obrazların xarakterindəki başlıca cəhətləri müəyyən etməyi bacaracaqsan. Hətta bunlar da öyrənəcəklərinin hamısı deyil. Sən nail olduğun bilik və bacarıqları tətbiq etməklə yeni bədii nümunələr yaradacaq, onları yoldaşlarına oxuyacaq, yoldaşlarının da yazıları ilə tanış olacaqsan. Yaratdığınız kiçik əsərlərinizi qarşılıqlı dəyərləndirəcəksiniz.

Bütün bunlar kiçikhəcmli bədii nümunələrin mahiyyətini anlamaqda, sözün təsir gücünü dərk etməkdə sənə kömək edəcək. Bununla sən düşünən oxucuya çevrilib oxuduğun əsərlərdən bəhrələnməyi bacaracaqsan. Əldə etdiyin bilik və bacarıqlar sənə mütaliəni sevdirəcək, həm şifahi, həm də yazılı nitqini xeyli inkişaf etdirəcəkdir. Bu yolda sənə uğurlar arzulayırıq.





Çap üçün deyil




Çap

# *OXU HAQQINDA NƏ BİLİRİK*

## BİZ NECƏ OXUYURUQ?



Məktəbli dost! Əvvəlki illər test yoxlamalarında tez-tez iştirak etməklə, yəqin, müəyyən təcrübə toplamısan. Həmin yoxlamaların bir çoxunda müəllimlərin sənin oxu və yazı bacarıqlarına hansı səviyyədə yiyələndiyini müəyyən etmişlər. Bu şeiri də diqqətlə oxu, sonra verilən testi yerinə yetir, necə oxucu olduğunu müəyyənləşdir.

### BİRİNCİ ZƏNG

Nə mehriban səs gəlir!
Bu səs mənə tanışdır.
Onu şirin mahnıtək,
Qəlbim unutmamışdır.

O nə bahar çağında
Daşan çayın səsidir;
Nə budaq-budaq gəzən
Quşların nəğməsidir.

Boy atdıqca bilirəm,
Nə mənə var bu səsdə.
Min xoş arzu, xoş istək
Tutmuş qərar bu səsdə.

Yerin dərin qatından
«Qara qızıl» alanlar,
Xəzərin qucağında
Bu gün şəhər salanlar.

«Ulduzlar» göndərənlər
Ayın, Günün yanına
Bir zaman mənim kimi
Qulaq asmışlar ona.

... Sentyabr səhəri!
Məktəbə yollanıram.
Bir işıqlı binanın
Yanında dolanıram.

Yenə qulaqlarıma
O mehriban səs gəlir.
Gözlərimə gur işıq
Qəlbimə həvəs gəlir.

Odur, doğma məktəbin
İlk zəngidir dil açan!
Odur, hər xoş nəğmədən
Daha əziz, mehriban.

İlk zəng!.. Yenə də səslən
Ürəkləri oxşa sən.
Sinfə çağır sən bizi,
Gəlirsən çox xoşa sən.

Bir an unutmaz səni,
Qələm tutan, söz yazan.
Sən elmin yollarında
Yorulmaz nəğməkarsan!

***Hikmət Ziya***



Çap üçün deyil

## OXUNUN TƏŞKİLİ YOLLARI



Heç olubmu ki, müəyyən mətni bir neçə dəfə oxuyasan, amma mənasını, hansı məqsədi daşıdığını başa düşməyəsən? Yaxud hər hansı bir mövzuda inşa yazmaq üçün nə qədər düşünsən də, lazım olan fikirləri tapa bilməyəsən? Belə çətinliklərlə qarşılaşmamaq üçün oxu və yazının təşkili yolları öyrənilməli, oxunan və ya yazılması nəzərdə tutulan mətnin xüsusiyyətlərinə fikir verilməlidir. Mətn var ki, orada hər hansı hadisə nəql edilir, mətn var ki, orada əşya və ya hadisə təsvir edilir. Elə mətnlər də var ki, orada aparılan araşdırmaların nəticələri əks etdirilir. Oxucu mətnin xüsusiyyətini müəyyənləşdirəndən sonra oxuya və ya yazıya başlamalıdır. Yalnız bu halda o, diqqətini mühüm məsələlərə yönəldə bilər.

Oxunması nəzərdə tutulan bütün mətnləri düşünərək oxumaq lazımdır. Fikirləşirsən ki, bunu necə etmək olar? Çox asan. Mətni yaxşı başa düşmək üçün oxuya hazırlaşmalısan. Elə üsullardan istifadə etməlisən ki, oxuduğunu başa düşə biləsən. Oxuyandan sonra isə aldığın məlumatın üzərində işləməlisən. Gəlin bütün bunları necə etməyin yolları ilə daha yaxından tanış olaq:

***Tapşırıq 1.*** Ələmdar Quluzadənin «Alim və quldur» hekayəsini oxumazdan əvvəl aşağıda göstərilən ardıcıllıqla oxuya hazırlıq işi apar. «Oxu zamanı» başlıqlı təlimatla da tanış olandan sonra mətnin oxusuna başla. Oxuyarkən çərçivələrdə verilmiş suallar üzərində düşün.

**Oxudan əvvəl**

1. Fikrini cəmləşdir.
2. Mətnin başlığını oxu.
3. **Fikirləş:** «Bu barədə indiyə qədər nə oxumuşam, nə eşitmişəm, hansı tamaşaya baxmışam?» Yəni «Mən bu barədə nə bilirəm?»

Çap üçün deyil

4. «Nə üçün bu mətni oxuyuram? Bildiklərimdən əlavə daha nələri öyrənmək maraqlı olardı?» sualları ətrafında düşünərək oxunun məqsədini müəyyən et.
5. Başlıq və yarımbaşlıqlara, şəkillərə, həmçinin digər diqqət cəlb edən məqamlara nəzər sal.
6. Əldə etdiyin bu ilkin məlumatlara əsasən çalış ki, mətndə nədən bəhs olunması barədə əvvəlcədən fərziyyələr irəli sürəsən. Həmin fərziyyələri qeyd et.

**Oxu zamanı**

Əvvəlcə onu bilmək lazımdır ki, düşünən oxucunun əlində sadə karandaş olmalıdır. Yeri gəldikcə qeydlər aparmaq üçün bu, çox lazımdır. Elə bilirsən ki, karandaş kitabda qeydlər aparmaq və onu yazmaq üçün gərəkdir? Əlbəttə ki, yox. Bunun üçün istənilən dəftərxana mağazasında yapışqanlı, kiçikölçülü rəngli kağızlar satılır. Hər hansı qeyd aparmaq üçün həmin rəngli qeyd vərəqlərindən birini asanlıqla kitabda istədiyin yerə yapışdırıb, üzərində qeydlərini apara bilərsən. Sonra onları kitabdan asanlıqla qoparmaq olur.

1. Şərti işarələri gözləməklə mətni ifadəli oxu*.
2. Oxu zamanı əsərdə müəllifin nə demək istədiyini (əsərin ideyasını) müəyyən etməyə çalış.
3. Mətnin necə qurulduğuna fikir ver. Ola bilər ki, mətndə əvvəlcə hadisələrin başvermə səbəbləri, sonra isə həmin hadisələrin nə ilə nəticələndiyi göstərilsin. Bu, ideyanı dəstəkləyən fikirlərin müəyyən olunmasına kömək edə bilər.
4. İmkan olduqca oradakı hadisələri özünün və ya yaxınlarının həyatında baş vermiş hadisələrlə əlaqələndir.
5. Nəyisə anlamadığını hiss etsən, dayan. Yenidən oxu.

---

* Nəqli cümlələrin oxunuşunda səs əvvəlcə yüksəlir (↗), sonra qısa bir pauza edilir (||), sonda səs alçalır (↘). Sual və əmr cümlələrində isə əksinə, cümlənin axırına yaxın səs ucalır.

*Nümunə:* Çox-çox illər bundan qabaq || bir alim vardı.

— Nəyiniz varsa, || hamısını verin bura!

Alim gülümsədi:

— Kimsiniz, || nəçisiniz?



Çap üçün deyil

Tanış olmayan sözlərin mənasını lüğətdən tap.

## ALİM VƏ QULDUR
*(İxtisarla)*

Çox-çox illər bundan qabaq bir alim vardı. Onu öz ölkəsində də, qonşu məmləkətlərdə də hamı yaxşı tanıyırdı. O, dağların altından lağım atdırıb yol düzəltdirir, ulduzlara baxmaqla ilin necə keçəcəyini söyləyirdi. Yanına dərdli gələn dərmansız qayıtmırdı. Ona «alim aləmdir» deyirdilər.

Səncə, bu hekayədə nədən bəhs edilə bilər?

Bir gün alim özünə bab olan elm adamlarından bir neçəsini götürüb səhralara yollandı. Dedi ki, camaat sudan çox korluq çəkir, gərək səhraları da gülüstana çevirək. Dəvə karvanı qumlu çöllərdə bir gün, bir gecə yol getdi. Qu deyəndə qulaq tutulan səhrada səhər tezdən bir təpənin yanında dayandılar.

Alim dedi:

— Buralarda su olmalıdır. Ulduzlar bu yeri nişan verir. Qantərin içində olan yoldaşları bir-birlərinin üzünə baxıb çiyinlərini çəkdilər.

Biri dedi:

— Ey böyük alim, yerin altında suyun olduğu məlumdur. Biz neçə arşın dərinliyə getməliyik ki, suya çataq?

Buradakı hansı cümlə ideyanı dəstəkləyir?

Alim uzaqlardakı başı qarlı dağları göstərdi:

— O dağların suyu bu səhranın altındadır. Yerin altı ilə çay axır. Çay gedib dəryaya tökülür. Su burda çox üzdədir. Yeddi arşın qazsaq, çay səhranın üstünə çıxar.

Alim baxdı ki, yoldaşlarında o kəramət yoxdur ki, bu istidə səhranın yeddi arşınlığına ensinlər.

— Kaş sizin kimi alimlərin əvəzinə, beş-üç qolugüclü cavan gətirəydim, — dedi.

Söz alimin ağzından çıxar-çıxmaz bir də gördülər ki, başı qarlı dağlar tərəfdən bir dəstə atlı onlara tərəf çapır. Toz dumana qarışıb. Atlılar onların yanına çatan kimi qırmanclarını oynatmağa, kəməndlərini işə salmağa başladılar. Qorxudan alimlərin rəngi saralmışdı.

Çəpgöz quldurbaşı əmr elədi:

— Nəyiniz varsa, hamısını verin bura!

Alim gülümsədi:

— Kimsiniz, nəçisiniz?

Çap üçün deyil



Quldurbaşı qəzəbləndi:

— Görmürsən, kimik? Quldurуq!

Alim üzünü dostlarına tutdu:

— Allah bizimkini yetirib. Mən beş-üç nəfər arzulayırdım, yeddi igid birdən gəldi.

Quldurlar da donub yerlərində qalmışdılar. Bu kişinin heç tükü də tərpənmirdi. Nə quldurdan qorxurdu, nə də talandan.

Alim dəvələrin qarnının altındakı qıfıllı zəncirləri göstərdi:

— Ey quldurbaşı, bu qıfılların açarları qabaqdakı dəvənin yükünün üstündədir. Açarı götürüb yükü yerə tökün, xoşunuza gələni götürün.

Quldurbaşı quldurlardan birinə əmr elədi ki, dəvənin belindən açarları düşürsün. Açarları götürüb dəvələrin yükünü açdılar. Əllərinə fərli bir şey keçmədi. Yükün çoxu kitab-dəftər idi. Quldurbaşı özündən çıxdı:

— Qızıllar hardadır?

Alim qalın bir kitabı açıb vərəqləməyə başladı:

— İndi qızılların da yerini deyərəm. Hamısı bu kitabda yazılıb.



Çap üçün deyil

Alim gördü ki, quldurlardan birinin əli çənəsində qalıb, o birinin rəngi getdikcə qaralır. Kitabı oxumağa başladı:

— Qumlu səhradan baxanda qarlı dağlar günbatan tərəfdə görünür. Yayda günəş qürub edəndə şəfəqləri səhradakı təpənin üstünə düşür. Həmin təpənin yeddi addımlığında yerə yeddi daş basdırılıb. Daşların altında yeddi küp qızıl var.

Alim gəlib həmin yerdə dayandı:

Səncə, alim nəyə görə quldurun dişini çəkdi?

— Bu daşları ancaq yeddi igid çıxara bilər. Gərək onlardan dişi, başı ağrıyan olmaya.

Alim dişinin ağrısından ikiqat olan qulduru yüklərin yanına gətirdi. Əyri bir dəmir çıxarıb quldurun çənəsini araladı. Ağrıyan dişini dartıb quldurun ovcuna qoydu. Başının ağrısından rəngi kömürə dönən quldura bir cövhər içirtdi. Kitabı oxumaqda davam etdi:

Buradakı hansı fikir ideya ilə bağlıdır?

— Üzündə köç itinin cırmaq yerləri olan quldurbaşı axsayırsa, gözləri çaşdırsa, qolunun biri əyridirsə, ona alim dava-dərman etməlidir.

Quldurbaşı cınqırını çıxara bilmirdi. Alim quldurbaşının qarşısında dayandı:

— Sənin kəm-kəsirini müalicə eləmək çox vaxt aparacaq.

Quldurbaşının qəzəbindən, vahiməli baxışlarından, ötkəm səsindən əsər-əlamət qalmamışdı:

— Ey böyük alim, biz indən belə quldur deyilik, quluq. Alimin qarşısında, elmin yolunda qul kimi işləməyə hazırıq.

— Onda külüngləri, belləri götürün, — alim dedi.

Yeddi quldur qollarını çırmayıb alimin tapşırıqlarını, göstərişlərini yerinə yetirməyə başladı. Təpənin yanında dərin bir xəndək qazdılar. Üst-üstə qalanmış yeddi sal daşı çapıb çıxartdılar. Birdən göz yaşı kimi su qaynamağa başladı.

— Dediyim qızıl budur, — alim üzünü quldurlara tutdu.

Quldurlar da, alimlər də susdular. Yeddi yerdən qaynayan sərin suyun yanında süfrə açdılar.

Hamı alimin elminə həsəd apardı. Deyə-gülə yeyib-içməyə başladılar. Quldurlar o gündən yol kəsməyi, karvan soymağı, qarət etməyi tərgitdilər.

***Ələmdar Quluzadə***

Çap üçün deyil

***Tapşırıq 2.*** «Alim və quldur» hekayəsini oxudun. Oxu başa çatandan sonra aşağıda qeyd edilmiş «oxudan sonra» təlimatını ardıcıllıqla yerinə yetir.

**Oxudan sonra**

Mətnin oxusunun bitməsi oxu prosesinin bitməsi kimi dərk edilməməlidir. Oxu başa çatandan sonra aşağıdakı işləri görməlisən:

1. Mətndən başa düşdüklərini bir daha dəqiqləşdirmək və genişləndirmək üçün ehtiyac hiss etdiyin məsələlərlə bağlı mətnə bir daha nəzər sal.
2. **Düşün:** Yazıçı bu əsərdə oxucusuna nə demək istəmişdir?
3. O buna nail olubmu? Nəyə görə belə düşünürsən?
4. Əsərdəki əsas fikri ifadə edən kiçik bir inşa  yaz. Həmçinin bu fikri əks etdirən bir şəkil çək və ya plastilinlə bir fiqur, yaxud aplikasiya hazırla.

**Ev tapşırığı:**

Abdulla Şaiqin «Kiçik qəhrəman» əsərini oxudan əvvəl, oxu zamanı, oxudan sonra təlimatına uyğun ifadəli oxu. Çox arzu etsən, əsas fikirlə bağlı kiçik şeir, yaxud hekayə də yaza bilərsən.

***Bunu bilməlisən!***

**Hekayə**, təmsil, povest, poema, roman və s. yazılı ədəbiyyat nümunələridir. Yazılı ədəbiyyatın müəllifi olur.

Hekayədə insan həyatının konkret bir səhnəsi və ya müəyyən bir hadisə yığcam şəkildə təsvir edilir. Burada qəhrəmanların sayı az olur. Hekayələr mövzu cəhətdən müxtəlif olur. Azərbaycan ədəbiyyatında C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Nərimanov, S.S.Axundov, Y.V.Çəmənzəminli və b. hekayə janrında gözəl əsərlər yaratmışlar. Bu dərslikdə müasir Azərbaycan yazıçılarının hekayələri ilə tanış olacaqsan.

Çap üçün deyil

## BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR



Bədii əsərlərdə yazıçı müşahidə etdiyi və xəyalında canlandırdığı əşya və hadisələri təsvir edir. Oxucu haqqında danışılan əşya, hadisə və ya mənzərəyə istər-istəməz yazıçının gözü ilə baxır, təsvir edilənlər oxucunun daxili aləminə güclü təsir etməklə uzun müddət onun yaddaşında qalır.

### S.RƏHİMOV. «USTA-ŞAGİRD» HEKAYƏSİ
### (BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİRİN MÜƏYYƏN EDİLMƏSİ)

*Tapşırıq 1.*

1. «Usta-şagird» hekayəsi ilə tanış olmazdan əvvəl oxuya hazırlıq işləri apar.
2. **Düşün:** hekayədə təsviri yazıya yer verilibmi? Fikirlərini əsaslandır.

### USTA-ŞAGİRD

Bu hekayədə nədən bəhs edilə bilər?

Tanış olmayan sözlərin mənasını lüğətdən tap.

Bakı payızının soyuq günlərindən biri idi. Mən buruqların arasında gəzib-dolanır, neft çıxaran **mancanaqlara**, içindən neft axan borulara baxırdım. Bu vaxt neft buruqlarının arasında görünən bir günbəz diqqətimi cəlb etdi. Məni fikir götürdü. Köhnə fəhlə mənzillərinin yerində uca binalar tikilmiş, yanğınlar törədən taxta buruqların yerində polad buruqlar qurulmuşdu. Hər şey, hər şey dəyişmişdi. Bəs niyə köhnə günbəz toxunulmamış qalmışdır?!

Səncə, köhnə günbəz niyə toxunulmaz qalmışdı?

Yaxına gəlib günbəzə maraqla tamaşa etdim. Elə bu zaman mənə tərəf buxara papaqlı, qalın qaş-

Çap üçün deyil

lı, eşmə bığlı bir kişinin gəldiyini gördüm. Biz salamlaşıb, tanış olduq. O, yazıçı olduğumu, mən də onun qocaman neftçi olduğunu öyrəndim.

> Buradakı hansı fikir ideya ilə bağlıdır?

— Bu günbəzin adı nədir? — deyə mən ustadan soruşdum.

— «Usta-şagird».

— Nə üçün «Usta-şagird?»

— Onun maraqlı bir tarixi var, — deyə qoca neftçi günbəzin əfsanəsini danışmağa başladı:

— Deyirlər ki, burada məşhur usta, bir də onun ağıllı şagirdi yaşayırmış. İllər keçir. Şagird sənətin sirlərini dərindən öyrənir, öz ustasını ötüb-keçir. Onlar bəhsə girirlər: «Görək kim daha yaxşı bir günbəz tikər», — deyə mərc gəlirlər.





Çap üçün deyil

Hər ikisi yeddi il gecə-gündüz dincəlmədən çalışır. Hərə öz günbəzinə bir naxış vurur. İş başa çatanda el-oba tamaşaya gəlir. Göyə ucalan iki gözəl günbəzə baxırlar. Camaatın yarısı usta tikən günbəzə yaxşı deyir, o biri yarısı isə şagirdin günbəzini daha çox bəyənir...

> Buradakı hansı cümlə ideyanı dəstəkləyir?

Mən kişinin sözünü kəsib xəbər aldım:

— Bəs ikinci günbəz hanı?

— O, çoxdan uçmuşdur!

— Bəs bu salamat qalan günbəz kimindir?

— Şagirdin! — deyə qoca neftçi əlini yuxarı qaldırdı, naxışlı daşları bir-birinə geydirilən günbəzin yaraşıqlı qülləsini göstərdi:

— Gör necə yaxşı qalıb. Elə bil ki, dünən tikilib!

— Deməк, zamanın sınaqlarından şagird qalib çıxıbdır?

— Bəli, şagird dərs aldığı ustasını ötüb keçibdir!

— İndi onların hansını ustad hesab etmək olar?

— Əlbəttə, ustasının zəhmətini itirməyən, qədir-qiymətini bilən şagirdi ustad hesab etmək olar!

Mən böyük sənətkarın xatirəsinə hörmətlə papağımı götürdüm, başımı ehtiramla əyib qoca neftçinin sözünü təsdiq etdim:

— Kimin qoyduğu abidə daha uzun ömür sürürsə, əsl ustad odur!

***Süleyman Rəhimov***

***Tapşırıq 2.*** Hekayəni oxuduqdan sonra «Oxudan sonra» təlimatını (səh. 14) yerinə yetir.

**Yaradıcı tətbiqetmə:**

1. Sənin üçün əhəmiyyətli olan bir məkanı təsvir et. Onun nəyə görə sənin üçün əhəmiyyətli olduğunu söylə.
2. Sənin üçün ən əziz insanı təsvir et.
3. Sevdiyin heyvanı və onun həyatını təsvir et.

Çap üçün deyil

# I. BƏDİİ ƏSƏRLƏRDƏ İDEYANIN MÜƏYYƏN EDİLMƏSİ



*Təsviri mətnin ideyası necə yaranır?*

Təsviri mətnlərdə ideya əşya və ya hadisənin xüsusiyyətlərini və onlarla bağlı müəllifin təəssüratlarını əhatə edir. Belə yazılarda ideya fikirlərlə ifadə edilir və oxucuya hissə-hissə çatdırılır.

*Nə öyrənəcəksən?*

- Nəzərdə tutulmuş ideya və onu dəstəkləyən digər fikirləri müəyyən edəcəksən;
- Təsvir edilən əşya və hadisələri müəyyən edəcək və qruplaşdıracaqsan.

## B.VAHABZADƏ. «AĞ SAÇLAR» ŞEİRİ
### (BƏDİİ ƏSƏRLƏRDƏ İDEYANIN MÜƏYYƏN EDİLMƏSİ)

***Tapşırıq 1.*** «Ağ saçlar» şeirini oxumazdan əvvəl «Oxudan əvvəl» təlimatını (səh. 9) yerinə yetir. Məntiqi vurğunu* gözləməklə şeiri ifadəli oxu. Oxuyarkən çərçivələrdə verilmiş suallar üzərində düşün.

### AĞ SAÇLAR

Əzəmətli bir binanın qarşısından **hər keçəndə**
Dayanıram... Gizli bir hal doğur məndə.
Bu binanın duruşunda nə **hikmət** var!
Çoxdur onun qarşısında məntək ayaq saxlayanlar...

Səncə, əsərin qalan hissəsində müəllif daha nələri təsvir edəcək?

O, məktəbdir. O, anadır, o, şüurlar çırağıdır,
Dünyaları dəyişdirən pak əməllər ocağıdır.
Hər daşında, kərpicində mənim min bir xatirəm var,
Bunu ancaq duya bilər bu hiss ilə yaşayanlar.

Bayaqdandır heykəl kimi dayanmışam öz yerimdə,
O qayğısız uşaqlığım gəlib durur gözlərimdə.
Bir zamanlar oxuduğum sinfə baxır, baxıram mən,
Xatirələr baş qaldırır ürəyimdə...

---

* Məntiqi vurğu cümlədə sözlərdən birinin digərlərinə nisbətən qüvvətli tələffüz olunması ilə yaranır. Məntiqi vurğulu söz, adətən, xəbərin yanında yerləşir.



Çap üçün deyil

Ah, bu sinif! Mənim kimi neçəsinə həmdəm olmuş,
Hər bucağı yadımdadır, kim deyir ki, unudulmuş?!
O lövhənin qarşısında dayanaraq aram-aram
Azmı əzbər şeir deyib öz-özümdən xoşlanmağım?!
«Ay havada uçan durna, bizi qoyub qaçan durna...»
İndi belə, bir ayrılıq məqamında inləyərək
Cingildəyir qulağımda bu misralar musiqitək...

> Bu misralardan hansında məcazi mənalı söz işlənmişdir?

> Bu sətirlərdəki hansı söz şeirin ideyası ilə bağlıdır?

Kimsə bu dəm boylanaraq baxır açıq pəncərədən,
Tanıyıram onu, dostlar, o ağsaçlı qadını mən.
Baxıb məchul bir nöqtəyə xəyalamı o dalmışdır?
Ah, o mənim müəllimim, nə qədər də qocalmışdır!

O ki onda cavan idi. Lakin yenə o cavanlıq
İtməmişdir. Gəlin, dostlar, biz düşünək bircə anlıq
Onun əziz cavanlığı yoxdursa da bu gün onda
O yaşayır mənim kimi yüz cavanın kamalında.

Mən qanadsız bir quş idim, açdı mənim qanadımı,
Yazmağı da o öyrətdi mənə, dostlar, öz adımı.

> Bu bənddə məntiqi vurğunu müəyyən et.



Çap üçün deyil

Ona «bir az dincəl» deyə yanaşanda, unutmaram,
O, həmişə bu sözləri pıçıldardı aram-aram:
«Hər bağbanın öz əkdiyi ağacından yediyi bar
Ona bütün zəhmətinin acısını unutdurar».

Bu misralarda hansı məqamlar ideyanı qüvvətləndirir?

O ağarmış saçlardakı qüdsiyyətin mənası var,
O yazdıqca əlindəki təbaşirdən qopan tozlar
Ağartmışdır saçlarını... Sanki onlar qarlı qışdır...
Xeyr, mənim ağ günümçün onun saçı ağarmışdır.
Bu haqq işə getmiş onun ömrünün də cavan çağı,
Şərəflidir el yolunda qara saçın ağarmağı!

Səncə, «qüdsiyyət» sözü bu şeirdə hansı mənada işlənib?

***Bəxtiyar Vahabzadə***

***Tapşırıq 2.*** Şeiri oxuduqdan sonra «Oxudan sonra» təlimatını (səh.14) yerinə yetir.

**Ev tapşırığı:**

Şeirdən ən çox bəyəndiyin bir parçanı əzbər öyrənə bilərsən. Bu sənin nitqinin inkişafı və bədii zövqünün formalaşması baxımından çox əhəmiyyətlidir.

## Əsər üzərində iş

Hər bir əsərin ideyası olur. «Ağ saçlar» şeirinin də ideyası var. Qələm sahibləri ideyanı fikirlər şəklində təqdim edirlər və oxucu onları bir araya gətirməklə müəllifin çatdırmaq istədiyi ideyanı özü müəyyən edir.

Əsərdə fikir mətnin əvvəlində təqdim edilmir. Bəs ideyanı tapmağın asan yolları varmı? Əgər varsa, bunu necə etmək olar?

***Tapşırıq 3.*** Aşağıda təqdim edilən təlimata riayət etməklə «Ağ saçlar» şeirində nəzərdə tutulan ideyanı müəyyən et.

Nümunədə nəzərdə tutulmuş ideyanı müəyyən etmək üçün aşağıdakı addımlar atılmalıdır:



Çap üçün deyil

I. «Ağ saçlar» şeirini bir daha diqqətlə oxu. Özünə sual ver. Bu mətndə nədən bəhs olunur? Nədən bəhs olunduğunu müəyyən etməklə mətnin mövzusunu müəyyən etmiş olarsan.

II. Şeirin hər bəndinə (oxuduğun mətn nəsr nümunəsi olduqda hər abzasına) başlıq ver. Mətnin hər hansı parçasında verilmiş başlıq söz, yaxud söz birləşməsi ilə ifadə edilir. Bu başlıqlar ideyanı yaradan fikirlərdir.

III. Bəndlər (abzaslar) üzrə fikirlərə — başlıqlara bax. Onlar ideyanı müəyyən etməkdə sənə kömək edəcəklər. Bunu riyazi ifadə kimi belə təsəvvür etmək olar:




***Bunu bilməlisən!***

**Şeir** söz sənəti nümunəsidir. Şeir fikrin vəznli, obrazlı, qafiyəli ifadəsidir. «Ağ saçlar» şeiri heca vəznində yazılıb. Bilirsən, heca vəzni nə deməkdir? Əgər bu ifadəni birinci dəfə eşidirsənsə, əvvəlcə «heca» və «vəzn» sözləri üzərində düşün. «Heca» sözünü çox eşitmisən. Yəqin, bilirsən ki, heca sözlərin asanlıqla bölünə bilən hissəsinə deyilir. Amma «vəzn» sözü sənə aydın olmaya bilər. «Vəzn» ərəb sözü olub «ölçü» deməkdir. Heca vəznində yazılmış şeirlərdə hecaların sayı şeirin ölçüsünü müəyyən edir. Həmin şeirlərin birinci misrasında neçə heca varsa, qalan misralarda da o qədər sayda heca olmalıdır. Bir misrada 5,7,8,11,12,16 və s. heca ola bilər.

Çap üçün deyil

Şeirin təsir gücünü qüvvətləndirmək üçün müxtəlif bədii təsvir və ifadə vasitələrindən istifadə edilir. (Bədii ifadə vasitələri haqqında qarşıdan gələn illərdə öyrənəcəksən.)

Şeiri nəsr əsərlərindən fərqləndirən onun axıcılığı, ahəngi və musiqiyə uyğunluğudur. Eyni zamanda şeirdə sözlər arasında müəyyən ölçünün, fasilənin nəzərə alınması və misraların sonundakı sözlərin bir-biri ilə uyğunlaşması vacibdir.

## G.HÜSEYNOĞLU. «MÜƏLLİMİN ARZUSU» HEKAYƏSİ (Əsər üzərində iş)

***Tapşırıq 1.***

1. Gülhüseyn Hüseynoğlunun «Müəllimin arzusu» hekayəsini ifadəli oxu. İdeyanı müəyyən etmək üçün aşağıda verilən sxemdən istifadə et. Əvvəlcə sxemi dəftərinə çək. Hər bənddə ifadə edilən fikri müəyyən edib ayrı-ayrı çərçivələrə yaz*.

- İlk xoşuna gələn fikir ideya olmaya bilər. O yalnız mətnin bir hissəsi üçün düzgün ola bilər.
- Bəzən mətndə abzas, şeirdə bənd hər hansı bir sualla başlanır. Sualın cavabı müəllifin həmin hissədə çatdırmaq istədiyi fikir ola bilər.
- İdeya mətnin birinci və sonuncu cümlələrində, yaxud abzasında ifadə oluna bilər.



* Çərçivələrin sayını müəyyən edilmiş fikirlərin sayı qədər artırmaq olar.



Çap üçün deyil

## MÜƏLLİMİN ARZUSU

Zəng çalındı. Zəhranın ürəyi şiddətlə çırpındı. «İndi gələcək. Deyim, deməyim?! Görəsən, yazar, ya yox?!»

Zəhra orta cərgədə müəllimin stoluna bitişik partada oturur-du. Keçib əyləşəndə rəfiqəsi dedi:

— Albomu gətirmisən?

— Gətirmişəm.

— Müəllimə verəcəksən?

Zəhranın çiyinləri qalxıb-endi:

— Nə bilim.

Rəfiqəsi ürək-dirək verdi:

— Yox, verginən, sevimli müəllimimizdir, yaxşı bir şey yazar... Nədən utanırsan eee?!

Uşaqlar Zəhranın sevimli müəllimlərinə xatirə üçün avtoqraf yazdırdığını bilirdilər. Artıq onun albomunda iki müəllimin avtoqrafı vardı. İndi Zəhra belə bir xahişlə ana dili müəlliminə müraciət etmək istəyirdi. Xəyalından da şeir yazdırmaq keçirdi. «Amma yazsa, nə yaxşı olar, həmişə bu albomu saxlaram, həmişə!..»

Saniyələr keçdikcə, Zəhra daha çox həyəcanlanırdı: «Birdən yazmadı?! Yox, albomu heç göstərməsəm yaxşıdır...»

Qapı açıldı, iyirmi beş-iyirmi altı yaşlarında, ortaboylu, qarabuğdayı bir adam içəri girdi. Bir göz qırpımında hamı ayağa durdu. Müəllimin tanış, mehriban səsi ətrafa yayıldı:

— Salam, uşaqlar!

Sinif yüksək dağın zirvəsindən gurultuyla tökülən şəlalə kimi səsləndi:

— Salam!!!

— Əyləşin, əyləşin.

Uşaqlar əyləşdilər. Elə sükut əmələ gəldi ki, onların nəfəslərini belə eşitmək olardı. Maraq dolu baxışlar müəllimə zillənmişdi. Müəllim də özünə dikilən gözləri iri qonur gözləri ilə süzür, sanki onları oxumağa çalışırdı. Birdən iti baxışları qarşısında oturmuş Zəhranın nəzərlərinə sataşanda dedi:



Çap üçün deyil

— Hə, Zəhra qızım bu gün yaman sözlü adama oxşayır. De görüm, qızım, utanma!..

Zəhranın yanaqları allandı, özünü itirdi. Elə itirdi ki, yanında oturmuş yoldaşının pıçıltısını belə eşitmədi: «Ver albomu, Zəhra, ver!..»

Pıçıltını Zəhra eşitmədisə də, müəllim yaxşı eşitdi. Dedi:

— Qızım Zəhra, deyəsən, mənə nə isə təqdim etmək istəyir, ancaq utandığından tərəddüd edir. Gəlin birlikdə xahiş edək, utanmasın.

Zəhra özü də bilmədi ki, nə vaxt ayağa durdu, nə vaxt partanın altından albomu götürdü, nə vaxt müəllimin stolunun üstünə qoyub çəkinə-çəkinə:

— Müəllim, bura bir şey yazarsınız? — dedi və özünə də elə gəldi ki, indicə sir-sifəti od tutub yanacaq.

Müəllim albomu götürüb maraqla o tərəf-bu tərəfinə baxdı. Vərəqlərini çevirdi, sonra da təmkinlə:

— Yaxşı, qızım, sən get sinif jurnalını gətir, mən də səninçün bir şey yazaram, — dedi.

Bu sözlər Zəhraya qanad olub, bir göz qırpımında onu sinifdən müəllimlər otağına uçurdu. Jurnalı gətirməsi beş-altı dəqiqə belə çəkmədi.

O, tövşüyə-tövşüyə jurnalı müəllimə verəndə müəllim də albomu ona uzatdı. Zəhra albomu alanda pərt oldu. Bayaqkı sevincindən üzündə əsər-əlamət qalmadı. Yerində oturanda fikirləşdi: «Yəqin, şeir yazmaq istəməyib. Yazmaq fikri olsaydı, albomu özü ilə aparardı. Nə pis oldu. Gərək heç deməyəydim...»

Zəhra albomu açmadan partanın altına qoydu və pərt olduğunu müəllimə hiss etdirməməyə çalışdı. Ancaq onun müəllimi elə müəllimlərdəndir ki, gözündən heç nə qaçmazdı. Bu da qaçmadı: düymə dodaqları xəfifcə qımışdı, lakin özünü elə apardı ki, guya Zəhranın pərtliyini əsla görmür...

* * *

Müəllim sinifdən çıxan kimi uşaqlar Zəhranın başının üstünü aldılar. Rəfiqəsi hamını qabaqladı:

— Hə, albomu ver, görək müəllim nə yazıb?



Çap üçün deyil

Zəhra könülsüz cavab verdi:
— Heç nə yazmayıb, nəyini çıxardım?!
— Necə heç nə yazmayıb? Mən gördüm. Tez-tez nəsə yazırdı.
Uşaqlar da yoldaşlarının sözünə qüvvət verdilər:
— Düzdü, düzdü, biz də görürdük.
Zəhra albomu partanın altından çıxarıb tələsik vərəqlədi. Müəlliminin xətti ilə yazılmış şeiri görəndə iri ala gözləri işıqlandı. Rəfiqəsi cəld albomu onun əlindən qapıb, şeiri ucadan oxumağa başladı:

## Zəhra üçün

İrəli qoş, irəli,
Ey mənim gözəl qızım.
Qalma həyatdan geri,
Oxu mükəmməl, qızım.

Uca dağlardan atlan,
Hər çətinliyə qatlan.
Bir quş kimi qanadlan,
Göylərə yüksəl, qızım.

Mehriban ol insana,
Bir yuxarı baxsana,
Göydə günəş, ay sana
Eyləyir «gəl, gəl», qızım.

Albom əldən-ələ gəzdi...
1934-cü il martın 11-də Bakıdakı 18 nömrəli məktəbin beşinci sinif şagirdləri evlərinə dağılışanda müəllimlərinin yazdığı şeiri bir-birlərinə əzbər deyirdilər.
Bu müəllim, sevimli şairimiz Mikayıl Müşfiq, albomuna xatirə üçün şeir yazılan şagird isə indi tibb elmləri doktoru olan Zəhra Salayeva idi.

***Gülhüseyn Hüseynoğlu***



**Mikayıl Müşfiq**

Çap üçün deyil

## N.GƏNCƏVİ. «İSGƏNDƏRİN TAXTA ÇIXMASI»
## (Əsər üzərində iş)

Əvvəlki dərslərdə mətnin ideyasını müəyyən etmək üzrə ilkin bilik və bacarıqlara yiyələnmisən. Aşağıda Nizami Gəncəvinin «İsgəndərnamə» poemasından «İsgəndərin taxta çıxması» parçası təqdim edilmişdir. Parçanı oxu. İdeyanı müəyyən et. (Oxuya hazırlıq işləri aparmağı unutma.)

***Tapşırıq 1.*** Nizami Gəncəvinin «İsgəndərnamə» əsərindən «İsgəndərin taxta çıxması» parçasını oxumazdan əvvəl «Oxudan əvvəl» təlimatını (səh. 9) yerinə yetir. Oxuyarkən çərçivələrdə verilmiş suallar üzərində düşün.

### İSGƏNDƏRİN TAXTA ÇIXMASI

> Səncə, Rum padşahı hansı işləri görə bilər ki, «dünyaya naxış vurulsun», ölkə də onunla «yeni rəng alsın»?

Elə ki Rum şahı taxta oturdu,
Dünyaya mum kimi bir naxış vurdu,
Bütün ölkələrə ədli səs saldı,
Rum taxtı onunla yeni rəng aldı.
Atadan aldığı rəsmi, ayini
Seçərək saxladı bəyəndiyini.
Köhnə adətləri möhkəm saxladı,
Keçmiş qanunları bərk qucaqladı.
Dostluqda atadan daha da mətin,
Düşmənin məhvində qılıncı kəskin.

> Bu misralar sənə nəyi xatırladır?

İgidlər qorxardı: «Güclüdür», deyə,
Onunla girməzdi bir tərəziyə.
Onda ki, qolunun gücün yoxlardı,
Aslan qulağına düyün vurardı.
Əlində nə qədər süst olsa kaman,
Bir oxa bir nəfər edərdi qurban.
Hər mərdə, igidə o, üstün gəldi,
Bilici kəslərdən daha yüksəldi.

Çap üçün deyil



Ağılı, qüvvəti güldü baxtına,
Bunlarla oturdu şahlıq taxtına.
Hər işdə istərkən qazansın şöhrət,
Fələk də qoluna verərdi qüvvət.
O yaşıl sərv ilə Rumun torpağı
Reyhantək bəzədi, şənləndi bağı.
Hər evdə bir surət çəkildi ondan,
Hər ölkə adında düzdü bir dastan.
İnsanın fikrinə sığmayan qədər
Hamıya yaxşılıq etdi İsgəndər.
Kimsənin qəlbini o incitməzdi,
Ədalət xəttindən uzaq getməzdi.
Bütün tacirlərdən o, bac almadı,
Ölkədə kimsədən xərac almadı.
Dehqan vergisinə çəkərək qələm,
Sərmayəsizlərdən almadı dirhəm.

Bu misralardan hansında məcazi söz işlənmişdir?

Bu misralar sənə nəyi xatırladır?

Çap üçün deyil

Bu sətirlərdəki hansı söz və ya söz birləşməsi şeirin ideyası ilə bağlıdır?

Zər saçdı hər yeri abad edərək,
Qırdı tikanları, əkdi gül-çiçək.
Əlinə keçirdi bütün dünyanı,
Ətri tutdu Misri, Həbəşistanı.
Ədli, səxavəti cahanı sardı,
Hər kəs Rum mülkünə həsəd apardı.
Ərəstun vəzirdi uca dərgaha,
Hər yaxşı-yamanda mərhəmdi şaha.
Tökdü İsgəndərə hər işdə tədbir,
Az zaman keçmədən oldu cahangir.

Bu misralarda hansı məqamlar ideyanı qüvvətləndirir?

Elə padşahla, belə vəzirlə
Bu dünya intizam almazmı belə?
Dünyanı fəth etdi bacarıq, hikmət,
Vəzirin rəyindən qazandı şövkət.

***Nizami Gəncəvi***

***Tapşırıq 2.***

1. Şeiri oxuduqdan sonra «Oxudan sonra» təlimatını (səh. 14) yerinə yetir.
2. İlk iki misradan sonra irəli sürdüyün fərziyyənin doğru olub-olmadığını müəyyən et.
3. Şeirin ideyasını müəyyən et.

***Layihə.*** «İsgəndərnamə» əsərindən «İsgəndərin taxta çıxması» parçasını bir daha diqqətlə oxu. Rum padşahının öz ölkəsi üçün gördüyü işləri müstəqil Azərbaycanda son illərdə görülən işlərlə müqayisə et. Əsərdəki hansı misraları müstəqil Azərbaycana şamil etmək olar? Təqdimat hazırla.

Çap üçün deyil

## S.RÜSTƏM. «AZƏRBAYCANA GƏLSİN» ŞEİRİ
## (Əsər üzərində iş)

***Tapşırıq 1.*** Şair Süleyman Rüstəmin «Azərbaycana gəlsin» şeirini oxumazdan əvvəl hazırlıq işləri apar. Qeydlər götür. Şeiri oxu. Əsərin ideyasını tap. Nəticələrini əvvəlcə kiçik qrupda, sonra isə bütün siniflə müzakirə et.

### AZƏRBAYCANA GƏLSİN

Vətənimin seyrinə çağırıram elləri,
Sərvət görmək istəyən Azərbaycana gəlsin.
Bəzənib başdan-başa şəhərləri, kəndləri,
Cənnət görmək istəyən Azərbaycana gəlsin.





Çap

Qanımızda dövr edən sədaqətdir, sədaqət,
Günəşdən də parlaqdır gözümüzdə həqiqət.
Dostuna, qardaşına təmənnasız məhəbbət,
Hörmət görmək istəyən Azərbaycana gəlsin.

Gözəlliklər vətənə gözəllərindən gəlir,
Dostluğun, qardaşlığın təməllərindən gəlir,
Könüllərin müqəddəs əməllərindən gəlir,
Qüdrət görmək istəyən Azərbaycana gəlsin.

Payızında, qışında, baharında, yazında,
Dinər dostluq nəğməsi könüllərin sazında.
Sabaha addımlayan mərd oğlunda-qızında,
Qeyrət görmək istəyən Azərbaycana gəlsin.

Sonsuz gözəlliyindən çətindir, məncə, doymaq,
Məhəbbəti, şöhrəti dolanır oymaq-oymaq.
Bayrağının altında alnıaçıq-üzüağ,
Millət görmək istəyən Azərbaycana gəlsin.

***Süleyman Rüstəm***

## «GÖY YARPAQLI, AL ÇİÇƏKLİ, YAŞIL OTLAR TOPASIMI?» (C.CABBARLI) MÖVZUSUNDA ESSENİN YAZILMASI



*Təsviri esse necə yazılır?*

Bundan əvvəl sən inşa, esse yazmısan. Yadına sal, bunu necə etmisən?

Gəl razılaşaq ki, çox nadir hallarda birdəfəyə mükəmməl bir inşa və ya esse yazmaq mümkündür. Hətta məşhur yazıçılar belə nə isə yazmazdan əvvəl mövzu ilə bağlı araşdırmalar aparırlar. Yazıya başlamazdan əvvəl mətn üçün plan qururlar. Sonra həmin plan üzrə mətni yazırlar. Bütün bunların necə baş verdiyini öyrənmək üçün isə aşağıdakı məsələləri bilmək lazımdır.

Çap üçün deyil

***Esse nədir?***

Esse fransız sözü olub, mənası *təcrübə, sınaq, oçerk* deməkdir. Essenin ilk nümunəsini fransız yazıçısı və filosofu M.Monten yazmışdır. *Esse ədəbiyyatda bir janr olub, müəllifin hər hansı mövzu ilə bağlı düşüncələrini və hislərini şərh edən kiçik bədii nümunədir.* Essenin dili həm danışıq dilinə yaxın, həm də obrazlı olur. Esse müxtəlif xarakterli olur: nəqli, təsviredici, tədqiqat, mühakimə.

***Esse yazmaq sənə nə üçün lazımdır?***

Esse fikirlərini obrazlı ifadə etmək üçün yazdığın ilk yazıdır. Esse yazarkən müstəqil şəkildə yaradıcılıqla məşğul olursan. Bu zaman sən daha məhsuldar düşünməyi öyrənirsən.

*Təsviredici esse necə yazılır? Təsviredici esse yazarkən ətrafdakı əşya və hadisələri çox diqqətlə müşahidə etmək lazımdır. Çünki gördüklərini və eşitdiklərini bədii şəkildə təsvir etməlisən. Esse yazan zaman təsvir etdiyin bir əşya və hadisənin xüsusiyyətlərini digər əşya və hadisənin xüsusiyyətləri ilə qarşılaşdırmaq, müqayisə etmək yazının dəyərini artıran hal hesab olunur.*

***Tapşırıq 1.*** «Göy yarpaqlı, al çiçəkli, yaşıl otlar topasımı?» (C.Cabbarlı) mövzusunda Azərbaycan Respublikasının bayrağının təsvirinə dair esse yazmaq üçün hazırlıq işləri apar.

**Yazıdan əvvəl**

1. Əvvəlcə essenin mövzusu haqqında fikirləş: təsvir edərkən hansı məsələlərə əhəmiyyət verəcəksən?
2. Bu suallar üzərində düşün: «Bu yazının oxucusu kim olacaq?» və «Sən oxucuna nə demək istəyirsən?» *(ideya)*
3. Mövzu haqqında bildiklərini qeyd et.
4. Məlumat toplamaq üçün təsvir etmək istədiyin əşyanı və ya hadisəni müşahidə et.
5. Topladığın məlumatlardan istifadə etməklə və onları qruplaşdırmaqla ideyanı yaradan fikirləri müəyyən et.
6. Səhifə 32-də verilmiş sxemi dəftərinə çək.
7. Müəyyənləşdirdiyin fikirləri verilən sxem üzrə ardıcıllıqla düz.



Çap üçün deyil



8. İdeyanı yarada bilən fikirlərə diqqət et. Əvvəlcə baş verən hadisənin səbəbini göstər, sonra ondan irəli gələn nəticəni təqdim et.

9. İdeyanı yaradan fikirlər üzərində bir daha düşün: bu fikirlər ideyanın çatdırılmasına xidmət edirmi?

10. Yazının planını tərtib et.



Çap üçün deyil

*Tapşırıq 2.* Təsvir edəcəyin əşya və hadisələri *müşahidə et, məlumatları yadda saxla və araşdırma apar*.

- **Müşahidə necə edilir?** Təsvir etmək istədiyin əşyanı, hadisəni və ya məkanı qısa vaxtda diqqətlə nəzərdən keçir və qeydlər et. Müşahidə etdiyin zaman keçirdiyin hislər barədə də qeydlər apar.

- **Məlumat necə yadda saxlanılır?** Gördüyün mənzərənin təsvirini olduğu kimi yaddaşına həkk etmək üçün əvvəlcə diqqətini cəmlə. Əgər sən hər hansı məkanda müşahidə aparırsansa, eşitdiyin səslər, duyduğun qoxu və dadla da bağlı qeydlər etməlisən. Müşahidə apararkən hansı əlavə oxşar səslər, qoxu və dad yadına düşürsə, bunları da dəftərçənə yaz.

- **Araşdırma nə üçün aparılır?** Araşdırma yazacağın mövzu ilə əlaqədar lazım olan məlumatları toplamaq üçün aparılır. Həmin məlumatları yazmaq istədiyin mövzuya dair materialları oxumaqla və ya bu barədə bilgiləri olan insanlarla söhbət etməklə toplaya bilərsən. Müşahidə etdiyin əşya və hadisənin görmədiyin, lakin təsəvvür etdiyin əvvəlki vəziyyətini, yaxud heç vaxt olmadığın bir məkanı da təsvir edə bilərsən.

*Tapşırıq 3.* Tərtib etdiyin plan üzrə *«Göy yarpaqlı, al çiçəkli, yaşıl otlar topasımı?»* (C.Cabbarlı) mövzusunda esse yaz. *Yazı zamanı* riayət olunmalı qaydaları nəzərdən qaçırma.

**Yazı zamanı**

1. Oxucunun diqqətini cəlb etmək üçün yazını ona tanış olan bir məlumatdan başla.
2. Əvvəlki mərhələdə ardıcıllıqla düzdüyün fikirləri bir-bir təqdim et.
3. Həmin fikirləri dəftərçəndə apardığın qeydlərdən istifadə etməklə əsaslandır.
4. Sonda fikirləri bir yerə topla və mətni yekunlaşdır.

*Tapşırıq 4.* Müəllimin təqdim etdiyi mövzuda esseni, demək olar ki, başa çatdırdın. «Demək olar ki» ifadəsini təsadüfən işlətmədik. Essenin başa çatması üçün qarşıda hələ görməli oldu-



Çap üçün deyil

ğun bir sıra işlər var. «Yazıdan sonra» təlimatını oxu və onları yerinə yetirməklə yazını başa çatdır.

**Yazıdan sonra**

1. Yazdığın mətni oxu və fikirləş: «Nəzərdə tutduğum fikri nə qədər aydın çatdıra bildim?»

2. Yoldaşlarından xahiş et ki, yazını oxusunlar, irad və təkliflərini bildirsinlər.

3. İrad tutulan məsələlər barədə düşün. Əsaslı iradlardırsa, yazının üzərində bir daha işlə.

4. Yazını təkrar yoxla.

5. Sonda fikirləş: «Bu yazını yazdığım müddətdə yeni nə öyrəndim?» Yeni öyrəndiklərin barədə də qeydlər etməklə yazını müəllimə təqdim et.

## *Öyrəndiklərimiz haqda düşünərkən*

### Oxu və yazı prosesi

Yəqin, öyrəndin ki, həm oxu, həm də yazı prosesi oxşar ardıcıllıqla, oxşar yollarla həyata keçirilir. Oxu prosesində mətnlərdə ifadə olunan əsas fikri aşkar etməyə çalışmısan. Yazı prosesində isə əsas fikirlərini oxucuya çatdırmağa cəhd göstərmisən. Aşağıda təqdim edilən cədvəl bu oxşar və fərqli cəhətləri daha yaxşı müəyyən etməkdə, həm yazı, həm də oxu prosesi bitdikdən sonra öyrəndiklərini uğurla tətbiq etməkdə sənə kömək edəcək.

Oxu və yazı sütunlarında göstərilənləri qarşılaşdıraraq oxu və düşün: «Mən yazanda və oxuyanda bunları edirəmmi?»



Çap üçün deyil

**Bu cədvəlin surətini çıxar və yazı masasının yanında divardan as.**

| Oxu | | Yazı |
|---|---|---|
| 1. Oxunun məqsədini müəyyən et. *(Bu mətni nə üçün oxuyuram?)*<br>2. Verilmiş mövzu haqqında indiyə qədər öyrəndiklərin, eşitdiklərin, gördüklərin barədə fikirləş. *(Mən bu haqda nə bilirəm?)*<br>3. Mətnlə bağlı fərziyyələr irəli sür. *(Burada söhbət nədən gedə bilər?)* | **İşdən əvvəl** | 1. Yazının məqsədini və kimlərə ünvanladığını müəyyən et. *(Nə üçün yazıram və kimin üçün yazıram?)*<br>2. Mövzu ilə bağlı bildiklərini yaz və əlavə məlumatlar əldə etmək üçün planlaşdırma apar.<br>3. Ardıcıllığı müəyyən etmək üçün planlaşdırma apar. *(Plan bir məsələdən digərinə keçməkdə sənə yardımçı olacaq.)* |
| 4. Müəllifin əsas ideyasını müəyyən et.<br>5. Müəllif ideyanı necə formalaşdırıb, oxucunu inandıra bilibmi?<br>6. Mətndəki fikirlər ardıcıllıqla düzülübmü? | **İş zamanı** | 4. İdeyanı aydın ifadə et.<br>5. Fikirlərini nümunə və konkret faktlarla əsaslandır.<br>6. Yazıdan əvvəl apardığın qeydlər əsasında mətnin ardıcıllığını müəyyən et. *(Belə etsən, fikirlərinin oxucuya asan çatdırılmasına nail olarsan.)* |
| 7. Mətni oxu və qiymətləndir. *(Fikirlər dəqiq ifadə edilmişdirmi? Ümumiyyətlə, fikirlərin ifadəsi səni qane edirmi?)*<br>8. Oxuduqlarını ətrafında baş verən hadisələrlə, digər oxuduğun mətnlərlə əlaqələndir.<br>9. Oxuduğun mətn üzərində bir daha düşün. | **İşdən sonra** | 7. Yazdığın mətni yoxla və qiymətləndir. Yaxınlarının yazı ilə bağlı fikirlərini nəzərə almaqla yazının keyfiyyətini yüksəltməyə çalış.<br>8. Yazını divar qəzetində çap etməklə, yaxud İnternetdə yerləşdirməklə oxucularına çatdır.<br>9. Yazdığın mətn üzərində bir daha düşün. |

Çap üçün deyil

# II. BƏDİİ ƏSƏRLƏRDƏ FİKRİN OBRAZLI İFADƏSİ



*Təsviredici mətnin ideyası necə yaranır?*

Şəkil çəkən zaman rəssamlar palitradan istifadə edirlər. Onlar müxtəlif rənglərin vasitəsilə təsviri sənət nümunələri yaradırlar. Ədəbi yaradıcılıqda isə yazıçıların palitrası sözlərdir. Sözlər elə seçilib nizamla düzülməlidir ki, onlar fikri, hiss və həyəcanı, fakt və məlumatları bədii cəhətdən dolğun əks etdirə bilsin.

Sən də danışığında tez-tez belə cümlələrdən istifadə edirsən: «Paltar qar kimi ağappaq idi». Özün də bilmədən paltarı qara oxşadıb onun nə qədər ağ olduğunu diqqətə çatdırmaq istəyirsən.

Bədii əsərlərdə ideyanın oxucuya daha təsirli çatdırılması üçün müxtəlif təsvir vasitələrindən istifadə edilir. Bu dərslərdə sən həmin məsələləri öyrənəcəksən.

## S.VURĞUN. «AZƏRBAYCAN» ŞEİRİ
### (BƏDİİ TƏSVİR VASİTƏLƏRİ — MƏCAZLAR)

***Tapşırıq 1.*** Oxuya hazırlıq işləri apar. Şeiri oxu. Məcazi mənada işlənən ifadələri müəyyən etməyə çalış. Bunun üçün şeirin sonunda verilmiş məlumatdan istifadə edə bilərsən. Qarşılaşdırılan, bənzədilən məqamları seçib cədvəldə yaz. Sətirlərin sayını müəyyən etdiyin nümunələrin sayından asılı olaraq artır.

| **«Azərbaycan» şeirində qarşılaşdırılan və bənzədilən məqamlar** | |
|---|---|
| **Bənd** | **Təsvir edilən məqamlara aid nümunə** |
| | |

Çap üçün deyil

## AZƏRBAYCAN

Dostlar! Gəlin sizə bir-bir danışım
Min bağın, bağçanın barı məndədir.
Sinəm oylağıdır gözəlliklərin
Hər sevən ürəyin yarı məndədir.

Nə çoxdur qoynumda almalı bağlar!
Qüdrətim göylərin dilini bağlar.
Meşəli dərələr, sal buzlu dağlar
Dağların süd kimi qarı məndədir.

Bəndin hansı misrasında bənzədilən məqama rast gəldin?

İnsan bir uşaqdır, vətən bir ana,
Ömür bir çıraqdır, könül pərvanə.
Yolunuz düşdümü bizim Şirvana?
Gül açan heyvası, narı məndədir.

İgidlər yurdudur, bu dağ, bu aran
Bu dağlar başında qalmamış boran.
Hər təzə çiçəkdən bir şirə soran
Pətəyə bal düzən arı məndədir.

Ağdaşın pambığı çiçək-çiçəkdir,
Şəkinin bəzəyi şaldır, ipəkdir.
Qarabağ gözəli dünyada təkdir,
İsti yanaqların narı məndədir.

Ölsün bu yerlərdən ilham almayan,
Qəlbini saz kimi tutub çalmayan.
Yarışda gənclikdən geri qalmayan
Min qoca məndədir, qarı məndədir.

Bəs burada bənzədilən məqam neçənci misradadır?

Şirindir insanın öz azadlığı,
Könül azadlığı, göz azadlığı,
Qələm azadlığı, söz azadlığı,
Dünyanın ən böyük varı məndədir.

Çap üçün deyil



Gəldi ömrün gözəl bahar çağları
Açılmışdır könüllərin bağları.
Qarış-qarış dolan bizim dağları
Diş göynədən bulaqları məndədir.

Sarı limon çay üstündə dad olur,
Gözüm görür, könlüm evi şad olur.
Hansı namərd dost evinə yad olur?
Məhəbbətin vəfadarı məndədir.

Ötüb getdi günlərimi saymağım,
Dildən-dilə dastan oldu oymağım,
Təmiz südüm, şəkər kimi qaymağım,
Dövlətimin ixtiyarı məndədir.

Axşamüstü Bakıya bax doyunca,
Ulduzlarım yanır sahil boyunca.



Çap üçün deyil

Dağ üstündə o qərənfil, o yonca
Vətənimin laləzarı məndədir.

Mən xoşbəxtəm azadlığım gələli,
Tarix yazır ellərimin öz əli,
Bayrağımdır uca Şərqin gözəli
Azadlığın düz qərarı məndədir.

***Səməd Vurğun***

***Məcaz nədir?*** Bəzən əşya və hadisələrin əsas xüsusiyyətini oxucuya daha dəqiq və təsirli çatdırmaq üçün onlar nəyəsə oxşadılır və ya müqayisə olunur. Bədii ədəbiyyatda belə bənzətmələr, müqayisələr mətni bədii cəhətdən daha da gözəlləşdirir və daha obrazlı edir.

Yerdən ayağını ***quş kimi*** üzüb,
***Yay kimi*** dartınıb, ***ox kimi*** süzüb,
Yenə öz sürünü nizama düzüb
Baş alıb gedirsən hayana, ceyran?

*Burada qaçdığı zaman ceyranın hal və vəziyyəti nəyə bənzədilir? Hansı varlıqların xüsusiyyətləri sənin xəyalında qarşılaşdırıldı?*

*Bununla belə bilməlisən ki, hər cür qarşılaşdırma «bədii» qarşılaşdırma adlandırıla bilməz. «Quş uçur, amma ceyran qaçır» kimi bir qarşılaşdırma buna nümunədir.*

Bu cür bənzətmə və müqayisələr **bədii təsvir vasitələrindən** istifadə etməklə aparılır. Bədii təsvir vasitələri fikrin obrazlı şəkildə çatdırılmasını təmin edir. Bunlar ayrı-ayrı varlıqların xüsusiyyətlərinin insan xəyalında qarşılaşdırılması ilə yaranır.

***Bədii təsvir vasitələrinə (məcazlara)*** təşbeh (bənzətmə), epitet, metafora, mübaliğə və s. daxildir. Lakin hələlik yalnız təşbehin (bənzətmə) və epitetin nə olduğunu öyrənəcəksən.

• Bənzətmə ən asan müəyyən edilən bədii təsvir vasitəsidir. Bənzətmə *kimi, tək, elə bil, sanki* qoşmalarının köməyi ilə də yaranır.



Çap üçün deyil

## M.PRİŞVİN. «TALA» HEKAYƏSİ
### (BƏNZƏTMƏ VƏ EPİTETİN MÜƏYYƏN EDİLMƏSİ)

***Tapşırıq 1.*** M.Prişvinin «Tala» hekayəsini oxumazdan əvvəl oxuya hazırlıq işi apar. M.Prişvinin «Tala» hekayəsində qarşılaşdırılan, bənzədilən məqamları seçib cədvəldə yaz.

| «Tala» əsərində bədii təsvir (məcazlar) | | |
|---|---|---|
| **Abzas** | **Bənzətmə (təşbeh)** | **Epitet** |
| | | |

## TALA

Tozağacı özünün son qızılı yarpaqlarını yuxulu qarışqaların yuvalarına, küknarların başına səpələyirdi. Meşə cığırı ilə gedirdim, payız meşəsi gözlərimə dəniz kimi, tala isə bu dənizdə bir ada təki görünürdü.

Burada hansı təsvir vasitəsi işlənmişdir?

Bu adada bir-birinə sığınmış bir neçə küknar ağacı vardı, dincəlmək üçün ağacların altında oturdum. Demə, bütün həyat bu küknarların başında imiş.

Səncə, əsərin qalan hissəsində müəllif nələri təsvir edəcək?

Qozaların bol yerində dələ, aladimdik və adı, özü mənə məlum olmayan başqa canlılar ağalıq edərmiş. Burda qara qərzəklərin yerə düşdüyünü görürsən. Bu, dələnin, **aladimdiyin** işidir. Onlar qozaların içindəki dadlı tumu çıxarıb yeyirlər.

Səncə, «aladimdik» necə canlıdır?

Altında oturduğum bu uca küknar ağacı da elə bil tumdan boy atıb ucalmışdı.

Bu tumları külək haçansa gətirib tozağacının dibinə, onun üstü açıq köklərinin arasına salmışdı.

Küknar böyüməyə  başlayıb, tozağacı da onu istidən, şaxtadan qoruyubdu.

İndi bu küknar böyüyüb, tozağacı ilə yanaşı durub, köklərini onun köklərinə dolamışdır.

Meşənin ortasındakı talada küknar ağaclarının altında kirimişcə oturub, yerə tökülən xəzan yarpaqlarının pıçıltısını dinləyirdim.



Çap üçün deyil



Bu sətirlərdəki hansı söz və ya söz birləşməsi əsərin fikri ilə bağlıdır?

Bu pıçıltılar ağacların altında yatan dovşanları oyadır. Dovşanlar hövlnak meşədən çıxıb harasa gedirlər.

Bu sətirlərdə hansı faktlar təsvir edilmişdir?

Yarpaqların pıçıltısından səksənən bir dovşan sıx küknarların altından çıxdı, böyük talanı görüb dayandı.

Dovşan **şöngüdü**, ətrafına boylandı: hər yanda xışıltı, hara qaçsın?

«Şöngüdü» nə deməkdir?

Talanın ortasından düz keçə bilmədi, kənardan bir tozağacının altından o biri tozağacının altına qaça-qaça getdi.

Kim meşədə bir şeydən qorxursa, yaxşısı budur yarpaqlar töküləndə, yarpaqlar pıçıldaşanda meşəyə getməsin.

Bu sətirlərdə hansı hisslər təsvir edilmişdir?

Pıçıltıları eşidən dovşana elə gəlir ki, kim isə onu izləyir.

Qorxaq dovşan, əlbəttə, cəsarətlə, ətrafına baxmadan talanın ortasından düz keçib gedə bilərdi. Lakin onda necə eləsin ki, belə



Çap üçün deyil

> Burada hansı məqamlar ideyanı qüvvətləndirir?

bir bədbəxtliyə düçar olmasın: xəzan yarpaqları pıçıldaşır, tülkü də yarpaqların pıçıltısı altında yavaşca dovşanın dalınca sürünür. Cəsarətli dovşan yarpaqların pıçıltısından qorxmur, ətrafa boylanmır və birdən kürən sinəli tülkünün əlinə keçir.

***Mixail Prişvin***
***(Tərcümə edəni E.Rəhimov)***

## *Epitet*

Epitet hesab edilən söz *necə?, nə cür?, hansı?* suallarından birinə cavab verir və Azərbaycan dilində həm də «bədii təyin» adlandırılır.

«Gözəl mənzərələri var Azərbaycanımızın! Təbiət bizdən heç nəyi əsirgəməyib. Başıqarlı dağlar, zümrüd meşələr, gözəl vadilər, füsunkar Xəzər və çoxlu göllər, çaylar və bulaqlar onu necə də gözəlləşdirir». *Zümrüd* sözü bu ifadədə nə məqsədlə işlənib?

Yazda və yayda meşələr yamyaşıl olur. Zümrüd qiymətli daşdır, rəngi də gözoxşayan parlaq yaşıldır. Deməк, zümrüd sözünü işlətməkdə məqsəd meşənin yamyaşıl rənginin gözoxşadığını bildirməkdir. Bu ifadənin necə yarandığını riyazi şəkildə belə təsəvvür etmək olar. Sən dördüncü sinifdə «düzbucaqlının perimetri» anlayışı ilə tanış olmusan. 5-ci sinifdə isə düzbucaqlının perimetrini hesablamağı öyrənəcəksən. $a$ və $b$-ni düzbucaqlının tərəfləri kimi qəbul etsək, o zaman perimetrin düsturunu aşağıdakı kimi təsəvvür etmək olar:




$$2a+2b=2(a+b)$$

Gəl bu düsturu epitetin yaranmasına tətbiq edək:

***yaşıl zümrüd + yaşıl dağ = yaşıl (zümrüd + dağ)***

Gördüyün kimi, «yaşıl zümrüd» ifadəsi «yaşıl dağ» ifadəsilə rəng baxımından qarşılaşdırılıb. Bu halda «yaşıl» sözü mötərizənin kənarında qalıb, bədii mətndə isə onun mənası sözlərin altında gizlənib. Yəni «zümrüd dağ» ifadəsi dağın yaşıllığını bildirir. Odur ki, yaşıl ağaclarla örtülmüş dağı təsvir etmək üçün



Çap üçün deyil

onu «zümrüd dağlar» kimi ifadə edə bilərsən. Burada «zümrüd» epitetdir. Dağın əlamətini, necəliyini göstərir.

Onu da bilməlisən ki, epitet yunan sözü olub, ***əlavə*** deməkdir.

**Ev tapşırığı:**

N.Xəzrinin «Qızıl payız» şeirinin oxusu zamanı bənzətmə olan məqamları seçib göstər. Qarşılaşdığın yeni sözlərin mənasını müəyyənləşdir. İzahlı lüğət tərtib et.

## QIZIL PAYIZ

Gəlir səhər, gedir duman
Göylər qalır buludlara.
Sanki günəş öz nurundan
Don biçibdir palıdlara.

Cığırlardan mahnı, gülüş
Əskilməyir nə zamandır.
Meşə qızıl, göylər gümüş,
Sanki çay da büllurdandır.

Yelmi əsir səhər-səhər,
Ya çöllərin gül ətridir?
Dağdan axan şəlalələr
Qucağında zər gətirir.

Düzlər axar-baxarlıdır,
Ağ cığırlar çıxır yola.
Gör təbiət nə varlıdır,
Qızıl səpir sağa-sola.

Uçur quşlar qatar-qatar,
Hərə gedir öz yerinə.
Maşın keçir, zər yarpaqlar
Göyə qalxır toz yerinə.

Axşamın sakit çağında,
Alov tutub çölü, düzü.
Palıdların qucağında
Gecələyir günəş özü.



Çap üçün deyil

Bax, ulduzlar nur çiləyir,
Bu yer hara, qüssə hara!
Qızıl payız nəğmə deyir
Qızıl qəlbli insanlara!

| «Qızıl payız» əsərində təsvir vasitələri | | |
|---|---|---|
| **Abzas, bənd** | **Bənzətmə** | **Epitet** |
| | | |

**Yadda saxla:**

Ümumiyyətlə, həyatda hər şey qədərində istifadə ediləndə faydalı olur. Təsəvvür et ki, anan sənin üçün hazırladığı qayğanağa duz və istiotu lazım olduğundan çox əlavə edib. O yeməyi əziyyətlə yeyə bilərsən, ancaq o sənə nuş olmaz. Ədvaların da çoxluğu orqanizmə zərər verir. Bədii təsvir vasitələri də belədir. Onlardan da yeri gəldi-gəlmədi istifadə etmək olmaz. Mətndə bədii təsvir vasitəsindən yersiz istifadə mətnin keyfiyyətini aşağı salar. Odur ki yazdığın mətnin «duz»unu, «istiot»unu qədərində qat.

Mətndə haqqında danışılanı oxucuya daha yaxşı çatdırmaqda hislərin (görmə, eşitmə, qoxu, toxunma, dad) təsviri böyük əhəmiyyət daşıyır. Hislərin təsviri mətni daha dərindən qavramaqla bərabər, oxucuda güclü təəssürat yaradır. Məsələn:

«Daş nov» təzəcə dil açan körpə kimi şirin-şirin qığıldayırdı, bulağın dumduru suyu torpağın göz yaşı kimi sızırdı, xırdaca daşların arasından yumru-yumru pıqqıldayıb çıxırdı.

Birdən-birə dizlərim əsməcə tutdu, bulağın gözünə diklənən döşdə boz canavar quyruğu üstə çöməlib mənə baxırdı, qırmızı dilini sallayıb ləhləyirdi. Onun balta dişlərinin arasından isti-isti buğ çıxırdı. Əyilib quyruğunun yanını didişdirdi və yenə qəzəblə gözlərini gözümə dikdi. Ağacların yarpaqları da elə bil xoflandı, yarpaqlar canavar qulağı kimi şəkləndi.

Ayağım altında torpaq vardı, torpağın üstünə xəzəl səpələnmişdi, rahatlanmışdı, üzünü söykəyib dincini alırdı. Elə bil Allahın bu sarı-sarı yarpaqları asılı qalmaqdansa, torpağın nəmli üzünə pənah gətirmişdi.

***İmamverdi İsmayılovdan***



Çap üçün deyil

## Ə.KÜRÇAYLI. «BAKI» ŞEİRİ
### (HİSLƏRİN TƏSVİRİ)

Lap körpə yaşlarından sən ətraf aləmi görmək, eşitmək, dadmaq, qoxulamaq, toxunmaq yolu ilə dərk etmisən. Bu hiss üzvləri dünyanı dərk etməyin əsas vasitələridir. Təsəvvür et ki, bir meşəyə gəzməyə getmisən. Qayıdandan sonra dostlarına bu barədə danışmaq istəyirsən. Meşədəki ağacların yaşıllığı, quşların səsi, meyvələrin şirinliyi, torpağın yumşaqlığı, çiçəklərin ətri haqqında dediklərinin hamısı hiss üzvlərinin vasitəsi ilə sənin yaddaşına köçən məlumatlardır. Ağacın yaşıllığını görməklə, quşların səsini eşitməklə, meyvələrin şirinliyini dadmaqla, torpağın yumşaqlığını toxunmaqla, çiçəklərin ətrini qoxulamaqla dərk etmisən. Bu barədə danışan zaman dostlarının da hissiyatına təsir edib onlarda meşə haqqında təsəvvür yarada bilirsən. Yazıçılar da belə edirlər. Hər hansı bir əşya və hadisə haqqında oxucuda tam təsəvvür yaratmaq üçün bu **hislərin nəzərə alınmasına** xüsusi əhəmiyyət verirlər. İki cümləni müqayisə et:

1. Həyatimizdə qızılgüllər açıb.
2. Həyatimizdə açmış çəhrayı qızılgüllərin ətri adamı bihuş edir (görmə və qoxu).

Gördüyün kimi, ikinci cümlə həyətinizdəki qızılgül haqqında daha ətraflı təsəvvür yaradır, oxucuya kömək edir ki, təsvir olunanı yalnız dərk etməsin, həm də hiss etsin.

***Tapşırıq 1.*** Təqdim edilən mətni oxumazdan əvvəl oxuya hazırlıq işləri apar. Mətni oxu qaydalarına müvafiq oxu. Hislərin təsvir edildiyi məqamları müəyyən et. Aşağıdakı cədvəldə onların hansı duyğu üzvü ilə bağlı olduğunu göstər.

| Bənd | Nümunə | Təsvir edilən hiss (görmə, eşitmə, dad, qoxu, toxunma) |
|---|---|---|
| | | |

Çap üçün deyil

## BAKI

Uzaq elli əziz dostum soruşdu:
— Sizin Bakı söylə, necə şəhərdir?
Dedim:—Qardaş, mənim doğma şəhərim
Yazılmamış, oxunmamış əsərdir.

Bu sətirlərdəki hansı söz və ya söz birləşməsi şeirin əsas fikri ilə bağlıdır?

Səncə, əsərin qalan hissəsində müəllif nələri təsvir edəcək?

Çiçək desən — könül açan çiçəyi,
Külək desən — ev uçuran küləyi,
Qasırğada ağ dalğalı ləçəyi,
Sakit gündə gözü mavi Xəzərdir.

Səncə, şeirdə «könül açan» və «ev uçuran» sözləri hansı mənada verilib?





Çap üçün deyil

Bu bəndlərdə hansı məqamlar ideyanı qüvvətləndirir?

Nəğməsidir zavodların fit səsi,
Suya düşüb buruqların kölgəsi.
Ətirlidir bağlarının meyvəsi,
Ağ şanısı elə bil ki, şəkərdir.

Bu misralardan hansında təşbeh işlənmişdir?

Dost görəndə tükənməyir hörməti,
Düşmən görsə, dərya olur nifrəti.
Bir qədər də dəlisovdur adəti,
Əziz dostum, Bakı belə şəhərdir.

Bu misralarda hansı hislər təsvir edilmişdir?

***Əliağa Kürçaylı***

**Yaradıcı tətbiqetmə:**

Şeirə bir daha nəzər sal. **Düşün:** «Hansı məqamlarda hisləri (görmə, eşitmə, dad, qoxu, toxunma) təsvir etmək mümkün idi, lakin yazıçı buna ehtiyac duymayıb? Yeri gəldikcə müxtəlif hislərin təsvirini əlavə et. Təsvir etdiyin hislər haqqında məlumatı cədvələ daxil et.

## İBRƏTAMİZ HEKAYƏLƏR
### (TƏSVİRİ MƏTNDƏ DƏQİQLƏŞDİRİCİ FAKTLAR)

Hər hansı əşya, hadisə, yaxud məkanı təsvir edərkən daha dəqiq təsəvvür yaratmaq üçün faktlardan istifadə etmisənmi? Baxdığın bir film haqqında yoldaşına danışan zaman filmin adı, aktyorların adları və s. faktlara aiddir. Bədii nümunələrdə də *adlar, tarixlər, saylar və digər məlumatlar* belə faktlara aiddir. «*Soyuq fevral gecəsi idi*» cümləsində «fevral» hadisənin nə zaman baş verdiyini təsvir edir. Bu, **faktın təsviridir**. Faktlar təsvir edilən mənzərə haqqında təsəvvürü dəqiqləşdirir.

Məktəbinizi təsvir edərkən onun tutumu haqqında daha dəqiq təsəvvür yaratmaq istəyirsənsə, «Məktəbimizdə xeyli şagird təhsil alır» yox, «Məktəbimizdə *1200 şagird* təhsil alır» yazmaqla faktı dəqiq təsvir edirsən.

Başqa bir nümunə: Evinizin yanındakı parkın nə qədər gözəl və insanların istirahəti üçün rahat bir yer olduğunu təsvir etmək istəyirsənsə, müxtəlif faktlar daxil etməklə fikrini asanlıqla oxucuna çatdıra bilərsən: «*Ulu öndər Heydər Əliyevin* adını daşıyan bu yaraşıqlı parkda hər gün *yüzlərlə* insan səmərəli və xoş istirahət edir».



Çap üçün deyil

***Tapşırıq 1.*** İbrətamiz hekayələri oxu. Faktların dəqiq təsvir edildiyi məqamları seç. Onların növlərini müəyyən et. Aşağıda təqdim edilən cədvəli dəftərinə çək və aşkar etdiyin faktları cədvəldə yaz.

| **Misra** | **Nümunə** | **Təsvir edilən fakt (ad, tarix, say və s.)** |
|---|---|---|
| | | |

## HEÇ KƏSİ QINAMAYIN

Payızın ilk günləri idi. Qatarın vaqonuna uca boylu, saçları qar kimi ağappaq bir kişi və 25–26 yaşlarında bir oğlan daxil olub yerlərini tutdular. Oğlan pəncərə tərəfdə əyləşmişdi. Qatar tərpənən kimi o, hava axınını hiss etmək üçün əlini pəncərədən bayıra çıxardı və birdən heyrətlə qışqırdı:

— Ata, görürsənmi, bütün ağaclar geriyə gedir!

Yaşlı kişi həm sevinc, həm də kədərdən bulud kimi dolmuş gözlərini oğlunun üzünə dikərək gülümsədi.

Cavan oğlanın yanında evli cütlük əyləşmişdi. Onlara oğlanın özünü uşaq kimi aparması təəccüblü gəlmişdi.

Oğlan qəfildən yenə də heyranlıqla qışqırdı:

— Ata, gölə bax, onun adı nədir?

— Ceyranbatandır, oğlum.

— Ata, göldəki quşlara bax! ... Buludlar bizimlə birgə hərəkət edir!

Cütlük oğlanın qəribə hərəkətlərini gözaltı müşahidə edirdi, atası isə oğlunun davranışında heç bir qəribəlik görmürdü.

Yağış yağmağa başladı, büllur damcılar oğlanın əllərinə düşürdü. O, damcıları sayırdı. — Bir, iki, üç ... O yenə də sevinclə gözlərini yumub qışqırdı:

— Ata, yağış yağır! Görürsənmi, ata?

Bayaqdan oğlanın hərəkətlərini izləyən cütlük kişidən soruşdu:

— Siz niyə oğlunuzu hansısa bir klinikaya aparmırsınız?

Kişi cavab verdi:

— Biz elə Mərkəzi klinikadan gəlirik. Bu gün mənim oğlumun gözləri ömründə ilk dəfə görməyə başlayıb.

Başqa insanların işləri və hərəkətləri haqqında tam məlumatımız olmadan onları qınamaq olmaz. Hər şeyi yalnız ALLAH bilir. Ona görə də «Qınamayın ki, qınananlardan olmayasınız!»



Çap üçün deyil

## İNSANSEVƏRLİK

Bu hadisə bir neçə il əvvəl Amerikanın Vaşinqton ştatındakı Sietl şəhərində keçirilən idman yarışında baş vermişdir. Doqquz əlil idmançı qaçış zolağında hazır vəziyyətdə durmuşdu. Nəhayət, «START» atəşi açıldı. İdmançılar məsafənin üçdə birini qət etdilər. Qəflətən idmançılardan biri yerə yıxıldı, ağrıdan ilan kimi qıvrılmağa başladı. Digər səkkiz idmançı onun yerə yıxıldığını görüb qaçışı dayandırdılar. Onlardan biri, daun sindromundan əziyyət çəkən idmançı qız ona yaxınlaşıb başını doğma ana kimi qucaqlayaraq soruşdu:

— İndi yaxşısan? Özünü necə hiss edirsən?

Başqa idmançılar da yaxınlaşdılar, hamılıqla çiyin-çiyinə verərək birlikdə «FİNİŞ» xəttinə doğru irəlilədilər. Bu səhnənin canlı şahidi olan minlərlə tamaşaçı ayağa qalxaraq göz yaşları içində əlil idmançıları bir xeyli alqışladılar. Yarış sona çatdı. Onlar şahidi olduqları bu hadisəni başqalarına da danışdılar. Bilirsənmi nə üçün? Çünki hər birimizin daxilində digər hissləri üstələyən başqa bir hiss də var. Bu, İNSANSEVƏRLİK hissidir!

## HƏYAT DƏRSİ

Gənc iş adamı yeni «Yaquar»ı ilə bir küçədən keçirdi. Birdən maşının önünə nəyinsə dəydiyini hiss etdi. O, maşını saxladı. Bu balaca bir daş idi. Daşın atıldığı tərəfə baxdı. Qarşısında 12—13 yaşlarında çəlimsiz bir qız dayanmışdı.

Gənc özünü saxlaya bilməyib qışqırmağa başladı:

— Sən kimsən? Bu zəhrimar daşı niyə atdın? Bilirsən, bu daş mənə neçəyə başa gələcək?

Uşaq yalvararaq cavab verdi:

— Bağışlayın, başqa çıxış yolum yox idi. Əgər daşı atmasaydım, heç kim mənə maşın saxlamayacaqdı.

Uşaq bir tərəfdən danışır, bir tərəfdən də gözlərindən sel kimi yaş axıdırdı. Əli ilə yolun kənarındakı əlil arabasından yıxılmış 15—16 yaşlarında olan oğlanı göstərdi və dedi:

— Böyük qardaşım arabasından yıxıldı. İndi onu qaldıra bilmirəm. Xahiş edirəm, mənə kömək edin.

Bu sözlərdən sonra gənc sanki ayıldı. Yolun kənarında yerə yıxılmış oğlanı qaldıraraq, yenidən arabasına oturmağa kömək etdi.



Çap üçün deyil



Dəsmalı ilə üst-başını təmizlədi. Uşaq təlatümü yenicə sakitləşmiş dənizə bənzər gözlərilə minnətdarlıqla gəncə baxıb:

— Allah razı olsun, — dedi.

Uşaqlar arabanı sürərək evlərinə tərəf getdilər. Onlar gözdən itənə qədər gənc dayanıb mənalı baxışları ilə arxalarınca baxdı.

Maşının önü əzilmişdi. Bu həyat dərsi olan əziyi heç vaxt təmir etdirmədi. Çünki bu hadisə gəncə həyatda daha həssas olmağı, bəzən ayaq saxlamağı, ətrafa nəzər salmağı və köməyə ehtiyacı olanlara əl uzatmağı öyrətmişdi...

## «MÖCÜZƏ». «ALLAHA ŞÜKÜR EDƏN ŞİKƏST»
## (Əsər üzərində iş)

### *Möcüzə*

Səudiyyə Ərəbistanında Həbib-ibn-Malik adlı varlı və nüfuzlu bir hakim yaşayırdı. Hamı ona müdriklər müdriki deyirdi.

Həbib-ibn-Malikin Sətihə adlı bir qızı vardı. Gözlənilmədən Sətihə xəstələndi. Bu çox qəribə, əcaib bir xəstəlik idi. Qızın gözləri tutuldu, qulağı kar, dili lal oldu, hətta ayağı da axsamağa başladı. Övladının xəstəliyə düçar olması Həbib-ibn-Maliki hədsiz dərəcədə kədərləndirdi. Sətihə atasını çox sevirdi. Atası-



Çap üçün deyil

nın ona görə fikir etməsindən qızın qəlbi ağrıyırdı. Bu onu xəstələnməyindən də çox məyus edirdi.

Qüssəyə batmış ata Kəbəyə gəlib qızının sağalması üçün dua eləməyə başladı. Bu həmin vaxt idi ki, Həzrəti Məhəmməd Peyğəmbər İslam dinini yaymaq üçün çox məhrumiyyətlərə dözməli olurdu.

Müdriklər müdriki Həzrəti Məhəmmədi yanına çağırdı. Həzrəti Məhəmməd hakimin qəzəbindən qorxan tərəfdarlarını sakitləşdirib səbirli olmağa çağırdı. Özü isə hakimin yanına yollandı. Hakim dəbdəbəli çadırda nökər-naibinin əhatəsində, məxmər döşəkçə üstündə əyləşmişdi.

Müdriklər müdriki qarşısında şax dayanmış Həzrəti Məhəmmədi başdan-ayağa süzdü. Onun məsum, qorxusuz üzündən nur tökülürdü.

«Eşitmişəm, demisən ki, Allah səni özü göndərib, guya sən onun peyğəmbərisən? Doğrudurmu, bu?»

«Doğrudur, — Həzrəti Məhəmməd cavab verdi. —Allah özü buyurub ki, mən onun yerdə rəsulu olum; adamları həqiqi dinə gətirim».

«Sən dediklərini necə sübut edə bilərsən? — Həbib İbn Malik sözünə davam etdi. — Hər peyğəmbərin öz möcüzəsi var. Nuh göy qurşağı, Süleyman əsası, İbrahim əmrinə tabe olub bir anda soyuyan odu, İsmayıl qurbanlıq qoçu, Musa öz dəyənəyi ilə məşhurdu. İsa isə ölüləri həyata qaytarırdı. Əgər doğru deyirsənsə, onda mənə de görüm, çadırımdakını bura niyə gətirmişəm?»

Həzrəti Məhəmməd yerə çöküb dua eləməyə başladı. Sonra ayağa qalxıb dedi: «Ey Həbib, çadırındakı qızındır. O, kor, lal-kar və axsaqdır. Gətirmisən ki, xəstəliyin dəfini diləyəsən. Get öz çadırına, qızına işıqlı, sevən qəlb bəxş edən Allaha şükür et».

Həbib çadırına yollandı. Çadırın astanasında onu qızı qarşıladı. Qız şadlığından nə edəcəyini bilmirdi. O gülür, danışır və sevinclə atasına baxırdı. Axsaqlığından əsər-əlamət qalmamışdı. Ata isə təəccüb və heyrətdən yerində donmuşdu.

Həbib heyrətə gəlib Həzrəti Məhəmmədin qarşısında diz üstə çökərək — «Məni Allaha tapındır» — dedi. Həbiblə birlikdə onun dörd yüz yetmiş adamı da Həzrəti Məhəmmədə iman gətirdi.

### *Allaha şükür edən şikəst*

40—50 yaşlarında kor kişi yol kənarındakı ağacın kölgəsində oturmuşdu. Bu kişinin ayaqları da şikəst idi. O, əllərini açıb, görməyən gözlərini bir nöqtəyə dikərək dua edirdi.



Çap üçün deyil

— Ey bir çox zənginə vermədiyi nemətləri mənə verən Rəbbim, yarpaqların, ulduzların sayı qədər Sənə şükürlər olsun!

Bu vaxt yoldan keçən İsa peyğəmbər kişinin duasını eşitdi və ayaq saxlayıb dedi:

— Ey ALLAHın qulu, səndə nə nemətlər vardır ki, «bir çox zənginə vermədiyi neməti mənə verən Rəbbim», deyə dua edirsən?

Dua edən görməyən gözlərini səs gələn tərəfə çevirib cavab verdi:

— Rəbbim mənə elə bir işıqlı qəlb vermişdir ki, o qəlb ilə Onu tanıyıram. Elə bir dil vermişdir ki, o dillə də Ona şükür edirəm. Mən onu tanımaq və ona şükür etməyin nə qədər gözəl olduğunu bilirəm. Halbuki elə zənginlər var ki, onlar bu xoşbəxtlikdən məhrumdurlar.

Bu cavab qarşısında İsa peyğəmbər yerə çöküb kişinin nura həsrət gözlərindən öpdü.

Peyğəmbərin dodaqları dəyən kimi kişinin gözləri açıldı. Kişi uşaq kimi çaşqın və sevincək halda baxıb:

— Sən ALLAHın izni ilə ölüləri dirildən, xəstələrə şəfa verən və digər möcüzələrin sahibi İsa peyğəmbər deyilsənmi?— soruşdu.

— Kimliyim hələ məlum olmadımı? Gör ayağa qalxa bilərsənmi?

Kişi təzəcə ayaq tutan körpə kimi yerindən qalxarkən, bir az əvvəl sözünə baxmayan dizlərinin, topuqlarının taqətə gəldiyini görür. Onun ayaqları da düzəldi.

Bu arada ətrafı əhatəyə almış insan kütləsi İsa peyğəmbərin əlini öpmək istədi. Ancaq ALLAH nəbisi buyurdu:

— Əli öpüləcək insan, sahib olduğu nemətlərin fərqinə varan, şükür səcdəsindəki bu insandır. Onun əlini öpün! Çünki düşünən insan sahib olduğu nemətin fərqinə varıb, özünü xoşbəxt hiss edər, düşünməyən insan da özünü o nemətdən məhrum sanar, bədbəxt hiss edər!

***Tapşırıq 2.***

1. Oxu başa çatandan sonra «Oxudan sonra» təlimatını (səh.14) ardıcıllıqla yerinə yetir.
2. Hər bir mətndə fikirləri və ideyanı müəyyən et.

**Yaradıcı tətbiqetmə:**

Sinifdənxaric oxu materiallarından «Ən qiymətli mükafat» mətnini oxu. Təsvir edilmiş faktları (ad, tarix, say və s.) müəyyən et və qruplaşdır. Nəticələri əks etdirən məlumat hazırla.



Çap üçün deyil

## Z.YAQUB. «QARA XƏBƏRİN ACISI» ŞEİRİ
(MÜSTƏQİL İŞ)

### *Təsvir edilən məqamlar*

1. Aşağıda təqdim edilən **«Əşya və hadisələrin təsvirinin qiymətləndirilməsi meyarları»** ilə tanış ol. Bədii nümunəni həmin meyarlar baxımından dəyərləndirməyə çalış. Fikirlərini yazılı əsaslandır.

| **Mətndə əşya və hadisələrin təsvirinin qiymətləndirilməsi** | | | |
|---|---|---|---|
| **Meyarlar** | **Nümunələr** | | |
| | **Bədii** | **Hiss** | **Fakt** |
| Oxucuda əşya və hadisə haqqında aydın təsəvvür yaratmaq üçün təsvirlərdən (bədii, hiss, fakt) istifadə edilibmi? | | | |
| Əgər belə təsvirlər varsa, onlar təsvir edilən əşya və hadisənin əsas xüsusiyyətlərini əks etdirirmi? | | | |
| Təsvir edilən əşya və hadisənin qeyri-adiliyini əks etdirən məqamlar varmı? | | | |

## QARA XƏBƏRİN ACISI

Yuxudan qaldırdılar
məni, qəfil yuxudan,
Rəngim ağappaq oldu
səksəkədən, qorxudan.
Gördüm başımın üstə
dayanıb Bəhlul balam,
O anda, o saatda
baxışı məlul balam.

Səncə, bundan sonra hansı hadisələr baş verəcək?

Çap üçün deyil

Gördüm nəsə sözü var
demәyә çatmır gücü,
Bir anın intizarı
min il qәdәr üzücü.
Bәd xәbәri deyәndә
insanlar fağır olur,
Bir sözün ağırlığı
min dağdan ağır olur.
«Xәbәr verdilәr, ata,
köçdü Heydәr Əliyev,
Vida dedi hәyata!»
Bu söz başımın üstә
çaxdı ildırım kimi,
Parçaladı sinәmi
dağıtdı şırım kimi.
İnanmadım bu sözün
yanğısına, dağına,
Güllә kimi atıldım
ekranın qabağına.
Qәfil bu qara yellәr
hardan әsdi, bilmәdim,
Dişim dodaqlarımı
necә kәsdi, bilmәdim.
Qarışdı göz yaşlarım
dodağımın qanına,
Döndü gözümdә dünya
bir matәm meydanına.
Bircә damla göz yaşı
buludlardan ağırdı,
Göydәn yox, o gün yağış
gözlәrimdәn yağırdı.
Mәn belә ağlamışdım
Qanlı Fәlәk ilk dәfә
ürәyimi qıranda,
Yetim qalıb atamı
torpağa tapşıranda.
O mәzarın önündә
boynu bükük qalanda,

Bu misralarda hansı tәsir vasitәsi işlәnmişdir?

Çap üçün deyil



Körpə çiyinlərimdə
dağ boyda yük qalanda.
Mən belə ağlamışdım
20 Yanvar günü,
Mən belə ağlamışdım
Vətənin ağlar günü.
Dönmüşdü gözlərimdə
qəmli bir tamaşaya,
Mən belə ağlamışdım
Xocalıya, Şuşaya.

Hansı misralarda faktlara aid nümunələr verilmişdir?

***Zəlimxan Yaqub***

**Yaradıcı tətbiqetmə:**

Əlavə oxu materiallarına daxil edilmiş əsərlərdən birini və ya bir neçəsini oxu. Yazıçının nəzərdə tutduğu ideyanı göstər. Bədii təsvir vasitələrinin, hiss və faktların təsvirinə necə yer verilmişdir? Nə kimi əlavələr etmək istərdin?



Çap üçün deyil

## «QIŞDA ŞƏHƏRİMİZ (KƏNDİMİZ, QƏSƏBƏMİZ)» ESSEDƏ TƏSVİR VASİTƏLƏRİ



*Essedə təsvir vasitələrindən nə üçün istifadə edilir?*

Sən artıq mətn yazarkən oxucuya çatdırmaq istədiyin ideyanı dəstəkləyici fikirlərin vasitəsilə ifadə etməyi öyrəndin. Fikirləri müəyyən etmək üçün müşahidələr aparmaq, yadda saxlayıb araşdırmaq yollarını öyrənmisən. İndi isə çatdırmaq istədiyin fikirləri təsvir vasitələrindən istifadə etməklə obrazlı şəkildə təqdim edilməsi yollarını öyrənəcəksən.

***Tapşırıq 1.***

**1. «Qışda şəhərimiz (kəndimiz, qəsəbəmiz)» mövzusunda esse yazmazdan əvvəl yazıya hazırlıq işləri apar (əvvəlki dərslərdə bunu necə etməyi öyrənmisən).**

— Qışda təbiətdə baş verən hadisələri və onların həyatımıza gətirdiyi dəyişiklikləri yadına sal, eşitdiyin və araşdırmalar nəticəsində əldə etdiyin məlumatları xəyalında canlandır.

— İdeyanı yaradan fikirləri müəyyənləşdir və onları ardıcıllıqla yaz.

**2. İndi isə essenin bədiiliyini və fikirlərin obrazlı olmasını təmin etmək üçün aşağıda göstərilən işləri aparmaq lazımdır.**

Müəyyən etdiyin fikirlər üzərində düşün:

— Hansı bədii təsvir vasitəsi (epitet, təşbeh) fikirlərinin daha obrazlı çatdırılmasına kömək edər?

— Gördüklərimi hansı hislərin (görmə, eşitmə, qoxu, dad, toxunma) təsviri ilə daha canlı ifadə edə bilərəm?

— Bu mətndə dəqiqləşdirici faktların təsvirinə ehtiyac varmı? Əgər faktlar təsvir edilərsə, nələrdən (ad, tarix, say və s.) istifadə etmək lazımdır?

— Baş verən hadisələrdə qeyri-adilik görürsənmi? Əgər görürsənsə, bu qeyri-adilik nədədir?

— Baş verən hadisə hansı hisləri yaradır və nə haqda düşünməyə və nəyi hiss etməyə vadar edir?



Çap üçün deyil

**3. Verilən cədvəli dəftərinə çək. Təsviri esse yazmaq üçün əvvəlcə ayrı-ayrı məqamları təsvir edən nümunələr hazırla.**

| **Təsvir nümunələrinin cədvəli** | |
|---|---|
| **Bədii təsvir** | |
| **Hislərin təsviri** | |
| **Faktların təsviri** | |

***Tapşırıq 2.*** Müəllimin verdiyi mövzuda esse yazmazdan əvvəl ayrı-ayrı məqamları təsvir edən nümunələr (bədii təsvir vasitəsi, hiss və fakt) hazırla.

## Esse üzərində iş

***Tapşırıq 1.*** «Qışda şəhərimiz (kəndimiz, qəsəbəmiz)» mövzusunda esse yazmazdan əvvəl bədii təsvir vasitələri, həmçinin hiss və faktların təsvirinə dair hazırladığın nümunələri qiymətləndir. Bunu necə etmək lazımdır?

Sən artıq essedə istifadə edəcəyin ayrı-ayrı məqamların təsvirinə dair nümunələr hazırlamısan. Onları cədvələ daxil etmisən. Həmin cədvələ bir daha nəzər sal. Fikirləş, bu təsvir nümunələri fikri oxucuya çatdırmaqda yardımçı ola bilərmi? Əgər siyahıda əsas fikirlə bağlı olmayan təsadüfi məqamlar aşkar etsən, onları sil. Əsas fikri çatdırmaqda sənə ən gərəkli olan təsvirləri saxla. Düşünürsən ki, bunlardan hansının daha vacib olduğunu necə bilmək olar? Bunun üçün sən həmin nümunələri qiymətləndirməyi bacarmalısan. Düzgün qiymətləndirmək üçün isə sənə meyarlardan istifadə etmək lazımdır. Bu meyarlarla əvvəlki dərslərdən tanışsan. Xatırlayırsanmı, həmin meyarlar aşağıdakılardır:

- Hazırlanmış təsvir nümunələri (bədii təsvir vasitələri, hiss, fakt) hadisə haqqında *aydın təsəvvür yaratmağa imkan verirmi*?
- Bu nümunələr təsvir edilən *əşya və hadisənin ayrı-ayrı xüsusiyyətlərini* əks etdirirmi?



Çap üçün deyil

• Təsvir edilən hadisənin *qeyri-adiliyini* əks etdirən məqamlar varmı?

***Tapşırıq 2.*** Ayrı-ayrı məqamları təsvir edən (bədii təsvir vasitəsi, hiss, fakt) nümunələri yazıya daxil etməyin müxtəlif yolları var. «Qışda şəhərimiz (kəndimiz, qəsəbəmiz)» mövzusunda esse yazmaq üçün hazırladığın nümunələri yazıda yerləşdir. Esseni tərtib et.

Artıq hazırladığın təsvir nümunələrini yararlılıq baxımından qiymətləndirməyi öyrəndin. Bildin ki, düzgün seçilmiş nümunə o nümunədir ki, mətndəki ideyanın (fikrin) çatdırılmasına kömək etsin. Amma bundan sonra da qarşıda görülməli bir sıra işlər var. Artıq seçilmiş təsvir nümunələrini mətnə elə ardıcıllıqla daxil etməlisən ki, nəzərdə tutulmuş fikrin formalaşmasına xidmət göstərsin. Buna nail olmağın iki yolu var:

**1. Təsvir vasitələrinin mətnə daxil edilməsi üçün ümumidən xüsusiyə doğru ardıcıllığı müəyyən etmək.** Əgər sən mətndə hər hansı bir əşya, yaxud canlıdan danışmaq istəyirsənsə, ümumidən xüsusiyə ardıcıllığı daha səmərəlidir. Əvvəlcə əşyanın yerləşdiyi, yaxud hadisənin baş verdiyi məkanı təsvir etməlisən:

— İlk əvvəl həmin məkanın uzaqdan görünüşünü təsvir et;

— Sonra isə oxucunun nəzərlərini haqqında danışılan əşya, yaxud canlıya yönəlt;

— Məkanın təsvirini davam etdirərək konkret cümlələrlə o yerin «xəritəsini» yarat (Nə harada yerləşir?);

— Ola bilər ki, təsvir etdiyin hadisə eyni məkanda baş verməsin. Başqa məkanın da təsvirinə ehtiyac yaransın. Bunların üzərində düşün.

**2. Təsvir edilən məkanda ayrı-ayrı məqamların əhəmiyyətlilik baxımından ardıcıllığını müəyyən etmək.**

— Təsvir etmək istədiyin məsələlərin siyahısını tərtib et;

— Həmin siyahıda əvvəl daha əhəmiyyətli məsələləri, sonra isə az əhəmiyyətli məsələləri sıra ilə düz;

— Ola bilər ki, əvvəl az əhəmiyyətli məsələlərdən, sonra isə daha əhəmiyyətli məsələlərdən söz açasan.



Çap üçün deyil

# III. BƏDİİ ƏSƏRİN HİSSƏLƏRİ



*Mətndə təsvirlərdən necə istifadə edilir?*

Bundan əvvəlki dərslərdə öyrənmisən ki, təsviredici bədii mətnlər təsadüfən yaranmır. Müəllif əvvəlcə yazıya hazırlıq işləri aparır. Esse yazan zaman bu cür hazırlıq işlərini artıq sən də aparmısan. Bilirsən ki, mətn yazılarkən ideya müəyyənləşdirilir. İdeyanı obrazlı təqdim etmək üçün müxtəlif məqamların bədii təsvirindən istifadə edilir. Hazırlanmış belə təsvir nümunələri müəyyən ardıcıllıqla mətnin uyğun gələn hissələrinə daxil edilir. Bədii mətnlərdə hər bir hissənin özünün konkret vəzifəsi olduğundan həmin nümunələrin yerləşdirilməsində diqqətli olmaq lazımdır. Bədii mətnlərdə bu hissələr və onlara verilən tələblərlə aşağıdakı cədvəldən tanış ola bilərsən.

## E.ZEYNALOV. «OĞRU» HEKAYƏSİ
## (BƏDİİ MƏTNİN HİSSƏLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ )

| Yığcam plan | |
|---|---|
| **Giriş** | — Təsvir ediləcək əşya və ya hadisə ilə tanışlıq<br>— Əsas fikirlə əlaqə yaradan məqamların təqdim edilməsi |
| **Əsas hissə** | — Düşüncələrin və hislərin əks etdirilməsi<br>— Əşya və hadisələrlə bağlı təsvirlərin ardıcıllığının məkan və ya əhəmiyyətlilik baxımından müəyyənləşdirilməsi |
| **Nəticə** | Təsvirlərin yekunlaşdırılması |

Çap üçün deyil

***Tapşırıq 1.*** Oxuya hazırlıq işləri apar. Təqdim edilən cədvələ yenidən nəzər sal. «Oğru» hekayəsini oxu və cədvəllə əlaqələndir. Mətnin hissələrini müəyyən et.

## OĞRU

Məktəb üzrə keçirilən idman yarışlarında ayağımı bərk zədələmişdim. Qapanıb qalmışdım evdə. Yamanca darıxırdım. Baş qatan bir məşğuliyyət vardısa, o da televizora baxmaqdı.

> Hansı söz, söz birləşməsi və ya cümlə oxucunu təsvir ediləcək hadisə ilə tanış edir?

Kanallardan biri ermənilərin pis, murdar xasiyyətləri haqqında veriliş hazırlamışdı. Studiyadakılar növbə ilə onların əcaib-qəraib yaltaqlığından, ikiüzlülüyündən, yalançılığından, satqınlığından danışır, oğru olduqlarını isə daha artıq qabardırdılar. Oğurluq qeyri-insani, həm də baş ucalığı gətirməyən bir xüsusiyyətdir. Lakin ermənilərin oğurluğu adi yox, tayı-bərabəri olmayan, bənzərsiz oğurluqdur. Ən böyük oğurluqları da türklərdən elədikləridir. Ermənilər adlarımızı, musiqimizi, musiqi alətlərimizi, xalçalarımızı, abidələrimizi, yeməklərimizi, ən başlıcası, torpaqlarımızı oğurlamışdılar. Birdən yox, tədricən, tarix boyu, nəzərə çarpmadan, həm də qeyri-adi yollarla. Sonra da hamısını utanmaz-utanmaz, vicdansızcasına öz adlarına çıxmış, bizi danmışdılar...

> Düşüncələri və hisləri əks etdirən məqamları göstər.

Ermənilərin namərdliyi məni hiddətləndirmişdi. Axırda hislərimi cilovlaya bilməyib bərkdən bağırdım:

— Pah atonnan! Bu ermənilər nə oğru xalq imiş!..

Elə bu zaman otaqda tək olmadığımı xatırladan cırıltı səsi eşitdim. Nənəmdi, divanda qurcalanırdı. Bayaqdan yarıuzanmış halda gözucu televizora baxırdı.

Handan-hana xəfifcə qımışaraq:

— Ermənilər binayi-qədimdən oğrudular, bala, — dedi.

— Sən hardan bilirsən, ay nənə? — sadəlövhlüklə soruşdum.

— Eh, mən onların dabbağda gönünə bələdəm! Amma bunları, sadəcə, bilmək yox, yaxşıca yadda saxlamaq lazımdır, bala!..



Çap üçün deyil

Sonra nənəm mənə şahidi olduğu köhnə bir erməni oğurluğundan danışdı.

* * *

Baban kənd məktəbində dərs deyirdi. Sayılıb-seçilən tarix müəllimi idi.

Bir dəfə atan sinif yoldaşları ilə dağa çıxmışdı. Qayıdanda özü ilə bir bağlama gətirmişdi. İçi insan sümükləri, saxsı qab-qacaq qırıqları, qədim dəmir pullarla dolu idi. Hansısa mağaradan tapmışdılar.

Səhərisi baban atanı da özünə qoşub həmin mağaraya yollandı. Əlavə bir neçə məişət əşyası-filan da yığıb gətirdi. Onları səliqə ilə bir qutuya yerləşdirib mənə verdi:

— Arvad, — dedi, — bunu elə yerə qoy ki, uşaq-muşaq əli dəyməsin. Bakıya, Elmlər Akademiyasına aparacağam. Alimlərə göstərəcəyəm.

Savadsız arvad idim.

— A kişi, — dedim, — sür-sümük alimlərin nəyinə gərəkdi? Nə danışdığımı heç özüm də bilmirdim.

— Sənin belə şeylərdən başın çıxmaz, arvad. — Baban səsini qaldırdı. — Bunlar adi, yaxın keçmişin sür-sümüyü deyil. Tarixdir! Həm də qədim tarixdir!..

Yenə heç nə qulağıma girmədi.

— Nədi, buna görə indi bir də durub burdan Bakıya gedəcəksən? Belə vacibdir, nə çoxdur Bakıya gedib-gələn, ver birinə aparsın də...

— Yox, bu işi hər adam yarıtmaz! Özüm getməliyəm. Gördüklərimi alimlərə ətraflı danışmalıyam. Onlarda maraq, həvəs oyatmalıyam. Yoxsa Allah bilir, alıb hara atacaqlar.

Qutunu qaldırıb şkafın üstünə qoydum.

Baban bayıra çıxanda qapının ağzında erməni qonşumuz Siranuş arvadla az qala toqquşacaqdı. Demə, bayaqdan qapının dalında durub gizlicə bizə qulaq asırmış...

Tək qalanda Siranuş arvad hərləyib-fırlayıb məndən soruşdu:

— Qutudakı nədir?..

— Bekara şeydi, — dedim.



Çap üçün deyil

— Bekara şeydisə, niyə göstərmirsən? — Siranuş qır-saqqız olub qopmadı.

Arvadın inadkarlığı məni həm təəccübləndirdi, həm də cin atına mindirdi. Qutunu gətirib açdım.

— Hə, bax, gözüyün qurdu ölsün! — dedim. — Yoxsa gecə yuxunu qarışdırarsan.

Sür-sümüyü görən kimi Siranuşun çəkiləcəyini düşünürdüm. Əksinə oldu. Arvad sür-sümüyə, saxsı qırıqlarına, paslı dəmir pullara çox həris gözlərlə baxırdı.

Onları bir-bir o tərəf-bu tərəfinə çevirə-çevirə öz-özü ilə danışırmış kimi mızıldandı:

— Hə, doğrudan da, bunlar qədim erməni dövlətinin qalıqlarına oxşayır.

— Onu sənə kim dedi, ay Siranuş?— Mat-məəttəl soruşdum.

— İndicə ərinə sən demirdin? Özcə qulaqlarımla eşitdim.

Mənim də təəssübkeşliyim tutdu.

— Bəs onu eşitmədin ki, ermənilər bu torpaqlara dünən-sraǧagün gəliblər? —Hirslə qutunun qapağını örtüb ortalıqdan götürdüm.

Bakı səfərinə hazırlaşan baban səbirsizliklə yay tətilini gözləyirdi. Deyirdi, Akademiyadakı alimləri yığıb elimizə-obamıza gətirəcəyəm. Gəlib gəzib-dolansınlar, görüb-götürsünlər, araşdırsınlar. Tariximizin daha bir qaranlıq səhifəsini də işıqlandırsınlar. Bir daha erməniyə anlatsınlar ki, bu torpaqlar türk torpaqlarıdır...

Yay tətilinə az qalmışdı. Bir gün baxdım ki, qutu şkafın üstündə yoxdur. Fikirləşdim ki, yəqin, baban özü götürüb harasa qoyub. Babandan soruşan kimi barmağını dişlədi. Siranuş arvaddan şübhələndi.

— Havayıdan maraqlanmırmış, — dedi. — Gərək qutunu açıb ona göstərməyəydin.

Saymazyana güldüm.

— A kişi, sən də oğru tapdın. Sür-sümük Siranuşun nəyinə gərəkdir?..

— Arvad, ermənini öz arşınınla ölçmə, — baban dedi. — Erməni bizim düşündüyümüzdən də bicdir. Elə şeylərin qədir-qiymətini yaxşı bilir...



Çap üçün deyil

Vallah, heç cür inanmırdım ki, Siranuş arvad qutudakılardan nəsə bir şey qana. Axı o da mənim kimi savadsızın biriydi. Bircə elə sür-sümüyü çatmırdı!..

Qaranəfəs Siranuşun üstünə qaçdım. Dili topuq çalsa da, heç nəyi boynuna almadı. Baban sözündə möhkəm adam idi. Siranuşu yoxlamaq üçün təzə bir qutu hazırladı. İçini də zir-zibillə doldurdu. Dedi, Siranuşa xəbər ver ki, kişi mağaradan keçən dəfəkindən də artıq sür-sümük, saxsı qırıqları, qədim pullar yığıb gətirib. Amma çalış, şübhələndirmə. Guya sözgəlişi ağzından qaçırdırsan...

Siranuşla qapı-qonşu, lap bir evli kimiydik. Qapımız qıfıl tanımazdı. Həmişə üzünə açıqdı. Evdə oldum-olmadım, haçan istəsə gələr, gedər, nə istəsə aparar, gətirərdi. Oğurluğunu-filanını da hələ görməmişdim...

Bir gün əvvəl Siranuşu aldatdım ki, qonaq gedəcəyik, ev-eşikdən göz olsun. Samanlıqda gizlənib erməni axçiyini güdməyə başladıq.

Siranuş özünü çox gözlətmədi. Arxayınca evə girib qutunu götürdü. Qoltuğuna vurub bayıra çıxanda qapının ağzında qəfildən yaxaladıq. Özünü itirdi. Qızarıb-bozardı. Çək-çevirdən, hədə-qorxudan sonra o biri qutunu da oğurladığını boynuna aldı. Arvadın hərəkətinə matım-mutum qurumuşdu.

— Bəs qutunu neynəmisən, harda gizlətmisən, ay imansız-dinsiz? — Baban ermənini təzədən sıxma-boğmaya saldı.

— Yerevandakı qardaşıma göndərmişəm, — dedi.

Siranuşun qardaşı İrəvanda adlı-sanlı, məşhur alimdi. O, mağaradan tapılan şeylərin şəkillərini İrəvanda çıxan qəzetlərdə, jurnallarda çap etdirmişdi. Palazqulaq-palazqulaq məqalələr yazmışdı. Gündə bir televizora çıxıb, aləmə səs salmışdı ki, bəs tapdığı mağara (guya özü tapmışdı) qədim erməni məskənlərindəndir. Deməyəsən, bu torpaqların əzəli sakinləri ermənilər imiş.

Moskva, dünya alimləri mağaraya baxmaq üçün tökülüb gəldilər, yazdılar, pozdular, axır çıxıb getdilər. Amma səs-səmirləri eşidilmədi. Elə bil qurbağa gölünə daş atmışdın.

— Səbəbini bilmədiniz, ay nənə?.. — Maraq yenə üstün gəldi.



Çap üçün deyil

— Baban soraqlayıb hamısını öyrəndi. Vicdanlı alimlər uzun araşdırmalardan sonra aydınlaşdırmışdılar ki, mağara qədim türklərə məxsusdur. Erməni aliminin yazıb-pozduqları cəfəngiyyatdan başqa bir şey deyilmiş. Demə, Siranuşun qardaşı da elə bacısı ağıldaymış...

— Nənə, bəs sonra babam bizim alimləri Bakıdan çağırmadı?..

— Çağırdı, bala, amma ermənilər aranı qatdılar, bizi dədə-baba torpaqlarımızdan qovdular. Əvvəl Qarabağa pənah apardıq. Ermənilər Qarabağı da əlimizdən aldılar. Bakıda qərar tutduq. O torpaqların adı babanın son nəfəsində də dilindən düşmədi.

Nənəm dərindən köksünü ötürdü:

— Bilirsən, oğul balası, türkün ta qədim dövrlərdən bəri hər şeyi olub. Gözü-könlü tox yaşayıb. Erməni kimi heç nəyin həsrətini çəkməyib. Bəlkə, elə buna görə çox zaman sahib olduğunun qədir-qiymətini qədərincə bilməyib...

***Eyvaz Zeynalov***

***Tapşırıq 2.***

1. Oxu başa çatandan sonra «Oxudan sonra» (səh.14) təlimatını ardıcıllıqla yerinə yetir.

**Ev tapşırığı:**

1. Mətnin ideyasını müəyyən et. Fikirlərini yazılı şəkildə müəllimə təqdim et. (Yazının həcmi 0,5 səhifə)
2. Yeni qarşılaşdığın sözlərin mənasını müəyyən et. İzahlı lüğət tərtib et.

Çap üçün deyil

## S.ƏHMƏDLİ. «ŞƏHİDLƏR XİYABANI» HEKAYƏSİ
**(Əsər üzərində iş)**

***Tapşırıq 1.*** Təqdim edilən bədii nümunəni oxu. Hissələrin tərtibinə verilən tələblər baxımından əsəri təhlil et.

### ŞƏHİDLƏR XİYABANI
***(İxtisarla)***

İstifadə olunmuş təsvir vasitəsini göstər.

Əsas fikrə zəmin yaradan məqamları göstər.

DTK-nin yeni binasının qarşısından başlayaraq, Nərimanov cadasının hər iki səkisində qərənfillər qoyulmuşdu. Sağdan, soldan bordürların üstüncə düzülmüş qırmızı qərənfillər qızıl yelkən təki çəkilib gedirdi. Dağüstü parkın qarşı meydanı adamla dolu idi.

«Moskva» mehmanxanasının üst yanı, geniş meydançanın bəri başında bir sarı avtobus saxlanmışdı. Adamlar avtobusu araya almışdı.

Sarı avtobusun içərisində kimsə yox idi, qapıları bağlıydı. Avtobusun gövdəsi, böyürləri, yuxarı-aşağısı dəlmə-deşik, ataş-ataş üstdən döşənmişdi; yüzlərlə bakılını, minlərlə insanı küçədən küçəyə, dayanacaqdan dayanacağa, şəhərin bir başından o biri başına çatdıran xəzəl rəngli «İkarus» həlak olanların məzarına baş çəkməyə gəlmiş əhalinin, qonaqların gözü önündə saxlanmışdı.

Bu maşının sürücüsü sağ qala bilməzdi. Qarşıdan, üz-üzə sancılmış iki güllənin biri sürücünün əyləşdiyi sahəni, düz onun başının göründüyü parçanı, o biri isə bir az aşağı, ürək səmti dəlib keçmişdi. Kim imiş bu dəlmə-deşik abidənin yiyəsi!

Bu kişi ömrü boyu avtobuslarda getmişdi. Hər bir sərnişinin, şəhərin sıravi sakininin üzləşdiyi əzabı çəkmişdi. Hər cür sürücü görmüşdü. Avtobusun qənşərində dayanıb, geniş, azacıq qabarıq alın şüşəsində açılmış güllə yerlərinə baxdıqca, ona elə gəldi ki, bu binəvanın sahibi – sürücü onun tanıdığı insandı. Nə vaxtsa görmüşdü. Avtobusun ətrafına yığılmış adamlar sarı



Çap üçün deyil

maşının içini-çölünü gözdən keçirir, guya onun atəşə tutulduğu anları, qəziyəni göz önünə gətirir, götür-qoy edirdilər.

Kişi göz-göz açılmış qabaq şüşəyə bir də baxdı. Sağ yana bircə güllə dəymişdi; başlıcası sol — sürücünün əyləşdiyi yer idi. İndi bu kişi sol yanda, düz ortada, bir az yuxarıda açılmış dəliklərin arxasında, şüşənin o üzündə sürücünü görməyə çalışdı. Düz alnına dəyib. Bir az aşağı sağ əl ...sol qol... ürək. Görəsən, güllənin hansı siftə dəyib: yuxarıdakı, alın səmt, ürək, yoxsa çiyin?! Dörd-beş güllənin deşdiyi dəliklər Ayı bürcünün ulduzlar düzümünü xatırladırdı.

Kişi, gecə saat on ikidən sonra başlayan, yeri-göyü, həndəvərdə canlı-cansız nə varsa hamısını oda tutan atəşin bu avtobusa necə yönəldiyini, necə tuşlandığını ağlına vururdu. Kim olub atan, gör necə insafsızmış; neçə kərədən yaylım açıb, avtomatın bütöv bir xəzinə gülləsini sərnişin avtobusuna çırpıb.

— İçində adam olubmu? Sərnişin, ya bəlkə, oraya toplanmış adamlardan? Olmayıbsa, bəs onda avtobusun böyürləri, sərnişinlərin əyləşdiyi kürsülərin yan şüşələri niyə büsbütün qəlpəyə tutulmuşdu. Hə, güllə əzəlcə bərk zərər yetirməyib. Qoluna, biləyinə toxunub, çovuyub əlinə dəyib, yalayıb keçib. Sonra maşının aradan çıxacağını görüb, qatillər iki yandan atəşə tutublar. Daha sonra, düz qarşıdan, Salyan kazarmasının, Tiflis prospektinin döngəsinə can atarkən, bir dəstə avtomatlı ilə üzləşmiş, onlarca tankların şaxıyan işıq püskürtüsündə apaydın seçilən, qara gözləri işıqdan qamaşan, qarapapaq, qarabığ oğlanı hədəfə çevirmişdilər. Alnına, sinəsinə ürəyinə... Avtobus bir az getmiş «qarmoşka» ilə bir-birinə bağlanmış vaqonları ortadan bükülüb, səkiyə çıxmış, sönmüşdü.

Güllə deşiklərindən ölümün bəbəksiz gözləri baxırdı elə bil. Avtobusdan ayrılıb döndü meydana. Meydanın ortasında bir parça yer həmişəyaşıl kollarla çəpərlənmiş, tən ortada Yer kürəsini andıran bitki şarı becərilmişdi. Yaşıl çəpərin çöplərində, şar-kolun yaxasında, sinəsində qərənfillər bitmişdi; dünyanın heç yerində görünməmiş möcüzə, sehrli bir calaqdı. Kollar qərənfillər açmışdı. Meydan, çəpər içrə çayırlıq qırmızı qərənfillərin boyasında uyumuşdu.



Çap üçün deyil



Ötən üç-dörd gündə, hər gün bir soraq çıxır, Qanlı şənbənin dəhşətləri söylənilirdi. Gecələr Bakı sakinləri, Azərbaycan milləti «Azadlıq»dan danışan Mirzə Xəzərin səsini eşitməkdən ötrü çırpınırdı. Ölənlərin sayı söylənilir, qapı-qonşuda, məktəbdə adları çəkilirdi. Evdə, işdə, küçədə kişi qulağını şəkləyir, ölənlərin arasında tanış arayırdı. İşdə salamatlıqdı, onların qohum-əqrəbasından yaralanan, ölən yox idi. Halbuki kişi... elə bil bunu istəyirdi. Bəlkə, onda qətlə yetirilmiş minlərlə insanın taleyini aydınlaşdıracaqdı.

Avtobusdan ayrıldı, meydanı dolanıb üz tutdu Dağüstü parkın girişinə. Adamlar girişdə toplanır, daş pillələrlə qalxır, xiyabana doğru tərpəşirdilər. Bu başdan o başa sim çəkilmişdi. Sim boyunca qərənfillər döşənmişdi. Şəhidlərin pak ruhu qızıl qərənfillərin zərif, təmiz ətriylə qovuşmaqda idi.

Kişi anlamadı, fərqinə varmadı. Yenicə qəbiristanlığa çevrilib, ad da qoyulmuş «Şəhidlər xiyabanı»nın üst və altınca, xiyaban boyu ağaclıqdı. Qışın amansız hədəsinə tab gətirən, aramsız olaraq yaşıl qalıb, ömrü boyu yaz təranəsi oxuyan ardıclar, tinglər... hövl etmiş, **yaqut gözlərini** açıb, gəlib-keçən yas əhlinə məlulcasına ba-

Bu ifadə haqqında nə düşünürsən?



Çap üçün deyil

xırdı. Xiyabanın bir yanı, qəbirlərin baş səmti hörgü idi. Bakının karxana daşlarının bitişində, künclərində gözcüklər var idi. Yaz girəli qaranquşlar, bülbüllər kənddən, çöllərdən köçüb gəlib, şəhərin dağ yamacında yurd tapmışdı. Qış girəli daş yuvalar sovulmuşdu. İndi həmin zindan öycüklərin hər birindən tac-dağı qana bələnmiş bir quş çıxıb, torpağa tapşırılmış şəhidlərə həyan olmuşdu.

Daş yuvacıqlara qərənfillər sancılmışdı. Çiçəklədiyi heç zaman görünməyən şamlar, küknarlar al-qırmızı gül açmışdı. Bundan o yana...hm, kişi axtardığını tapmışdı. Tanış! Bu qoçaq milisioner: geri daranmış teli, paqonu, iri gözləri, səliqəli bığları... Lap bu yaxınlarda gördüyü idi. Hm, özcə sahəsi, zolağı idi bura onun. Səhərdən-axşama, axşamdan-səhərə Dağüstü parkın xiyabanlarında dolaşır, dəniz körpülərinə baxır, Bayıla tamaşa edirdi.

Papaqlı-geyimli kişi; iş-güc adamı, oğul-uşaq yiyəsi saç-saqqal çallaşmış. Daha tanımağa, ad-san sormağa nə ehtiyac vardı. Xiyabanın o başında da yasin oxunur, fatihə verilirdi. Adamlar ikibir gedir, Bayıl yamacları, tərsanələrin qənşərləndiyi dərənin başında dönür, alt xiyabanla qayıdırdılar. Buradansa göz yaşı axıtdıqları şəhid qəbirləri görünmürdü.

***Sabir Əhmədli***

***Tapşırıq 2.*** Mətnin ideyasını müəyyən et. Əldə etdiyin nəticələri müzakirə et.

**Ev tapşırığı:**

Yeni qarşılaşdığın sözlərin mənasını müəyyən et. İzahlı lüğət tərtib et.

## S.ƏHMƏDLİ. «İŞIĞI SÖNDÜRMƏ» HEKAYƏSİ
## (Əsər üzərində iş)

***Müstəqil iş.*** Oxuya hazırlıq işləri apar. Sabir Əhmədlinin «İşığı söndürmə» əsərini oxu və mətnin hissələrini müəyyən et.



Çap üçün deyil

## İŞIĞI SÖNDÜRMƏ

Ana yuxudan qəm içində oyandı. Alt otağın açarını qızına uzatdı:

— Düş aşağı. Aç qapını, onların işığını yandır... Bu gecə İlham yuxuma gəlmişdi. Dedi, ana, mənim işığımı niyə söndürmüsünüz.

Qız açarı anasından aldı. Pillələrlə aşağı endi. Üstdə onlar, altda qardaşı gəlinlərilə yaşayırdı.

Qanlı şənbədən düz iki ay keçirdi. Dünən yaz girmişdi, onların qara bayramıydı. İki aydan bəri otağın qapısı açılmamışdı.

«Aman Allah! Mən onu necə tapdım». İlhamgil Tiflis xiyabanında dayanmışdılar. Qoşun ilk öncə oradan cummuşdu. Barrikadaları basıb əzmiş, insanları xurd-xəşil etmişdi. Hər yandan atəş yağır, avtomatlar, pulemyotlar gurlayır, işıqlı güllələr qaranlığı kəsib doğrayırdı.

Qohum-qardaş, ana-bacılar güllə yağmurundan çəkinməyib, öz əzizlərini, doğmalarını axtarırdılar.

Səsləyir, çağırır, küçəboyu, kol-kos arasına yıxılmış cavanları çəkir, aradan çıxarmağa çalışırdılar. Soldatlar aman vermir, balasını, qardaşını qurtarmağa can atanları gülləyə tutur, cəsədlərini yanına sərirdilər. Bacı qardaşını neçə meyidin arasından tapdı. Qolunu boynuna aşırdı, dizin-dizin sürünüb, od-alovun içindən onu çıxara bildi...

Altıca ayın gəlini dözmədi: «Mən İlhamsız bu dünyada yaşaya bilmərəm». Ana, qız gəlini gözdən qoymadılar. Amma neyləyəsən. Gedəni saxlamaq olmazdı. Zəhər içdi. Hər ikisini yanaşıca dəfn etdilər.

Ana, bacı hər gün Şəhidlər xiyabanına baş çəkir, qoşa qəbri odlu göz yaşları ilə isladır, dönüb kor-peşman qayıdır, gəlin otağının bağlı qapısı önündən dinməzcə ötürdülər. Dünən qara bayramdı. Bakı əhalisi ellikcə Dağüstü parka qalxmış, şəhidlərin qəbrini ziyarət etmişdilər.

Həyət-baca qan ağlayırdı. Allaha ağır getməsin deyib, ana nimçədə səməni əkmişdi. Yaz sorağı yamyaşıl buğda təpəsi ana-bacının göz yaşları ilə suvarılmışdı.

«Ana, könlümə xəngəl düşüb» — demişdi. Ana yayma yaymış, xəngəl bişirmişdi. Yemiş, qalxıb getmişdi yağı qabağına. Bu onun son yeyişi, son gedişi olmuşdu.



Çap üçün deyil



Bacı iki aydan bəri açar görməyən kilidi açdı. Otaq başına dolandı, qaranlıq, nəmli evi gözü seçmədi. Düyməni basdı, çilçıraq alışdı. Elə həmin andaca iki quş pırıltı ilə qalxıb, içəridə bir kərə dövrə vurdu. Aralı qapıdan çıxıb getdilər.

Qızın oradan nə halda qalxdığı ananı təlaşlandırdı.

— Nə olub? Nə baş verib?

— ... İşığı yandırdım. Onların çarpayısına iki quş qonmuşdu. Otaq işıqlanan təki qalxdılar. Dolanıb, uçub getdilər... Ana, vallah onlar quşa bənzəmirdi. Başları elə bil insandı. Qapı iki aydı bağlıydı. Quşlar oraya hardan giriblər?..

Ananın gözləri səməni zəmisinə dikildi:

— Qızım! Qardaşının, gəlinimizin ruhu imiş o quşlar. Bayrama görə otaqlarına baş çəkməyə gəlibmişlər... Allahın günahsız bəndəsisən, bala. Ruhlar sənin gözünə görünüb.

***Sabir Əhmədli***



Çap üçün deyil

***Tapşırıq 1.*** Nəticələrini yazılı şəkildə təqdim et.

***Tapşırıq 2.*** Mətnin ideyasını müəyyən et. Əldə etdiyin nəticələri müzakirə et.

## ESSENİN HİSSƏLƏRİNİN YARADILMASI



*Essenin hissələri necə yaradılır?*

Sən artıq bədii mətnlərin ideyasını, təsvir vasitələrinin köməyi ilə fikirləri obrazlı şəkildə təqdim etməyin yollarını bədii nümunələr əsasında öyrəndin. Özün də belə nümunələr yaratdın. Həmçinin sən bədii nümunələrin hissələrini müəyyən etməyə dair müəyyən bacarıqlara yiyələndin. İndi isə təsviredici mətnin ayrı-ayrı hissələrinə verilən tələblərə uyğun esse yazacaqsan.

***Tapşırıq 1.*** Əldə etdiyin təcrübəyə əsasən «Şəhidlər xiyabanı», «20 Yanvar günü biz nə edirik?», yaxud marağına uyğun seçdiyin digər mövzulardan birində təsviri esse yaz. Onun hər bir hissəsini şərtlər nəzərə alınmaqla tərtib et.

## ESSE ÜZƏRİNDƏ İŞ: YAZILMIŞ ESSENİN YOXLANMASI

Sən artıq təsviri essenin yazılmasına verilən tələbləri öyrəndin. Müstəqil şəkildə esse tərtib edirsən. Lakin «Yazı prosesi» mövzusundan da öyrəndiyin kimi, yazının bitməsi, hələ yazı prosesinin bitməsi kimi dəyərləndirilməməlidir. Yazı başa çatdıqdan sonra hazırlanmış mətn yoxlanmalıdır.

İndi isə «Şəhidlər xiyabanı», «20 Yanvar günü biz nə edirik?», yaxud marağına uyğun seçdiyin digər mövzulardan birində yaz-



Çap üçün deyil

dığın essenin yoxlanması və qiymətləndirilməsi üzrə iş aparılacaq. Yazını yoxlamaq üçün onu ən azı iki dəfə oxumaq lazımdır. **Birinci oxuda** məzmun və mətnin tərtibi, **ikinci oxuda** isə yazının üslubu yoxlanılacaq. Yazının üslubu barədə sən gələcəkdə öyrənəcəksən. Amma elə sadə məqamlar var ki, onları bilmədən hər hansı yazını tərtib etmək mümkün deyil.

Hər iki dəfə yazını qiymətləndir. Əməkdaşlığa, sinif yoldaşlarınla müzakirəyə hazır ol.

**Birinci oxu**

Sol sütundakı suallar mətnin məzmununu və təşkilini qiymətləndirməyə imkan verəcək. Orta sütundakı məsləhətlər problemlərin aşkar edilməsində sənin bələdçin olacaq. Hər hansı dəyişiklik etmək istədikdə isə sağ sütunda verilən üsullar və texnikalar yardımçın olacaq.

***Tapşırıq 1.*** Yazdığın mətnin məzmununu və tərtibini yoxla. Ehtiyac duyulduğu halda düzəlişlər et. Apardığın düzəlişləri araşdır.

| Əşya və hadisələrin təsviri<br>Məzmun, mətnin təşkili üzrə özünüqiymətləndirmə<br>və qarşılıqlı qiymətləndirmə | | |
|---|---|---|
| **Qiymətləndirən suallar** | **Məsləhətlər** | **Yoxlama üsulları, texnikaları** |
| *1. Girişdə çatdırılması nəzərdə tutulan əsas fikir üçün zəmin yaradılıbmı?* | Girişdə çatdırmaq istədiyin əsas fikrə zəmin yaradan cümləni tap və onun altından xətt çək. Əgər tapa bilmirsənsə, o zaman həmin fikri formalaşdırıb yaz. | Giriş hissəyə elə bir cümlə əlavə edin ki, o, əsas fikir üçün zəmin yaratsın. |



Çap üçün deyil

| Qiymətləndirən suallar | Məsləhətlər | Yoxlama üsulları, texnikaları |
|---|---|---|
| 2. *Bütün təsvir vasitələrindən istifadə edilibmi?* | Mətni oxuduqca hiss və duyğuları təsvir edən nümunələrin üzərində «H», faktları təsvir edən nümunələrin üzərinə «F», bədii təsvir vasitələrinin üzərində «B» yaz. Nəzər sal. Bunlardan hansılarının üzərində iş aparmağa ehtiyac var. Elə et ki, «H»-lər həddən artıq çox, «F» və «B»-lər həddən artıq az olmasın. | Müxtəlif hislərin təsvirinə yer verilməsinə diqqət et. Hansı yoxdursa, əlavə et. Əsas fikri çatdırmağa yardım edən bədii təsvir vasitələrinin olmasına xüsusi diqqət yetir. Əgər yazıda təsvir vasitələrinə az yer verilibsə, uyğun nümunələr yaratmaqla digər fikirləri onlarla əvəz et. |
| 3. *Təsviri mətndə müəllifin düşüncələri və hisləri öz əksini tapıbmı?* | Birinci şəxs əvəzliklərinin yanında ulduz (mən, biz) yaz. Əgər hər paraqrafda ən azı bir ulduz görməsən, düzəliş apar. | Elə et ki, birinci şəxsin düşüncələri təsvir vasitələrilə (bədii, hiss və faktlar) öz əksini tapsın. |
| 4. *Mətn məkanda təsvir edilənlərin ardıcıllığı, yaxud da təqdim edilən məsələlərin əhəmiyyətliliyi baxımından təşkil edilibmi?* | Mətndə istifadə edilmiş vasitələri sıra ilə düz. Sonra təsvir edilən məkanın sözlə sadə xəritəsini çək. Siyahıya aldığın vasitələri orada yerləşdir. Yoxla. Siyahıdakı nümunələrdən yararsızlarını kənarlaşdır və ya düzəliş etməklə münasib yerdə yaz. | Yenidən təşkil et.<br>• Müşahidə edilən, yaxud təsəvvür olunan məkanda təsvir edilənlərin ardıcıllığına riayət et (uzaqdan yaxına, yüksəkdən aşağıya və s.).<br>• Təqdim edilən məsələlərin əhəmiyyətliliyi baxımından ardıcıllığı gözlə (az əhəmiyyətlidən çox əhəmiyyətliyə doğru və ya çox əhəmiyyətlidən az əhəmiyyətliyə doğru). |
| 5. *Nəticədə çatdırmaq istədiyin fikri yekunlaşdır.* | Fikirlərini yekunlaşdıran cümləni mötərizəyə al. Əgər belə bir cümlə yazmamısansa, həmin fikri formalaşdırıb yaz. | Əsas fikri yenidən vurğulayan elə cümlə əlavə et ki, apardığın təsvir işini yekunlaşdırsın. |



Çap üçün deyil

**İkinci oxu**

Yazdığın mətni ikinci dəfə oxuyarkən məqsədin yazını **üslub** baxımından yaxşılaşdırmaqdır. Təsviri mətn yazmaq üçün çoxsaylı sifətlərdən (təyinlərdən), yəqin ki, istifadə etmisən. Mətni oxuyanda diqqət et ki, eyni məna verən sifətlər yersiz yerə təkrarlanmasın. Əgər belə hallar varsa, düzəlişlər aparmaq lazımdır.

Üslub — yazının dil və ifadə üsulu

**Məsələn:** *Müxtəlif rəngarəng* çiçəklər görünürdü.

Bu mətndə «müxtəlif» və «rəngarəng» sözləri, əslində, eyni məna daşıyır. Yadda saxla ki, təkrarlar yazının üslubuna xələl gətirir, onu oxunaqsız edir.

| Qiymətləndirici suallar | Məsləhətlər | Yoxlama üsulları, texnikaları |
|---|---|---|
| Cümlələrdə lazımsız təkrarlanan sifətlər (təyinlər) varmı? | Təkrarlanan sifətləri (təyinləri) dairəyə al. (Buraya vergüllə, və, həm, həm də və s. bağlayıcılarla bağlanan sifətlər daxildir.) Bu sifətlərin eyni məna verib-vermədiyini yoxla. | Təkrarlanan sifətlərin (təyinlərin) birini sil və ya yerini dəyiş. Sifətlərdən birini əksmənalı sözlə əvəz et və cümlənin tərtibatında dəyişikliklər et. Məsələn: «O, çox zəhmətkeş və çalışqan idi» cümləsini «O, çox zəhmətkeş idi. Heç kəs onun tənbəl olduğunu deyə bilməzdi» kimi tərtib etmək olar. |

## Cütlərlə yoxlama

Yoldaşından xahiş et ki, yazdığın mətni oxusun və bu suallara cavab versin:

1. Bu yazıda hansı vasitələri daha çox bəyəndin və nə üçün?
2. Bu yazı müəllifin hansı cəhətlərini nəzərə çatdırır?



Çap üçün deyil

# BƏDİİ ƏSƏRLƏRDƏ NƏQLETMƏ

## İ.ŞIXLI. «SƏNƏ ASLANIM DEYƏN» HEKAYƏSİ
### (BƏDİİ ƏSƏRLƏRDƏ NƏQLETMƏ)



*Nəqli əsərin hissələri necə yaradılır?*

Kiçik yaşlarında olanda ana-atan, yaxud baba-nənən sənə müxtəlif nağıllar («Cırtdan», «Göyçək Fatma», «Tıq-tıq xanım»), ya da başlarına gələn hadisələrdən danışardılar. Belə mətnlər nəqli mətnlər adlanır. Nəqli mətnlər, əsasən, keçmişdə baş verən hadisələrdən bəhs edir.

Nağıllar, əfsanələr, rəvayətlər, hekayələrin bir qismi nəqli mətn nümunələridir. Bu əsərlər insanların zövqünü oxşamaqla yanaşı, həm də onları düşündürür, tərbiyə edir. Belə bədii nümunələr uzun illər toplanmış həyat təcrübəsini öyrənməkdə və onlardan nəticə çıxarmaqda insanlara kömək edir.

Nəqli mətnlərdə müəyyən ardıcıllıqla bir və ya bir neçə hadisədən bəhs edilir. Hadisələr inkişaf etdikcə problemlər yaradılır. Sonra isə həmin problemlər öz həllini tapır və mətn başa çatır.

***Tapşırıq 1.***

1. «Sənə aslanım deyən» hekayəsini oxumazdan əvvəl oxuya hazırlıq işləri apar.

2. **Düşün:** Bu mətn nəqlidirmi? Əgər nəqli mətndirsə, bunu necə müəyyən etdin? Əgər nəqli mətn deyilsə, nə üçün? Fikirlərini əsaslandır.

## SƏNƏ ASLANIM DEYƏN
Hekayə
*(İxtisarla)*

> Bu sözün mənasını izah edə bilərsənmi? İzah edə bilməsən, mətni sona qədər oxu və yenidən cəhd et.

Adı dünyaya yayılmış **Diziaynalı** pəhləvan bir gün şahın hüzuruna gələndə baş əymədi. Vəzir-vəkili də saymayıb dərhal yuxarı keçdi. İçəridəkilər onu gözaltı süzsələr də, qorxularından heç nə demədilər. Bi-

Çap üçün deyil

lirdilər ki, şah istəkli pəhləvanına söz deyənin boynunu vurdurur. Diziaynalı, adəti üzrə, şahın sağ tərəfində əyləşdi, dəstəyi naxışlı, uzun, enli qılıncını dizinin üstünə qoyub şəstlə içəridəkiləri süzdü. Şah da dinmədi. Həmişə başını tumarlayıb kürəyinə döydüyü sevimli pəhləvanının axır vaxtlar heç kəsi saymadığını, bu gün isə onun özünə belə məhəl qoymadığını görsə də, susdu. Ancaq hiss etdi ki, barmaqları şahlıq taxtının dirsəkliyini sıxdı.

Səncə, bu hekayədə nədən bəhs ediləcək?

— Necəsən, oğlum?

— Keyfin yaxşı olsun.

— Güləşməyə hazırsanmı?

— Güləşməyə yox, dünyanı çiynimə qaldırıb yerə çırpmağa da hazıram. Bu saat qollarımda elə güc var ki, heç kəs, heç kim qabağımda dayana bilməz!

— Yəni deyirsən, dizini yerə gətirən olmaz?

— Elə oğulu hələ anası doğmayıb.

Pəhləvan ayağa durdu. Sinəsini qabardıb şahın önündə dayandı. Onun enli kürəyi otağın yarısını tutdu. Şah pəhləvanının iri, cod əllərinə, tüklü qollarının şişmiş əzələlərinə, şüşənin altından aydın görünən diz kündələrinə, döş qəfəsinin aşağısına, qabırğalara doğru uzanan və paltarın üstündən belə aydınca hiss edilən girdə əzələlərinə və nəhayət, boynuna bitişmiş çiyinlərinə baxdı. Onun çiyni və sinəsi o qədər qabarıq idi ki, bunların müqabilində başı olduqca balaca görünürdü.

— İstəyirsən, bu saat buradakıların hamısını büküb alım dizimin altına!

Şahın qaşları çatıldı. Sifətindən qəzəb qarışıq acı bir təəssüf keçdi:

— Lazım deyil.

Şah qəzəbini boğub zorla gülümsündü. Diziaynalı bu gülüşdəki məzəmməti duymadı.

— Sabahkı döyüşdən qabaq səni bir yerə göndərəcəm.

— Hara?

— Qəbiristanlığa.

— Nə?!

Əvvəlcədən deyə bilərsənmi, bundan sonra nə baş verəcək?

Şah pəhləvanının təəccübünə əhəmiyyət vermədi. Sakitcə sözünə davam etdi.

— Gedərsən qəbiristanlığa, Rüstəm Zalı çağırarsan.



Çap üçün deyil



— Ölü mənim nəyimə lazımdır?

— Gərək olar.

Pəhləvan gəldiyi kimi, gedəndə də heç kəsi saymadı.

O, şəhərin kənarındakı qədim qəbiristanlığın girəcəyində ayaq saxladı. Xəfif külək yovşan qoxulu havanı onun üzünə çırpdı. Qəbiristanlıq böyük idi. Üstü naxışlı uca, iri başdaşları qibləyə üz tutaraq qatarlaşmışdı. Daşların üstünə qəbirdə yatanların sənətini bildirən şəkillər çəkilmişdi.

Pəhləvan asta və ləngərli addımlarla lal sükuta qərq olmuş qəbirlərin arası ilə ortadakı təpəyə doğru addımladı. Otlar saralmışdı. Çökmüş qəbirlərin ətrafında böcəklər dolaşırdı. O, qurumuş otların, yovşanların arası ilə addımladıqca çəyirtkələr ətrafa sıçraşırdı. Pəhləvan bəzən büdrəyib çuxura düşür, ayağının altında sümüklər ovxalanırdı.

Diziaynalı dikdirdə dayanıb nəfəsini dərdi. Nizami qoşun kimi sıralanmış başdaşlarına baxıb saymazyana qışqırdı:

— Ay Rüstəm!

Qəbir daşları tərpəndi. Müxtəlif tərəflərdən, yerin altından çıxanlar asta-asta ona yaxınlaşdılar. Pəhləvanın qarşısında da-

Çap üçün deyil

yanıb intizarla gözlədilər. Diziaynalı onları təkəbbürlə süzüb gülümsündü:

— Sizi kim çağırıb?

— Sən.

— Siz kimsiniz?

— Rüstəmik.

Pəhləvan qəhqəhə çəkdi. Əvvəlcə istədi onları qabağına qatıb qəbiristanlıqdan qovsun. Sonra fikrini dəyişdi:

— Mənə siz yox, Rüstəm Zal lazımdır.

Ölülər daşları qaldırıb qəbirlərin altında yox oldular.

Diziaynalı pəhləvanın sükutdan qulaqları cingildədi. Üfüqə doğru əyilmiş günəşin qürub sarılığında daha vahiməli görünən baş daşlarına baxıb yenidən qışqırdı:

— Rüstəm Zal, hey!..

Onun səsi qəbir daşlarına toxunub cingildədi. Pəhləvan qulaq verib öz səsinin əks-sədasını dinlədi. Birdən ayağının altında yer titrədi. Başdaşları silkələnib şaqqıldadı və Diziaynalı gördü ki, qəbiristanlığın aşağı tərəfindən bir təpə qalxdı və onun üstünə yeridi. Diziaynalını vahimə basdı. Dalı-dalı geri çəkilib kürəyini uca bir başdaşına söykədi. Əlini qılıncın dəstəyinə aparıb gözlədi.

Gələn insan idi. Yeridikcə dizə qədər torpağa batırdı. Onun enli kürəyi günəşin qabağını kəsdiyindən qəbiristanlığa qaranlıq çökdü. Ətrafdakı quru otlar, yovşan kolları tərpənib xışıldadı. Elə bil külək əsdi. Diziaynalının bədənini soyuq tər basdı. Çığırmaq istədi, səsi çıxmadı. Vahiməli-vahiməli qılıncını siyirib havada yellədi. Qüvvətli bir əl onun qolunu burub yanına saldı:

— Özünü niyə itirdin?

— Sən kimsən?

— Rüstəm Zalam.

O, kənara durdu. Pəhləvanın üzünə gün düşdü. Diziaynalı təpimiş dodaqlarını yalayıb qarşısında dayanan nəhəngə baxdı:

— Niyə torpağa batırsan?

— Görünür, torpaq yumşaqdır.

— Bəs mən niyə batmıram?

— Yəqin, mən səndən ağıram.

— Yəni demək istəyirsən ki, səndən güclüyəm?

— Bilmirəm. Hələ səninlə gücümü sınamamışam.

— Sən pəhləvansan?



Çap üçün deyil

Rüstəm Zal gülümsündü:

— Sözünü de.

— Diziaynalı onun mehribanlığından azacıq ürəkləndi və altdan yuxarı Rüstəmin üzünə baxdı. Bu nəhəngin qarşısında nə qədər balaca və cəlәfsiz olduğunu dərk etdi.

— Bəs sənin sorağın qulağıma niyə dəyməyib?

— Hamı sənin kimi adlı-sanlı olmaz ki?

— Yoxsa mənim güclü pəhləvan olmağıma inanmırsan? Məni bütün dünya tanıyır. Hamı qabağımda zağ-zağ əsir. Neçə pəhləvanın kürəyini yerə vurmuşam, ancaq hələ mənim dizimi yerə gətirən olmayıb.

— Bilirəm.

— Dördböyrək pəhləvanı mən yıxmışam.

— Bilirəm.

— Kəlboynunu da mən dizimin altına almışam.

— Onu da bilirəm.

— Haçaürək pəhləvanı necə danaboyun elədiyimi də, yəqin, eşitmisən?

— Eşitmişəm.

— Bəs niyə gülürsən?

— Ona görə ki o pəhləvanlar səndən güclüdürlər.

— Necə? Məndən güclüdürlər? Bəs niyə kürəklərini yerə vurub dizimin altına alıram? Bəs niyə qabağımda duruş gətirə bilməyib yıxılırlar?

Bu barədə sən nə düşünürsən?

— Şahın qorxusundan.

— Şahın buraya nə dəxli var?

— Var, əzizim, var. Əgər o sənin dalında durmasa, bircə gündə yox olarsan.

— Elə şey yoxdur. Mənim özüm güclüyəm. Mənim qabağıma heç kəs çıxa bilməz. Nə qədər ad-san qazanmışamsa, özüm qazanmışam. Mənim dizimi yerə gətirən hələ anasından olmayıb. Ona görə mənə Diziaynalı deyirlər.

Rüstəm gülümsündü. Yuxarıdan aşağı baxıb qarşısındakı pəhləvanın pörtmüş sifətini, qılıncın dəstəsindən necə yapışdığını gördü. Onun xoruz kimi boynunu şax tutub dünyaya meydan oxumaq meylində olduğunu anladı. Əlini pəhləvanın çiyninə qoyub ehmalca aşağı basdı. Diziaynalı ağırlıq altına düşmüş yay kimi sıxılıb balacalaşdı. Nə qədər silkələndisə, çiynindəki ağırlığı ata bilmədi. Özü də hiss etmədən büzüşüb aşağı çökdü. Dizləri yerə gəldi. Rüstəm onun dizlərinin ehmalca yerə endiyini hiss edib dayandı. Bir balaca da əlinin ağırlığını salsaydı, pəhləvanın diz-

Çap üçün deyil

lərindəki aynalar sına bilərdi. Rüstəm bunu istəmədi. Əlini boşaltdı. Pəhləvanın çiynindən tutub yuxarı qaldırdı. Sıxılmış «yay» indi də asta-asta açılıb dikəldi. Rüstəm əlini götürdü. Pəhləvan ufuldanıb dərindən nəfəs aldı. Bilmədi, gözünü gün qamaşdırdı, yoxsa başının üstündə qığılcım oynadı. Özünə gələndə gördü ki, qəbiristanlığı bürüyən kölgə uzaqlaşdı. Yenə ayağının altında yer titrədi, baş daşları silkələnib şaqqıldadı. Rüstəm Zal yox oldu. Pəhləvan çiynini ovxalaya-ovxalaya onun dalınca qışqırdı:

— Sənin ki belə gücün var, bəs niyə mənim kimi məşhur deyilsən?

Yerin altından səs gəldi:

— Sənə «aslanım» deyən mənə «pişiyim» desəydi, dünyanı çiynimdə gəzdirərdim.

Səncə, bunun səbəbi nə idi?

Diziaynalı kürəyini söykədiyi başdaşının dibinə çömbəldi. Qolu ilə alnındakı soyuq təri sildi.

Qəbiristanlığa ağır və vahiməli bir sükut çökdü.

***İsmayıl Şıxlı***

***Tapşırıq 2.***

1. Hekayəni oxuduqdan sonra «Oxudan sonra» təlimatını (səh.14) yerinə yetir.

**Ev tapşırığı:**

Əlavə oxu materiallarından M.Rzaquluzadənin «Xan çinarın bir yarpağı» hekayəsini oxu. Səncə, bu, nəqli-bədii mətndirmi? Fikrini əsaslandır.

***Bunu bilməlisən!***

Yazıçı İsmayıl Şıxlı «Sənə aslanım deyən» hekayəsini bir Azərbaycan əfsanəsinin əsasında yazmışdır. **Əfsanə**, əsasən, xalqın tarixini, xəyal və arzularını özündə əks etdirir. Azərbaycan əfsanələri rəngarəngdir. Heyvanlar, quşlar, ağaclar, güllər, çaylar, göllər, qalalar, abidələr, müxtəlif yer adları, tarixi şəxsiyyətlər və s. haqqında əfsanələr var. «Hüt-hüt quşu», «Şirin qala», «Daş gəlin», «Kəklik», «Turac» və s. belə əfsanələrdəndir.

Nizami Gəncəvi, Səməd Vurğun, Süleyman Rəhimov, Cəfər Cabbarlı bəzi əsərlərini əfsanələr əsasında yazmışlar.



Çap üçün deyil

## M.ÇƏMƏNLİ. «İGİD MÜBARİZ»
### (MƏTNİN OXUSU. PROQNOZLAŞDIRMA)



*Proqnozlaşdırma nə üçün lazımdır?*

İstənilən mətni oxumazdan əvvəl proqnozlaşdırma aparmaq lazımdır. Proqnozlaşdırma əsəri daha dərindən dərk etməyə kömək edir. Proqnozlaşdırma mətnin oxusuna başlayarkən ümumi şəkildə aparılır: «Bu əsərdə nədən bəhs ediləcək?» Oxu davam etdikcə «Bu abzasda nədən danışılacaq?», «Bu hadisədən sonra nə baş verəcək?», «Bu sözdən sonra qarşı tərəf nə cavab verəcək?» kimi ayrı-ayrı məqamları proqnozlaşdırmaq olar.

***Tapşırıq 1.***

1. Verilən əsərin oxusuna başlamazdan əvvəl oxuya hazırlıq işləri aparmağı unutma.
2. Oxuya başlayarkən proqnozlaşdırma apardığın kimi, oxu zamanı da proqnozlaşdırmalar aparmaqda davam et. Proqnozlarını qeyd et.
3. Oxudan sonra sinifdə proqnozlarınızı qarşılaşdırın. Həqiqətə ən yaxın proqnozu müəyyən edin.

## İGİD MÜBARİZ
*(«Mübariz» povestindən parça)*



Mübariz hələ uşaq olanda ermənilər əvvəl Xocalını, daha sonra Şuşa qalasını, Kəlbəcəri, Laçını, Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını, Zəngilanı işğal etmişdilər.

Bir dəfə tarix dərsi idi. Müəllimi Şuşa qalasından, onun tarixi keçmişindən, alınmaz olmağından danışırdı. Müəllim danışdıqca Mübariz düşünürdü ki, bəs ermənilər Şuşanı necə alıblar? Deməli, işğalçıları torpağımızdan vaxtında qovub çıxarmasaq, heç vaxt Şuşanı görməyəcək,

Çap üçün deyil



Cıdır düzündə at çapmayacaq, İsa bulağından su içməyəcək, Daşaltı çayında çimməyəcəyik. Belə düşündükcə Mübarizin ürəyi düşmənə intiqam hissi ilə dolurdu. Mübariz böyüdükcə, sinifdən-sinfə keçdikcə qəlbindəki intiqam hissi də böyüyürdü.

Mübariz on üç yaşında olanda boksla məşğul olmağa başladı. Atasına deyirdi ki, mən Azərbaycanın bayrağını ya idmanda, ya da orduda qaldıracam. O belə deyəndə atası Ağakərim kişi də oğlunu ruhlandırırdı:



Çap üçün deyil

— Mən sənə inanıram, Mübariz! Bayrağımız da torpaqlarımız kimi müqəddəsdir. Onları hər zaman ürəkdən sev, vicdanın və namusun kimi qoru.

Mübariz İbrahimov orta məktəbi bitirib əsgər getdi. Daxili Qoşunlarda xidmət edirdi. Amma bu, çox da ürəyincə deyildi. O, Milli Orduda, ön cəbhədə, düşmənlə üzbəüz bölgələrdə xidmət etmək istəyirdi. Mübariz əsgərliyi başa vurandan sonra evlərinə döndü. Amma kəndlərində də çox qala bilmədi, Bakıya gəlib bir müddət burada işlədi. Yox, bütün bunlar onun ürəyincə deyildi. Milli Orduda xidmət etmək, düşməndən intiqam almaq istəyirdi. Atası ilə məsləhətləşib gizirlik kursuna getdi. Kursu bitirib ön cəbhəyə yollandı. Hər gün səngərdən işğal olunmuş torpaqlara baxmaq çox ağır idi.

Düşmən hər gün atəşkəsi pozurdu. Bir gecə Mübariz düşmənin bu azğınlığına dözə bilmədi. Üçrəngli Azərbaycan bayrağını götürüb səngərdən çıxdı.

Susuzluqdan yanan kol-kosa, sirkan topasına, tez-tez rast gəldiyi xırdaca təpəciklərə sinə-sinə, Allahı köməyə çağıra-çağıra gedirdi. «Kaş bircə minaya düşməyəydi!»

Bir ulğun ağacına çatıb yerə uzandı. Dincini alıb qarşı tərəfə süründü. Qulağına oxumaq səsi gəldi. Erməni əsgəri bizim «Sarı gəlin» xalq mahnısını oxuyurdu. Sözlərini başa düşməsə də, melodiyasını yaxşı bilirdi. Fikirləşdi ki, «Torpaqlarımızı tutmalarından utanmır, hələ bir mahnılarımıza da sahib çıxırlar. Eh, kin dolu ürəklə heç mahnı da qoşmaq olarmı? Erməniləri gec-tez kin məhv edəcək».

Başa düşdü ki, düşmən səngəri lap yaxınlıqdadı. On-on beş addım da irəli süründü. İnanılmaz cəldliklə səngərə atıldı. Səs olmasın deyə silahı işə salmadı. İlk qarşısına çıxan düşmənin beşini məhv edib, üçünü isə ağır yaraladı. Daha tərəddüdə yer yox idi. Lənət şeytana deyib, geriyə də qayıda bilərdi. Yox, geriyə yol yoxdu, ancaq irəli. Əlinə keçən silahları da götürüb səngərdən çıxdı. Azərbaycan bayrağını torpağa sancdı: «Can Vətən!» — deyib qalxdı. Fikri düşmənin kazarmasına girib əsgərlərin arasında çaxnaşma salmaq idi. İrəliləyirdi. Ay başının üstə idi. Kölgəsi özündən qabaqda gedirdi. Birdən ona elə gəldi ki, iyirmi min şəhid də onun ardınca irəliləyir...



Çap üçün deyil



Nəhayət, düşmənin kazarması görsəndi. Yenə yerə uzanıb ətrafı dinşədi. Burnuna torpağın qoxusu dəydi. Əkilib-biçilməyən, hələ də sahibini gözləyən torpağın... Saat bir olardı. Qalxıb özünə bir neçə səngər bələdlədi. Bələdlədiyi səngərlər bir-birindən çox da aralı deyildi. Silahları yerləşdirdi, bacardığı qədər düşməni çaşdırmalı idi. Deyəsən, kazarmadakılar postdakı əsgərlərə arxayın olub dərin yuxuya getmişdilər. Bir az da gözlədi, göyə baxdı, ay buludların arxasına çəkilmişdi. Nəhayət, avtomatını düşmənə tərəf çevirdi. Atəş səsləri gecənin sükutunu pozdu...

Dayanmadan atəş açırdı. Yerini tez-tez dəyişirdi. Düşmən çaş-baş qalmışdı. Gecənin bir aləmində qəfil peyda olan bəlanın haradan gəldiyini hələ də anlaya bilmirdilər. Düşmən əsgərlərindən də özünü ələ alanlar oldu. Döyüş get-gedə şiddətlənirdi. Düşmən elə bilirdi ki, böyük bir dəstə üstünə gəlib. Karıxmışdılar, təntimişdilər, çaşmışdılar, ona görə də bir-birinə atəş açırdılar.



Çap üçün deyil

Mübariz qan-tər içində idi. Güllə atmaqdan biləyi ağrıyırdı. Ovcunun içi də bərk göynəyirdi. Amma bütün bunlara dözürdü...

Düşmən onu tələyə salmaq istəyirdi. Mübariz son gücünü toplayıb geriyə qaçırdı. Qorxudan yox, sadəcə tələsirdi, çox tələsirdi... O, Allahdan çox yox, bir-iki dəqiqə möhlət istəyirdi. Bir qədər irəliləyəndən sonra Yuxarı Çaylı kəndinin yoluna çıxdı. Tələsirdi, canını qurtarmağa yox, namaza durmağa.

Gecənin sakitliyində düşmən əsgərlərinin ayaq səslərini aydınca eşidirdi. Yoldan çıxıb yerə yıxılmış tənək dirəyinin yanında ayaq saxladı. Avtomatı çiyninə aşırıb, üzünü geriyə tutub, əllərini Allahın dərgahına açdı: «Ey böyük Allah, bu günə şükür, arzumu ürəyimdə qoymadın. Günahım varsa, bağışla, Tanrım! Allahım, şəhidliyimi qəbul et! Vətən sağ olsun!»

Ayaq səsləri yaxınlaşırdı. Mübariz diri tutulmaqdan ehtiyatlanıb avtomatı əlinə aldı. Hələ bir-iki gülləsi vardı. Elə bu anda düşmənin atdığı güllə onun sol böyründən dəydi. Arxası üstə çevrildi. Güclə: «Vətən sağ olsun!» — deyə bildi. Dağlar əks-səda verdi: «Vətən sağ olsun!»

İyirmi min müqəddəs şəhidimizin ruhu Mübarizin də qəhrəman ruhunu götürüb göylərə — öz yanlarına apardılar.

***Mustafa Çəmənli***

***Tapşırıq 2.*** Hansı proqnozun özünü doğrultmadı, lakin onun doğru olmasını istərdin? Bunun üçün nə kimi dəyişiklik aparardın?

**Yaradıcı tətbiqetmə:**

Əlavə oxu materiallarından marağına uyğun olan bir mətni seç. Oxudan əvvəl və oxu zamanı proqnozlaşmalar apar. Proqnozlarını qeyd et. Hər abzası oxuduqca verdiyin proqnozun əsərlə üst-üstə düşüb-düşmədiyini yoxla və əsərdəki variantı qarşı sütuna yaz:

| Proqnoz | Əsərdə verilən variant |
|---|---|
| | |



Çap üçün deyil

# I. BƏDİİ ƏSƏRLƏRDƏ OBRAZLAR



*Əsərdəki obrazın təhlili nə üçün lazımdır?*

Əziz məktəbli, nəqli mətnlər müxtəlif quruluşa malik olur. Hələlik sadə quruluşlu mətnlərlə tanış olacaqsan. Bilirsən ki, nəqli mətnlər keçmişdə baş verən hadisələri əhatə edir. Bu mətnlərdə hadisə, sadəcə, nəql edilir. Nəqli mətnləri oxumaq, yadda saxlamaq və dərk etmək asandır. Nəqli mətnlərdə hərəkətlərin icra olunduğu yer, zaman, bu hərəkətləri icra edən şəxslər, yəni obrazlar olur.

Nəqli mətnlərin müəllifi hadisənin əsas obrazlarını və onların başlıca xüsusiyyətlərini yaxşı bilməli, mətni hadisənin mahiyyətinə uyğun qurmalıdır.

*Nə öyrənəcəksən?*
- Obrazları təsvir edəcəksən;
- Əsas obrazların başlıca xüsusiyyətlərini müqayisə etməklə oxşar və fərqli cəhətlərini müəyyənləşdirəcəksən.
- Bədii nümunələrdə əsas obrazları, əsərin quruluşunu, onların ayrı-ayrı elementlərini və komponentlərini müəyyən etməyin yollarını öyrənəcəksən.

## M.ÇƏMƏNLİ. «İGİD MÜBARİZ»
### (ƏSƏRDƏ OBRAZIN BAŞLICA XÜSUSİYYƏTLƏRİ)

Bədii əsərdəki hər bir obraz və onun xarakterik xüsusiyyətləri əsərdəki əsas fikrin çatdırılması baxımından əhəmiyyətlidir.

İnsanlar, heyvanlar və digər varlıqlar əsərin əsas obrazı ola bilər. Obrazın əsas xüsusiyyətləri oxucuya onun düşüncə, hiss, hərəkət, məqsədləri və digər amillərlə çatdırılır. Obrazın öz dilindən deyilən fikirlər, eləcə də digərlərinin onun barəsində söylədikləri həmin obraz haqqında təsəvvür yaradır. Sən bədii təsviri mətnləri öyrənərkən əşya, hadisə və məkanın təsvir edilməsi yollarına bələd olmusan. Odur ki oxuduğun əsərin qəhrəmanını təqdim edilən məsələlər baxımından təsvir etmək sənin üçün çətin olmayacaq.



Çap üçün deyil

## Əsər üzərində iş

***Tapşırıq 1.***

1. «İgid Mübariz» mətnində əsas obrazın başlıca xüsusiyyətlərini müəyyən etmək üçün mətni yenidən oxu. Mübariz obrazını aşağıdakı məqamlar baxımından təsvir et.
2. Gəldiyin nəticələri qruplarda müzakirə et.

**NÜMUNƏ**




***Qeyd:*** İşə başlamazdan əvvəl şəkli vərəqə (A4), yaxud dəftər vərəqinə çək. Təhlillərini həmin vərəqdə apar. Nəticəni müəllimə təqdim et.

Çap üçün deyil

*Tapşırıq 2.*

1. Oxuduqlarını həyatda baş verən hadisələrlə və ya oxuduğun digər bədii əsərlərlə əlaqələndir.
2. Oxuduğun mətnin ideyası üzərində düşün.

**Yaradıcı tətbiqetmə:**

Əlavə oxu materiallarından marağına uyğun olan bir mətni oxu. Əsas obrazı təqdim edilmiş iş vərəqindən istifadə etməklə təsvir et.

## «MƏRD VƏ NAMƏRDİN NAĞILI»
### (ƏSƏRDƏKİ OBRAZLARIN XÜSUSİYYƏTLƏRİNİN MÜQAYİSƏSİ)

Bildiyimiz kimi, bədii əsərlər həyatın obrazlı ifadəsidir. Yəni həyatda olduğu kimi, əsərlərdə də insanlar xarici görünüşünə, düşüncələrinə, hislərinə, məsələlərə münasibətinə görə fərqli və oxşar olurlar.

Bədii əsərdə bu oxşarlıqların və fərqlərin xüsusi əhəmiyyəti var. Bu, oxucuya həyatda qarşılaşdığı insanların ayrı-ayrı xüsusiyyətlərini müəyyən etməyə və ondan çıxış edərək həmin insanın şəxsiyyəti barədə nəticələrə gəlməyə kömək edir.

Ətrafdakıları qısa müddətdə tanımaq onlarla ünsiyyətin və münasibətin qurulmasına yardımçı ola bilər.

Yazıçı ayrı-ayrı obrazların oxşar və fərqli cəhətlərindən ideyanı yaradan fikirlərin formalaşmasında istifadə edir.

*Tapşırıq 1.*

1. Verilən əsərin oxusuna başlamazdan əvvəl oxuya hazırlıq işləri aparmağı unutma.
2. Əsas obrazları müəyyənləşdir. Müəllimin təqdim etdiyi işçi vərəqləri üzrə onları təsvir et.
3. Həmin obrazların oxşar və fərqli cəhətlərini müəyyən etməyə çalış.



Çap üçün deyil

**NÜMUNƏ** Sinif ________ şagird ________

Əsərin adı ________ Müəllif ________

Obraz ________ Obraz ________




4. Təklikdə gəldiyin qənaətləri qrupda yoldaşlarınla müzakirə et və ümumi qənaətə gəlin.

## MƏRD VƏ NAMƏRDİN NAĞILI

*(Azərbaycan xalq nağılı)*

Səncə, bu nağılda nədən bəhs edilir?

Biri var idi, biri yox idi, Allahdan başqa heç kim yoxdu. İki yoldaş vardı. Birinin adı Mərd, o birinin adı Namərd. Günlərin bir günündə Mərdlə Namərd çıxdılar səfərə. Mərd hara çatırdı süfrəsini açırdı. Namərdə deyirdi:

Səncə, bunun səbəbi nə idi?

— Buyur, çörək ye!

Çap üçün deyil

Namərd də Mərdlə bir yerdə çörəyini yeyirdi. Bir-iki dəfə Mərd buna çörək yeməyi təklif etdi. Namərd bunun çörəyindən yedi, ta o vaxta qədər, Mərdin çörəyi qurtardı. Mərd oldu Namərdə **möhtac**. Bir az bunlar yol getdilər. Mərd və Namərd bir ağacın dibində oturdular. Namərd süfrəsini açdı. Mərd yaman acmışdı, dedi Namərdə ki, bir az çörəyindən ver mənə, yaman acmışam.

Əvvəlcədən deyə bilərsənmi, bundan sonra nə baş verəcək?

Bu sözün mənasını izah edə bilərsənmi? İzah edə bilməsən mətni sona qədər oxu və yenidən cəhd et.

Namərd dedi:

— Sol gözünü ver, çıxardım qoyum sol cibinə, bir az çörək verim sənə, ye.

Mərd baxıb gördü ki, əgər sol gözünü verməsə, buna çörək verməyəcək. Bu da ki acdı, heç bir yana gedə bilməyəcək. Mərd razı oldu. Namərd Mərdin sol gözünü çıxardıb qoydu sol cibinə, bir parça çörək verdi. Mərd çörəyi alıb yedi. Bunlar bir günorta yol getdilər. Namərd yenə süfrəsini açıb, başladı çörək yeməyə. Mərd gördü ki, Namərd buna çörək yeməyi təklif etmir, dedi:

Bu barədə sən nə düşünürsən?

— Namərd qardaş, yaman acmışam. Mənə bir parça çörək.

Namərd dedi:

— Sağ gözünü ver çıxardım, qoyum sağ cibinə, bir parça çörək verim.

Mərdin əlacı kəsilib razı oldu, Namərd ayağa durub Mərdin sağ gözünü çıxardı, qoydu sağ cibinə. Mərdə bir parça çörək verib, durub düzəldi yola.

Namərd çıxıb getməkdə olsun, xəbəri sənə kimdən verim Mərddən. Mərd əlini yerə sürtə-sürtə gedib çıxdı köhnə xarabalığa. Burda özünə bir yumşaq yer tapıb oturdu.

Deyə bilərsənmi, bundan sonra nə baş verəcək?

Bu burda qalmaqda olsun, sənə kimdən xəbər verim, şirdən, pələngdən, qurddan, tülküdən. Şir, pələng, qurd, tülkü gəlib çıxdılar bu xarabalığa. Hərəsi bir yanda oturdu. Pələng şirdən xəbər aldı ki, dünyada nə təzə xəbər var?

Şir dedi:

— Pələng qardaş, sağlığın. Hələ bir təzə xəbər yoxdu, salamatlıqdı.

Şir qurddan soruşdu ki, qurd lələ, səndə nə təzə xəbər var?

Qurd gözünün yaşını axıda-axıda dedi:



Çap üçün deyil



— Bazarım yaman kasaddı.

Şir dedi:

— Qurd lələ, bazarın niyə kasaddı?

Qurd dedi:

— Bu dağı ki gəzirsiniz, bu dağın ətəyində bir çoban var. Bu çobanın tulası kimi tula yoxdu. Mən hər axşam gedib quzudan, qoyundan nə rastıma gəldi, çalıb-çapıb götürüb bununla dolanardım. Amma srağagündən bu çobanın bir tulası var. Nə qədər edirəm, çobanın qoyunlarına yaxın durum, tulanın qorxusundan heç bir iş görə bilmirəm.

Şir dedi:

— O tulanın qanı dərmandır. Hər kim naxoş olsa, hər hansı naxoşluq olsa, tulanın qanından içən kimi sağalar.

Mərd bu sözü yadında saxladı. Şir tülküyə dedi:

— Tülkü lələ, sən danış görək, sənin bazarın necədir?

Tülkü dedi:

— Mənim bazarım yaxşıdı, heç bir kasadlığım yoxdu. Bu dağı ki gəzirsiniz, bu dağın o üzündə bir siçan olur. Siçan hər gün qı-

Çap üçün deyil

zılları günə sərib oturur yanında. Mən də bu qızılların qarovulunu çəkirəm. Siçan da mənə çörək verir.

Mərd bunların hamısını eşitdi. Səhər oldu. Qurd, pələng, şir, tülkü çıxıb getdilər. Mərd ayağa durub köhnə xarabalıqdan çıxdı bayıra. Gedib oturdu bir ağacın dibində. Amma bərk acmışdı. Bu dəmdə göydə iki göyərçin qanad-qanada verib gəlib oturdular Mərd oturan ağacın budağında. Böyük bacı kiçik bacıya dedi:

— Mərdlə Namərdin hekayəsini eşitmisən?

Dedi:

— Eşitməmişəm. Bir danışsana mənim üçün.

Dedi:

— Danışım. Günlərin bir günündə bir Mərd olur, bir Namərd. Mərdlə Namərd yol gedərdi. Belə oldu ki, Mərdin çörəyi yolda qurtardı. Namərdə dedi ki, bir az çörək ver mənə. Namərd Mərdin gözlərini çıxarıb ona çörək verdi. İndi budu, Mərd kor olub qalıb burda, heç kim dadına çatmır.

Kiçik bacı dedi:

— Bacı, bəs bu Mərdə heç bir kömək eləmək olmaz?

Dedi:

— Olar.

Dedi:

— Ey Mərd, yatmısan ayıl, ayıqsan eşit.

Mərd baxıb gördü ki, göyərçinlər dil olub, bir balaca yerindən tərpəndi. Böyük göyərçin dedi:

— Biz ki tərpəndik, burdan-ayağımızın altından bir lələk düşəcək. O lələyi götür, gözlərini qoyarsan yerinə. O lələyi gözlərinə çəkərsən. Gözlərin olar anadangəlmə.

Göyərçinlər sözlərini deyib qanad-qanada verib uçub getdilər. Mərd baxıb gördü ki, dizinin üstə bir şey düşdü. Əlin yerə sürtüb lələyi tapdı. Sağ gözün sağ cibindən, sol gözün sol cibindən çıxardıb, qoydu yerinə. Lələyi çəkdi gözlərinə, gözləri oldu anadangəlmə. Durub birbaş yol elədi gəlməyə, ta o vaxta qədər gəlib çıxdı bir dağın təpəsinə. Gördü ki, burda bir siçan bir xeyli qızıl töküb qabağına oturub qızılların qarovulunu çəkir. Mərd əlinə bir daş alıb tulladı siçana. Siçan gördü ki, Mərd buna daş tulladı. Tez qaçıb qorxusundan girdi yuvaya. Mərd qızılları yığışdırıb birbaş başladı yol getməyə. Az gəlib, çox gəlib, iynəyarım yol



Çap üçün deyil

gəlib özünü yetirdi bir dərəyə. Gördü ki, bir çoban qabağında bir sürü qoyun, yanında bir tula dərə ilə yuxarı çıxır.

Mərd dedi:

— Çoban qardaş, bu tulanı gəl sat mənə.

Çoban dedi:

— Tula-zad satan deyiləm.

Mərd çox dedi, çoban az eşitdi. Axırda bir çəngə qızıl verdi, tulanı bundan aldı.

Çoban yollanıb getməkdə olsun, eşit bir neçə kəlmə Mərddən. Mərd dərə ilə aşağı endi. Tulanı ayağının altına alıb, başını kəsib qanını yığdı bir şüşəyə. Cibinə qoyub düzəldi yola.

> Mərdin bu hərəkətini necə qiymətləndirirsən?

Xəbəri sənə kimdən verim İstanbul padşahından. İstanbul padşahının qızı neçə il idi ki, naxoş, yorğan-döşəkdə idi. Nə qədər həkim çağırırdılar, heç kəs əlac eləyə bilmirdi. Mərd özünü İstanbul şəhərinə yetirib gördü ki, burda bir dəstə adam padşahın imarətinin qabağına yığışıb.

Öyrəndi ki, İstanbul padşahının qızı bir neçə ildir ki, naxoşdu.

Mərd bu adamlardan ayrılıb gedib həkimlərə layiq özünə bir dəst libas aldı; özünə ziynət verib gəldi padşahın imarətinin qabağına, dedi:

— Həkiməm.

Dedilər:

— A kişi, yazıqsan, bir belə həkimlər gəlib heç bir əlac eləməyib, indi səni də öldürüb yollayarlar o birilərinin yanına.

Mərd dedi:

— Mən o yan-bu yan bilmirəm. Mən həkiməm ki, həkim. Gərək padşahın qızına baxım.

Dedilər ki, indi ki belədir, qoy gedək padşaha xəbər verək.

Padşaha xəbər gedib çatdı ki, bəs şəhərə təzə bir həkim gəlib. Padşah dedi ki, gedin çağırın o həkimi bura.

Gəlib Mərdi apardılar padşahın yanına. Padşah Mərdə dedi:

— Həkimsən?

Mərd dedi:

— Bəli, həkiməm.

Padşah dedi:

— Əgər qızımı sağaltsan, onu verəcəyəm sənə. Əgər sağalda bilməsən, sənin boynunu vurduracağam.



Çap üçün deyil

Mərd razı oldu. Mərdi gətirdilər padşahın qızının yanına. Mərd qızın nəbzindən tutub yoxladı, axırda tulanın qanından bir neçə damcı suya töküb, verdi qıza. Qız içən kimi ayıldı. Padşaha xəbər getdi ki, gözlərin aydın olsun, bəs qızın sağalıb.

Padşah bu xəbəri eşidən kimi yerindən qalxıb əmr elədi ki, təbil vurulsun. Təbil vuruldu. O günü böyük bir şadlıq elədilər. Belə ki padşah əhd eləmişdi ki, «əgər qızım sağalsa, yeddi gün, yeddi gecə şəhərimdə olan bütün fəqir-füqəralara, əlsiz-ayaqsızlara plov verəcəm».

Qazan qazanların yanına düzüldü. Aşpazlar əl-qollarını çırmalayıb düyüləri tökdülər qazanlara. Düz yeddi gün fəqir-füqəralara payladılar. Padşah bir tərəfdən də əmr etdi, öz qızının kəbinini kəsdirdi Mərdə. Mərd padşahın qızını aldı. Mərdə qırx gün, qırx gecə toy eləyib qızını verdi ona.

Xəbəri sənə kimdən verim, Namərddən. Mərd pəncərədən baxırdı, kefi yaman kök idi. Qabağında çay, əlində qəlyan, gördü ki, Namərd qardaş gəldi. Adam yolladı ki, Namərdi çağırın. Gedib Namərdi çağırdılar. Namərd baxıb gördü ki, Mərd sağalıb.

Dedi:

— Mərd qardaş, bu nə olan hekayətdir?

Mərd başına gələn bütün hekayəni Namərdə danışdı. Namərd bu sözü eşidən kimi Mərddən ayrılıb özünü yetirdi həmən köhnə xarabalığa. Namərd bir tərəfdə gizlənməkdə olsun, xəbəri sənə kimdən verim, pələngdən, şirdən, qurddan, tülküdən. Axşam ki oldu, pələng, şir, qurd, tülkü gəldilər bu köhnə xarabalığa. Pələng şirdən xəbər aldı:

— Şir qardaş, dünyada nə təzə xəbər var?

Şir dedi:

— Sağlıq, salamatlıq. Heç bir təzə xəbər yoxdu.

Şir qurddan xəbər aldı:

— İndi kefin necədir?

Qurd dedi:

— Bu saat kefim bərk kökdü. O çobanın yanında ki tula vardı, indi o tula yoxdu. Mən də gündə bir qoyun gətirib asudə yeyirəm. Daha qorxum-filanım yoxdu.

Qurd gördü ki, tülkü mısmırığın sallayıb. Qurd dedi:

— Tülkü lələ, sənin kefin necədir?



Çap üçün deyil

Tülkü dedi:
— Kefim kök deyil. Ona görə ki, bazarım kasaddır.
Dedilər:
— Nə üçün?
Tülkü dedi:
— O ki siçan var idi gedib qızıllarının qarovulunu çəkərdim, indi onun qızıllarını oğurlayıblar. Onunçün kefim kök deyil, bazarım da kasaddı.
Pələng dedi:
— Burda insan var. Gəlin buranı axtaraq.
Başladılar axtarmağa. Namərdi tapdılar. Tez Namərdi parçalayıb hərəsi bir tikəsini götürüb yedi. Namərdi cəhənnəmə vasil elədilər.

Bir vaxt Mərd də bu xarabalıqda sığınacaq tapmış və salamat qalmışdı. Necə oldu ki, Namərdin burada olduğunu heyvanlar hiss etdilər?

***Tapşırıq 2.***

1. Oxuduqlarını ətrafında baş verən hadisələrlə, oxuduğun digər mətnlərlə əlaqələndir.
2. Oxuduğun mətn haqqında düşün. Bu nağıldan hansı qənaətə gəlmək olar?
3. Mətnin sonluğunda nə kimi dəyişiklik etmək istərdin?

**Yaradıcı tətbiqetmə:**

Sinifdənxaric oxu üçün kitabınıza daxil edilmiş Gülhüseyn Hüseynoğlunun «Bərk ayaqda» mətnini oxu. Təqdim edilmiş nümunə üzrə iki obrazı təsvir et və qarşılaşdır. Gəldiyin qənaətləri vərəqə yazıb müəllimə təqdim et.

***Bunu bilməlisən!***

**Nağıllar** şifahi xalq ədəbiyyatının çox qədim, həm də geniş yayılmış janrlarından biridir. Nağıllarda xeyirlə şər, işıqla qaranlıq, həyatla ölüm, haqla nahaq mübarizə aparır və həmişə xeyir şərə, haqq nahaqqa, işıq qaranlığa qalib gəlir. Nağıllar mövzusuna və məzmununa görə çox zəngindir. Nağılları sehrli nağıllar, heyvanlar haqqında nağıllar, ailə-məişət nağılları kimi qruplaşdırırlar. «Mərd və namərdin nağılı» məişət nağılıdır.

Çap üçün deyil

## T.ELÇİN. «QARĞANIN MƏKTƏBİ», Ə.ƏHMƏDOVA. «ANA LAYLASI»

### (AYRI-AYRI ƏSƏRLƏRDƏKİ ƏSAS OBRAZLARIN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ)



*Obrazları əlaqələndirmək, müqayisə etmək bacarığı nə üçün lazımdır?*

*Məktəbli dost!* Bundan əvvəlki dərsdə sən bir əsərdən iki obrazı qarşılıqlı müqayisə etdin. Onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirdin. Bu dərsdə isə ayrı-ayrı əsərlərin qəhrəmanlarının başlıca xüsusiyyətlərini müəyyən edəcək, onları qarşılaşdıracaq, oxşar və fərqli cəhətlərini aşkar edəcəksən. Ola bilər ki, oxuduğun bir əsərdə əsas obraz yüksək dəyərlərin daşıyıcısı, digər əsərdə isə mənfi cəhətlərin sahibi olsun. Yaxud hər iki əsərin əsas obrazları əsasən müsbət, ya da mənfi keyfiyyətlərə malik olsun. Biz bir əsəri digər əsərlə əlaqələndirməyi, oxuduğumuz əsərin qəhrəmanını özümüzlə, tanıdığımız insanlarla müqayisə etməyi öyrənirik. Bununla da oxuduğumuz bədii nümunələrdən ibrət götürürük.

***Tapşırıq 1.***

1. Təqdim edilən «Qarğanın məktəbi» və «Ana laylası» əsərlərini oxumazdan əvvəl oxuya hazırlıq işləri aparmağı unutma.

2. Bədii nümunələri oxu. Hər iki əsərdəki obrazları müəyyən edib adlarını xanalara yaz.

3. Obrazların başlıca xüsusiyyətləri ilə bağlı təqdim edilən cədvəlin uyğun gələn xanalarında da qeydlər apar.

4. Cədvəlləri əlaqələndirib oxşar cəhətləri olan obrazları müəyyən et.

5. Həmin cədvəlləri təkrar əlaqələndirməklə fərqli cəhətləri olan obrazları müəyyənləşdir.

6. Bu əsərlərdəki iki daha uyğun və ya fərqli xarakterli obrazı qarşılaşdırmaqla şərh hazırla.



Çap üçün deyil

7. Gəldiyin qərarı yoldaşlarınla müzakirə et.

| **Cəhətlər** / **Obrazlar** | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

| **Cəhətlər** / **Obrazlar** | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

Çap üçün deyil

## QARĞANIN MƏKTƏBİ

Gözəl yaz günlərindən biri idi. Meşədə canlanma var idi. Uçub gələn quşlar artıq özlərinə yuva qurur, bala çıxarmağa hazırlaşırdılar. Sərçələrin, bildirçinlərin, dolaşaların, bülbüllərin nəğməsi meşəyə yayılmışdı.

Bir gün meşəyə xəbər yayıldı ki, qarğa «məktəb» açıb quşlara dil öyrətmək istəyir. Xəbərdən sevincək olan quşlar qarğadan dərs almağa gəldilər.

Qarğa dərsə başladı, nə başladı. Əvvəlcə sərçəni çağırdı. Sərçəyə möhkəm bir dimdik vurub dedi:

— Qarr, qarr elə, qarr elə!

Sərçə isə öz dilində cikkildədi:

— Cik-cik!

Qarğanın xoşu gəlmədi, qəzəbləndi:

— Yox, qarr elə!

— Cik, cik.






Çap



— Qğacik, qğacik-çirik!

Qarğa sərçəni yenə də dimdikləyib itələdi:

— Qovun bu yetimçəni!

Bildirçin çağırıldı. O, qarğaya elə baş əydi ki, dimdiyi yerə dəydi.

Qarğa amiranə bir tərzdə bu səfər bildirçinə əmr etdi:

— Sən, qarr elə, qarr, qarr elə, görüm!

Bildirçinin nəğməsi ətrafa yayıldı. Üç dəfə:

— Bıl-bılıq!

Bıl-bılıq!

Bıl-bılıq! — dedi.

Qarğa qanadlarını çırparaq hirslə qışqırdı:

— Yox, olmadı, sən təzədən qarr elə! Ucadan de, qarr elə!

Bildirçin nə qədər çalışsa da qarğanın dilində oxuya bilmədi. Yenə yazıq-yazıq:

— Bıl-bılıq! Bıl-bılıq! — elədi.

O, bildirçini də dimdikləyib «məktəb»indən qovdu.

Növbə tutuquşuya çatdı.

Qarğa:

— Qarr elə, görüm, qarr elə!

Tutuquşu dimdiyini şaqqıldatdı, ayağını tappıldatdı, gözlərini yumdu, açdı, qarğanın sözlərini təkrar etməyə başladı:

Çap üçün deyil

— Qarr elə görüm, qarr elə!

Qarğa xoşhallandı, tutuquşuya xüsusi təşəkkür etdi.

Üzünü bülbüllərə tutdu və dedi:

— Oxumayın boş yerə, bilirəm ki, bir balaca səsiniz varr, guya avazla oxuyursunuz. Əgər hünəriniz varsa, mənim kimi qarr, qarr eləyin.

— Çik-ki-çivi, cik-ki-çivi, civi-çik-ki — bülbüllər oxudular.

Pırr eləyib uçdular. Onlar öz şirin nəğmələrini qarğanın dilində oxumaq istəmədilər.

İki qara dolaşa dalaşa-dalaşa qarğanın «məktəb»inə dərs almağa gəldilər.

— Gəlmişik, ağa qarğa!

— Xoş gəlmişsiniz, a bala qarğalar, qarr, qarr! Gərək siz o biri quşlardan dala qalmayasınız!

Qarğanın bu sözlərindən dolaşalar küsdülər:

— Yox, biz qarğa deyilik, dolaşayıq, dolaşa!

Onlar sağollaşmadan uzaqlaşdılar.

Daha qarğa «məktəbi»nə gələn olmadı. Orada bir qarğa qaldı, bir də qarğa dilində qarr edən tutuquşular. Onların bir-birindən çox xoşları gəldi, axı eyni dildə danışa bilirdilər.

***Teymur Elçin***

## ANA LAYLASI

Kəndin kənarında cavan bir meşə vardı. Meşənin salındığı vaxtı çoxları xatırlayırdı. Şüvərək ağaclar cərgəylə boy atmış, qol-budaq uzatmışdılar. Günlərin bir günü kəndin adamları gördülər ki, əkilən sahə əməllicə bir meşə olub. Bu ara meşədən qarğalar xəbər tutdular, qarıldayıb aləmə səs saldılar. Quşlar, heyvanlar axışıb cavan meşəyə gəldilər. Yuva tikməyə, məskən salmağa başladılar. Cavan meşənin təzə heyvanları balaladılar, körpəcə quşların səsi meşəni başına götürdü. Sakit meşə birdənbirə canlandı, səsləndi. Quşlar pırıldayıb ağacdan-ağaca qonur, kolların dibində eşələnib özlərinə yem axtarırdılar. Heyvanlar, quşlar körpəcə balalarını bəsləməyə başladılar.



Çap üçün deyil



Kirpi nəyi isə çəkə-çəkə yuvasına dartırdı. Sığırçınlar, qaranquşlar hara isə uçub gedir, ağızlarında yem tezcə də yuvalarına qayıdırdılar.

Bir gün Qarğa Kirpiyə dedi:

— Ay Kirpi bacı, hardasan, çoxdan gözümə dəymirsən?

Kirpi başını qaldırdı, qonşusu qarğanı görüb dedi:

— Heç soruşma, Qarğa bacı, başımı qaşımağa macal tapmıram.

— Niyə ki? — Qarğa təəccübləndi. — Başını qatan nədir? De, bəlkə, köməyim dəydi! De!

— Balalarım. Elə də çox yeyirlər ki, yuvaya yemək gətirməkdən yorulmuşam. Gedirəm yenə də yem axtarmağa. Nə edim? Körpələri ac qoya bilmərəm ki?!

Çap üçün deyil

— Hə, belə de, ürəyini qısma, elə mən özüm də sənin günündəyəm.

— Yəni sənin də balaların belə çox yeyir? Heç inana bilmərəm.

— Maşallah de, körpələri gözə gətirərsən, — Qarğa yem daşımaqdan yorulmuş ana Kirpiyə acıqlandı. — Elə bilirsən, təkcə sən yem daşıyırsan? Mən burdaca oturub baxıram. Hamı daşıyır. Hələ qaranquşlardan xəbərin yoxdur. Körpəcə qaranquşlar elə acgözdürlər ki! Yazıq anaları bütün günü rahatlıq bilmirlər.

— Hə, hə, düz deyirsən! Mən də görmüşəm, sarı dimdikli ağızlarını dudkeş kimi açıb dururlar. Hövsələləri çatmır, titrəyə-titrəyə yem gözləyirlər.

— Görən, bu qədər yemi necə yeyirlər, onlara ağırlıq eləmir?!

— Ağırlıq eləsə yeməzlər ki...

* * *

Günlər ötüb keçirdi. Artıq balalar bir qədər böyümüşdülər. Daha özlərinə yem axtarıb tapa bilirdilər. Bütün günü çığırışır, oynaşırdılar. Axşam olcaq yuvalarına çəkilirdilər, analarına sığınıb yatışırdılar. Analar da balalarına layla deyirdi.

Bir gün meşədə mübahisə düşdü. Hamı öz laylasını tərifləyir, onu dünyanın ən gözəl laylası sayırdı.

Kirpi dedi:

— Yer üzündə ən gözəl layla biz kirpilərin laylasıdır. Bəli, bəli! Bizim laylamızı eşidəndə heyvanların qəzəbi soyuyur, onlar bəd əməllərindən əl çəkirlər; elə mülayim, elə yumşaq olurlar ki!

Heyvanlar dedilər:

— Bir oxu görək!

Kirpi oxudu:



Darağı neylər balam,
Tikanları daraqdır.
Balam hələ yatmayıb,
Balam hələ oyaqdır.

Dovşanlar qəti etiraz edib bir səslə söylədilər:

Çap üçün deyil

— Yox, Kirpi bacı, elə şey yoxdur, bizim laylamız sizinkindən yaxşıdır. Ən gözəl laylanı ana dovşanlar deyir. Bir qulaq as:



Mənim atılıb-düşən,
Oynağan dovşan balam,
Meh vurur, ətir saçır
Yuxuna yovşan, balam!

Bu laylanı eşidən Qarğa güldü:

— Eh, gör nəyi tərifləyirlər. Yəqin, biz qarğaların laylasını eşitsəniz, ömrünüz boyu ancaq onu oxuyarsınız:



Qar-qar edər qarğalar,
Budaqları yırğalar.
Tez yatar, tez oyanar,
Tənbəl olmaz qarğalar.

Qarğanın laylasını eşidən Bülbül cəh-cəh vurdu:

Cəh-cəh vurub qaçaram,
Bağda qanad açaram.
Qızılgüllər açanda,
Nəğmə deyib uçaram.

Bülbülün məlahətli səsini eşidən kimi heyvanlar və quşlar susdular. Hamısı ən gözəl laylanın Bülbül laylası olduğunu söyləmək istəyirdi ki, kənddən gələn həzin bir səs ətrafa yayıldı:

Laylay dedim, yatasan,
Qızılgülə batasan.
Qızılgülün içində
Şirin yuxu tapasan.

— Ah, nə gözəl layladır! — Kirpi özünü saxlaya bilmədi.

Hamı kəndə sarı boylandı. Onlar bilmək istəyirdi ki, oxuyan kimdir.

Qarğa dedi:

— Bax bu layla, doğrudan da, gözəldir! Görən, kimdir onu oxuyan?



Çap üçün deyil

Bülbül qəhərləndi, dedi:

— Mən bilirəm, laylanı oxuyan Anadır, insanların Anası!

— Nədən bildin?

— Bir vaxtlar insanların evində qəfəsdə yaşayanda bu mahnını eşitmişəm. Ana oxuyar, mən dinləməkdən doymazdım. Mənə belə gəlir ki, dünyanın ən gözəl laylası Ana laylasıdır. Gəlin biz də bu laylanı öyrənib balalarımıza oxuyaq.

Bülbülün təklifi hamının xoşuna gəldi.

Dovşan dedi:

— Mən bundan belə balalarıma bu laylanı oxuyacağam.

Qarğa dedi:

— Mən də!

Kirpi dedi:

— Mən də!

O vaxtdan cavan meşədə yaşayan heyvanlar toran qovuşanda kənddən yayılan Ana laylasını dinləyir, sonra o laylanı öz laylalarına qatıb balalarına oxuyurlar:

Balam layla, a layla!
Gülüm layla, a layla!
Layla dedim adına,
Haqq yetişsin dadına.
Hər layla eşidəndə
Balam düşər yadıma.
Balam layla, a layla,
Gülüm layla, a layla!

***Əzizə Əhmədova***

***Bunu bilməlisən!***

**Layla** Azərbaycan şifahi xalq ədəbiyyatının janrlarından biridir. Analar, nənələr körpə uşaqları yatırarkən onlara layla oxuyurlar. Laylalarda körpələr ilə bağlı arzu və istəklər ifadə edilir.

Laylay dedim yatasan,
Qızılgülə batasan,
Qızılgülün içində
Şirin yuxu tapasan,
Balam laylay, a laylay,
Körpəm laylay, a laylay.



Çap üçün deyil

***Tapşırıq 2.***

1. Təmsil, hekayə və layla janrlarını səciyyəvi cəhətlərinə görə müqayisə et.
2. Əsərlər üzərində düşün. Bu əsərlərdən hansı nəticəni çıxarmaq olar?

***Tapşırıq 3.*** Aşağıdakı laylaları müqayisə et.

Darağı neylər balam,
Tikanları daraqdır.
Balam hələ yatmayıb,
Balam hələ oyaqdır.

Mənim atılıb-düşən,
Oynağan dovşan balam,
Meh vurur, ətir saçır
Yuxuna yovşan, balam!

Qar-qar edər qarğalar,
Budaqları yırğalar.
Tez yatar, tez oyanar,
Tənbəl olmaz qarğalar.

Layla dedim, yat, bala,
Yuxuna şəkər qat, bala,
Ümidim bircə sənsən,
Boya-başa çat, bala.

Evində, eşiyində,
Yat, quzum, beşiyində,
Dan ulduzu, bir də mən,
Durmuşuq keşiyində.

Layla çaldım həmişə,
Karvan enər enişə,
Yastığında gül bitsin,
Döşəyində bənövşə.

**Yaradıcı tətbiqetmə:**

1. Anandan, yaxud nənəndən uşaqlıqda sənə oxuduğu laylanı oxumasını xahiş et. Onlardan bir neçə nümunə ədəbiyyat dəftərinə yaz.
2. İnternet səhifələrindən, yaxud kitabxanadan layla nümunələri tap. Bu nümunələr arasında dəftərçənə yazdığın laylaların olub-olmadığını müəyyən et. Xoşuna gələn bir neçə layla nümunəsi əzbərlə.

***Bunu bilməlisən!***

**Təmsil,** əslində, kiçik hekayədir. Təmsil həm nəzmlə, həm də nəsrlə yazıla bilər. Burada insanlara xas sifətlər, xüsusiyyətlər heyvan, bitki və əşyalar vasitəsilə təqdim olunur. Təmsil, əsasən, tənqidi gülüşlə satirik formada yazılır və kiçik əxlaqi, nəsihətamiz nəticə ilə bitir. Müəllifin əsərdə vermək istədiyi əsas fikir bu nəticədə ifadə olunur. Təmsilin süjeti (əhvalat) çox sadə, bəsit, konkret və aydın, dili isə danışıq dilinə yaxın olur. Azərbaycan yazıçılarından Q.Zakir, S.Ə.Şirvani, A.Səhhət, M.Ə.Sabir, A.Şaiq və başqaları bir sıra gözəl təmsillər yaratmışlar.

Çap üçün deyil

# NƏQLETMƏ XARAKTERLİ ESSEDƏ OBRAZIN YARADILMASI



*Nəqletmə xarakterli essedə obrazların nə kimi rolu var?*

Nəqletmə xarakterli mətnlərdə müəllif öz oxucusunu xəyalında canlandırdığı zaman və məkana aparır. Nəqletmə xarakterli esse yazarkən həyatında baş vermiş hadisəni yadına salıb qələmə alırsan. Yaxud başqalarının qarşılaşdığı hadisələr əsasında yeni bir mətn yaradırsan. Bununla da sənin özünün, yaxud da başqa obrazların dilindən söylənən nəqletmə xarakterli mətn meydana çıxır.

***Tapşırıq 1.***

**1. Həyatında baş vermiş və səndən cəsarətli olmağı tələb edən bir əhvalatı yadına sal. Ona başlıq ver. Həmin hadisədə iştirak etmiş insanların obrazlarını aşağıda verilən sxemə əsasən təsvir et:**

1. Obrazları adlandır.
2. Təsvir xanasında obrazların xarici görkəmlərini təsvir et.
3. Obrazların məqsədlərini müəyyən et.
4. Obrazların düşüncələri haqqında qeydlər apar.
5. Obrazların dilindən söylənən, onların düşüncələrini əks etdirən cümlələri qeyd et.
6. Obrazlar hansı hərəkətləri ilə hiss və düşüncələrini nümayiş etdirirlər? Bu barədə də qeydlər apar.
7. Obrazlar haqqında başqaları nə danışır? Bunları müvafiq xanaya yaz.
8. Digər məsələlərlə bağlı istədiyin qeydləri apar.

Çap üçün deyil

**NÜMUNƏ** *




* Bu nümunəni başqa formada əlavələr etməklə də tərtib edə bilərsən.

Çap üçün deyil

# II. NƏQLETMƏ XARAKTERLİ ƏSƏRİN QURULUŞU



*Əsərin quruluşunu müəyyənləşdirmək nə üçün vacibdir?*

Oxuduğun mətni mahiyyət baxımından hissələrə ayırmaq çox mühüm oxu bacarıqlarından biridir. Nəqli mətnlərdə hadisələr, onların düzülmə ardıcıllığı, əsərin hissələri və ümumiyyətlə, mətnin elementlərinin müəyyən edilməsi fəal oxucu olmağın şərtlərindəndir. Oxucu oxuduğu mətndə bu məsələləri müəyyən etməyi bacarsa, əsərdəki əsas fikri asanlıqla aşkar edər və özü üçün nəticələr çıxarar.

## Ə.CƏFƏRZADƏ. «İKİ ANA» HEKAYƏSİ
### (NƏQLİ XARAKTERLİ MƏTNDƏ HADİSƏLƏR VƏ ONLARIN ARDICILLIĞI)

Nəqletmə xarakterli mətnlər **giriş, əsas hissə** və **nəticə** çərçivəsində bir neçə hadisənin ardıcıl düzülməsi ilə yaranır. Oxuduğun bədii nümunədə hadisələrin ardıcıllığını müəyyənləşdirmək çox əhəmiyyətli bacarıqdır. Bu, mətnin dərk olunması və nəql edilməsi işini xeyli asanlaşdırır. Hadisələrin sırasını müəyyən etməkdə açar sözlər yardımçınız ola bilər: *bir dəfə, bir müddət sonra, sonra, axırda, nəhayət* və s. Bu sözlər mətnin hissələrini bir-birindən ayırmağa kömək edir.

***Tapşırıq 1.*** Əzizə Cəfərzadənin «İki ana» hekayəsini oxumazdan əvvəl oxuya hazırlıq işi apar. Mətni oxu. Aşağıda verilən cədvəlin surətini çıxart, yaxud dəftər vərəqinə çək. Əsərdəki hadisələri müəyyən edib cədvəldə ardıcıllıqla qeydlər apar.

Çap üçün deyil

**Yaranmış problem**

↓

**Hadisə 1**

↓

**Hadisə 2**

↓

**Hadisə 3**

↓

**Hadisə 4**

## İKİ ANA

Gülyaz Küdrünün göy düzündən göy yığırdı. Azacıq aralı buludun yaşıllıqlara saldığı kölgə altında qoyduğu südəmər körpəsi yatırdı.

Birdən azacıq aralıdan qopan gurultu Gülyazın nəzərini cəlb etdi. O döndü... Bir sürü ceyran gurultuyla dərədən çıxıb düzənlik boyu Gülyaza tərəf qaçırdı. Lakin sürü başçısı Gülyazı görəndə bir anlığa dayandı və istiqaməti dəyişdi. Gülyazın həssas qəlbindən ana fəğanı qopdu. Ceyranlar onun südəmər balasını tapdalayacaq... körpə dırnaqlar altında didiləcəkdi. O qaçmağa başladı. Lakin dəstə qundağa çatınca nədənsə birdən-birə durdu. Gülyaz bir bala ceyranın büdrəyib üzüqoylu yıxıldığını gördü:

— Ah... deyə fəryad etdi. Ceyranlar yıxılan balanı və yatan qundağı dövrəyə alıb durdular. Lakin Gülyazın yaxınlaşdığını görüncə ürküb qaçmağa başladılar. Bala ceyran isə qalxa bilmədi. Başını sürünün getdiyi tərəfə çevirdi. Zərif boynunu uzadıb mələdi.

Çap üçün deyil



Sürüdən bir ceyran geri qaldı. O da ana idi. O da balasına səs verdi.

Gülyaz bunu görüncə durdu. İndi hər iki körpə ceyranla Gülyazın arasında qalmışdı. Qadın ceyrana acıdığından bir addım da atmırdı. Bala ceyran mələyib çağırır, ana ceyran isə insanı görüb yaxınlaşmağa qorxur, lakin gedə — ayrıla da bilmirdi. Yazıq-yazıq mələyirdi.

Bu aralıq bala ceyran daşa dəyib sıyrılan qıçını güclə sürüyə-sürüyə anasına doğru getdi. Ana ceyran ürəklənib yanaşdı və ürkək baxışlarla ətrafını, Gülyazı nəzərdən keçirərək əziz balasını əmizdirməyə başladı.

Gülyaz da körpəsinə yanaşdı. Gözləri ceyranlarda ikən balasını qaldırdı və oyanan körpəsinə süd vermək üçün yaxasını açdı.

Onlar hər ikisi ana idi...

*Əzizə Cəfərzadə*



Çap üçün deyil

***Tapşırıq 2.*** «İki ana» əsəri ilə yazıçı öz oxucusuna nə demək istəyib? Əsərin janrını müəyyən et.

**Yaradıcı tətbiqetmə:**

Əlavə oxu materiallarından marağına uyğun olan bir mətni oxu. Hadisələrin ardıcıllığını müəyyən et.

## S.ŞİRAZİ. «ANA ÜRƏYİ» HEKAYƏSİ
## (Əsər üzərində iş)

Sən artıq bilirsən ki, nəqli mətnlər müxtəlif hadisələrdən ibarət olur. Əvvəlki dərsdə sən nəqli mətndə hadisələrin ardıcıllığını müəyyən etməyi öyrəndin. Bildin ki, istənilən nəqli mətn ayrı-ayrı əlaqəli hadisələrdən ibarətdir. Müəllif də həmin hadisələri müəyyən ardıcıllıqla düzməklə nəzərdə tutduğu əsas fikri oxucusuna çatdırır. Əvvəlki dərsdə oxuduğun «Ana laylası» mətnində hadisələrin sadə ardıcıllıqla düzüldüyünü müəyyən etdin. Lakin elə düşünmə ki, bütün nəqli mətnlərdə hadisələr eyni ardıcıllıqla düzülür. Aşağıdakı sxemlər hadisələrin düzülmə ardıcıllığının digər nümunələrini əks etdirir.

***Tapşırıq 1.*** Sədi Şirazinin «Ana ürəyi» hekayəsində hadisələrin ardıcıllığının bu sxemlərdən hansına uyğun gəldiyini müəyyən et. Bunun üçün aşağıdakılara əməl et.

1. Mətni təşkil edən ayrı-ayrı hadisələrə başlıq ver.
2. Hadisələr arasında əlaqəni müəyyən et.
3. Aralarında əlaqə olan hadisələri qruplaşdır və onların ardıcıllığını müəyyən et. Bunun üçün qarşılaşdığın açar sözlərə (birinci, növbəti, sonra, sonuncu, nəhayət və s.) diqqət yetir.
4. Ayrı-ayrı qrupların əlaqələndiyi məqamı tap.
5. Aşağıda təqdim edilən sxemlərdən hansına uyğun gəldiyini müəyyən et və sxemi dəftərinə çək.



Çap üçün deyil






## ANA ÜRƏYİ

Torağay yumurta qoydu. Artıq balaları olacaq, onları böyüdəcək, yetişdirəcək, şad günlər başlayacaqdı.

Sonra özünə münasib bir yer tapıb, orada yuva qurdu. Balalarına zərər gəlməsin deyə ətrafını çör-çöplə örtdü.

Nəhayət, gözlədiyi an gəldi. Yumurtalar çatladı, içlərindən bir-birindən gözəl balalar çıxdı. Torağayın sevincinin həddi-hüdudu yox idi.

> Səncə, torağayın başına hansı hadisə gələcək?

Amma onun bir qorxusu var idi. Yuvası filin yolunun üstündə idi. Fil hər gün su içməyə bu yoldan keçirdi. Bir gün fil iri ayaqları ilə bu yuvanı tapdalasa, o zaman nə edəcəkdir? Buna görə yuvasından çox da ayrılmırdı. Ancaq torağay bəzən yuvadan ayrılmağa məcbur idi, çünki balaları çox kiçik idilər, onlara yemək gətirmək lazım idi. Bunu da ondan başqa nə edəcəkdi?!

Bir gün yem axtarmaq üçün yuvasından ayrıldı. Qəlbində bir sıxıntı vardı. Bu dəfə uzağa getmədi. Yaxınlıqdan tapdığı yemlə geri döndü. Bir də nə görsə, yaxşıdır? Yuvası darmadağın olmuş, balaları ölmüşdü. Bunu əvvəlcədən də təxmin etdiyi kimi ancaq fil eləyə bilərdi. Həm də ətrafda ayaq izləri var idi.

Torağay çox məyus idi, ağladı. Kədərindən yerində dura bilməyib, filin yanına getdi.

— Ey böyük hökmdar, — dedi, — bu elədiyin sənə yaraşırmı? Hökmdarın vəzifəsi zəifləri, gücsüzləri qorumaqdır. Ancaq sən



Çap üçün deyil



belə eləmədin və mənim yuvamı dağıtdın. Balalarımı öldürdün. Vicdanın heç göynəmədimi? Onlar hələ çox kiçik idilər, gözləri belə açılmamışdı. Allah sənin də cəzanı, inşallah, verər.

Səncə, torağayın etirazına fil nə cavab verəcək?

Torağayın dedikləri fili çox əsəbiləşdirdi:

— Sən nə cəsarətlə mənimlə belə danışırsan? Nə olsun ki, balaların ölüb. Bura mənim ölkəmdir. İstədiyimi eləyə bilərəm. Məni çox əsəbiləşdirmə. İndi səni də ayaqlarımın altına salıb tapdalaram, — dedi.

Zavallı torağay filə cavab verə bilmədi. Bir az da məyus oldu. Ağlına gəldi ki, quşların yanına getsin. Acısını, bəlkə, onlarla bölüşə bilərdi. Bəlkə də, quşlar fildən intiqam alacaqdılar.

Çap üçün deyil

Torağay dərdini danışdı, quşlar dinləyib dedilər:

— Çox məyus olduq, övlad acısını biz də bilirik. Nə edək ki, biz çox zəifik, fil isə çox güclüdür... İstəyirsənsə, sağsağanla qarğanın yanına get. Onlar bizdən daha ağıllıdırlar, bəlkə, dərdinə bir əlac edərlər.

Torağay sağsağanla qarğanın yanına getdi. Dərdini onlara da söylədi. Sağsağanla qarğa torağayın başına gələnlərə çox məyus oldular.

Torağayın özünün ağlına birdən bir fikir gəldi.

Torağay:

— Siz fildən kiçiksiniz, bunu bilirəm. Amma uçmaq və sürətli hərəkət etmək kimi qabiliyyətiniz var. Siz filin gözlərini oya bilərsiniz. Bir də mənim dərdim intiqam deyil, ədalətdir.

Bu barədə sən nə düşünürsən?

Bu fikir qarğa ilə sağsağanın da ağlına batdı. Vaxt itirmədən filin yanına gəldilər. Bir fürsət tapıb, filin gözlərini dimdiklərinin sərt zərbələri ilə oyub, onu kor elədilər. Torağayın ürəyi bununla soyumadı. O, bu dəfə qurbağaların yanına getdi. Dərdini deyib onlardan da kömək istədi.

Qurbağalar:

— Biz nə edə bilərik? — dedilər.

— Siz çox asan bir iş görəcəksiniz. Filin olduğu yerin yaxınlığında bir uçurum var. Ora gedib quruldayın. O, sizi göl kənarında sanacaq. Səsə doğru gələcək, gözləri görmədiyi üçün uçuruma yuvarlanacaq.

Bu, qurbağalar üçün çox asan bir iş idi. Dərhal planı həyata keçirməyə başladılar. Uçurumun kənarına gəlib «vak... vak...» deyə quruldadılar.

Fil kor olmuş gözlərinin ağrısını çəkirdi. Ciyəri də susuzluqdan yanırdı. Kor olduğu üçün bir yerə də gedə bilmirdi.

Qurbağaların səsini eşidəndə çox sevindi. Bu səsə tərəf getsəm, gölə çataram düşündü. Qalxıb səs gələn tərəfə getməyə başladı. Səs lap yaxından gəlirdi. Fil qarşısında göl olduğunu sanıb özünü uçuruma atdı. Artıq hər şey bitmişdi. Fil son nəfəsini verirdi. Torağay onun yanına gəldi.



Çap üçün deyil

— Belə olmağını istəməzdim, ey hökmdar, — dedi. Amma günah sənin özündədir. Böyüklüyünə və gücünə güvəndin, mənə zülm elədin. Balalarımı öldürdün. Mən də bu cür plan qurub səni tələyə saldım. Beləliklə, ədalət yerini tapdı, sən də cəzanı...

> Səncə, bütün bu əziyyətlər filin başına nə üçün gəldi?

Filin nə isə deməyə halı yox idi. Əzab içində bağıraraq son nəfəsini verdi. Torağay yenidən göy üzünə yüksəldi. Qəlbi yenidən ana olmaq arzusu ilə dolu idi.

***Sədi Şirazi***

***Tapşırıq 2.*** Sən «Ana ürəyi» hekayəsini oxuyub hadisələrin ardıcıllığını müəyyən etdin. Torağay kimi kiçik quşun fil kimi nəhəng heyvan üzərində qələbəsinin səbəbini nə ilə izah edə bilərsən?

**Yaradıcı tətbiqetmə:**

Mətni oxuyarkən xəyalında canlanmış mənzərə ilə bağlı aşağıdakı fəaliyyətlərdən birini yerinə yetir:

1. Əsərdə baş verən əhvalatlarda hər hansı dəyişiklik etməklə öz variantını yaz.
2. Əsəri oxuyarkən gözlərinin qarşısında canlanan bir mənzərənin şəklini çəkməyə çalış.
3. Şəkil çəkməyi xoşlamayanlar həmin mənzərəni plastilindən düzəldə bilərlər. Yaxud həmin mənzərəni əks etdirən aplikasiya hazırlaya, bir-iki bənd şeir də yaza bilərsən.

Çap üçün deyil

## NƏQLETMƏ XARAKTERLİ ESSEDƏ HADİSƏLƏRİN ARDICILLIĞI



*Nəqletmə xarakterli essedə hadisələr hansı ardıcıllıqla tərtib edilir?*

Nəqletmə xarakterli mətnlər girişdən nəticəyə qədər müxtəlif hadisələrin ardıcıllığından ibarətdir. Nəqletmə xarakterli esse yazmazdan əvvəl sən də haqqında danışılacaq hadisələr üzərində düşünməli, onları ardıcıllıqla düzməyi bacarmalısan. Nəqletmə xarakterli mətnlərdə hadisələr, əsasən, xronoloji ardıcıllıqla düzülür. Yəni birincidən sonuncuya qədər hadisələr hansı ardıcıllıqda baş veribsə, o ardıcıllıqda da nəql edilir.

Nəqletmə xarakterli mətnlərdə istifadə edilən digər ardıcıllıq səbəb-nəticə ardıcıllığıdır. Əvvəl baş verən hadisənin səbəbi göstərilir, sonra nəticə təqdim edilir.

***Tapşırıq 1.*** Səndən cəsarətli olmağı tələb edən əhvalatla bağlı yazacağın nəqli esseyə əvvəlki dərsdə başlıq vermisən. Essenin əsas obrazlarını da müəyyən etmisən. Həmin essedə girişdən sona qədər baş verən hadisələri müəyyənləşdir. Onları təfsilatı ilə yaz, açar sözlərdən istifadə etməklə xronoloji ardıcıllıqla düz. Əvvəlcə hadisənin səbəbini göstər, sonra onun nəticəsini təqdim et. Essedə təsvir olunan kiçik hadisələri aşağıdakı sadə ardıcıllıq sxemi üzrə düz.

**Hadisə 1**

↓

**Hadisə 2**

↓

**Hadisə 3**

↓

**Hadisə 4**

Çap üçün deyil

## «ÇİLLƏLƏR» ƏFSANƏSİ
### (NƏQLETMƏ XARAKTERLİ MƏTNLƏRDƏ HADİSƏLƏRİ MÜƏYYƏN ETMƏKLƏ ONU HİSSƏLƏRƏ AYIRMA)

Nəqletmə xarakterli əsərlər beş hissəyə ayrılır: əsərin başlanğıcı; ziddiyyətin yaranması; zirvə; ziddiyyətin açılması və əsərin sonu. Əsəri təşkil edən hadisələr də **səbəb-nəticə ardıcıllığı** ilə bağlanır.

Dərs ərzində bu məsələlərlə daha yaxından tanış olacaqsan.




**Əsərin başlanğıcı**

Bu hissədə əsərdə iştirak edəcək bütün əsas obrazlar təqdim edilir. Onların qarşılıqlı münasibətləri, məqsədləri, əsas xüsusiyyətləri haqqında ilkin təsəvvür yaradılır. Əsas obraz və onun vəzifələri aydınlaşır. Hadisələrin bir-birinə bağlanmağa başlaması ilə bu mərhələ bitir.

**Ziddiyyətin yaranması**

Əsərin bu hissəsində əsas obrazın məqsədi, hədəfi tam məlum olur və o, məqsədinə çatmaq üçün çalışır. Kiçik çətinliklər ilkin mərhələdə onun uğur qazanmasına maneçilik törədir və o, qüvvəsini həmin çətinlikləri aradan qaldırmağa yönəldir. Əsərdə əsas obrazın hər kiçik çətinliyi necə aradan qaldırdığı əks etdirilir. Yalnız bundan sonra əsas obraz öz böyük məqsədlərinə doğru addımlar atmağa başlayır. Bu da ikinci hissənin başa çatmasından xəbər verir.

Çap üçün deyil

**Zirvə**

Bu hissədə hadisələrin inkişafı ən yüksək nöqtəyə çatır. Burada baş verən hadisələrin nəticələri əsas obrazın qəbul etdiyi qərardan çox asılıdır. Əsas obrazın əks tərəfə münasibəti dəqiqləşir. Qarşı tərəflərin mübarizə planları aşkar olunur. Onların ilk qarşıdurması təqdim edilir. Burada əsas obrazın qəbul etdiyi qərarlar onun insani keyfiyyətlərini üzə çıxarır. Bu da onun aqibətini müəyyən edir.

**Ziddiyyətin açılması**

Ziddiyyətin açılması əsərin ən gərgin hissəsidir. Bu hissədə şər qüvvələr xeyir qüvvələrə üstün gəlir. Oxucu elə hiss edir ki, şər qüvvələr qalib gələcək. Əsas obraz qələbədən çox uzaq görünür. Qələbənin çətinliklə əldə edilməsi əsas obrazların müxtəlif üstün cəhətlərini vurğulayır. Lakin bu cəhətlərdən hansının onun qələbəsinə daha çox yardım edəcəyi oxucuya hələ də məlum olmur.

**Əsərin sonu**

Bu hissədə əsas obrazın əks tərəflə son qarşıdurması verilir. Burada xeyir qüvvələr şər qüvvələr üzərində tam qələbə çalır. Hadisənin nə üçün məhz bu cür baş verməsi, onun nə məna verməsi, gələcəkdə baş verənlərin nə ilə nəticələnəcəyi oxucunu düşündürür.

***Tapşırıq 1.*** «Çillələr» əfsanəsini oxumazdan əvvəl hazırlıq işləri apar. Mətndəki hadisələri və onların ardıcıllığını müəyyən et. Səh. 117-də verilən sxemi dəftərinə və ya çap vərəqinə çək. Xüsusiyyətlərini nəzərə almaqla hadisələri ardıcıllıqla yerləşdir. Nəticəni əks etdirən vərəqləri müəllimə təhvil ver, yaxud nəticələrini yoldaşlarına təqdim et.

Çap üçün deyil

# ÇİLLƏLƏR
*(Əfsanə)*

Səncə, bundan sonra insanlar nə edəcəklər?

Qış adlı bir kişinin Böyük çillə, Kiçik çillə, Boz ay adlı üç oğlu var imiş. Qış əvvəlcə ilkini – Böyük çilləni qırx günlük səfərə göndərir ki, gedib el-obaları gəzsin, dünyaya tamaşa eləsin. Görsün nə var, nə yox, adamlar necə yaşayır, necə işləyirlər?

Böyük çillə altdan-üstdən bərk geyindi. Ağ qar yapıncısını da çiyinlərinə salıb yola çıxdı. Az getdi, çox dayandı, çox getdi, az dayandı, axır ki, aralıq ayının, yəni dekabrın iyirmi ikisində gəlib el-obaya yetişdi.

Görülən işlər məqsədə çatmağa xidmət etdimi?

Adamlar səhər yuxudan oyanıb çölə baxanda gördülər ki, paho, hər yan ağappaq qara bürünüb. O saat barmaqlarını dişlədilər ki, Böyük çillə gəlib çıxıb. Deməli, nə az, nə çox, düz qırx gün dağda-düzdə, kənddə-kəsəkdə bu öz qar atını belədən-elə, elədən-belə çapacaq. Nə etməli Böyük çillənin qarından-soyuğundan qorxub evin bir küncünə çəkilmək olmazdı ki! Bəs onda iş-gücün qulpundan kim yapışsın?!

Çuvalların ağzı açıldı, buğda götürülüb, səməni göyərdildi. Göyərdilmiş səməni taxta çanaqda, tabaqda döyülüb suyu sıxıldı. Yeddi qonşu evdən un alınıb bu səməni suyunda sıyıq, xamır iri tavada ocaq üstə qoyuldu. Başladılar səməni halvası bişirməyə. Halva bişənə yaxın onun içinə badam, qoz ləpəsi də salındı. Uşaqlar, cavanlar, qızlar, gəlinlər dəstə ilə səməni tavasının başına dolana-dolana səs-səsə verib nəğmə oxudular:

Səməni, saxla məni,
İldə göyərdərəm səni.
Səməniyə saldım badam,
Qoymurlar bir barmaq dadam...

Halva bişəndən sonra qara istiot, darçın, mixək, razyana, ceviz, quluncan, badyan, qulsakəmər, zəncəfil, hil kimi ədviyyatları da döyüb ona qatdılar. Qoğalı, kündə şəklində yumurlanmış halvanı qonşulara da payladılar. Halvanı elə böldülər ki, hər

Çap üçün deyil

payda badam, qoz ləpəsindən də oldu. Axı bu, həmişə el içində xeyir-bərəkət rəmzi sayılıb.

Adamlar səməni halvasından yeyir, canları qızışır. Böyük çillənin qar-soyuğunu veclərinə də almayıb elə öz işlərini görürdülər.

Qırx gün qurtardı. Böyük çillə kor-peşman geri qayıtdı. Yolda soyuq ayın — fevralın lap başlanğıcında ortancıl qardaşı Kiçik çilləyə rast gəldi. Hal-əhval tutdular. Kiçik çillə soruşdu:

— Hə, qardaş, de görək, getdin nə iş gördün?

Böyük çillə dedi:

— Təndirləri yandırtdım, kürsüləri qurdurdum, küplərin, çuvalların ağızlarını açdırdım.

Kiçik çillə dedi:

— Eh, heç nə eləməmisən ki. Bax, indi gör, mən gedib nələr edəcəyəm. Qarıları təndirin ağzından salıb, külfəsindən dartıb çıxaracağam. Zəhmimdən uşaqlar tir-tir əsəcəklər. Çuvalları, küpləri bomboş boşaldacağam. Qazanları ağzı üstə çevirəcəyəm.

Səncə, Kiçik çillə öz məqsədinə nail ola biləcək?

Böyük çillə dedi:

— Çox da öyünmə. Sən insanları tanımırsan. Mən qırx günlük ömrümlə bir iş görə bilmədim. Sənin isə cəmi-cümlətanı iyirmi günlük ömrün var. Bu iyirmi gündə heç yel də olub onların yanından ötə bilməzsən.

Kiçik çillə böyük qardaşından ayrılıb haray-həşir qopara-qopara, boranla, dumanla el-obaya hücum çəkdi. Elə bil dünyanın axırıydı.

Böyük çilləni damba-durumbla yola salan adamlar heç Kiçik çillənin də belə əsib-coşmasından qorxub çəkinmədilər. Tez «Xıdır Nəbi» mərasiminə tədarük görməyə başladılar. «Xıdır Nəbi» mərasimi qışın ən soyuq günü sayılan Kiçik çillənin onuncu günü keçirilir. Adamlar buğda qovurub, əl dəyirmanında üyüdüb qovut elədilər. Xaşıl, quymaq bişirib yağla, doşabla, sarıköklə yedilər. Canları qızışdı. Kiçik çillənin soyuğundan qorxmadıqlarını bildirmək üçün yaydan saxladıqları «Çillə qarpızı»nı da kəsdilər. Qaynadılmış yumurtaları bahar, günəş oxşarı kimi yaşıl, qırmızı rənglə boyadılar.

Uşaqlar da axşam qaranlıq düşəndə həyətləri gəzib bacalardan qurşaq, torba salladılar. «Xıdır Nəbi» mərasimi nəğmələrindən oxudular:



Çap üçün deyil

Xanım, ayağa dursana,
Boşqabı doldursana,
Yük dibinə varsana,
Boşqabı doldursana,
Xıdırı yola salsana.

Uşaqlara qovutdan, boyanmış yumurtalardan, ərik, əncir, alma, armud qurusundan pay verdilər. Pay verməyəni yenə də elə «Xıdır Nəbi» nəğməsi ilə yamanladılar:

Çatma, çatma, çatmaya,
Çatma yerə batmaya,
Xıdır payın kəsənin,
Ayağı yerə çatmaya.

Beləcə Kiçik çillənin iyirmi günlük ömrü qurtardı. Lovğa-lovğa gələn Kiçik çillə suyu süzülə-süzülə geri qayıtdı. O da yolda sonbeşikləri Boz ayla qarşılaşdı.

Boz ay baxdı ki, özündən böyük qardaşı Kiçik çillənin qanı yamanca qaradı. Hirsindən az qalır ürəyi partlasın. Dedi:

> Kiçik çillə nə üçün məqsədinə nail ola bilmədi? Nə üçün belə düşünürsən?

— Əziz qardaşım Kiçik çillə, sən də böyük qardaşımız Böyük çillə kimi insanların yanına xoş niyyətlə getməmişdin. Elə ikiniz də asaram-kəsərəm deyirdiniz. Amma indi baxın, görün mən gedib nə eləyəcəyəm. Mən adamlar üçün bayram aparacağam. Əkinləri cücərdəcəyəm. Çöllərdə, düzlərdə ot-ələfi göyərdəcəyəm. Bağ-bağçalarda gül-çiçək açdıracağam.

İki qardaş xudahafizləşib ayrıldı. Boz ay el-obaya gəldi. Bir ay ömrü olan, Bahar—Novruz bayramı gününədək yaşayan Boz ay başladı hər çərşənbədə bir iş görməyə. Havaları qızdırdı. Suların şaxını sındırdı. Ağacları yuxudan oyatdı. Torpağın canını isitdi. Adamlar torpağın istiləşdiyini görüb onu şumlamağa, əkin-biçinə hazırlaşmağa başladılar.

> Hadisələrin xronoloji ardıcıllıqla düzüldüyünü necə əsaslandırmaq olar?

Boz ayın çərşənbələrində həyətlərdə tonqallar yandırıldı. Adamlar «ağırlığım-uğurluğum tökülsün», — deyib bu tonqalın üstündən hoppanmağa başladılar.



Çap üçün deyil

Hansı anlayışlar müqayisə edilir, yaxud qarşılaşdırılır? Hansı cəhətlərinə görə onlar oxşar, hansı cəhətləri ilə fərqlidir?

Boz ay da beləcə ömür sürüb vaxtını başa vurdu.

Artıq yer-yurd al yaşıla bürünmüşdü. Üç qardaş köçünü sürüb gedirdi. Onların yerinə istəkli bir qonaq gəlirdi, gözəllər gözəli bahar...

***Tapşırıq 2.*** «Çillələr» əfsanəsində hadisələrin ardıcıllığını müəyyən et. Qarşılaşdığın hadisələrdən hansıları sənə tanışdır, bəs hansı hadisələr sənə tanış deyil?

## «QARANQUŞ ƏFSANƏSİ»
## (Əsər üzərində iş)

***Tapşırıq 1.*** 1. «Qaranquş əfsanəsi»ni oxu. Tanış olmayan sözlərin mənasını lüğətdən istifadə etməklə aydınlaşdır və iş vərəqində qeydlər apar. 2. Səhifə 117-də verilmiş sxem üzrə əsərin hissələrini müəyyən et. 3. Janr xüsusiyyətləri baxımından əsəri «İki ana» hekayəsi ilə müqayisə et.

### QARANQUŞ ƏFSANƏSİ

Deyirlər ki, qədimdə bir padşah var imiş. Həmin padşahın gözünün ağı-qarası, ciyərparası Bahar adlı bir qızı var imiş. Nə gözəllikdə, nə də ağılda onunla bəhsə girməyə heç kim cəsarət etməzmiş. Hökmdarın sarayına bir-birindən hörmətli, bir-birindən dövlətli elçilər gəlir. Onlar padşahla qohum olmaq arzusunda olduqlarını bildirirlər. Ancaq padşahın qızı heç kimə könül vermir. Padşah haçandan-haçana öyrənir ki, Baharın onun qoyun sürüsünü otaran çobanından xoşu gəlir. Qızın şahlığa ləkə gətirən hərəkəti padşahı bərk qəzəbləndirir. Vəzir ağıllı tədbiri ilə hökmdarını sakitləşdirir:

— Qibleyi-aləm, səni yandıranı sən dondurmalısan. Öz yerini, öz həddini, öz tay-tuşunu tanımayan layiqli cəzaya çatmalıdır. Amansız qışın lap oğlan çağıdır. Geciksən Bahar onu xilas edər.



Çap üçün deyil

Şahın əmrilə qoşundan bir dəstə ayrılır. Başda padşah və vəzir olmaqla yola düşürlər. Axşamdan yağan qar hər tərəfi ağ yorğana bürümüşdü. Dəstə çətinliklə uca bir dağa  yetişir. Birdən qorxulu bir çovğun başlayır. Çovğun getdikcə güclənir. Padşahın əmrilə çobanı sarıqdan açıb uca zirvədən dərin yarğana atırlar. Bu vaxt Baharın səsi onun qulağına gəlir. Bu səs ona hərarət, istilik, cəsarət verir. O, Allahdan quşa çevrilməsini, qanad açıb Bahara qovuşmasını arzu edir. Oğlan ağ qışla üz-üzə dayanan qara bir quşa çevrilir.

Bahar qışın da qənimi idi. Ona görə qış qara quşu sağ buraxmaq istəmir. Gərgin mübarizə başlayır. Qış çovğunu və şax-



Çap üçün deyil

tanı daha da qüvvətləndirir. Padşahın dəstəsi tab gətirməyib məhv olur. Qara quş isə Baharın köməyilə amansız qışa qalib gəlir. Atıldığı zirvənin başına qonub məğlub olmuş qışa son dəfə baxır.

Qalib quşun sinəsində qarın bir damcısı qalır. Qara quş Bahara doğru qanad açmaq istəyəndə qış son qüvvəsini toplayıb əlini onun quyruğuna atır, iki lələk qopardır.

O gündən sinəsi ağ, quyruğu haça olan qara quşun adı qaranquş qalır.

Qarşılıqlı qiymətləndirmə üçün səh. 117—118-ə bax.

***Tapşırıq 2.*** «Qaranquş» əfsanəsini oxudun. Əsərin hissələrini verilən sxemə əsasən müəyyən et. İndi isə yoldaşınla bir-birinizin tədqiqatının nəticəsini qiymətləndirin. Bunun üçün səh. 117—118-də verilən məlumatdan istifadə et.

## CƏSARƏT TƏLƏB EDƏN ƏHVALATLA BAĞLI NƏQLETMƏ XARAKTERLİ ESSE

### (ESSENİN HİSSƏLƏRİ)



*Nəqletmə xarakterli essedə hissələrin müəyyənləşdirilməsi nə üçün lazımdır?*

Əvvəlki dərslərdə səndən cəsarət tələb edən əhvalatla bağlı nəqledici xarakterli esse yazmaq üçün bir sıra işlər aparmısan. Obrazları və hadisələrin ardıcıllığını müəyyən etmisən.

**Tapşırıq:** Hadisələrin ardıcıllığını müəyyən et (əsərin başlanğıcı; ziddiyyətin yaranması; zirvə; ziddiyyətin açılması və əsərin sonu). Hadisələrə başlıq ver, onları sxem üzrə (səh. 117) yerləşdir.

Çap üçün deyil

## «ŞİR VƏ TÜLKÜ» NAĞILI
### (NƏQLETMƏ XARAKTERLİ MƏTNİN ELEMENTLƏRİ)

Nəqli mətnlər, əsasən, beş elementdən ibarət olur:
*1. Hadisənin baş verdiyi məkan və zaman;*
*2. Əsərdəki obrazlar;*
*3. Əsərin mövzusu;*
*4. Əsərdə ziddiyyət;*
*5. Əsərin hissələri.*

Bütün nağıllar, hekayələr, əfsanələr, təmsillər, cizgi və bədii filmlərdə bu beş elementi müəyyən etmək olar. Bunları müəyyənləşdirmədən mətnin mahiyyətini aydınlaşdırmaq mümkün olmur.

**Hadisələrin baş verdiyi məkan və zaman**

Bu hissədə yazıçı, əsasən, təsviri mətnlərdən istifadə edir. O, hadisənin baş verəcəyi yeri, məkanı təsvir edir. Belə məkan bir ev, kənd, küçə, məhəllə, meşə, səhra və s. ola bilər. Zaman baxımından isə hadisənin hansı fəsildə, hansı tarixi zaman kəsiyində, hansı hökmdarın hakimiyyəti dövründə və s. baş verdiyi təsvir edilə bilər.

**Obrazlar**

Əsas obraz insan, heyvan və digər canlı və cansız əşyalar ola bilərlər. Bu obrazlar mətndəki müxtəlif hadisələrin gedişində iştirak edirlər.

**Əsərin mövzusu**

Bu mətndə nədən bəhs olunur? Bu sualın cavabı əsərin mövzusudur. Mövzu əsərin ideyasını müəyyən etməkdə əhəmiyyətli vasitədir.

**Əsərdə ziddiyyət**

Nəqli mətnlərdə ziddiyyət iki tərəf arasında gedən mübarizədir. Adətən, tərəflərdən biri əsas obraz olur. Əsas obraz, həm-



Çap üçün deyil

çinin ətrafda baş verən hadisələrə, eləcə də öz hiss və düşüncələrinə qarşı da mübarizə apara bilər.

**Əsərin hissələri** Əsərdəki ziddiyyətin açılması ilə bağlı hadisələrin ardıcıl inkişafıdır.

***Tapşırıq 1.*** Verilmiş nəqli mətni oxu. Aşağıda təqdim edilən sxemdən istifadə etməklə mətnin elementlərini müəyyənləşdir.




## ŞİR VƏ TÜLKÜ

*(Nağıl)*

Bir şir meşədə gəzirdi, gördü, bir tülkü o qədər arıqlayıb ki, yeriməyə taqəti yoxdur.

Şir dedi:

— Ay tülkü, sənə nə olub bu günə düşübsən?

Tülkü dedi:

— Bir həftədir acam, yeməyə heç nə tapa bilmirəm.

Şirin tülküyə yazığı gəldi, gedib bir heyvan parçaladı, gətirib tülküyə verib dedi:

— Tülkü qardaş, gəl doyunca ye, qıçlarına qüvvət gəlsin.

Tülkü dedi:



Çap üçün deyil



— Mənim hünərim deyil ki, sənin kimi qüvvətli heyvanın qabağından ət yeyəm.

Şir dedi:

— Ay tülkü, qorxma, görmürsən, mən özüm gətirmişəm sən yeyəsən.

Şir nə qədər dedisə, tülkü inad göstərib ətə yaxın durmadı.

Axırda şir dedi:

— Bəs neyləyim ki, sən yeyəsən?

Şir nə üçün tülküyə kömək etmək istəyirdi?

Tülkü dedi:

— Onda gətir əl-ayağını bağlayım, sonra arxayın yeyim.

Şir razı oldu. Tülkü ölmüş heyvanın bağırsaqlarını çıxardıb şirin əl-ayağını möhkəm bağladı, özünü də günün qabağına uzadıb dedi:

— Şir qardaş, sən bir az yat, mən tamam arxayın olum.

Bu hadisənin baş verdiyi məkan və zaman haqqında nə deyə bilərsən?

Şir başladı mürgüləməyə, amma tülkü yenə də yemədi. Şir hələ yuxuya getməmişdi, odur ki dedi:

Çap üçün deyil

— Bəs indi niyə yemirsən?

Tülkü dedi:

— Sən yuxuya getməyincə yeməyəcəyəm.

Tülkü nəyə nail olmaq istəyirdi? Onun məqsədi nə idi?

Tülkü gözləyirdi ki, bağırsaq qurusun, çünki o quruduqca bərkiyirdi. Tülkü o qədər gözlədi ki, bağırsaq günün altında quruyub dəmir kimi möhkəm oldu. Bu müddətdə şir də yuxuya getdi.

Tülkü ətdən doyunca yedi. Şir səhərə qədər yatdı, ayılmadı. Səhər gözünü açıb gördü, əl-ayağı hələ də bağlıdır, dedi:

— Tülkü lələ, gəl əl-ayağımı aç.

Tülkü dedi:

— Hara açıram, ətin hamısını yeməmiş açmayacağam.

Şir bir-iki gün də gözlədi, tülkü o qədər yemişdi ki, porsuğa dönmüşdü. Şir nə qədər dedisə, tülkü onun əllərini açmadı.

Səncə, heyvanlar padşahı şir nə üçün belə vəziyyətə düşdü?

Axırda şir bağırsağı qırmaq istədi. Hər dəfə güc verib əllərini tərpətdikcə qurumuş bağırsaq məftil kimi ətini kəsib, sümükdə dayandı. Şir çox çalışdı, çapaladı, əlini aça bilmədi. Axırda cin vurdu beyninə, üzünü tülküyə tutub dedi:

— Ay namərd, mən səni aclıqdan qurtardım, sən gör mənə neylədin. Əgər əlimi aça bilsəm, gör sənə nə eləyəcəyəm.

Şir o qədər qəzəblənmişdi ki, nərəsi meşəni götürmüşdü.

Elə bu vaxt yaxından bir çaqqal keçirdi. O, şirə yaxınlaşıb əhvalatı öyrəndi. Şir başına gələnləri ona söylədi.

Çaqqal dedi:

— Şir qardaş, heç darıxma, mən bu saat sənin əl-ayağını açaram.

Çaqqal bir xeyli əlləşib dişi ilə bağırsağı kəsdi. Şir ayağa qalxdı, ətrafa göz gəzdirdi, tülkünü görmədi. O qaçıb gözdən itmişdi. Tülkünün şirə xəyanət edib hiylə ilə onun əl-qolunu bağlaması, çaqqalın isə onu xilas etməsi şirə çox təsir elədi.

Çaqqalın şirə yardım etməsi nə üçün ona pis təsir etdi?

Öz-özünə dedi: «Mən bütün heyvanların ən güclüsü olduğum halda, bir tülkü gör başıma nə oyun gətirdi?!»

Çap üçün deyil

Odur ki gecə-gündüz axtarıb tülkünü tapdı, elə bir nərə çəkdi ki, tülkünün qorxudan ürəyi partladı. Şir dedi:

— Namərdlərin axırı bax belə olur.

Hansı cümlə əsərin mövzusu ilə bağlıdır?

***Tapşırıq 1.*** «Şir və tülkü» nağılında şir və tülkü obrazlarına xas olan xüsusiyyətləri müəyyən et. Həmin xüsusiyyətləri insanlar və xalqlar üzərinə köçürməklə münasibətini bildir.

**Ev tapşırığı:**

Sinifdənxaric oxu üçün kitaba daxil edilmiş «Yaxşılığa yamanlıq» təmsilini (müəllif Tofiq Mütəllibov) oxu. Sxem üzrə verilən sualları cavablandır.

**Əsərin adı**

**Müəllifin adı**

- **Əsərdə əsas obrazlar hansılardır?**
- **Hadisələr harada və nə zaman baş verir?**
- **Əsərdəki əsas ziddiyyət nədir?**
- **Əsərdəki ziddiyyət necə aradan qaldırıldı?**
- **Sevdiyin obraz hansıdır və nə üçün onu sevirsən?**
- **Əsərlərdə hansı hadisələr baş verir?**
- **Əsərin mövzusu nədir?**
- **Əsərdəki ziddiyyəti başqa hansı yollarla aradan qaldırmaq mümkün idi?**

Çap üçün deyil

## R.ƏFƏNDİYEV. «UŞAQ VƏ QARIŞQA». «AYI VƏ QARIŞQA» (NAĞIL)
### (NƏQLETMƏ XARAKTERLİ MƏTNLƏR ARASINDA OXŞAR CƏHƏTLƏRİN MÜƏYYƏN EDİLMƏSİ)



*Nəqletmə xarakterli mətnlərin müqayisəsi bizə nə üçün lazımdır?*

Nəqletmə xarakterli mətnin ayrı-ayrı elementlərini müəyyənləşdirəndən sonra onları bir araya gətirməklə onun xəritəsini tərtib etmək mümkündür. Bu elementlər nəqli mətnin ümumi cəhətləri hesab edilə bilər. Lakin ayrı-ayrı mətnlərin xəritələrini qarşılaşdırarkən məlum olur ki, onların ümumi cəhətləri ilə yanaşı, fərqli xüsusiyyətləri də mövcuddur. Bu dərs ərzində sən iki nəqli mətnin xəritəsini tərtib edəcək, onları müqayisə edəcək, aralarındakı ***oxşar*** və ***fərqli cəhətləri*** müəyyənləşdirəcəksən.

***Tapşırıq 1.*** Rəşid bəy Əfəndiyevin «Uşaq və qarışqa» hekayəsini və «Ayı və qarışqa» nağılını oxu. Əsərlərin xəritəsini verilən sxem üzrə tərtib et.

### UŞAQ VƏ QARIŞQA

Novruzdan bir qədər vaxt keçmiş, bahar fəslinin əvvəl vaxtlarında, camaat düz yerlərə və çəmənzarlara seyrə çıxdıqları zaman əlində dəyənək bir oğlan uşağı da öz atası ilə gəzintiyə çıxmışdı. Bunlar gəzir və hər şeyə göz gəzdirirdilər. Bu aralıqda bu uşağın gözü bir yerə toplanmış qarışqa topasına sataşdı.

Uşaq əlindəki dəyənəklə qarışqa topasının ortasına vurdu və qarışqalardan bir xeylisini qırıb tələf elədi.

Bu əsnada qarışqanın biri dedi:

— Əzizim, iki gözüm, atandan, anandan, qardaşlarından və başqa nəsil və oymağınızdan ibarət iyirmi-iyirmi beş nəfər şəxs bir otaqda oturduğu əsnada evinizin səqfi çöküb uçsa və bu adamların bir neçə nəfəri altda qalıb əzilsə, xoşuna gələrmi?

Çap üçün deyil



Qarışqanın bu sualına uşaq birdən-birə cavab verə bilmədi. Bir müddət xəyala gedib dedi:

— Xeyr, elə bir işə razı olmaram.

Onun bu cavabının qarşısında qarışqanın:

— Bəs belə olan surətdə bir dəyənəklə bir tayfadan bu qədər cana qıymaq və həlak eyləmək nə səbəbdən xoşuna gəldi? — sualı qarışqa ilə uşağın mübahisəsinə səbəb oldu:

Uşaq:

— Sizlər də bizlər kimi nəsil və oymaq hesab olunursunuzmu?

Qarışqa:

— Şübhəsiz! Sizlərin nəsil və oymağı on-on beş nəfərdən ibarət bir ailə hesab olunur. Amma bizimki yeddi və səkkiz yüz, bəlkə, min-min beş yüz nüfusdan ibarətdir.

Uşaq:

— Sizin də ata-ananız, qardaşınız və bacınız, çolum-çocuğunuz olurmu?

Qarışqa:

— Əlbəttə, olur! Bu gördüyün qarışqaların bəzisi ata, bəzisi ana və bəzisi də analıq ilə atalıq arasında olan bir sayaq kəslərdir ki, insanlar arasında olmazlar.



Çap üçün deyil

Uşaq:
— Aman, aman! Bunu qana bilmədim.
Qarışqa:
— Bəs belə! Bunlar ancaq dişi qarışqalar yumurtladığı yumurtalara gözətçi və sonra yumurtadan çıxan balalara dayə və qulluqçu olurlar.
Uşaq:
— Bəs sizin eviniz və eşiyiniz varmı?
Qarışqa:
— Aha, var! Bax, bu gördüyün ovuntu torpağı yerin altındakı evimizdən çıxarıb bayıra atmışıq. Evimiz neçə qat və neçə gözdür. Keçən qış evimizdə dustaq qaldıq. Qışdan qorxuruq, qış fəslində yer üzünə həsrət oluruq.
Uşaq:
— Bəs yerin altında nə yeyirsiniz?
Qarışqa:
— Əzizim, ehtiyatlıyıq, öz işimizi bilirik. Qış fəslində nə qədər yeyəcəyimiz lazımdırsa, onu yay fəslində yığıb-yığışdırırıq. Biz çox nizamlı və səliqəliyik. Bizim aramızda dava, qeylü-qal və gurultu olmaz. Tənbəllik, oğurluq və quldurluq bilmərik. Böyüklərimizin sözünə baxıb, hər vaxt itaətlərində olarıq. Öz rahatlığımız və xoşbəxtliyimiz üçün lazım olan qulluqları cümləmiz əlbir olub yerinə yetiririk.
Uşaq bu sözləri eşitdikcə fikrə gedib gözü yol çəkirdi. Azca qabaq etdiyi pis əməldən tövbə etdi. Əlindəki dəyənəyi atıb qarışqalardan üzr istədi, günahının bağışlanmasını xahiş elədi. Nəhayətdə bu uşaq əməlisaleh bir insan oldu.

***Rəşid bəy Əfəndiyev***

## AYI VƏ QARIŞQA
*(Nağıl)*

Ayı bulaqdan doyunca su içib kənarda oturdu. Donquldanıb dedi:
— Ay canım, nə yeyim?
Birdən balaca bir qarışqa görüb sevindi.
— Hə, səni yeyəcəyəm!
Qarışqa qorxdu, tez qızılı yarpağın arasında gizləndi. Ayı yarpağı qaldırıb qarışqanı götürdü.
Qarışqa soruşdu:



Çap üçün deyil



— Məni nə üçün yemək istəyirsən?

— Səni də, bütün ailəni də yeyəcəyəm. Bilmirsən, ayılar qarışqa yeməyi xoşlayırlar? Sizin nəslinizi kəsəcəyəm.

Qarışqa yalvardı:

— Dayan, dayan, gör nə deyirəm? Məni burax, axırıncı dəfə qardaşlarıma su aparım, sonra qayıdaram, yeyərsən.

— Sən gedib qayıdana qədər dözə bilmərəm. Elə indi yeyəcəyəm.

— Yemə, yemə. Bunun əvəzində sənə dəyərli məsləhət verərəm.

— Hə, yaxşı, de görək.

Yazıq qarışqa deməyə söz tapmayıb:

— Bir parasını ye, ikinci parasını qış üçün saxla, — dedi.

— Hə, yaxşı məsləhətdir.

Ayı qarışqanı ağzına qoyub uddu.

Qarışqalar çox gözlədilər. Su ardınca gedən Qara qarışqa qayıtmadı. Balaca cığırla təpəyə qalxıb yola baxdılar.

Bəs bizim qardaşımız niyə gəlib çıxmadı? Bəlkə, batıb?

— Yox! Onu ayı yeyib, — deyə qarğa qarışqalara xəbər verdi.

Bütün qarışqalar ayının mağarasına tərəf getdilər... Mağaranın ağzında yeri altdan qazmağa başladılar. Köstəbək böyürdən çıxıb dedi:



Çap üçün deyil

— Siz nə edirsiniz?

— Ayı üçün quyu qazırıq.

— Mən də sizə kömək edərəm. Keçən il iki balamı yeyib, ondan intiqamımı almaq üçün fürsət axtarırdım.

Qarışqalar və köstəbək üç gün, üç gecə yeri qazmağa başladılar. Ayının isə bundan xəbəri yox idi.

Bir gün ayı kefi kök öz mağarasına qayıdırdı... Gecə idi. Ayı ay işığında oynamağa başladı. O qədər atılıb-düşdü ki, quyunun üstündəki torpaq davam gətirməyib dağıldı. Ayı guppultu ilə quyuya düşdü. Qarışqalar ayıdan belə intiqam aldılar.



Obraz   Obraz   Obraz   Obraz

Hadisənin baş verdiyi məkan və zaman____________________

Əsərin mövzusu____________________

Ziddiyyət____________________




**Ev tapşırığı:**

R.Əfəndiyevin «Uşaq və qarışqa» hekayəsini oxu. Fikrincə, uşaq əməlisaleh bir insan olandan sonra heyvanların qayğısına qalmaq üçün hansı işləri görə bilər. Hekayəni davam etdir.



Çap üçün deyil

## Əsər üzərində iş

***Tapşırıq 1.***

1. Oxuduğun «Uşaq və qarışqa», «Ayı və qarışqa» əsərlərinin xəritələrini qarşılaşdır.

2. Əsərin elementlərini (bax səh. 134) verilən sxemin köməyi ilə müqayisə et. Onların oxşar və fərqli cəhətlərini müəyyənləşdir.

3. Əsərləri janr xüsusiyyətlərinə görə müqayisə et.

**Oxşar cəhətlər**

| Əsərin adı__________ | Əsərin adı__________ |
|---|---|
| Müəllifin adı__________ | Müəllifin adı__________ |
| **Fərqli cəhətlər** | **Fərqli cəhətlər** |

## NƏQLETMƏ XARAKTERLİ ESSENİN ELEMENTLƏRİ



*Nəqletmə xarakterli essedə elementləri müəyyənləşdirmək nə üçün lazımdır?*

Nəqletmə xarakterli mətnlərin, əsasən, beş elementdən ibarət olduğunu öyrəndin: əsərin mövzusu; hadisənin baş verdiyi məkan və zaman; əsərdəki obrazlar; əsərdə ziddiyyət; əsərin hissələri.

Nəqletmə xarakterli esse yazan zaman bu elementlərin nəzərə alınması zəruridir. Bu dərsdə nəqli essenin müxtəlif elementləri baxımından mətnin tərtib edilməsi yollarını öyrənəcəksən.

Çap üçün deyil

***Tapşırıq 1.*** Səndən cəsarət tələb edən hadisə ilə bağlı nəqli essenin elementləri üzərində düşün. Səhifə 134-də verilən sxem üzrə iş aparmaqla essenin bütün elementlərinin yerli-yerində olmasını təmin et:

- Qeydlər apar: hadisələr harada və nə zaman baş verir?
- Hadisələrin əsas iştirakçıları kimlər olacaq? *(Bu elementi sən artıq əvvəlki yazıya hazırlıq mərhələsində işləmisən. Həmin qeydləri nəzərə al)*;
- Essedə nədən bəhs ediləcəyi barədə qeydlər götür. Nədən bəhs edildiyini aydınlaşdırarkən essenin mövzusunu müəyyən etmiş olacaqsan;
- Oxucunun diqqəti hansı problemə və onun həllinə yönəldiləcək? Bu problem nəyə görə sənin üçün əhəmiyyətlidir?
- Essedə hadisələrin ardıcıllığını müəyyənləşdir. (Bu elementi də sən yazıya hazırlıq mərhələsində artıq işləmisən. Tərtib etdiyin həmin nümunəyə bir daha nəzər sal.) Hər hansı dəyişiklik, yaxud təkmilləşmə işlərinə ehtiyac duyularsa, yerinə yetir. Bundan sonra həmin qeydləri elementlərdən biri kimi daxil et.

## F.TANRILI. «MƏN AZƏRBAYCANLIYAM» HEKAYƏSİ
### (ƏSƏRİN NƏQL EDİLMƏSİ)

Əziz məktəbli, bundan əvvəlki dərslərdə sən nəqli mətnlərin bütün elementlərini əks etdirən xəritələri hazırladın. Həmin xəritələrdən çıxış edərək mətnlərin oxşar və fərqli cəhətlərini müəyyən etməyi öyrəndin. Təcrübədən bildin ki, nəqli mətnin xəritəsini tərtib etmək onun haqqında hərtərəfli təsəvvür əldə etməyə kömək edir. Bu xəritələr başqa bir məsələ baxımından da çox faydalıdır. Belə ki mətni nəql edən zaman həmin xəritələr sənə bələdçilik edə bilər.

***Tapşırıq 1.*** «Mən azərbaycanlıyam» mətnini oxu. Xəritəsini qur. Sonra əsərin təqdim edilən qeyd vərəqini doldur. Ondan istifadə etməklə mətni nəql et.



Çap üçün deyil

**Əsərdə hadisələr** ______________________________

______________________________(məkanda)

______________________________(zamanda) **baş verir.**

**Əsərdəki əsas obrazlar** ______________________________

______________________________

______________________________

**Hadisələr ondan başlanır ki,** ______________________________

______________________________

______________________________

**Əsərdə əsas ziddiyyət** ______________________________

______________________________

______________________________

**Əhvalat belə oldu ki,** ______________________________

______________________________

______________________________

**Sonra** ______________________________

______________________________

______________________________

**Daha sonra** ______________________________

______________________________

______________________________

**Sonda** ______________________________

______________________________

______________________________

**Ziddiyyət belə həll olur ki,** ______________________________

______________________________

______________________________

## MƏN AZƏRBAYCANLIYAM

Sizə kimdən deyim, kimdən xəbər verim... Farizdən. Çoxunuz onu tanımır. Amma məhəllələrində yaşayan uşaqların hamısı ona həsədlə baxırlar. Niyə? Eh, birini bilirsiniz, birini yox. Səbəbi var. İş burasındadır ki, babası evlərinin həyətində onun üçün yaraşıqlı raket düzəldib. Taxtadan. Lap doğruçuya oxşayır. Açılıb-örtülən girdə qapısı, sıra-sıra pəncərələri, hərlənən kreslosu, əlvan düyməcikli pultu, sükanı var. Atası isə televizor ...hə, hə... işləyən televizor quraşdırıb. Yaşıl düyməciyi bas... cizgi filminə bax.

Hər səhər yuxudan duran kimi Fariz başına böyük dəbilqə qoyur. Motosikletçilərdə olandan. Gözlərinə enlişüşəli eynək

Çap üçün deyil



taxır. Ovcunun içi sarı-ağ əlcəklərini geyinir və ...raketə tələsir. Yerini rahatlayıb düyməciklərdən birin basır. Qırmızı rənglisini.

— Mən 210-am! Kosmonavt Farizəm! Uçuşa hazıram! Mühərrikləri işə salın. Sayıram... beş... dörd... üç... iki... bir! Getdik!..

Nədənsə bu dəfə növbəti səfərə bir azca ləngidi. Deyəsən, yuxudan kal durmuşdu. Elə yerinin içində uzanıb fikrə getmişdi. Götür-qoy eləyirdi. Axı tanımadığı təzə ulduza uçmalıydı... Birdən çilçırağın işığı öz-özünə yandı. Ürək kimi döyündü. Deyəsən, nəyisə işarə eləyirdi. Televizorun da ekranı işıqlandı. Oradan ona ömründə görmədiyi bir oğlan gülümsündü. Tez-tez həyəcanla danışmağa başladı. Fariz onun dediklərini başa düşmədi. Hələ bu dildə danışan adama rast gəlməmişdi.

Birdən raketindəki kompüter söhbətə qarışdı. Oğlanın söylədiklərini Azərbaycan dilində səsləndirdi.

— Diqqət! Diqqət! Danışan Planetlərarası Böyük Kompüterin növbətçi operatoru Eaa Zennoraadır! Günəş sistemindən çıxıb bizim Krasanus Süni Planetlər Birləşməsində uçursunuz. Ehtiyatlı olun. Raketiniz böyük sürətlə Qara Nəhəngə sarı uçur. Tədbir görün! Qəzaya uğraya bilərsiniz. İki saniyəniz qalıb... iki saniyəniz qalıb!

Fariz qorxmadı. Əvvəlki uçuşlar vaxtı başına bundan da çətin hadisələr gəlmişdi. Buna görə sakitcə soruşdu:

— Nə etməliyəm?



Çap üçün deyil

— Sükanı üç dərəcə sağa çevirin. Bircə saniyəniz qalıb!..

Raketdəki kompüterin əlvan gözcükləri cərgə-cərgə, sıra-sıra alışıb yandılar. Səs-səsə verdilər... Üç dərəcə... üç dərəcə... sağa... sağa! Bir göz qırpımında Qara Nəhəng yolun sol tərəfində qaldı.

Fariz gözünün üstünə düşən dəbilqəsini düzəltdi. Ekrana göz gəzdirdi. Raketi saysız-hesabsız ulduzlar aləminə uçurdu.

— Görəsən, mənimlə danışan oğlan bunların hansında yaşayır? Eaa Zennoraa!

O dəqiqə cavab aldı.

— Sən iki günəşli, on peykli Arqonis planetinə xoş gəlmisən! Görüşümüzə çox şadam. 50A saylı kosmodrom raketini qəbul etməyə hazırdır...

Bu dəfə Eaa təmiz Azərbaycan dilində ondan soruşdu:

— Hardan gəlmisən?

— Günəş sistemindən.

— Onu bilirəm. Hansı planetdən, hansı ölkədən?

— Yer planetindən. Azərbaycandan!

— A-zər-bay-can-dan?! Vətənini çoxmu sevirsən?

— Mən fəxr eləyirəm ki, azərbaycanlıyam!..

Oğlan ekrandan yox oldu. Yerində bir-birini qovan rəqəmlər göründü.

Fariz diksinib gözlərini açdı. Otağındakı televizorun ekranında nə Eaanı, nə Arqonisi, nə Krasanus Süni Planetlər Birləşməsini gördü. Vay, olmaya Eaanı yuxuda görüb?! Yox, yox, ola bilməz. Axı bayaq oyanmışdı? Bəlkə, bunlar doğrudan olub?! Bəlkə...

Oğlan başına gələnləri babasına danışmaq üçün onun emalatxanasına yüyürdü. Qonşu uşaqlar hasara dırmaşıb yenə həsrətlə ona tamaşa eləyirdilər...

***Fuad Tanrılı***

**Ev tapşırığı:**

1. Əsərin əsas obrazlarının başlıca xüsusiyyətlərini müəyyən et.
2. Əsərin ideyası üzərində düşün. Müəllif öz oxucularına nə demək istəyirdi?

Çap üçün deyil

## ƏSƏRİN ÜMUMİLƏŞDİRİLMƏSİ VƏ NƏTİCƏNİN ÇIXARILMASI

**Əsaslandırmaq.** Baş verənləri əsərdən nümunələr, faktlar və sitatlar gətirməklə danışmaq.

**Münasibət bildirmək.** Əsərdə baş verənlərdən nəyin doğru, nəyin yanlış olması ilə bağlı fikirlər yürüdülməsi.

**Dəstəkləmək.** Doğru hesab etdiklərini əsərdən nümunələr gətirməklə və ya şərhlər verməklə dəstəkləmək.

**Nəticə çıxarmaq.** Əsərdən hansı qənaətə gəldiyini bildirmək.

***Tapşırıq 1.*** F.Tanrılının «Mən azərbaycanlıyam» hekayəsinin nəql edilməsi üçün qeyd vərəqini artıq yerinə yetirmisən. Aparılmış bütün hazırlıq işləri əsəri ümumiləşdirmək və nəticə çıxarmaq istiqamətində atılmış addımlardır. Oxuduğun mətn üzrə fikirlərini cəmləşdir, təqdim edilən qeyd vərəqinə yaz.

**Əsərdə baş verənlərə münasibətim ondan ibarətdir ki,** __________

______________________________

______________________________

______________________________

______________________________

______________________________

**Ona görə belə düşünürəm ki (əsərdən sitatlar gətirməklə fikirlərinizi əsaslandırın),**______________________

______________________________

______________________________

______________________________

______________________________

______________________________

**Sonda belə nəticəyə gəlmək olar ki,** ____________________

______________________________

______________________________

______________________________

______________________________

Çap üçün deyil

# NƏQLETMƏ XARAKTERLİ ESSENİN YAZILMASI



*Nəqletmə xarakterli esse necə tərtib edilir?*

Sən əvvəlki dərslərdə nəqli essenin yazısına hazırlaşmısan. Essenin hər bir elementinin təşkili üzrə işlər aparmısan. Hadisələrin harda və nə zaman baş verdiyini, həmin hadisələrdə kimin iştirak etdiyini müəyyən etmisən. Həmçinin nədən bəhs edəcəyini, hansı məsələni müzakirəyə çıxaracağın haqqında da düşünmüsən. Bütün bunları hansı ardıcıllıqla təqdim edəcəyin barədə də götür-qoy etmisən. Artıq nəqli essenin yazısına tam hazırsan.

***Tapşırıq 1.***

1. Həyatında baş vermiş, səndən cəsarət tələb edən bir hadisəni yadına sal və onun xəritəsini tərtib et (nümunə səh.141–142).
2. Tərtib etdiyin xəritə əsasında essenin planını qur.
3. Esseyə maraqlı və cəlbedici giriş ver.
4. Qaralamada qeydlər apar.
5. Ehtiyac yarandıqca dialoqlara da yer ver.

## ESSENİN BAŞLANĞICI

**Hadisənin baş verdiyi zaman və məkan**

*Çox soyuq bir qış günü idi. Məktəbin həyəti qar ilə örtülmüş, hər tərəf buz bağlamışdı. Buna baxmayaraq, hava sakit və küləksiz idi.*

**Əsərdə iştirak edən obrazlar**

*Biz – beşinci sinif qızları böyük tənəffüsdə təmiz hava almaq üçün məktəbin həyətinə çıxmışdıq. Söhbət edir, gəzir, təbiətin gözəlliyinə tamaşa edirdik. İkinci sinifdə oxuyan bacım da bizimlə idi. Bir az kənarda altıncı sinif oğlanları qartopu oynayırdılar.*

Çap üçün deyil

## ƏSAS HİSSƏ

### Ziddiyyətin yaranması

*Altıncı sinif oğlanlarından bir neçəsi bacım Nərgizə qartopu atmağa başladı. Bacımın qorxduğunu hiss etdim. Onların üstünə qışqırdım ki, bacımı qorxutmasınlar. Oğlanlar buna əhəmiyyət vermədilər.*

### Ziddiyyətin açılması

*O zaman iki yoldaşımla bacımı dövrəyə aldıq. Biz oğlanların atdığı qar topalarının qarşısını divar kimi kəsmişdik. Beləcə bacımı oradan uzaqlaşdırdıq.*

## ESSENİN SONU

### O zaman nə hiss edirdim, indi nə hiss edirəm

*Çox qorxmuşdum, hönkürüb ağlamaq istəyirdim. İndi heyran qalmışam, bunu necə edə bildim. Nə yaxşı ki, o zaman dostlarım mənə kömək etdilər.*

## İNŞA YAZININ TƏŞKİLİ



*İnşa yazı necə tərtib edilir?*

Elə yazı nümunələri var ki, orada müşahidə etdiyimizi təsvir etmək, xatırladığımızı nəql etmək bacarığı ilə yanaşı, digər bacarıqlar da tələb olunur. Buraya müxtəlif mənbələrdən məlumatlar əldə etmək, onlardan istifadə etmək, onların əsasında yeni məlumatlar yaratmaq daxildir. Belə yazılar inşa adlanır. Doğrudur, aşağı siniflərdə sən müxtəlif mövzularda inşalar yazmısan. İndi isə bu yazını daha mükəmməl, qaydalara uyğun yazmağın yollarını öyrənəcəksən. Aşağıda verilmiş təlimata əməl etməklə öz kiçik tədqiqat əsərini — inşanı yaradacaqsan.



Çap üçün deyil

Çox vacibdir ki, əvvəlcədən gözəl bir inşa yaza biləcəyinə inanasan. Yazı işini həvəslə yerinə yetirmək onun keyfiyyətini yüksəldər. Əgər bütün bunları etməsən, heç vaxt istədiyin nəticəyə nail ola bilməzsən. İnşa yazının uğurla yerinə yetirilməsi üçün onun tərtibi yolları ilə tanış olmalısan. İnşa yazı aşağıdakı mərhələlərdə həyata keçirilir:

| | |
|---|---|
| **I mərhələ** | Özünün seçdiyin, yaxud müəllim tərəfindən verilən mövzu üzərində düşün. |
| **II mərhələ** | Məlumat topla. |
| **III mərhələ** | Hansı məsələlərə toxunacağını (müddəalar) müəyyən et və yazını planlaşdır. |
| **IV mərhələ** | Hər məsələ ilə bağlı qeydlər et. |
| **V mərhələ** | Yazının ilkin variantını hazırla. |
| **VI mərhələ** | Həm tərtib etdiyin planı, həm də ilkin variantı bir daha nəzərdən keçir. |
| **VII mərhələ** | Düzəlişlər bitəndən sonra son variantı yaz |

***Tapşırıq 1.***

1. Aşağıda təqdim edilən mövzulardan biri üzrə inşa yazıya hazırlaş:

- Ümummilli lider Heydər Əliyevin Azərbaycan üçün gördüyü hansı işlərin davamçısı olmaq istərdim?
- Şuşanın dünənini öyrənirəm, bu gününü unutmuram, sabahı üçün çalışıram.
- 9 May faşizm üzərində Qələbə Günü — qalib olmaq məqsədimizdir.
- Bir kərə yüksələn bayraq, bir daha enməz.

2. Məlumat dairəni genişləndirmək üçün kitabxanada, İnternet səhifələrində araşdırmalar apar.

3. Tapdığın fakt və məlumatlarla bağlı qeydlər apar. Onların yerləşdiyi mənbəni də göstər.

Çap üçün deyil

**I mərhələ** — **İnşa yazmaq üçün:**

— Səy və həvəslə tədqiqatlara başla.
— Tədqiqatları apararkən mövzudan kənara çıxma. Bunu etmək istəsən, müəllimlə məsləhətləş.
— Əgər müəllimin tapşırığı sənə tam aydın deyilsə, yenidən izah etmək üçün müəllimə müraciət et.
— İşini elə qur ki, onu uğurla başa çatdıra biləsən.

**II mərhələ** — **Məlumat toplamaq üçün:**

— Öyrəndiklərinə bir daha nəzər sal.
— Ehtiyac yaranarsa, yazacağın mövzu ilə bağlı İnternet səhifələrində axtarışlar apar.
— Hər İnternet səhifəsində verilən məlumat etibarlı məlumat hesab edilə bilməz. «edu» və «gov»-la bitən İnternet səhifələri dövlət təşkilatlarını təmsil edir və bu səbəbdən də onlar etibarlı məlumat kimi istifadə edilə bilər. Sonu «com»-la bitən İnternet səhifələrindəki məlumatlarla isə bir qədər ehtiyatlı olmaq lazımdır. Digərlərindən isə istifadə etməməyin məsləhət görülür.
— Məktəb kitabxanasında da tədqiqatlarını davam etdir. Bunun üçün almanaxlar, xəritələr, kataloqlar, ensiklopediyalar, lüğətlər, qəzetlər, jurnallar və s. əhəmiyyətli məlumat mənbəyi ola bilər.
— Məlumatları mövzu baxımından dəyərləndirərək oxu: «Bu məlumat mənə lazımdır, ya yox?» Əgər lazımdırsa, qeydlərini apar və həmin mənbənin ünvanını yaz.
— Çap materiallarında müəllif, əsərin adı, çap olunduğu tarix və yer, nəşriyyat, səhifənin nömrəsi qeyd edilir. İnternet səhifələrdən əldə edilmiş məlumatlarda isə həmin səhifənin ünvanı, yaranma tarixi, səhifədə iş apardığın tarix yazılır.
— Sənə daha çox yaxın olan, səni qane edən məlumat mənbələrini yaz. Bu gələcək tədqiqatlarında sənə yararlı olacaq.



Çap üçün deyil

## YAZININ PLANLAŞDIRILMASI VƏ QEYDLƏRİN GÖTÜRÜLMƏSİ

***Tapşırıq 2.*** Topladığın fakt və məlumatlardan istifadə etməklə yazacağın inşanın planını tərtib et. Planın hər bəndi üzrə qeydlərini hazırla. Bir məsələdən digərinə necə keçəcəyin barədə də düşün. Verilmiş mövzular üzrə yazıya hazırlaş.

Tapşırığı yerinə yetirərkən aşağıdakı təlimatdan istifadə et.

**III mərhələ** — **Əsas müddəaların müəyyən edilməsi və yazının planlaşdırılması**

— Topladığın bütün məlumatları bir araya gətir və uyğun məlumatları qruplaşdır.
— Həmin məlumatlar qrupunu adlandır.
— Ayrı-ayrı məlumatlar qruplarına verdiyin adları yaz. Bu adlar sənin əsas istiqamətlərin olacaq. Hər bir istiqamət məsələyə münasibətini, onunla bağlı inamını, əqidəni, mövqeyini əks etdirməyə imkan verəcək.
— Məlumat qruplarından hansının giriş, hansının əsas hissə və hansının nəticəyə uyğun olduğunu müəyyənləşdir, onları ardıcıllıqla qeyd et.

Beləliklə, inşanın planını tərtib etmiş olacaqsan. Hər bir məsələ ilə bağlı mövqeyin aşkar etdiyin faktlar və məlumatlarla əsaslandırılmalıdır. Yazı tədqiqat xarakterli olduğundan bunu etmək vacibdir.

**IV mərhələ** — **Planın hər bəndi ilə bağlı qeydlərin götürülməsi**

— Tərtib etdiyin planı qarşına qoy.
— Planın hər bəndi üzrə toplanmış məlumatları nəzərdən keçirt.
— Araşdırıb tapdığın fakt və məlumatlara tənqidi yanaş: «Bu məlumat nə qədər tutarlıdır? Onunla hansı fikri əsaslandırmaq olar?»
— Tutarlı hesab etdiyin məlumatların etibarlılığını və dəqiqliyini bir daha yoxla. *(Hansı mənbədən əldə edilib? Qeyd-*



Çap üçün deyil

*lər düzgün və dəqiq aparılıbmı?)* Ən müasir, nüfuzlu mənbələrdən istifadə etməyə çalış.

— Topladığın məlumatlar arasında elələri ola bilər ki, onlar sənin fikirlərini təsdiqləməsin, əksinə, inkar etsin. Topladığın məlumatları bir daha nəzərdən keçirt. Fikrini təsdiqləməyən faktları aşkar et, öz mövqeyini müdafiə edən tutarlı faktlar əsasında həmin fikri təkzib et.

**Təkzib etmək** hər hansı bir məlumatın doğru olmadığını əsaslandırmaqla bəyan etməkdir.

— Başa düşmədiyin və ya mövzunla əlaqəsi olmayan məlumatları dərhal kənara qoy.

— Başqalarının yazısını köçürüb öz yazın kimi təqdim etmə.

## İLKİN NÜMUNƏNİN HAZIRLANMASI

**V mərhələ** — **Yazının ilkin variantını hazırla**

— Planındakı birinci bənddən başla.
— Həmin bəndlə bağlı apardığın bütün qeydlərini oxu.
— Qeydlərdən istifadə etməklə inşada diqqətə çatdırmaq istədiyin fikirlərin inandırıcılığını *sitatlar* və *istinadlarla* təmin et.
— Planın hər bəndi üzrə iş başa çatdıqca qarşısında işarə qoy.
— İnşanın ilkin nümunəsi hazır olandan sonra yazıya bir daha nəzər sal.

**İnşanın hissələrini tərtib edərkən onlara verilən tələblərə riayət et.**

**GİRİŞ** — plan üzrə bu hissəyə aid müddəalar açıqlanır. Yazının məqsədi aydın şəkildə təqdim edilir. «Bu yazını yazmaqda əsas məqsədim nədir?» sualına cavab verilir. Həmin məqsədə çatmaq üçün hansı məsələlərə toxunacağın barədə də qısaca məlumat vermək lazımdır. İnşa hər hansı bir əsərin, müəyyən



Çap üçün deyil

problemin, hadisələrin təhlilinə həsr oluna bilər. Bu baxımdan əvvəlcədən yazının hansı məsələ ilə bağlı olması barədə qısaca şərh verilir. Məhz bu məqam elə tərtib edilməlidir ki, oxucuda maraq doğursun.

**ƏSAS HİSSƏ** — bu hissədə aydınlaşdırılması nəzərdə tutulan məsələlər plandakı ardıcıllıqla təqdim edilir. Hər bir müddəada irəli sürülən fikir müxtəlif mənbələrdən əldə edilmiş fakt və məlumatlarla dəstəklənir. Hər bir müddəa üzrə fikirlərini sübut edən iki-üç faktın olması məsləhətdir. Bununla sən irəli sürdüyün fikri kifayət qədər əsaslandırmış olarsan (bunun üçün əvvəlcə tutarlı, sonra daha tutarlı, sonda isə ən tutarlı fakt təqdim edilir).

**NƏTİCƏ** — diqqət bir daha araşdırılan məsələyə yönəldilir. İnşa yazılarkən fikirlər ümumiləşdirilir. Nəticə təqdim edilir. Sonda gəldiyin nəticənin səbəbi izah edilir. *(Nə üçün mən belə qənaətə gəldim?)*

## YAZININ ŞAGİRDLƏR TƏRƏFİNDƏN YOXLANMASI

**VI mərhələ** — **Yazının şagirdlər tərəfindən yoxlanması**

1. Səhvləri yoxlamaq məqsədi ilə yazını oxu. Fakt və məlumatları bir daha yoxla. Ehtiyac olarsa, fikir ardıcıllığının gözlənməsi üçün yenidən iş apar. Zəruri hallarda planda dəyişikliklər et. Bu zaman yazının məqsədini unutma.

> Əvvəl elə məsələlər araşdırılır ki, onlar araşdırılmadan ikinciləri araşdırmaq mümkün olmur.

### ☑ Yoxlama vərəqi 1

1. Bu inşada fikirlər qısa və aydın ifadə edilibmi?
2. İş plan üzrə aparılıbmı? Heç bir bəndi yaddan çıxarmamısan ki?
3. Fikirlərini əsaslandırmaq üçün istifadə etdiyin fakt və məlumatlar məntiqi ardıcıllıqla düzülübmü?

Çap üçün deyil

4. İstifadə etdiyin məlumatların mənbəyi (kitab, qəzet, jurnal İnternet səhifə və s.) göstərilibmi? Əmin ol ki, mənbə göstərilmədən heç bir məlumat yazıya daxil edilməyib.
5. İnşada ifadə edilmiş fikirlər müxtəlif nüfuzlu mənbələrə əsaslanıbmı?
6. İnşada nəzərdə tutduğun məqsədə nail ola bildinmi?

2. Qrammatik səhvləri aşkar etmək üçün yazını bir də oxu. Ehtiyac yaranarsa, orfoqrafik lüğətdən, yaxud izahlı lüğətdən istifadə et. Orfoqrafik qaydalar baxımından yazını bir daha yoxla. Aradan qaldırılması mümkün olan bütün səhvləri düzəlt. Yaxınlarından birindən xahiş et ki, yazını oxusun. Bəzən sənin görə bilmədiyin səhvləri başqaları asanlıqla görə bilər.

### ☑ Yoxlama vərəqi 2

1. Hər yeni abzas uyğun cümlə ilə başlanıbmı?
2. Yazılmasına ehtiyac olan, lakin yazılmamış, yaxud bitirilməmiş heç bir fikir qalmayıb ki?
3. Yersiz yazılmış, yaxud təkrar işlənmiş söz varmı?
4. Cümlələr həddən artıq uzun deyil ki?
5. Orfoqrafik, yaxud qrammatik səhvlər yoxdur ki?
6. Yazıya daxil edilmiş sitatlar dəqiq verilibmi?
7. Durğu işarələrindən düzgün istifadə edilibmi?
8. Birinci şəxsin adı ilə ifadə olunan fikir yoxdur ki? («elə düşünürəm ki», «fikrimcə» və s.)
9. Düzgün tərtib edilmiş cümlələr nəzərdə tutduğun fikri ifadə edirmi?

**VII mərhələ** **Düzəlişlər bitəndən sonra son variantı yaz və ya çap et**

Yoxlamalar başa çatdıqdan sonra düzəlişlər nəzərə alınmaqla mətni yeni vərəqə köçürmək lazımdır. Diqqətli ol ki, köçürmə zamanı yeni səhvlərə yol verməyəsən. Köçürəndən sonra mətni bir daha oxuyub müəllimə təhvil ver və ya yoldaşlarına təqdim et.



Çap üçün deyil

## Z.YAQUB. «BİR DAHİ DOĞULUB GƏLDİ DÜNYAYA» ŞEİRİ
### (ÜMUMİLƏŞDİRİCİ DƏRS)

*Əziz məktəbli dost!* Dərs ili boyu müxtəlif janrlara aid bədii nümunələri (nağıl, əfsanə, hekayə, təmsil və heca vəznli şeirlər) düşünərək oxumağın yollarını öyrəndin. Artıq sən oxuduğun əsərlərin təsviri, yaxud nəqli mətn olduğunu müəyyən etməyi də bacarırsan. Mətnlərin səciyyəvi cəhətlərini (təsviri, nəqli) nəzərə alaraq oxunu təşkil edirsən. Əsərləri ideya, mövzu, təsvir vasitələri və obrazlara görə təhlil edirsən. Sən, həmçinin müxtəlif əsərlərin quruluşlarını (əsərin hissələrini, elementləri) müəyyən edirsən. Oxuduğun bütün əsərləri həyatında baş verən hadisələrlə əlaqələndirməyi bacarırsan. Sən, eyni zamanda həmin əsərləri yazan qələm sahibləri ilə tanış oldun. Ən fərəhlisi isə odur ki, artıq sən özün müstəqil şəkildə təsviredici, nəqletmə mətnlər yarada bilirsən. Sən həm də kiçik tədqiqatlar aparmağın yollarına bələd oldun. Bunlar sənin qazandığın uğurlardır.

***Tapşırıq 1.*** Əsəri oxu. Sinif yoldaşlarınla müzakirə et. Əsərin nəqli, yoxsa təsviri mətn olduğunu müəyyən et. Əsərin mövzusu, ideyası, əsərdəki obrazlar, hadisələrin ardıcıllığı, əsərin hissələri və elementləri (xəritəsi), istifadə edilmiş təsvir vasitələri və s. üzərində düşün. Fikirlərini əsaslandır.

### BİR DAHİ DOĞULUB GƏLDİ DÜNYAYA

Naxçıvanda doğuldu
23-ün mayında.
Güllü bahar fəslinin
ən işıqlı ayında.
Anası İzzət xanım,
atası Əlirza
Şükürlər oxudular
onlara oğul verən
Tanrıya, İlahiyə,
bu bahara, bu yaza.

Çap üçün deyil




Ata-ana ad qoyub
 adına Heydər dedi,
Bu həyatın barını
 dərdikcə, hey dər, dedi.
O boy atıb böyüdü
 gündə bir darı boyda,
Ona layla çalanın
 xoş arzuları boyda.
Hər anla, hər saatla,
 hər fəsillə böyüdü.
Damar-damar bərkidi,
 pillə-pillə böyüdü.
Bir gün əskik olmadı
 laylası, oxşaması,
Atanın yeridiyi
 yerişlə, tərpənişlə,



Çap üçün deyil

Ananın danışdığı
şirin dillə böyüdü...
Ana onu bir dəfə
doğub verdi dünyaya,
O hər gün bir nəğmədən,
bir səsdən doğulurdu.
Dar komadan, daş evdən,
məbəddən, məqbərədən,
Sıldırımdan, keçiddən,
aşırımdan, bərədən,
Məsciddən, minarədən,
haqqın ona verdiyi
İlahi bir vergidən,
eyhamdan, işarədən,
Yoldan, cığırdan, izdən,
Atabəy Eldəgizdən,
Möminə xatun adlı
türbənin naxışından,
Günəşin işığından,
buludun yağışından,
Çəmənlərin dumduru
şehindən doğulurdu.
Kimdi Məhəmməd Cahan,
kimdir Memar Əcəmi,
Bu yurdun memarından,
şahından doğulurdu...
Naxçıvan torpağının
şəhdindən, şirəsindən,
Qayaların ağzından
çıxan od kürəsindən,
Qədim tikililərin
bağından-bağatından,
Şəhər səliqəsindən,
köhnə kənd həyatından,
Günlü güneylərindən,
qarlı quzeylərindən,



Çap üçün deyil



Allahın yaratdığı
qaya muzeylərindən,
Ürəyə işıq salan
günəşdən doğulurdu,
Şimşəkdən, ildırımdan,
atəşdən doğulurdu.
Kim deyə bilərdi ki,
bugünkü körpə uşaq,
Sabahkı bir dahidi,
biz kimik hökm verək,
Hökmü verən-çıxardan
Tanrıdı, İlahidi.

***Zəlimxan Yaqub***



Çap üçün deyil

# L A Y İ H Ə

İki qrupa bölünün. 28 May Respublika Günü münasibəti ilə təqdim olunan əsərlər üzrə layihəni işləyin.

Əsərlərdən biri nəqletmə, digəri təsviredici xarakterlidir.

**I qrup. 1.** Məmməd Namazın «Vətəni çiçəkləndirmək lazımdır» nəqletmə xarakterli əsərini aşağıdakı məsələlər baxımından təhlil edin:

- Əsərdəki obrazlar və onların başlıca xüsusiyyətlərini təsvir edin.
- Əsərdəki obrazları müqayisə edin.
- Əsərdə hadisələrin ardıcıllığını müəyyən edin.
- Əsəri hissələrə ayırın.
- Əsərin elementlərini müəyyən edin.

**2.** Nəticələrinizi əks etdirən kiçik təqdimat hazırlayın.

**II qrup. 1.** Tofiq Bayramın «Alqış deyim» təsviredici xarakterli şeirini aşağıdakı məsələlər baxımından təhlil edin:

- Əsərin ideyasını müəyyən edin.
- Əsərdə bədii təsvir vasitələrini müəyyən edin.
- Əsərdə hisləri və faktları təsvir edən məqamları göstərin.
- Əsərin hissələrini müəyyənləşdirin.

**2.** Nəticələrinizi əks etdirən kiçik təqdimat hazırlayın.

## VƏTƏNİ ÇİÇƏKLƏNDİRMƏK LAZIMDIR!

Sumqayıtda qoca bir kişi yaşayır: torpağı sevən, əkib-becərən, hamıya yaxşılıq edən nurani bir qoca.

Təqaüdçü olduğundan, qocaldığından işləyə bilmirdi. Amma əli işdən soyumamışdı. Hey işləmək, əkib-becərmək həvəsi ilə yaşayırdı.

Şəhər rəhbərliyindən torpaq sahəsi istəsə də, onu razı salan yox idi.

Bu nurani kişi düşünüb-daşınıb qərara aldı ki, boş bir sahədə ağac, gül əkib-becərsin.



Çap üçün deyil



Belə də etdi. Yaxşı meynələr, şitillər, güllər alıb boş bir sahədə əkdi. Gözəl bir bağ saldı. Yaz fəsli bu ağaclara sığal çəkdi. Çiçəklər yazın nəfəsi ilə günəşə boylandılar.

Adamlar baxıb deyirdilər:

— Sağ olsun bu kişini, yüz adamın işini görüb. Necə də gözəl bağ salıb!

Amma... Amma günlərin bir günü şəhər rəhbərliyindən gəlib dedilər ki, bu bağı sökmək, dağıtmaq lazımdır.

— Qanunsuz bağ salmısan. Ağacları da kəs at getsin!

Bu qoca bağban bağda oturub dərin fikrə dalmışdı. Balaları kimi sevə-sevə böyütdüyü ağacları, gülləri kəsib tökməyə nə əli gəlirdi, nə də ürəyi. Oturub hey fikirləşirdi. Sanki ağaclar da bunu duyub kədərlənirdilər. Güllər saralıb-solmaqdaydı...

Bu zaman qocanın yanında bir maşın dayandı. Maşından ucaboylu, gülərüzlü sanki hamıya və bu qocaya da tanış olan bir kişi düşüb bağa doğru gəldi: kişiyə əl uzadıb salam verdi.

— Salam, qoca! Niyə kefsiz oturmusan burada?

Nurani qoca ağacları göstərdi:

— Balalarımla vidalaşmaq mənə çətindir.

— Nə olub, de?

— Bu ağacları kəsdirirlər. Qanunsuz əkibsən, deyirlər. Təqaüdçü babayam, əlim işsiz əsir. Bura boş yer idi. Təmizləyib



Çap üçün deyil

bağ saldım, gül-çiçək əkdim... Nə xeyri, indi gəlib deyirlər ki, dağıt bu bağı.

— Kim deyir dağıt?

— Kim deyəcək? Şəhərin böyükləri...

Elə bu zaman beş-altı maşın gəlib onların yanında dayandı. Maşından enən adamlar onların yanına gəldilər.

— Bunlar deyir, bağı dağıt, ağacları kəs, gülləri qopar?! Yox, elə iş görmə.

Sonra şəhər rəhbərlərinə tapşırdı:

— Bu torpağı, bu sahəni verirəm bu qocaya. Qanuniləşdirin. Torpağı onu əkib-becərənə verin! — dedi rəhbər.

— Oldu, yoldaş Əliyev! Baş üstə! Oldu!

Bizim nurani qoca bağban eşitdiklərinə o qədər sevindi ki, sanki ürəyində gün doğdu, cavanlaşdı. Yaxınlaşıb rəhbərin əllərindən öpmək istədi. Lakin rəhbər onu qucaqlayıb sinəsinə sıxdı.

— Lazım deyil, — dedi. Bir də gələndə görüm ki, daha yaxşı güllər əkmisən... Vətəni çiçəkləndirmək lazımdır...

Rəhbər getdi. Lakin onun məhəbbəti bağbanın ürəyində qaldı, ağacların da, güllərin də!

***Məmməd Namaz***

## ALQIŞ DEYİM

Alqış deyim bu torpağın nemətinə,
Elin halal qismətinə alqış deyim.
Ürəklərin birliyinə, vəhdətinə,
Hünərinə, zəhmətinə alqış deyim.

Bu zəfərin işığıyla gözlər nurlanır,
Qürurlanır insan oğlu uca dağ kimi.
Ana vətən gözəlləşir, ellər varlanır,
Qızıl payız nübarlıdır ilk bahar kimi.

Xalqın şirin zəhmətini, əməyini
Ümman edən hər damcıya alqış deyim.
Məşəl kimi yandırıb öz ürəyini,
Yol göstərən sükançıya alqış deyim.

Çap üçün deyil

El qeyrəti damarlarda coşub-daşıb,
Elə bil ki, hər birimiz beş nəfərik.
Şəhərimlə kəndlərimlə qucaqlaşıb,
Gecə-gündüz səfərbərlik, səfərbərlik.

Bayraq rəngli, nur çələngli qələbənin,
Bəhrəsini görənlərə alqış deyim.
Bir cərgədə kəndli qızla tələbənin,
Axıtdığı halal tərə alqış deyim.

Hər biriniz bu torpağın şah əsəri,
Hər biriniz şöhrətsiniz bu həyata
Ən sərvətli bir ölkənin sahibləri,
Layiqsiniz min alqışa, mükafata.

İlham sizin, şeir sizin, sənət sizin,
Yer də, göy də eşqinizlə vəcdə gələr.
O mis kimi yanan isti əlinizin
Atəşindən doğulmuşdur bu kəlmələr.

Azərbaycan xoş xəbərlər məkanıdır
Azərbaycan — şadlıq yeri, toy diyarı.
Qələbələr bu torpağın  ünvanıdır,
Ey insanlar, geniş açın qapıları.

Küçələrdə tar səslənsin, kaman dinsin,
Haqqımız var yallı gedib, qanad açaq.
İgidlərin səcdəsinə günəş ensin
Qədəmlərə gül səpilsin qucaq-qucaq.

Ana Vətən, qadir xalqım, gözün aydın,
Mübarəkdir bu bayramın, bu təntənən.
Alnın açıq, başın uca, üzün aydın,
Bir müqəddəs bayraq kimi ucaldın sən.

*Tofiq Bayram*



Çap üçün deyil

## SİNİFDƏNXARİC OXU

### DARIXIR
*Tofiq Mütəllibov*

Yalqız qalıb otaqlar,
Darıxırlar dəhlizdə.
Hanı o tanış səslər,
Hanı o tanış üzlər?

«Baxır» yazı lövhəsi,
Gözü yollarda qalıb.
Dilə gəlir təbaşir:
— Uşaqlar harda qalıb?

Bir vaxt səsdən darıxan
Qapıçı səsə həsrət.
Baxır, baxır yollara
Gözlərində məhəbbət.

Susmuş məktəb zəngi də
Elə bil fikrə daldı:
— Niyə bizi çalan yox,
Uşaqlar harda qaldı?

Ayaq izinə həsrət
Qalıb məktəb yolları:
— Səsli-küylü uşaqlar
Bizdən tez keçsin barı.

Sinif otaqlarının
Elə bil dili laldı.
Skamyalar soruşur:
— Uşaqlar harda qaldı?

Boylanaraq yollara
Baxır, darıxır hər gün.
Uşaqlar məktəb üçün,
Məktəb uşaqlar üçün.

### LAYLALAR

Layla dedim ağlama,
Ürəyimi dağlama,
Böyü bir qoç igid ol,
Mənə ümid bağlama.

Bağçamızda miyana,
Gül sünbülə dayana.
Oxu, bülbülüm, oxu,
Bəlkə, balam oyana.

Bir gül əkdim boyunca,
İyləmədim doyunca,
Ömrüm, günüm, uzansın,
Bu balamın toyunca.

Evində, eşiyində,
Yat quzum beşiyində,
Dan ulduzu, bir də mən,
Durmuşuq keşiyində.

Qurban aran, dağ sənə,
Güllü bağça, bağ sənə.
A layla, oğlum, layla,
Tutmuşam qaymaq sənə.

A layla, yenə layla,
Can deyim, sənə layla,
Sənə gələn dərd-bəla
Qoy gəlsin mənə layla.

A layla, balam, layla,
Alınmaz qalam layla.
Sənə kəc baxanları,
Yandırsın naləm layla.



Çap üçün deyil

## YAXŞILIĞA YAMANLIQ
*Tofiq Mütəllibov*

Sıx meşələrdə
Bir pələng varmış.
Kimi görərsə,
Tez parçalarmış.
Keçib düzlərdən,
Aşıb dağ-dərə
Hücum çəkərmiş
Axşam kəndlərə.
Tapıb ovunu,
Dönərmiş geri,
Hind torpağının
Cəngəllikləri,
Məskənmiş ona.
Pələng bahar, qış
Mağarasında,
Sayıq durarmış.
Bir gözəl səhər
Qızaranda dan
Həmən pələngi
Görüb uzaqdan,
Ovçular nişan
Aldılar onu.
Meşədən qaçqın
Saldılar onu.
Pələng meşədən
Çıxıb sürətlə,
Bir kəndə doğru
Böyük qüvvətlə,
Qaçdı, nə qaçdı.
Elə bil quştək
O qanad açdı.
Elə bu zaman
Tarla boyunca
Arabasıyla
Arıq bir qoca
Un daşıyırdı.
Sevindi pələng:
— Burda bir kələk
İşlədim gərək.
Sonra yanaşdı
Pələng qocaya
Dedi: — And olsun
Ulduza, aya.
Yemərəm səni
Bir fəlakət var
Odur, ardımca
Düşmüş ovçular.
Un kisəsində
Gizlət məni sən,
A kəndli qardaş,
Xeyir görərsən.
Axşam düşəndə
Aşıb dağ-dərə
Hücum çəkmərəm
Bir də kəndlərə.
Onun sözünə
İnandı kəndli.
Yamanca yerdə
Aldandı kəndli.
Dedi: — Yazıqdır,
Xilas edim mən
Yaxşılıq gəlmiş
Hər vaxt əlimdən.
Qoca kəndliyə
Gələrək kələk
Un kisəsində
Gizləndi pələng.
Kəndli sürətlə
Kəndə yollandı
Qulaqlarında
Pələngin andı,
Səsləndi hər an.
Bir dəstə ovçu
Elə bu zaman
Yanaşıb ona
Dedi: — Əmi, siz
Xallı pələngi
Görməmişsiniz?
Qoca söylədi:
— Görməmişəm mən



Çap üçün deyil

O qaça bilməz
Əsla gözümdən.
Düzəlib yola
Getdi ovçular.
Qoca söylədi:
— Nə günahım var —
Yaxşılıq etdim
Mən bu heyvana.
Yenidən həyat
Vermişəm ona.
Kisəni açıb,
Qoca sevincək
Dedi: — Ay pələng,
Artıq, azadsan.
Bir xahişim var:
Ellərə dost ol,
Olma ziyankar.
Pələng qəzəblə
Kəndliyə baxdı,
Dedi: — Doğrudan,
Qoca axmaqdı,
Heyrətə salmış,
Bu hindli məni.
O xilas etmiş,
Öz düşmənini.
Dedi: — Ay qoca,
İndi isə mən
Səni bir anda,
Məhv edəcəyəm.
Qoca söylədi:
— Sən düşün bir az.
Səni düşməndən
Mən etdim xilas.
Bəs nədəndir sən
Bu yaxşılığa
Pislik edirsən?!
Pələng dilləndi:
— Bu, adətimdir.
Yırtıcı olmaq
Xasiyyətimdir.
Xilaskarımsan,
Danmayıram mən.
Lakin yaxşılıq
Qanmayıram mən.
İndi, ay qoca,
Yeməsəm səni,
Pələng dostlarım
Qınayar məni.
Qoca yalvarıb
Kömək istədi.
Pələng qocanı
Yemək istədi.
Bir tülkü çıxıb
Bu zaman koldan
Dedi: — Keçirdim
İndicə yoldan.
Gördüm səs gəlir.
Nə olmuş, nə var?
Yoxsa siz dava
Edirsiz, dostlar?
Qoca danışdı
Öz əməlindən.
Dedi: — Pələngi
Bu kisədə mən
Xilas eylədim,
Rəhmə gələrək.
Tülkü söylədi:
— Kələkdir, kələk.
İnanmayıram
Sözlərinizə.
Yalan danışmaq
Yaraşmaz sizə.
Düşünün bir az,
Un kisəsinə
Pələng sığışmaz.
Pələng qaldırdı
Öz pəncəsini:
— Bu, yalan deyil,
Tez kəs səsini!
Elə bu saat
Sübut üçün mən
Həmən kisəyə
Girə bilmərəm.
— Ey igid pələng,



Çap üçün deyil

Göstər gücünü,
Məharətini.
Qoy hamı bilsin,
Bu qüdrətini.
Pələng kisəyə
Girdi qəzəblə.
Tülkü söylədi:
— Bax, belə, belə!..
Kisəni tezcə
Bağladı onlar
Pələng qışqırdı:
— Sizə sözüm var.
Gəlin dost olaq,
Yoldaş olaq biz.
A kəndli qardaş,
Sirdaş olaq biz.
Qoca söylədi:
— Sən səsini kəs.
İlan sancmasa,
Dayana bilməz.
Mən aldanmaram
Artıq yalana.
Qoy lənət olsun,
Sən tək ilana.

## PAYIZ MƏNZƏRƏSİ
*Mirmehdi Seyidzadə*

Dəyişib donunu yenə ağaclar,
Budaqlar mərcandır, yarpaqlar qızıl.
Dumana bürünüb dağlar, yamaclar,
Xəzəldən görünür torpaqlar qızıl.

Əyib budaqları bağlardakı bar,
Odlu şəfəq kimi almalar yanır.
Heyva ətir saçır, şirələnib nar,
Vüqarla göylərə çinar boylanır.

Buludlar bənzəyir kişnəyən ata,
Yuyur obalarda yağış kolları.
Dodaqlarda gülüş, əllərdə çanta —
Uşaqla doludur məktəb yolları.

Bəzən əsən külək incə ney çalır,
Bəzən uğuldayır səs düşür bağa.
Durnalar qatarla göyə ucalır,
Yarır buludları, uçur uzağa.

Budur dəstə-dəstə qızlar, gəlinlər
Dərir ağaclardan yetişmiş meyvə.
Tutur nəğmə səsi bağları səhər,
Şənlik gətiribdir payız hər evə.



Çap üçün deyil

## ƏN QİYMƏTLİ MÜKAFAT

«Eurovision—2012» mahnı müsabiqəsinin başlanmasına cəmi bir neçə ay qalmışdı. Mahnı müsabiqəsində 36 ölkə iştirak edəcəkdi. Heydər Əliyev Fondu müsabiqəyə hazırlıq işlərində yaxından iştirak edirdi. Hər vasitə ilə Azərbaycan mədəniyyətinin təbliğinə çalışan Fond bu məsələdə də öz ənənəsini davam etdirərək iştirakçı dövlətlərdə «Mən Azərbaycanı kəşf edirəm» mövzusunda inşa müsabiqəsi elan etdi. Müsabiqənin yalnız xüsusi qayğıya ehtiyacı olan uşaq və yeniyetmələr arasında keçirilməsi təsadüfi deyildi. Çünki belə yeniyetmələrə xüsusi qayğı həmişə Heydər Əliyev Fondunun diqqət mərkəzində olmuşdu. Bu dəfə də maraqlı, həm də faydalı bir tədbir düşünülmüşdü. İştirakçı ölkələrdə yaşayan əlil uşaqlar bu möhtəşəm mahnı bayramından kənarda qalmayacaqdılar.

Müsabiqə Azərbaycanı tanımaq, tarixi, zəngin mədəniyyəti və milli ənənələri ilə daha yaxından tanış olmaq imkanı yaradacaqdı, həm də qaliblər Azərbaycana gələcək, Mahnı müsabiqəsinin finalını öz gözləri ilə seyr etmək sevincini yaşayacaqdılar.

Müsabiqədə 9—18 yaş arası məktəblilər iştirak edirdilər.

Nəhayət, müsabiqə başa çatdı. Təşkilat komitəsi iştirakçıların göndərdiyi elektron yazılara baxaraq seçim apardı və qaliblər müəyyən edildi. Bunlar Yekaterinburqdan olan iki qız: Kseniya Kamenskaya və Svetlana Duşkina idilər.

Heydər Əliyev Fondu qızları Bakıya, mahnı müsabiqəsinin finalına dəvət etdi. Müsabiqə qalibləri və onları müşayiət edən şəxslər bir neçə gün Azərbaycanın qonağı oldular. Bu müddət ərzində onlar Bakı ilə yaxından tanış oldular. Azərbaycanda son illər ərzində aparılan böyük quruculuq işləri, Azərbaycan dövləti və Heydər Əliyev Fondu tərəfindən inşa edilmiş yeni məktəblər, xəstəxanalar, yeni salınmış yollar, körpülər, yaraşıqlı parklar və s. hamı kimi onları da heyran etdi. Xüsusilə əlillər və xüsusi qayğıya ehtiyacı olan uşaq və yeniyetmələrə göstərilən dövlət qayğısı qızlarda böyük təəssürat yaratdı. Həmin günlərdə qızlar çox unudulmaz anlar yaşadılar, yeni dostlar tapdılar. İndi Bakını xatırlayanda Kseniyanın da, Svetlananın da üzündə xoş bir təbəssüm doğur. Bu təbəssüm onların ətrafında olanların qəlbində xoş hislər yaradır. İnsanları sevən hər bir kəs üçün isə bu təbəssümdən qiymətli mükafat ola bilməz.

Çap üçün deyil

## XAN ÇİNARIN BİR YARPAĞI

*Mikayıl Rzaquluzadə*

Xan çinarın başı göyün bir qatındadır, kökləri ana torpağın qoynunda.

Gün doğanda ilk işıltıları alnından öpər xan çinarın.

Al şəfəqdə işım-işım işıldar xan çinarın yarpaqları.

Quşlar yuva qurar, bala böyüdər xan çinarın qucağında.

Dan yelləri əsəndə, ilk cingiltilərə qarışar, səhər nəğməsi kimi səslənər xan çinarın yarpaqları.

Gün qızanda, qayadan fışqıran buz bulaq suları kimi şırıldar, ürəkləri sərinlədər yarpaqların xışıltısı.

Xan çinarın yarpaqlarına zərli naxışlar çəkər batan günəşin son işıqları.

Anaların laylasına qoşular, körpələrə şirin yuxu gətirər yarpaqların nəğməsi.

Nənələrin nağıllarına qarışar, nəvələrə zər qanadlı pərilərdən, büllur saraylardan, divbasan igidlərdən danışar yarpaqların xışıltısı.

Zəhmətdən, hünərdən, döyüşdən, zəfərdən dastanlar söylər xan çinarın hər yarpağı nəsillərdən-nəsillərə.

Neçə-neçə qarlı-boranlı qışlar görmüş, amma şux durmuş, əyilməmiş xan çinarın vüqarlı başı...

Əyilməz də!..

Payızlarda yarpaqları saralıb tökülmüş, qışlarda azğın boranlara sinə gərmiş şax budaqları; yazlarda yenə yarpaqlanmış-budaqlanmış, daha da ucalmış dik başı xan çinarın...

* * *

Payızdır yenə...

Yarpaqlar tökülür — qanadı qırıq quşlar kimi, havada axsaya-axsaya, büdrəyə-büdrəyə.

İliklərə işləyir dəli küləyin buz nəfəsi.

Göydə boz buludlar qalaq-qalaqdır, yerdə — solğun yarpaqlar...

Öz hökmü var hər fəslin!

Neyləsin xan çinar?

Çıl-çılpaqdır, çıl-çılpaq...

Ancaq aşağılarda, alt budaqlarda bozarmış, saralmış bir neçə yarpaq var...

Bir qız durmuş xan çinarın altında — beş-altı yaşlarında bir qızcığaz.



Çap üçün deyil

Xan çinarı daim şax budaqlı, budaqlarını daim şux yarpaqlı, yarpaqlarını daim yamyaşıl, işım-işım işıldayan görmüş qızcığaz öz yaşından bəri.

Bəs indi, bu nədir belə?

Yaranışın bu qəribə əyləncələrindən, doğum-ölüm oyunlarından qızcığazın nə xəbəri!..

Yerə səpilmiş yaralı yarpaqları incitməmək üçün ehmalca addımlayır qızcığaz — bir neçə yarpağı qalmış budağa sarı.

Saralıb bozarmış bir yarpağa baxır, qayğılı-qayğılı.

Tozdan belə saralıb-bozarmış bilir onu.

Uzadır xırdaca tombul əllərini.

Tozunu silmək istəyir, nəvazişlə. Qopub əlində qalır yarpaq.

Əlləri əsir, ürəyi uçunur qızcığazın, dolur gözləri.

Ağlamaq istəyir qızcığaz, hönkürə-hönkürə, hıçqıra-hıçqıra...

Bağrına basır yarpağı.

Qızcığazın körpə ürəyinin hərarətindən, ana südü kimi saf-təmiz məhəbbətindən sanki canlanır, dilə gəlir solğun yarpaq:

— Gözlərin dolmasın, bala can, dərd olmasın bu sənə!..

Mən bu qocaman xan çinarın bir yarpağıyam, bala can, yalnız bircə yarpağı.

Biz yarpaqlar gəldi-gedərik, bala can, xan çinar sağ olsun, var olsun!

Mən də bu solğun yarpaqlar kimi, ana torpağın qoynunda günəşin hərarətinə, yağışın rütubətinə qarışacağam, yenə xan çinara qovuşacağam...

Yenə bahar gələcək, güllü-çiçəkli bahar!..

Səhər-səhər gün işığında xan çinarın işım-işım işıldayan yamyaşıl yarpaqları içində məni də görəcəksən, bala can, görəcəksən!..

Dan yelləri əsəndə, xan çinarın xışıldayan səsində, göylərə ucalan torağayın səhər nəğməsində, ana torpağın ətirli nəfəsində mənim də səsimi eşidəcəksən, nəfəsimi duyacaqsan, bala can, eşidəcəksən, duyacaqsan!

Bahar gələcək, güllü-çiçəkli bahar!

Xan çinar var olsun, bala can, yerli-yataqlı, şax budaqlı xan çinar!..



Çap üçün deyil

## HƏZRƏTİ İSMAYIL
*Natiq Rəhimov*

Həzrəti İbrahim peyğəmbərin həyat yoldaşının adı Sara idi. İbrahimlə Sara mehriban yaşayırdılar. Yaşları ötsə də, hələ oğul-qız sahibi olmamışdılar. Bir gün Sara İbrahimə dedi:

— Yaxşı olar ki, başqa bir qadınla da evlənəsən. Bəlkə, o zaman Allah sənə övlad bəxş edər.

Həzrəti İbrahim razılaşdı və Hacər adlı mömin bir qadınla evləndi. Tezliklə Hacərlə İbrahimin oğlu oldu. Uşağın adını İsmayıl qoydular. İbrahim yeganə oğlu İsmayılı çox sevirdi. O, İsmayıldan ayrılmır, onu qucağından yerə qoymurdu. İbrahimin bu hərəkətləri Saraya təsir edirdi. Nəhayət, bir gün Sara İbrahimdən xahiş etdi ki, Hacərlə İsmayılı evdən uzaqlaşdırsın.

Həzrəti İbrahim ailədə qanqaralıq düşməsin deyə, Hacərə tapşırdı ki, körpə İsmayılı da götürüb səfərə hazırlaşsın. Onlar üçlükdə yola çıxdılar. Xeyli yol getdikdən sonra Ərəbistan torpağına çatdılar. İndiki Məkkə şəhərinin yaxınlığına yetişəndə İbrahim Hacərlə İsmayılı orada qoyub özü geri döndü. Hacər körpə oğlu ilə səhrada tək qaldı. O zaman hələ Məkkə şəhəri salınmamışdı. Həmin yerlər susuz səhra idi. Orada heç kim yaşamırdı.

İbrahim gedəndən sonra Hacərlə İsmayıl bir müddət səhrada qaldılar. İbrahimin onlar üçün qoyduğu su qurtardı. Balaca İsmayıl susuzluqdan çığırıb ağlamağa başladı. Hacər səhrada oyan-buyana qaçırdı ki, bəlkə, azacıq su tapa bilsin. Birdən gördü ki, möcüzə baş verdi: İsmayılın ayağının altında torpaq yarıldı və yerdən bulaq çıxdı. Hacər həmin bulağın suyundan İsmayıla içirtdi, sonra özü də içdi. O, bulağa «Zəm-zəm» adını verdi. Çox-çox sonralar Zəm-zəm bulağının yerində quyu qazdılar. Həmin quyu indi də durur. Məkkəyə ziyarətə gedən hacılar Zəm-zəm quyusunun suyundan içirlər. Hacərlə İsmayıl Zəm-zəm bulağının yanında ev tikib yaşamağa başladılar. Tezliklə başqa qəbilələr də orada köç saldı. Həzrəti İbrahim tez-tez gəlib İsmayıla baş çəkirdi.

İsmayıl böyüyüb yaraşıqlı bir oğlan oldu. Atası onu çox sevirdi. Bu vaxt Allah-taala İbrahim peyğəmbəri sınağa çəkmək istədi. Allah-taala yoxlamaq istədi ki, görəsən, İbrahim Allahı çox sevir, yoxsa İsmayılı?

Bir gecə İbrahim peyğəmbər yatmışdı. Allah yuxuda ona əmr etdi ki, İsmayılı Allah yolunda qurban kəssin. Həzrəti İbrahim üç dəfə eyni yuxunu gördü, yuxunun doğruluğuna inandı.



Çap üçün deyil

Səhər o, İsmayılı da özü ilə götürüb Məkkədən çıxdı. Ata və oğul birlikdə şəhər kənarındakı Mina adlı yerə yollandılar. İbrahim öz məqsədini hələ oğluna açıb deməmişdi.

Minaya çatanda İbrahim İsmayıla söylədi:

—Oğlum, yuxuda Allah mənə əmr edib ki, səni qurban kəsim. Ona görə də səni buraya gətirmişəm.

İsmayıl atasına ədəblə belə cavab verdi:

—Ata, sən peyğəmbərsən. Nə etmək lazım olduğunu yaxşı bilirsən. Mən heç vaxt Allahın əmrindən və sənin sözündən çıxmaram. Allah sənə nə əmr edibsə, onu yerinə yetir. Mən Allahım yolunda hər şeyə, hətta ölümə də səbirlə dözərəm.

İbrahim oğlu ilə halallaşıb onu yerə uzandırdı, bıçağı əlinə götürüb onun boğazına çəkdi. Allahın əmri ilə bıçaq İsmayılın boğazını kəsmədi. İbrahim bıçağı bir də, sonra bir də çəkdi. Amma İsmayılın boğazı yenə kəsilmədi.

Bu zaman Allah-taala Cəbrayıl adlı mələyi iri bir qoçla İbrahimin yanına yolladı. Cəbrayıl İbrahimə dedi:

—Ey İbrahim! Allah sənin sədaqətini yoxlamaq istəyirdi. Sən sübut etdin ki, doğma oğlunu da Allaha qurban verməyə hazırsan! Bu bir imtahan idi. Allah istəmir ki, İsmayıl ölsün. Gətirdiyim bu qoçu İsmayılın əvəzində Allaha qurban kəs!

İbrahim oğlunu yerdən qaldırdı. Sonra Allah yolunda qoçu qurban kəsdi. Bu hadisə Qurban bayramı günü baş vermişdi. İndi də hacılar Qurban bayramında Məkkədə Həzrəti İbrahimin hərəkətlərini təkrar edir, Allah yolunda qurban kəsirlər.

İsmayıl böyüdükdən sonra da İbrahim peyğəmbər tez-tez gəlib ona baş çəkirdi. Müsəlmanların ən müqəddəs yeri sayılan Məkkədəki Kəbə evini də Həzrəti İbrahimlə İsmayıl tikmişdilər. Kəbəni tikərkən İsmayıl atasına kömək edir, daş daşıyır, divar hörürdü.

Allah-taala Həzrəti İsmayıla da peyğəmbərlik verdi. O, Ərəbistan torpağında fəaliyyət göstərir və camaatı İbrahimin tapşırıqlarına əməl etməyə çağırırdı.

Həzrəti İsmayılın çoxlu oğul-uşağı var idi. Onun nəsli min illər boyunca davam etdi. Sevimli peyğəmbərimiz Həzrəti Məhəmməd də İsmayıl peyğəmbərin nəslindən doğuldu. Beləliklə, Həzrəti İsmayıl Məhəmməd peyğəmbərin ulu babasıdır.



Çap üçün deyil

## ELEGİYA

*Leyla İlham qızı Əliyeva*

Ulduzlara uçan quşa dönəydim,
Ay da yollarıma nur ələyəydi.
Məğrur yerişinlə qoşa dönəydin,
Sənə Yer üzündə yer eləyəydim.

Dinlə kədərimin pıçıltısını,
Mən yaxşı bilirəm ayrılıq nədi!..
Küləklər könlümün qışqırtısını
Kaş ki, kainata yaya biləydi.

Könüllər yaşadır gur nəfəsini,
Sənsiz hər bir anın öz qüssəsi var.
Müqəddəs səsinin xatirəsini
Anlada bilərmi çağlayan çaylar?

Bulud karvanına, qoşulum yenə,
Gəzim asimanı, hardasan görüm.
Çatıb ucalığa, yetişim sənə,
Əlimi əlindən yapışan görüm!

Acı göz yaşını sel elə gəlsin,
Ey yağış, soyumur dərdimin odu.
Qüssədən qocalan Ay dilə gəlsin,
Söyləsin, ruhunun haradı yurdu?

Dağ idin, çiynimi dağlara verdim,
Dağların dərdini çəksə, dağ çəkər.
Sənə məhəbbətim dağlar qədərdi,
Yerini dağlardan soruşum bəlkə?

Bəlkə çinarlarla baş-başa verim,
Görən qovuşarmı boyum boyuna?
Gərək sənə yetə bu qəmli şeirim,
Gərək sənə yetə... haqqım var buna.

Nurunu gözümdə saxlayım necə?—
Möcüzə yaratmaq gəlmir əlimdən.
Parçalan, ey zülmət, çəkil, ey gecə,
Günəşə qovuşmaq istəyirəm mən!

## AZƏRBAYCAN BAYRAĞINA

*Cəfər Cabbarlı*

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərinə kölgə salan?
Nə imiş bu, aman Allah?! Od yurdunun yarpağı!
Göy yarpaqlı, al çiçəkli yaşıl otlar topasımı?
Xayır, xayır! Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək seviyor,
Yıldızlardan, hilaldan da yüksəklərdə fırlanıyor.

Kölgəsində ay əyilib bir gözəli qucmada.
Qucaşaraq, sevdiyilə yüksəklərə uçmada,
Şu görünüş bir ananın şəfqətinə oxşayor.
Düşündükcə zövqlərimi, vicdanımı oxşayor.
Bu ay, yıldız, boyaların qurultayı nə demək?
Bizcə, böylə söyləmək:
Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!

Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!



Çap üçün deyil

Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı!
Səkkiz uclu şu yıldız da səkkiz hərfli OD YURDU.
Əsarətin gecəsindən fürsət bulmuş quş kibi,
Səhərlərə uçmuşdur.

Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,
Yurdumuzu qucmuşdur!

Allah, əməllərim edib şu bayrağı intiqal,
Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!
Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun, bir göy bayraq Turan üstə açılsın!

## HƏMRƏYLİK BAYRAMIN MÜBARƏK OLSUN!

***Mirəli Vəkiloğlu***

*31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününə*

Salam, azər oğlu, salam, a qardaş,
Həmrəylik bayramın mübarək olsun.
Yetər təklənmişik, gəl olaq sirdaş,
Həmrəylik bayramın mübarək olsun.

Birləş yumruq kimi, dünyaya səs sal,
Gir meydana, qılınc oynat, zəfər çal,
İrəli dur, düşmənindən qisas al,
Həmrəylik bayramın mübarək olsun.

Qalx ayağa, sil gözünün yaşını,
Daha bəsdir, artıq dik tut başını,
Ulu öndər qoydu təməl daşını,
Həmrəylik bayramın mübarək olsun.

Sən coşğun dənizsən, ləpələnmisən,
Bir uca dağ idin, təpələnmisən,
Bütün yer üzünə səpələnmisən,
Həmrəylik bayramın mübarək olsun.

Zəngəzur, Naxçıvan, Təbriz, Qarabağ,
Bu birlikdən gətir bizə bir soraq,
Başın üstündəki üçrəngli bayraq,
Həmrəylik bayramın mübarək olsun!

## BİZİ VƏTƏN ÇAĞIRIR!

***Məmməd Araz***

İndi bizim ölümlə,
Çarpışan çağımızdı
Ölümün boğazından,
Yapışan çağımızdı.
Ölümlə tərcümansız
Danışan çağımızdı.
Qılınc qap, Vətən oğlu,
Bizi Vətən çağırır!

Bu, ölüm-qan yoludur,
Ölümdən, qandan keçir.
Bir qolu da qıvrılıb
Azərbaycandan keçir.
Dövran bizdən bac alır,
Şöhrət bizdən yan keçir.
Qılınc qap, Vətən oğlu,
Bizi Vətən çağırır!

Bu yolda əylənə:
«Ölüm haqdı», — deyirik.
Əbədi məzarımız
Bu torpaqdı, deyirik.



Çap üçün deyil

Vətən göyü dəyişməz
Göy bayraqdı, deyirik.
Qılınc qap, Vətən oğlu,
Bizi Vətən çağırır!

Bu, səhra məhkəməsi,
Bu, onun qərarıdı:
«Bircə addım arxada
Son ümid divarıdı!»
Bu yurdda yaşamağa
Haqqı yox, — fəraridi!»

Qılınc qap, Vətən oğlu,
Bizi Vətən çağırır!
Gücünə qəzəbini,
Zəhmini də qata bil,
Düşmənin marığında
Pələng kimi yata bil.
Bu dağları baba bil,
Bu daşları ata bil!
Qılınc qap, Vətən oğlu,
Bizi Vətən çağırır!
Bizi Vətən çağırır!!!

## AZƏRBAYCAN CAVANLARI
*El çələngi*

Azərbaycan cavanları,
Yeriyin düşmən üstünə!
Koroğlular, Cavanşirlər,
Mərd gedin meydan üstünə!

At salın, girin meydana,
Cəng edin, mərdi-mərdana,
Boyansın düşmən al qana,
Hər biriz bir xan üstünə!

Səttarxan da keçib candan,
Qorxusu yox bəydən, xandan,
Tülkülər qaçar meydandan,
Gələmməz aslan üstünə!

## QİSAS
**Müəllif: *İbrahim Təlbəyəğli (Vahabov)***

Zil qaranlıq bir gecə idi. Hər tərəf lal sükuta qərq olmuşdu. Bu sükutu hərdənbir eşidilən avtomat və pulemyot səsləri pozurdu. Murovdağdan əsən sərin külək qupquru qurumuş ot və bitkiləri asta-asta titrədir, yamacları və təpələri yalaya-yalaya Arana doğru tələsirdi. Arasıra eşidilən atəş səsləri və yanmış barıt qoxusu olmasaydı, adam inanmazdı ki, 2—3 saat əvvəl burada şiddətli atışma getmiş, atəşkəsi pozan canavar xislətli ermənilərin bir gülləsinə on güllə ataraq susdurulmuşdular.

5—10 metrdən güclə görünə bilən bir qaraltı yavaş-yavaş düşmən mövqeyinə tərəf irəliləyirdi. Kölgə hərdən dayanır, ətrafı diqqətlə dinləyir, sonra yenə hərəkətə gəlirdi. Qarşıda minalanmış sahə vardı. Oranı keçə bilsəydi, heç şübhəsiz, istədiyini edəcəkdi... Qorxusu bu minalanmış sahə idi. Artıq 300 metr gəlmişdi. Bundan sonra yalnız sürünə-sürünə getmək lazım idi. Minalanmış sahəni bu cür adlamaq daha düzgün hərəkət idi. Mübariz özü ilə kiçik bir minaaxtaran cihaz da götürmüşdü. O sürünməyə başladı.



Çap üçün deyil

Düşmənin I postuna 100—150 metr ancaq qalırdı. Məhz bu ərazi minalanmışdı. Allah eləsin ki, bu minalar bir-birinə nazik məftillə bağlanmasın. Əgər bağlansaydılar, o, bu tələdən sağ-salamat qurtula bilməyəcəkdi. Bax, bu, çox axmaq bir ölüm olardı. Axmaq olmaqla yanaşı, dəhşətli, bitib-tükənməyən söz-söhbətə səbəb olacaq gərəksiz, yox e, şərəfsiz bir ölüm! O özü öləcək heç nə bilməyəcək, heç nə hiss etməyəcəkdi. Amma ailəsi: ata-anası, bacı-qardaşı, tayfası, eli-obası onun bu ölümünə «geyindirilmiş min cür donun» əzabla dolu xəcalətini yaşayacaqdılar. 6—7 il idi ki, nə gecəsi vardı, nə gündüzü. Qisas, intiqam hissi ilə alışıb yanırdı. Qarabağ savaşı başlayandan bu yana çox oğullar bu yolu getmiş, ancaq kiçik bir səhv, təsadüfi bir addım və ya yanlış bir hərəkət onları «gedər-gəlməzə» göndərmişdi...

Mübariz minaaxtaran cihazın qulaqcıqlarını qulaqlarına yerləşdirib sürünməyə başladı. 10—15 metr getmişdi ki, dayanıb gecəgörmə cihazı ilə qarşıya diqqətlə baxdı. Təpə—I post kölgə kimi qaralırdı. O, yenidən irəli süründü. Heç 2 metr getməmişdi ki, qulağında zəif bir siqnal eşidildi. Dayandı. Axtarıcını bir az sola döndərdi, səs lap gücləndi. Ehtiyatla xeyli sağa qaytardı. Səs kəsildi. O, irəlilədi. Sağ əlində cihaz olduğundan məcbur idi ki, bütün ağırlığını sol dirsəyi üzərinə alsın. Yükü onsuz da ağır idi. Avtomat silahı, tabel silahı, 4 ədəd qumbara, 4 ədəd güllə darağı. Bütün bunlar onun irəliləməsinə bərk mane olurdu. Birdən sağ dizinin altında nəsə qaldı. Zəif bir çıqqıltıdan diksindi. Dizini yerdən qaldırmadı. Əlindəki cihaz dəstəyini ehmalca yerə qoydu. Tərpənmək olmazdı. O, ölümün soyuq nəfəsini açıq-aydın hiss etdi. Sinəsini və kürəyini soyuq tər basdı. Bax, bayaq düşündüyü şərəfsiz ölümün bir addımlığında idi... O məhz belə ölümdən qorxurdu. Sağ əlini asta-asta dizinə doğru sürüşdürdü. İçindən gələn səsi aydın eşitdi:

— Mübariz, sakit ol! Özünü ələ al! Tələsmə!.. Özünü itirmə! Düşün! Düşün, nə etməlisən!..

Hələ orta məktəbdə oxuyarkən çox sevdiyi ədəbiyyat müəlliminin maraqlı bir əsər haqqında söhbəti yadına düşdü. Səhv etmirdisə, əsərin adı belə idi: «Anamın yuxusuna girməsin». Və astaca, özü eşidəcəyi bir səslə pıçıldadı:

—Allahım, anamın yuxusuna girməsin!..

Bir anlıq bacısının gülümsər çöhrəsi gözlərinin qarşısında canlandı: «Qadan alım, qardaş, özündən muğayat ol! Axı...»

Mübariz özünü ələ aldı və dizini qaldırmadan barmaqları ilə torpağı eşib, çaqqıltı salan əşyanı axtardı. Axtardı və tapdı. Adi şüşə qırığı idi. O, tərdən islanmış alnını torpağa söykədi. Sonra yenə süründü, süründü.

...Təpəyə—ermənilərin I postuna az qalırdı. Lap az. Cəmi 30 metr. Elə bu an qulağı yenidən cingildədi. O, dəstəyi azca sola fırlatdı. Səs



Çap üçün deyil

kəsildi. Təpədən fit səsi gəldi. O dayandı. Gecəgörmə cihazı ilə təpəyə baxdı. 3 erməni əsgəri astaca danışırdı. Onların çiynindən yuxarı hissələri aydın görünürdü. Az sonra onlardan ikisi ayrılıb təpənin sol yamacı ilə sürətlə aşağı endilər. Mübariz yuxarı sürünə-sürünə yalvardı: «Ey Allahım, ya babamın cəddi, özünüz mənə kömək olun».

Səhərə az qalırdı. Bilirdi ki, sübh namazından bir saat əvvəl dan yeri birinci nurunu göstərir. Dan yeri 10—15 dəqiqəlik ağarır, sonra isə hər yerə zülmət bir qaranlıq çökür.

Təpənin üstündəki səngərə 3—4 metr qalırdı. Sakitlik idi. Mübariz minaaxtaran cihazı astaca yerə qoydu. Avtomatı əlinə alıb yuxarı — səngərə doğru sürünməyə başladı. Bu da səngər. Bəs hanı bu alçaq?! Kəskin siqaret tüstüsünün iyini hiss etdi. Səngərə diqqətlə baxdı. Ondan 2 metr solda, səngərin dibində siqaretin qıpqırmızı közünü gördü. Erməni əsgəri oturub siqaret tüstülədirdi. Mübariz bir pələng cəldliyi ilə onun üzərinə tullanıb, əsgərin hulqumundan yapışaraq var qüvvəsi ilə sıxdı. Əsgərin hədəqəsindən çıxmış gözləri son dəfə parıldadı.

—Ara, ay vələduzna, burada nə itin azıb?!

Erməni əsgərində ona cavab verməyə halmı qalmışdı?! O, çoxdan gəbərmişdi. Mübariz əllərini nəm divara xeyli sürtdü. Elə bil əlləri murdar bir şeyə dəymişdi. Ayağı ilə əsgərin yan-yörəsini xeyli axtardı. Su axtarırdı. Boğazı qurumuşdu. Nəhayət, bir şüşə su tapdı. Ağzı açılmamışdı. Şüşənin qapağını açıb ağzını yaxaladı. Sonra qurtum-qurtum içdi. Qalan su ilə əllərini təmiz-təmiz yuyub, bayaq ermənilərin getdiyi səmtə tərəf yönəldi. Birinci dan işığı şərqdən özünü büruzə verməyə başladı. Tələsmək lazım idi. Dolanbac səngərdə 100 metr getmişdi ki, tez-tez atılan addım səsləri eşidib dayandı. Sonra bir neçə metr geri qayıdıb səngərin sərt döngəsində divara qısıldı. Erməni əsgəri sürətlə qaçırdı. Görəsən niyə? Bu haqda düşünməyə Mübarizin vaxtı yox idi. Əsgərin tövşürtüsü lap yaxından eşidilirdi. Ermənının döngəni burulması ilə avtomat süngüsünün onun sinəsinə saplanması bir anda oldu.

—Ara, kirvə, tülkü oğlu, tülkü, hara qaçırsan?! Torpaq yiyəsinə Allahın salamını da qıymırsan!

Yerə yıxılan əsgər lap yavaşdan inildədi və qırıq-qırıq dedi:

—Nu zaçemm?!

Mübariz ağzından köpüklü qan fışqıran əsgərin üzərinə əyilib.

—Ə-ə şərəfsiz, hələ bir səbəbini də soruşursan?! — dedi və ayağa qalxaraq irəli getməyə başladı. Birdən sövq-təbii duydu ki, onun da sonuna az qalıb... Dünən əsgər yoldaşlarından birinin onun dəftərçəsinə yazdığı bir bənd şeir yadına düşdü. Çox maraqlıdır ki, o, şeirləri çox çətin əzbərləyirdi. Ancaq bu bir bənd şeir onun yaddaşında 2—3 dəfə oxuyandan sonra möhkəm qalmışdı.



Çap üçün deyil

Vətənin dağına, daşına qurban,
Ananın ağarmış saçına qurban.
Məzarda yanaram, bil ki, ağlasan,
Ay ana, ağlama mən gedər oldum.

Mübarizi fikir götürmüşdü. Axı bunlar 3 nəfər idi. Bəs biri necə oldu? O, sürətini artırdı. Qabaqda zəif bir işıq gözünə sataşdı. O dayanıb gecəgörmə cihazı ilə qarşı tərəfə diqqətlə baxdı. Elə bil yeraltı daxmanın qarşısından neft fənəri asılmışdı. Mübariz yavaş-yavaş işığa doğru addımladı. O, bu qapının yeraltı daxmaya — blindaja açılan qapı olduğunu tam yəqin elədi. O, bunu da yəqin etdi ki, içəridə xeyli düşmən əsgəri də olmalıdır. O, qapıya 8—10 metr qalmış qəflətən qapı açıldı. Qapıdan çıxan əsgər ona tərəf gəlməyə başladı. Mübariz bir anlıq nə edəcəyini bilmədi. Ani bir fikirdən sonra geri qayıdıb gəldiyi tərəfə getməyə başladı. Əsgər onu görmüşdü. Əvvəlcə erməni dilində nəsə deyib onu çağırdı. Sonra isə rus dilində bağırdı:

—Ara, Qarik, sukin sın, tı yeşyo zdes?! Samvel astalsya odin!

Erməni əsgəri Mübarizi öz yoldaşı bilmişdi. Mübarizə də bu lazım idi. Erməni əsgəri tez-tez yeriyib ona çatanda Mübariz yerə oturdu. Əsgər təpiyini qaldırıb onun başına vurmaq istəyəndə Mübariz cəld qalxıb onun ağzını iri əli ilə örtərək, boynunu iki qolu arasına aldı və var qüvvəsi ilə arxaya burdu. Əsgərin boynu quru və çürük söyüd ağacı kimi xırçıldadı.

... Gecikmək olmazdı. O, blindaja yaxınlaşdı. Çöldəki neft fənərini söndürüb qapını azca aralayaraq içəri baxdı. Divardan asılmış fənər içərini zəif də olsa işıqlandırırdı. 20—30 nəfər əsgər səhərin bal kimi şirin yuxusunda idi. Qapının sağ tərəfində 30-a qədər avtomat silahı səliqə ilə divara söykənmişdi.

Nədənsə, Mübarizin əsgərlərə bir anlıq yazığı gəldi. Axı onlar da cavandı, ata-anaları, ürəklərində arzuları var... Lakin elə həmin an Xocalı faciəsinin dəhşətləri — xüsusən qarlı yamacda körpə qızların, yaşlı qadın və ağsaqqal qocanın meyitləri, minlərlə günahsız insanların məhv edilməsi, namuslarına təcavüz edilmiş qız-gəlinlərimizin ahnaləsi onun gözləri önündə kinolentinə döndü.

O, avtomatı ayağa verib var qüvvəsilə qışqırdı:

— Qalxın, alçaqlar! Şərəfsizlər, bəs bilmirdiniz ki, qisas qiyamətə qalmayacaq? Bəs bilmirdiniz ki, bir gün Mübarizlər, Əhədlər, Qurbanlar gəlib sizdən cinayətinizə görə cavab istəyəcək?!

Yuxulu əsgərlər çılpaq şəkildə ayağa qalxıb otaqda vurnuxur, bəziləri yatacaqların altına soxulurdular. Elə bu zaman avtomatın lüləsi



Çap üçün deyil

od püskürdü. O, ikinci, üçüncü darağı avtomata bərkitdi və tətikdən barmağını ayırmadan daraq qurtarana qədər atəş açdı... Daxma üfunətli qan iyi ilə dolmuşdu. Mübariz qapını təpiklə vurub açdı və səngərin divarına söykəndi. Bütün varlığı titrəyirdi. Sinəsi və sifəti od tutub yanırdı. O, hər əlinə bir qumbara alıb dişi ilə «zapalını» qırdı və açıq qapıdan içəri tulladı. Bir anda özünü üzü üstə yerə çırpdı. Dəhşətli bir partlayış oldu. O, ayağa qalxdı. Qonşu postlardan 2 maşın yanan blindaja tərəf sürətlə gəlirdi.

Mübariz özünə bir yaxşı yer seçib gözləməyə başaldı. O, geri — yoldaşlarının yanına rahatca qayıda bilərdi. Amma qayıtmadı. Axı o, qisas almağa, son döyüşə gəlmişdi... Tapançasını çıxarıb ayağa verdi və səngərin qırağına qoydu.

— «Hə, bu da sonum!» O, sinədolusu dərindən bir nəfəs aldı. Ata-anasını, bacı-qardaşını xatırladı.

...Ata-anası sübh namazını qılırdılar. Əlləri Allah dərgahına uzanmışdı. «İlahi, sən özün, birliyin xatirinə, mənim balam da içində — bütün müsəlman balalarının imdadına yetiş! Onları xətadan-bəladan hifz elə!»

Mübarizin gözləri yaşla doldu. Asta-asta dedi:

—Bağışla məni, ata, südünü halal et, ana! Bağışla məni, qardaş, sənə yaxşı qardaş ola bilmədim! Bağışla məni, bacım! Bağışla. Qurban olum, ay bacı, səni qardaş toyuna tamarzı qoydum! Bağışla məni, Vətən! Bağışla məni, anam — Azərbaycan! İstədiyimi, borcumu sənə qaytara bilmədim! Son dəqiqələrimdir... Təki sən yaşa, Vətən! Təki Vətən sağ olsun! Pərvərdigara, keç günahımdan, müqəddəs «Qurani-Kərim»də özünə qəsd etməyi, intiharı haram əməllərdən buyurmusan! Keç günahımdan, Allahım!

... Ermənilər maşınlardan tökülüb, hara gəldi atəş aça-aça alovlanan yeraltı daxmaya tərəf cumdular. Dan yeri tam ağarmışdı. O, sonuncu darağı avtomata keçirib, bütün güllələri düşmənə tərəf boşaltdı. Ancaq nə özünün, nə də düşmənlərin atəş səslərini qətiyyən eşitmədi. Avtomatı var qüvvəsi ilə düşmənlərə tərəf tulladı. Yenidən ayağa qalxıb, sonuncu qumbaranı ona tərəf şığıyan ermənilərin düz üstünə atdı. O, əlini uzadıb tapançanı götürdü və lüləsini gicgahına söykədi. Asta-asta pıçıldadı:

—Nə olaydı, anamın yuxusuna girməyəydim!.. Əşhədü ənla İlahə İlləllah, Əşhədü...

Elə bu zaman bütün güllə səslərindən fərqli bir atəş səsi eşidildi və bu səs Murovdağın ətəklərində əks-səda verdi.

Vətən eşqi ilə döyünən böyük bir ürək əbədi susdu. Dünyaya yenidən gəlmək, yenidən döyünmək üçün susdu...



Çap üçün deyil

## XOCALI

*Oqtay Rza*

Tək qalıb vuruşdun darda, çətində,
İki müqəssir var müsibətində:
Daşnak canilərlə daxili qurdlar…
Mərmi yağdırdılar, pusqu qurdular.
Döndün yaralanmış mərdə, Xocalı!
Bu qan qalmayacaq yerdə, Xocalı!

Neçə gənc ananın, məsum körpənin
Sinəsi atəşə hədəf, tuş oldu;
Bakıya çatanda harayın sənin
Sandım ki, mənim də dərim soyuldu.
Alışdı səma da, yer də, Xocalı!
Bu qan qalmayacaq yerdə, Xocalı!

Birləşib qələbə çalmasaq əgər,
Sənin qisasını almasaq əgər,
Demək nə dövlətik, nə xalqıq onda;
Batarıq zamanın burulğanında…
Bir də söyləyirəm, bir də, Xocalı!
Bu qan qalmayacaq yerdə, Xocalı!

## BƏRK AYAQDA

*Gülhüseyn Hüseynoğlu*

*(İxtisarla)*

Vaqiflə bir məhəllədə oluruq. Bir məktəbdə, bir sinifdə oxuyuruq. Bizə V «b»-nin uşaqları deyirlər. Əbəttə, məktəbdə.

Çox vaxt dərsə Vaqiflə bir gedib gəlirik. Ya o məni çağırır, ya mən onu. Bu, kimin tez durmasından asılı olur.

Bu səhər mən onu çağırdım:

—Vaqif!.. Vaqif!..

—Gəldim!.. Bu saat!..

Gəldi:

—Gecikməmişəm ki?..

—Yox, hələ vaxta iyirmi dəqiqə var.

—Nə yaxşı! Onda tələsməyə dəyməz. Asta-asta gedək. Çatarıq.

—Nə deyirəm, gedək.

—Saatımız iki gündür işləmir. Anamın vaxtı yoxdur aparıb düzəlt-dirsin.

Vaqifin atası keçən il ölmüşdür. Anası toxucu kombinatında işlə-yir. Toxucudur.

—Dərslərini bilirsən, Vaqif?

—Eh, hardan, ana dilindən tapşırığa baxmağa heç vaxtım olmayıb. Sən, yəqin, həmişəki kimi hamısını öyrənmisən.

Vaqifin sözündə kinayə duysam da, özümü o yerə qoymadım. Dedim:

—Həmişəki kimi.

—Sənə nə var… Sinfimizin gözüsən. Bütün qiymətlərin «5»-dir.

—İstəsən, sən də ala bilərsən.



Çap üçün deyil

— Məndə o səbir hanı?! Oturum sənin kimi gecə-gündüz kitab üstündə, oxu ha, oxu. Yorulmaq-zad bilmirsən aaa, Arif!

Vaqif bunu elə dedi ki, guya mən kitab oxumaqla dağı-dağ üstünə qoyuram. Onun hərdən belə şişirtməsi olur.

* * *

Sinifdə bildim ki, uşaqların da bir neçəsi ana dilindən tapşırılan mətni öyrənməmişdir. Qorxu-hürkü canlarını götürmüşdü. Ancaq iş elə gətirdi ki, ana dilindən əvvəlki dərsimiz boş keçdi.

Bir də onu gördüm ki, uşaqlar dövrəmi alıblar. Məndən dərsi danışmağımı xahiş edirlər. Etiraz edə bilmədim. Mətni danışmğa başlarkən Vaqifi də çağırdım.

O, pəncərə qabağında durmuşdu, küçədən keçənlərə tamaşa eləyirdi. Mənim səsimə lovğalıqla əlini havada yellədi:

— Onlara danış, onlara, mən... mən...

Mənə elə gəldi ki, o «bilirəm» demək istəyirdi. Ancaq sözünü tez uddu, yadına düşdü ki, səhər dərsə gələndə mənə «bilmirəm» deyib.

— Mən necə olsa, çulumu sudan çıxara bilərəm.

Uşaqlardan hansısa onu sancdı.

— Birdən çulun ağır oldu. Səni batırdı?!

— Öz dərdini çək eyyy... Nə əcəb Arif varmış. Yoxsa neynərdiniz?!

Uşaqlar da onun sözünü cavabsız qoymadılar:

— Küçədən keçənlərə tamaşa eləyərdik, sənin kimi.

Mən dərsi danışıb izah elədim. Sonra uşaqlar növbə ilə bir-birlərinə danışdılar. Mətn hamı üçün aydın oldu. Hamı onu öyrəndi. Bircə mənim məhəllə yoldaşım, dostum Vaqifdən savayı.

* * *

İşin tərsliyinə bax!..

Müəllim dərs soruşmağa başlar-başlamaz birinci Vaqifi çağırdı.

O, inamsız addımlarla yazı taxtasına gedəndə söylədiyi «yaman ilişdim...» sözləri aydınca eşidildi. Ancaq bilmədim bunu müəllim də eşitdi, ya yox. Müəllim jurnalı yazırdı. Bu, Vaqifi, deyəsən, bir az ürəkləndirdi. Addımlarını yeyinlətdi. Özünü mənim oturduğum skamyanın yanına verdi (mən sol tərəfdə birinci skamyada otururam), müəllim eşitməsin deyə pıçıldadı:

—Arif, vayımdı, kömək elə, qulağım səndədir. Asta-asta de gəlsin, eşidərəm.

Mən də ona dedim:

— Mən ki səni dərs öyrənməyə çağırdım.

— Nə biləydim ki, içəri girən kimi məni çağıracaq.

Daha mən dinmədim.



Çap üçün deyil

Müəllim başını qaldırıb:

— Hə, Vaqif, danış, səni eşidirəm, — dedi.

Nə danışacaqdı? Nəzərlərim bayaq onun lağ elədiyi uşaqlara sataşdı. Arxayın-arxayın, bir az da istehzalı nəzərlərlə Vaqifə baxırdılar. Mənə elə gəldi ki, onlar bu baxışları ilə deyirlər: «Onlara danış, onlara danış... İndi necəsən, lovğa qardaş?! Hə, necəsən?! Deyəsən, çulunu sudan çıxara bilmirsən?!»

Bəlkə də, onlar bu cür fikirləşmirdilər. Bəlkə, mənə elə gəlirdi. Kim bilir?!

Lovğa qardaş... Bu hardan mənim ağlıma gəldi... Amma Vaqifə necə yaraşır.

Dəli şeytan deyir ki, bundan sonra onu elə belə çağırım: «Lovğa qardaş». Yox, inciyər. Onsuz da hər şey üstündə inciyir.

Atam deyir ki, lovğalıq çox pis şeydir. Deyir ki, lovğa adamın pendirindən tük çıxır. Bu atalar sözündən onun yaman xoşu gəlir.

İndi budur, lovğa qardaşın da pendirindən tük çıxır.

Ona yazığım gəlməyə başlayırdı. Mən onu heç belə aciz və yazıq bir halda görməmişdim. Bayaqkı lovğalanmaq hara, indiki büzüşmək hara?! Nə elə lovğalan, nə belə büzüş!..

Müəllim məsələni başa düşmüşdü. Vaxtı uzatmağa dəyməzdi.

—Vaqif, belə görürəm sən dərs öyrənməməkdə birinci yerə çıxacaqsan. Keç otur, «2».

Ana dili müəlliminin xasiyyəti idi. Jurnala yazdığı qiyməti həm də ucadan deyirdi.

Müəllimin qanı qaralmışdı. Dərs danışmağa bu dəfə məni çağırdı. Danışdım. Dedi:

—Yaxşı, bəs dostuna niyə kömək eləmirsən? Vaqifi deyirəm. Görürsən, heç nə bilmir. Belə getsə, sinifdə qala bilər. Onunla bir məşğul olsana... Keç otur, «5».

Mən müəllimə deyə bilmədim, deyə bilmədim ki, dostuma kömək eləməyə hazıram, ancaq onun özü bundan boyun qaçırır. Yox, deyə bilmədim.

* * *

Tənəffüsdə ona yaxınlaşdım. Məni acıladı:

—Adamı tanımaq olmazmış. Hələ bir utanmır, dost da deyir...

—Mən elə indi də sənə dost deyirəm.

—Dosta bax!.. Bərk ayaqda adamı qoyub qaçan — sənin adın budur!

Mən daha dözə bilmədim:

—Nə danışdığını heç bilirsən?!

—Səninlə danışmaq istəmirəm. Sən də məni danışdırma, bildin?! Bundan sonra mənim Arif adında dostum yoxdur, vəssalam!



Çap üçün deyil

Söhbəti daha davam etdirmək olmazdı.

O gün ilk dəfə olaraq məktəbdən evə bir yerdə qayıtmadıq.

Yolda onun öz hərəkəti barədə fikirləşib-fikirləşmədiyini deyə bilmərəm, amma mən çox fikirləşirdim. Onun da, özümün də hərəkətlərimi götür-qoy edirdim.

Niyə Vaqif məndən küsdü? Təqsirim nə idi ki?.. «Bərk ayaqda adamı qoyub qaçan». O mənə nə üçün belə dedi? Ona suflyorluq eləmədiyimə görə, hə?! Bəs onun özü bir o qədər yoldaşına lağ eləyib «Onlara danış, onlara danış» deyəndə yaxşı idi?!

Ona görə də ona dərsi pıçıldamadım. Lovğalanmasaydı, bəlkə də, deyərdim. Yox, müəllimin acığına gəlsəydi də, deyərdim. Bircə lovğalanmasaydı!

* * *

İki həftə idi ki, Vaqiflə küsülü idik. Məktəbə ayrı gedir, ayrı qayıdırdıq. Nə mən onlara gedir, nə o bizə gəlirdi.

Üç gün bundan qabaq çörək dükanında anasına rast gəldim. Məni çox mehriban dindirdi.

—Arif, necəsən, bala?!

—Yaxşıyam, Səadət xala.

—Bizə niyə gəlmirsən? Olmaya, Vaqiflə aranız dəyib?!

—Yox, niyə ki?!

—Ondan da soruşuram, belə deyir. Bəs onda niyə görünmürsən? Srağagün sinif rəhbəriniz məni məktəbə çağırtdırmışdı. Vaqifdən çox şikayətləndi. Deyir, çox pis oxuyur. Ciddi çalışmasa, sinifdə saxlamalı olacayıq. Deyir, imtahanqabağıdır, gərək evdə çalışmasına göz olasan. Mən də, ay bala, başıma haranın külünü töküm, evdə oluram ki, üstündə də gözüm olsun. Səhərdən axşamacan düşüb kombinatda qalmışam. İki saatacan elə gedib gəlməyə vaxtım itir. Evə gələndə də bişirdüşür, yır-yığış... bir də görürsən ki, gecə yarı oldu.

Biz çörək alıb evə gələnəcən Səadət xala mənə iş-gücündən, oğlunun dərsə fikir vermədiyindən, futbol azarına tutulduğundan danışdı.

—O gün də ki futbol topuynan yazıq, kimsəsiz Xanımqız nənənin pəncərəsinin bir gözünü çilik-çilik eləyib. Şüşəsalan çağırıb düzəltdirməyə məcbur olmuşam.

Səadət xala danışdıqca ona elə yazığım gəlirdi ki...

Ayrılanda xahiş elədi ki, ayağımı onlardan kəsməyim. Bir də...

—Bir də, bala, qadan alım, imkanın olanda Vaqifə dərslərini öyrənməkdə kömək elə. Müəllim səni yaman tərifləyirdi...

Mən Səadət xalaya da deyə bilmədim ki, oğluna kömək etməyə hazır idim, amma onun özü bunu istəmədi. Küsülü qalmağımı da aça bilmədim. Fikirləşdim ki, Vaqif bunu eləməyibsə, mən niyə eləyim?!



Çap üçün deyil

İndi budur, üç gündür, Səadət xalanın sözləri başımdan çıxmır. «Qadan alım, imkanın olanda Vaqifə dərslərini öyrənməkdə kömək elə».

İmkanım var, Səadət xala, var! Kömək də eləyə bilərəm. Ancaq biz küsülüyük. Özü də oğlunuz məndən küsmüşdür, «məni danışdırma» demişdir.

Bu gün də rus dilindən «2» aldı. Qanım lap qaralmışdır. Qəribədir, «2»-ni alan o, qanı qaralan mən.

Axşam evdə başa düşdüm ki, ona görə yox, Səadət xalaya görə qanım qaralmışdır. Yazıq arvad bilsə, görəsən, indi neyləyəcək? Mənə ümid oldu, məndən də oğluna bir kömək yetişmədi. Heç yaxşı olmadı.

Vaqifə də heç bilmirəm nə oldu, günü-gündən dala gedir.

Fikir məni götürmüşdü. Atamın mehriban səsini eşitdim:

—Oğul, yaman fikirli görünürsən, nə olub bəyəm?

—Heç, elə bir şey yoxdur, ata.

—Yox, sən nəsə məndən gizlədirsən. Gözlərindən görürəm. Sən ki məndən heç bir şey gizlətməzdin!.. Bir də Vaqif neçə gündür gözümə dəymir. De görüm, küsüb eləməmisiniz ki?!

Mən susurdum. Atam yaman yerdə məni yaxalamışdı. İşin nə yerdə olduğunu öyrənməyincə məni rahat buraxmayacaqdı. Xasiyyətini bilirdim. Bir də mənim özümün ürəyim dolmuşdu. Danışmağa elə adam axtarırdım. Atamdan yaxşı məsləhətçi kimi tapacaqdım ki?! Odur ki olub-keçənləri başdan ayağacan danışdım. Hətta Səadət xalanın oğluna kömək üçün məndən xahiş elədiyini və bu gün Vaqifin yenə «2» qiymət aldığını da söylədim.

Atam məni diqqətlə dinləyəndən sonra dedi:

—Hə, yaxşı olmayıb. Gör nə vaxtdan küsülüsünüz, mənə də deməmisən.

—Ata, bilirsən, utandım. Bir də mən küsməzdim. Mənim bele şeydən xoşum gəlmir. Ondan oldu.

—Başa düşürəm, oğul, başa düşürəm. Ancaq iki həftə küsülü qalmaq... Bu heç mənim xoşuma gəlmir. Özü də Vaqifin belə ağır vaxtında: axı özün deyirsən ki, müəllim deyib, belə getsə, sinifdə qala bilər. Sən onun yoldaşısan, ona indi kömək əlini uzatmasan, nə vaxt uzadacaqsan?!

—Ata, mən kömək eləmək istəyirdim, lap sinifdə dərsi ona pıçıldardım da, ancaq bircə onun bu lovğalığı olmasaydı.

—Yox, sinifdə dərsi pıçıldamaq, suflyorluq eləmək yaxşı deyil. Bunun ona bir köməyi dəyməz. Burdan sən deyəcəksən, o da tutuquşutək təkrar edəcək, oradan da yadından çıxıb gedəcək. Yaxşı eləmisən ki, özün dediyin kimi dərsi pıçıldamamısan. Vaqifə köməyi evdə, dərslərini hazırlayanda eləmək lazımdır. Əsl yoldaşlıq köməyi bu olar. Mənə elə gəlir ki, sən onunla barışmalısan.



Çap üçün deyil

—Ata, axı o özü indi məndən üz döndərib, mən necə onun yanına gedim?!

—Mənə elə gəlir ki, oğul, indi, yəqin, o da peşman olub. Bir də deyirsən ki, o lovğadır, qürurludur. Elə buna görə də o sənin yanına gəlməyəcək. Onun isə indi ağır vaxtıdır. Səadət xalanın da vaxtı yoxdur onun üstündə göz olsun. İşə gedən kimi o da evdə oturub dərs öyrənmir, küçəyə qaçır, onun-bunun pəncərəsini sındırır. Yaramaz işlərlə məşğul olur. Sən onlara getsən, ya onu bizə çağırsan, belə olmaz. Oturub səninlə birlikdə dərslərini öyrənər. Bir də oğul, gərək sən heç vaxt unutmayasan ki, atasının yoxluğu Vaqifə çox pis təsir eləyir.

Atam düz deyirdi. Ancaq Vaqifin uşaqların yanında mənə «Bərk ayaqda adamı qoyub qaçan — sənin adın budur» deməsindən sonra onun ayağına getmək mənə çox ağır gəlirdi. Çox ağır!

Bunları atama da dedim. Cavabı bu oldu:

—Hamısını başa düşürəm, oğul. Bil ki, əgər o, yaxşı oxusaydı, mən, bəlkə də, səni onun ayağına göndərməzdim. Deyərdim ki, gözlə, o sənin ayağına gəlsin. Ancaq indi vəziyyət başqa cürdür. O özü də başa düşmədən sinifdə qala bilər. Halbuki yaxşı oxumaqda indi sən ona kömək edə bilərsən. Özün də deyirsən ki, o, korafəhm deyil, ancaq lovğa və tənbəldir. Mən sənin yerində olsam, elə günü sabah gedib onunla barışaram. Günü sabah.

## ANA MƏHƏBBƏTİ

***Mobil Quluzadə***

Büdrəyib ayağım yerə dəyəndə,
Yapışıb qolumdan bala can — dedin.
Dizinin üstündə mürgüləyəndə,
Qara gözlərinə mən qurban dedin.

Sənə qanad verib körpə həvəsi,
Həmişə durmusan mənim yanımda.
Üzümə dəyəndə isti nəfəsin,
Bütün ağrılarım çıxıb canımdan.

Yüz yol yelləmisən beşiyimi sən,
Laylanı yuxuma qarışdırmısan.
Gecələr çəkmisən keşiyimi sən,
Məni öz dilində danışdırmısan.

Məni qollarınla bağrına sıxıb,
Vuranda vurmusan ana əliylə.
Sənin şirin dilin yadından çıxıb,
Məni dindirmisən körpə diliylə.

Əsla qoymamısan məni gözündən
Sən layla deyəndə mən nə demişəm?
Bu geniş dünyaya gəldiyim gündən
Gördüyüm hər şeyə «inqə» demişəm.

Duyub gözlərinin dərinliyini,
Mən qulaq asmışam sənə hər axşam.
Hiss edib dilinin şirinliyini,
Öz uşaq dilimi yadırğamışam.

Öz doğma dilini gətirib yada,
Dünyada nə qədər insan olubdur.
Bu dillər nə qədər çətin olsa da,
Ana öyrədəndə asan olubdur.



Çap üçün deyil

## NOVRUZ BAYRAMI

*Aşıq Şəmşir*

Bahara deyirlər Novruz bayramı.
Ana dilimizdə — təzə yaz günü.
Bu sözü əzəldən deyib el, hamı,
Səadət gətirən bizə yaz günü.

Bizə hər neməti eləyən sovqat,
Yuxudan oyanır cümlə nəbatat;
Bollanır, çoxalır, gəlir məhsulat,
Ruzi verir elimizə yaz günü.

Bağlar bara çatır, bağça gül olur,
Bülbüllərdə şirin nəğmə, dil olur.
Əriyir çöllərin qarı, sel olur,
Suya dönür — baxsa buza yaz günü.

Lüt meşələr don geyinir yarpaqdan,
Nərgiz gülə-gülə çıxır torpaqdan,
Bənövşəni asmaq üçün buxaqdan
Töhfə verir gəlin-qıza yaz günü.

Aləmin bayramı, xoş gələn bahar,
Cahanın zivəri, hamı səndə var.
Hayqırır havada qara buludlar,
Yağış müyəssərdi sizə, yaz günü.

Dəhana dad verir quzuqulağı,
Şehli qərənfili, yarpız yarpağı,
Moruq çiyələyə qarışan çağı,
Dərman olur dərdimizə yaz günü.

Qarışqa dən yığır, arı bal çəkir,
Barama yarpaqdan ipək xal çəkir;
Bu ləzzəti bizim el-mahal çəkir,
Yetişirik çox muraza yaz günü.

Qartal uzaq baxır, kəklik çalır ney,
Qaranquş, sığırçın, bülbül tutur mey.
Quzey al bürünür, bəzənir güney,
Səndə vardır işrət, məzə, yaz günü.

Taleyin kəskindi, iqbalın yeyin,
Şadlıq bayramını edirik böyün;
Kəkili qabarır şanapipiyin,
Çox gözəl görünür gözə yaz günü.

Çoban şiş təpədə tütək çalanda,
Çiçək dərib sağ əlinə alanda,
Sürülər göy ota çəhlim salanda
Quzular yayılır düzə yaz günü.

Şəmşirin istəyi, ürəyi sənsən,
Dörd fəslin gözəli-göyçəyi sənsən,
Göyün də, yerin də çiçəyi sənsən,
Layiqsən söhbətə, sözə yaz günü!

## BİZİM PLANET

*Əliağa Kürçaylı*

Meteor selini keçib sürətlə
Laciverd göylərə insan saldı iz,
Baxıb ucalıqdan Yerə heyrətlə,
Dedi: — Nə gözəldir planetimiz!

Gözünə işıqlar dəydi birinci,
İşıqlar — qırmızı, yaşıl, ağ, sarı,
Hərəsi bir yaqut, zümrüd, bir inci,
Süzdü gözdolusu bu işıqları.

Gözünə silsilə dağlar göründü
Karvana düzülmüş dəvələr kimi.
Dağların döşündən duman süründü
Təzə iməkləyən nəvələr kimi.

Göründü insana dənizlər, göllər
Yeni qalaylanmış tava kimi ağ,
Göründü arpalı, buğdalı çöllər, —
Sanki zəfərandır Yerdə bir tabaq.

Çap üçün deyil

İnsan bir qürurla süzdü bunları,
Süzdü ulduzların bərabərindən.
Dedi:—Nə gözəldir bizim Yer şarı!
Baxdı, köks ötürdü insan dərindən.

Birdən çöhrəsini bürüdü kədər,
Dolandı başına onun kosmos da.
Qorxdu — bu gözəllik məhv ola bilər,
İynə batmış kimi partlar bu «kos» da!

İnsan bilirdi ki, Yer kürəsində,
Qucağı doludur arsenalların.
Ölüm qorxusu var buz nəfəsində,
Qarımış, qartımış generalların.

Səmadan görünən zümrüd meşənin,
Qoynunda torpaq var, —insan bilirdi.
Düzlərə çiçək yox, raket döşənib,
Raketlər danışar — insan bilirdi.

Bilirdi neytron, atom haçaqdır,
Yatır yuvasında bir ilan kimi.
Töküb zəhərini sıçrayacaqdır,
O, «qış yuxusu»ndan ayılan kimi.

Bilirdi altında qayıqlar üzür,
Qalaylı tavaya bənzər dənizin.
Bilirdi od yüklü təyyarə süzür,
Lacivərd qoynunda göylərimizin.

Bunları görmüşdü insan min kərə,
O, Yerdən gəlmişdi, burda uçsa da.
Bilirdi yenə də dönəcək Yerə,
Ulduz aləmində qanad açsa da.

Kimsəsiz qoynundan uçan daşların,
İnsan var səsiylə qışqırdı birdən:
Ey Yer kürəsinin vətəndaşları,
Kosmosdan seyr etdim bu torpağı mən.

Necə də sakitdir meşə, dəniz, dağ!
Kaş bu ucalıqdan görəydiniz siz.
Gəlin onu belə sakit saxlayaq,
Nə qədər gözəldir planetimiz!

## QARABAĞDAN ƏLİNİ ÇƏK
*Oqtay Rza*

Qarı düşmən, qəddar yağı!
Bilirsənmi bu torpağı,
Biz sevirik canımıztək?!
Qarabağdan əlini çək!

Dərəm səngər, dağım qala,
Nahaq düşdün xam xəyala;
Yeyəcəksən yağlı kötək,
Qarabağdan əlini çək!

Səni körpə ahı tutar,
Axır günün gəlib çatar.
Dişindən qan daman köpək,
Qarabağdan əlini çək!

Yumruq kimi birləşir xalq,
Gəncə, Tərtər, Tovuz, Qazax...
Başın hökmən əziləcək,
Qarabağdan əlini çək!

Çap üçün deyil

## ANA DİLİM

*Mir Sabir*

Böyük-böyük salonlardan,
Sən danışıb, dinən zaman,
Arzularım açır çiçək,
Gözlərimdə gülür cahan,
Ana dilim,
Anam dilim.

Füzulinin nəfəsisən,
Qərib-qərib ölkələrdə,
Doğma Vətən əvəzisən,
Ana dilim,
Ana dilim.

Bilirəm ki, zaman-zaman,
Həyat sənə olub zindan,
Dönüb «Yanıq kərəmə» sən,
Telli sazda danışmısan,
Ana dilim,
Ana dilim.

Kim deyir ki, yabanısan?!
Dillərin ən rəvanısan.
Vurğunumun söz aləmi,
Habilimin kamanısan,
Ana dilim,
Ana dilim.

Nəğməlisən, nağıllısan
Şəkərlisən, noğullusan,
Tarixlərə haray salan,
Sən Xətai oğullusan,
Ana dilim,
Ana dilim.

## ŞUŞA

*Rəsul Rza*

*(İxtisarla)*

Burda nəğmə yaz çiçəyi kimidir:
tez dayanır, tez gül açır, boy atır.
Burda səhər yuxusundan adamı
bülbüllərin cəh-cəh səsi oyadır.

Burda hava körpə uşaq kimidir,
gah tutulur, gah ağlayır, gah gülür.
Burda səhər buludların döşündən
qayalara qızılgüllər tökülür.

Göylərində at oynadır şimşəklər,
bir an olur gur yağışı, dolusu...
Əlvan çiçək xalıları yamacda
baş qaldırır nərgiz, gözü dolu su.

Qayalarda tərlanları qıy vurur,
dan atanda maral gəlir çeşməyə.
Qız-gəlinlər gün doğmamış oyanır;
dəstə-dəstə bulaq üstən keçməyə.

Mən torpağın qüdrətinə heyranam,
yüz ziynəti, yüz rəngi var hər ildə.
İnsan vaxtsız nə qocalar, nə ölər
torpaq kimi gücü olsa könüldə.

Çap üçün deyil

## KİÇİK QƏHRƏMAN
*Abdulla Şaiq*

Azayın atası Böyük Vətən müharibəsinin lap birinci ilində əsgər getmişdi. Anası da dəmiryolunda işə düzəlmişdi. Atasının ayrılığı Azaya çox təsir edirdi, onu hər yadına salanda faşistlərə lənət oxuyurdu.

Bir gün Azay yuxudan həyəcan içində oyandı. Çox halsız və nəşəsiz idi. Anası oğlunun bu vəziyyətindən narahat oldu:

—Oğlum, niyə qəmlisən, nə olub?

—Heç!

—Necə heç, rəngin qaçmış, üz-gözünə qəm, kədər tozu çökmüş, yoxsa atanın xiffətini edirsən?

Azay başını köksünə dikərək bir az sakit durdu, sonra başını qaldırmadan dedi:

—Ana, atamı əsgər paltarında cəbhəyə göndərdiyimiz gün yadındadırmı?

—Yadımdadır oğlum, o gün həm şən, həm də o kədərli idi. Əsgər paltarı isə ona gözəl yaraşırdı. Qatar yola düşəndə gülə-gülə səni qucaqladı: «İgid oğlum, mərd ol, — dedi, — atanı düşünmə, mənim üçün darıxsan, ana vətənə qulluq et, o, mənim üçün hər şeydən — atadan, anadan da əzizdir».

Azay anasının sözünü bitirməyə imkan vermədi:

—Yadımdadır... mən onun boynunu qucaqlayıb hönkür-hönkür ağlayırdım. O, məni qucaqlayıb öpəndə yaşlı kirpikləri üzümü islatdı. Qatar hərəkət etmək üzrə idi. Məni zor-güc sakit edib vaqona atıldı. Qatar fit çala-çala hərəkət etdi. O, pəncərədən bizə baxırdı, mən də ona... Bunlar yadındadırmı?

—Yadımdadır oğlum!..

—Bu gecə olduğu kimi bunları yuxuda görmüşəm. Qatar hərəkət edərkən, sənə baxıb hönkür-hönkür ağlarkən öz səsimə oyandım.

—Xeyirdir oğlum, ağlamaq sevinməkdir, inşallah, müharibə zəfərlə başa çatar, atan da sağ-salamat qayıdar.

Azayın gecədən bəri köksünə sığmayan kədəri elə bil bir qədər sovuşdu...

Sərin, buludlu bir gün idi. Azay dəmiryolunun şimala doğru uzanan yaşıl çəmənliyində çiçək dərə-dərə gedirdi. Əlvan çiçəklərdən bir dəstə bağladıqdan sonra dincəlmək üçün bir komanın ətəyində uzandı.

Azay gözlərini dəmiryoluna dikərək nə isə düşünürdü. Atası bu yolla getmiş, bu yolla da qayıdacaqdı. Bu yollar nə qədər Azay kimi oğulların atasını cəbhəyə aparmışdı; günlərin bir günündə bu yollar həmin ataları öz ailələrinə, balalarına qovuşduracaqdı. Bu zaman Azayın gözlərinə bir kölgə ilişdi. Diqqətlə baxıb gördü ki, tanımadığı bir adam dəmiryoluna yaxınlaşıb şübhəli nəzərlərlə ətrafa baxdı. Sonra



Çap üçün deyil

relslərin altını sürətlə qazaraq oraya nə isə qoyub qorxa-qorxa sürətlə geri çəkildi. Azay yad adamın bu hərəkətlərindən çox şübhələndi, dərhal ayağa qalxıb onu qarşıladı. Yad adam Azayı görən kimi yolunu dəyişərək ondan uzaqlaşmaq istədi. Azay buna imkan vermədi:

—Ey kimsən?

Yad adam gülümsəməyə çalışdı:

—Neyləyirsən? Mən də sənin kimi bir vətəndaş! De görüm, sən kimsən?

Azay cavab verməyib şübhəli nəzərlərlə ona baxdı. Yad adam söhbətin səmtini dəyişmək istədi:

—Sənin də atan cəbhədədir?

—Bəs harda olacaq? Göndərsələr, mən də gedərəm.

Kişi fürsəti fövtə verməməyə çalışdı:

—Eh...h... Atalar neylədi ki, sənin kimi südəmər oğullar neyləsin.

Azay acıqlı-acıqlı ona baxdı. Yad adam buna əhəmiyyət verməyib sözünə davam etdi:

—Yazıq, sənin vətəninmi var?.. Bu gün, sabah almanlar onu da alacaq, vətənsiz qalacaqsan...

Azayın gözləri kəlləsinə çıxdı. Dərhal atasının sözləri yadına düşdü: «Atanı düşünmə, mənim üçün darıxsan, ana vətənə qulluq et! O mənim üçün hər şeydən — atadan da, anadan da əzizdir». Bu sözləri xatırlayıb Azay qəhərləndi, gözləri doldu özünü saxlaya bilməyib, ondan uzaqlaşmağa çalışan yad adamın üstünə atıldı, iki əli ilə boğazından yapışdı:

—Ay xain, mənimmi vətənim yoxdur... Nə? Mənim vətənim yoxdur?!

Yad adam boğazını zor-güc Azayın əlindən qurtarıb kənara çəkildi:

— Şeytan oğlu, bu saat səni atavın yanına göndərəcəyəm — deyə cibindən bir fin bıçağı çıxardı. Hücum etmək istədikdə Azay yerdən böyük bir daş götürüb onun əli qarışıqlı fin bıçağına vurdu. Kişinin əli bərk əzildi, bıçaq əlindən yerə düşdü. Azay cəld bıçağı götürüb dikəldi:

—İndi, sənin canın mənim əlimdədir. Xain, satqın, mənim vətənim yoxdur?

Elə bu zaman yoldan keçən iki hərbi nəfər onları görüb yaxınlaşdı:

—Niyə vuruşursunuz?..

—Bu adam deyir ki, sənin vətənin yoxdur!.. Bu gün-sabah almanlar bu yerləri də alacaq, sən vətənsiz qalacaqsan.

—Yalan deyir! — deyə yad adam artıq söz söyləyə bilmədi.

—Yalan demirəm, bax, bu fin bıçağı ilə məni öldürmək istəyirdi. Daş ilə vurub əlini əzdim, bıçaq əlindən yerə düşdü. Xain, mənimmi vətənim yoxdur, atam gedəndə vətəni mənə tapşırıb.



Çap üçün deyil

Hərbi geyimdə olan bu iki nəfər lap əvvəlcədən elə bu qəribə adamın hərəkətlərindən, danışığından şübhələnmişdilər. Odur ki onu özləri ilə aparacaqlarını bildirdilər. Arada Azayın da kim olduğunu soruşdular:

—Mən dəmiryolu keşikçisi Gülxanımın oğluyam. Adım da Azaydır — deyə o qürurla cavab verdi. Onlar şübhəli qonağı apardılar. Azay da anasının yanına qayıtmaq üçün dəmiryolun qırağı ilə yola düzəldi. Anasının keşikçi daxmasına yüz addım qalmışdı ki, gördü uzaqdan qatar gəlir. Anası da əlində kiçik göy bayraq tutmuşdur. Azay yad adamın dəmiryolu relsləri altına gizli bir şey qoyduğunu ancaq indi xatırladı, ayılan kimi oldu. Qaça-qaça tez özünü anasına çatdırdı. Qatar yaxınlaşırdı. Azay anasının cibindən kiçik qırmızı bayrağı çıxarıb göstərə-göstərə:

—Ana, yol təhlükəlidir, yol təhlükəlidir... Sonra sənə danışaram, — deyə ucadan bağırdı.

Qatar yaxınlaşınca dayandı. Vaqonlardan bir neçə zabit və qatar rəisi düşüb Gülxanıma yanaşdılar. Ondan qırmızı bayraq göstərməyin səbəbini soruşunca Azay gördüyü adamın relslərin altına nə isə qoyduğunu, onunla aralarında olan hadisəni anlatdı. Zabitlər tez Azay ilə bərabər haman yerə getdilər. Doğrudan da, relslərin altına dinamit qoyulmuşdu. Onu Azay görüb xəbər verməsəydi, qatarla cəbhəyə gedən bütün əsgərlər və zabitlər tələf olacaqdı.

Zabitlər Azayın bu hərəkətindən çox məmnun qaldılar, onu qucaqlayıb öpdülər, göyə atıb-tutdular, minlərlə döyüşçünün xilaskarı adlandırdılar. Zabitlərdən biri dedi:

—Kiçik vətəndaş, sağ ol, bizi böyük bir təhlükədən qurtardın, bu mərdliyin əvəzində sən böyük mükafata layiqsən.

Azay cavab verdi:

—Mən öz vətəndaşlıq vəzifəmi yerinə yetirmişəm. Sizdən ancaq bir şey istəyirəm. Düşməni vətənimizdən tez qovun, atamı da götürüb zəfərlə vətənimizə qayıdın.

Kiçik Azayın bu vətənpərvərliyi hamıda ruh yüksəkliyi oyatdı.

Qatar hərəkət etdi. Pəncərədən uzanan əllər Azayı alqışlayırdı. Bu əllər, gülər üzlər elə bil Azaya deyirdi:

— Balaca qəhrəman, çox darıxma, sənin kimi oğulların ataları məğlub olmaz, çox çəkməz ki, sən istəkli atanla görüşərsən.



Çap üçün deyil

## MÜƏLLİM
*İslam Səfərli*

Müəllim! Bu sözün mənası dərin,
Onun hər ürəkdə öz yeri vardır.
Odur ilhamçısı gənc nəsillərin,
Fikri, düşüncəsi bir ilk bahardır.

Müəllim! Bu ada min dastan desəm,
Nə sözüm tükənər, nə qəlbim susar.
Ona canımı da mən qurban desəm,
Bir şair qəlbinin buna haqqı var.

Ağsaçlı, mehriban müəllimimi,
İndi də arabir hərdən görürəm.
Özümü itirib bir uşaq kimi,
Ayağa qalxaraq salam verirəm.

Dünyanın ən böyük dahilərini,
Müəllim yetirmiş parta dalından.
Onun qayğısını, alın tərini,
Dostlar, unutmayaq gəlin heç zaman.

Deyirəm, görəsən cahanda kimin,
Bir müəllim təki xidməti vardır.
Dahilər dərs deyən bir müəllimin,
Milyon könüllərdə hörməti vardır.

Onun şərəfidir, onun öz adı,
Neçə gənc mühəndis, neçə həkim qız.
Cavan pilotlardır onun qanadı,
Odur ki, göyləri gəzir qayğısız.

Müəllim! Böyükdür, yüksəkdir bu ad,
Onu uca tutmaq şərəfdir bizə,
O öz qayğısıyla firavan, azad,
Nəsillər yetirir ellərimizə.

Gəlin alqış deyək, dostlar, ürəkdən,
Əsl müəllimtək yaşayanlara.
Şeirimlə gül dəstə bağlayıram mən,
Bu adı şərəflə daşıyanlara!

## ELM HAQQINDA
*Marağalı Əvhədi*

Bilik can quşuna qanaddır, inan,
Ruhunu göylərə odur qaldıran.
Bilikdi ürəyə bu dünyada can,
Baş biliksiz olsa, olar bədgüman.
Nursuz göz kimidir elmsiz ürək,
Nadan insanlıqdan uzaqdır, gerçək.
Elmin bayrağını qaldır göylərə,
O səni qaldırsın ən yüksəklərə.
Bilik arxasınca yürü hər zaman,
Biliklə Allaha gedib çatarsan.
Nəfs Allah elmidir, elm isə ağıl,
Bəsdir, özünə gəl, yuxudan ayıl.
«Yumat»da yazılmış bu sözlərə bax:
«Məlumat meyvədir, elm isə budaq».
Yoxdur bilik kimi bir abi-həyat,
Ancaq bilik verər insana nicat.
Bu sudan içənlər əbədi oldu,
Gözləri saqinin üzündə qaldı.
Ruhuna elm ilə kömək et hər an,
Onda Cəbrayıla yoldaş olarsan.
Biliklə dinin də adı ucalar,
Din elmə söykənsə, necə qocalar?!
Elm ağlın ziyası, biliksə bir nur,
Bu sözlər aydındır, doğrusu budur.
Biliyin olarsa, qalmazsan naçar,
Bilik yollarında çıraqtək yanar.

Çap üçün deyil

## LOĞMAN
### *Azərbaycan xalq nağılı*

Biri var idi, biri yox idi, bir zalım padşah var idi. Camaata o qədər zülm eləmişdi ki, hamı gecə-gündüz ona qarğış eləyirdi. Camaat o qədər qarğamışdı ki, padşah azara düşmüşdü, rəngi sapsarı, ölü rənginə oxşayırdı, üz-gözü yupyumru şiş tökmüşdü, qarnında xərçəng peyda olmuşdu. Dünyada nə qədər həkim-təbib var idi, hamısı gəlib baxmışdı, amma heç biri yaxşı eləyə bilməmişdi. Padşah gələn həkimlərin hamısı ilə şərt bağlamışdı ki, əgər onu yaxşı eləsələr, çoxlu ənam alacaqlar, yox, yaxşı eləyə bilməsələr, onda boyunları vurulacaq. Nə qədər həkim gəlirdisə, padşahın dərdinə əlac eləyə bilmirdi. Cəlladlar o saat həmin həkimlərin boynunu vururdular. Padşah o qədər həkim öldürtmüşdü ki, yekə bir qəbiristanlıq düzəlmişdi.

Axırda xəbər gedib Loğmana çatdı ki, nə durubsan, dünyada həkim qalmadı, padşah hamısını qırıb tərk etdi. Loğman soraqlaşa-soraqlaşa düz gəldi padşahın yanına. Padşahla şərt bağlayıb işə başladı. Loğman dedi:

— Şah sağ olsun, sənin qarnında xərçəng var. Mən səni sağaldaram, amma gərək oğlunun öldürülməsinə icazə verəsən. Sənin dərmanın oğlunun qanıdı.

Padşah bu sözü eşidən kimi az qaldı dəli olsun, gözləri çıxdı kəlləsinə.

Dedi:

— Gözümün ağı-qarası bircə oğlum var, mən bu işə necə razı ola bilərəm?

Loğman dedi:

— Özün bil, razı olmazsan çıxıb gedərəm.

Padşah razı olmadı ki, olmadı. Loğman vəziri, vəkili bir tərəfə çəkib dedi:

— Mən yalandan belə deyirəm. Oğlanın başını kəsməyəcəyəm, onun əvəzinə bir qoyun başı kəsəcəm. Bu haqda nəbadə padşaha bir söz deyəsiniz ha, onda onu sağaltmaq olmaz. İndi siz gedin, padşahı bu işə razı salın ki, oğlunun başını kəsməyə icazə versin.

Loğmanın bu sözündən sonra vəzir, vəkil padşaha yalvar-yapış elədilər:

— Qibleyi-aləm sağ olsun, sən gəl taxtı-tacı buraxıb camaatı başsız qoyma. Bir oğul nədi ki, bu cahi-cəlalı ona verirsən. Evlənərsən, təzədən övladın olar. Sən gəl razı ol.



Çap üçün deyil

Hərə bir tərəfdən yalvar-yapış eləyib padşahı razı saldılar. Loğman oğlanı gətirib atasının gözünün qabağında əl-ayağını bağlayıb yıxdı yerə, əlinə bıçağı alıb oğlana sarı getdi ki, guya başını kəsir. Padşah qışqırıb dedi:

— Heç olmasa, oğlumun başını gözümün qabağında kəsməyin.

— Loğman dedi:

— Padşah sağ olsun, ayrı cür yolu yoxdu, gərək belə ola. İndi ki görmək istəmirsən, onda aralığa bir pərdə tutaq.

Gətirib padşahla oğlunun arasına pərdə tutdular. Loğman bilirdi ki, iş belə olacaq, odur ki oğlana göz vurub dedi:

— Dostum, indi tez bura bir qoyun gətirt, qoyunun başını kəsdikcə sən başla səs-küy salıb xırıldamağa, qoy atan elə bilsin ki, sənin başını kəsirəm.

O saat qoyun hazır oldu. Loğman başladı pərdənin dalında qoyunun başını kəsməyə, oğlan da xırhaxır salmışdı. Padşahın yanında da vəzir, vəkil onu bir təhər sakit eləyirdilər. Loğman kəsdiyi qoyunun qanından bir kasa doldurub padşahın hüzuruna apardı, dedi:

— Əgər sağalmaq istəyirsənsə, al, bu qanı iç.

Padşah nə qədər elədi, içə bilmədi. Axırda Loğman barmaqlarını qana batırıb padşahın üzünə çilədi. Padşah o saat qusdu. Ağzından bir yekə xərçəng düşdü. Loğman dedi:

— Ey padşah, daha sənin canın qurtardı, bu gündən sən oldun sap-sağlam.

Sonra Loğman pərdəni açıb padşahın oğlunu özünə göstərdi.

Padşah dedi:

— Loğman, bu nə sirdir, sən nə elədin?

Loğman dedi:

— Sənin dərmanın təkcə bu idi, əgər belə eləməsəm, səni sağalda bilməzdim.

Hamı Loğmana «afərin» deyib dua elədi. Padşah ona çoxlu xələt verdi. Vəzirlə vəkil də Loğmanın ayağına düşüb dedilər:

— Ey Həkimi-Loğmana, bizim də dərdimizə əlac elə.

Loğman dedi:

— Sizin dərdiniz nədir?

Vəzir dedi:

— Mənim başımda qurd var, həmişə ağrıyır.

Vəkil də dedi:

Mənim də beynimdə qurbağa var, elə hey quruldayır.

Loğman dedi:



Çap üçün deyil

— Vəzir, sən düz deyirsən, başında qurd var. Amma vəkil yalan deyir, fikrinə gətirir ki, beynimdə qurbağa var, elə bilir ki, doğrudan da, var. Beyində qurbağa olmaz.

Qərəz, Loğman bunların hər ikisini hamama aparıb dedi:

— Mən sizi burda müalicə edəcəyəm.

Əvvəlcə vəkilə bir az bihuşdarı verib onu yuxulatdı. Sonra başının dərisindən bir balaca çərtib qan çıxardı. Bir boşqaba da bir qurbağa ölüsü qoyub üstünü də qana batırdı. Sonra vəkilin başını bərk-bərk sarıyıb ayıltdı. Vəkil baxıb gördü ki, başı sarıqlı, qabağında da qanlı bir qurbağa balası. Elə bildi ki, bunu onun başından çıxardıblar. Odur ki dedi:

— Ay Loğman, sənin əlinə qurban olum, nə yaxşı eləyib qurbağanı başımdan çıxartdın, indi tamam rahatlandım.

Vəzir bu əhvalatların hamısını görürdü. Elə bilirdi ki, onunku da belə olacaq.

Loğman başa düşdü ki, vəzir yuxarıdan baxırmış, odur ki dedi.

— Hə, elə sən düz deyirsən,burada nə çətin iş var ki, sənə bihuşdarı verim.

Bəli, Loğman vəzirin kəlləsini çəkic-kəlbətinlə tamam iki yerə ayırdı, gördü beynində yekə bir qurd var. İstədi maqqaşla qurdu götürsün. Birdən hamamın bacasından Loğmanın şagirdi qışqırıb dedi:

— Usta, maqqaşı isit, sonra qurdu götür.

Loğman gördü ki, şagirdi yuxarıdan xəlvətcə baxır,tez maqqaşı qaynar suda bərk qızdırdı, qurdun başından tutub kənara atdı. Sonra xəstənin başını yenə bitişdirib bərk sarıdı. O gündən vəzirin də başının ağrısı tamam kəsdi. Loğman hamamdan çıxanda şagirdini çağırıb dedi:

— Bala, de görüm sən niyə dedin ki,usta, maqqaşı qızdır?

— Usta, mən gördüm ki,qurdun çoxlu əl-ayağı var. Sən soyuq maqqaşla qurdu götürəndə o, əl-ayağı ilə beyindən bərk-bərk yapışacaqdı ki, onu qopartmasınlar. Beyin də zərif bir şey olduğundan zədələnə bilərdi. Amma isti maqqaş qurda dəyən kimi onun bədənini yandıracaqdı, o saat  qurdun əl-ayağı boşalıb heç yerdən tuta bilməyəcəkdi, sən də asanlıqla onu götürəcəkdin.

Loğman dedi:

— Əhsən, oğlum, mən bilirəm ki, sən çox ağıllı həkim olacaqsan.



Çap üçün deyil

## DƏVƏNİN BALASIYLA SÖHBƏTİ

*Hikmət Ziya*

Dəvənin boz balası,
Özütək düz balası
Bir gün öz atasına
Söylədi yana-yana:
— Ay ata, yoldaşlarım,
Ay ata, tay-tuşlarım,
Mənə lağ eləyirlər,
Mənə belə deyirlər:
— Nə eybəcər belin var,
Belində qozbelin var.
Tənə edib o ki var
Məni kiçik sanırlar.
Dəvə dedi: — Qadası,
Atasının balası,
Ürəyini qısmasın
Qəlbə toxunanların
Bu cür dedi-qodusu!
Öyün, atan kimi sən,
Uzaqsan hər hiylədən.
Çaqqal kimi hinlərə
Girmək adətin yoxdur.
Qurdtək acgöz deyilsən,
Gözün həmişə toxdur.
Sürünün qoyununa,
Quzusuna dəymirsən.
Tülkütək tülkülüklə
Heç kəsə baş əymirsən.
İlan kimi bir kəsi
Çalmaq deyil adətin.
Ayıtək arıdan bal
Ummaq deyil sənətin.
Cilddən cildə girmirsən
Buqələmun sayağı.
Qırxayaqtək hər səmtə
Addımlamır ayağın.
Qarışqayeyən kimi
Kiçikləri yemirsən.
Porsuqtək piylənərək
«Mən var olum» demirsən.
Donuz kimi eşmirsən
Palıdın kökünü sən.
Nolar, əyri belin var,
Nə olar, qozbelin var.
Fəxr et, atan kimi sən
Hər vaxt xasiyyətinlə.
Daimi adətinlə
Əyrü-üyrü deyilsən.
Atan kimi çətin yol
Seçməyinlə fəxr elə,
Hərdən səhranı susuz
Keçməyinlə fəxr elə.
Əlinin əməyilə,
Zəhməti sevməyinlə
Fərx elə mənim balam,
— Heç vaxt kiçik sanılmaz
Bax, bu yolla ucalan!

Çap üçün deyil

## ƏN GÖZƏL
*Tofiq Bayram*

Ey könül, ümmanlar coşsun səsində,
Şeirin qanad açan günüdür bu gün.
Bütün ölkələrə yer kürəsində
De ki, Azərbaycan günüdür bu gün!

Dostları şad görüm, yadları dalğın,
Arzumun gül açan günüdür bu gün.
Şöhrətli vətənin, qeyrətli xalqın
Tarixə nur saçan günüdür bu gün.

Payızdan xoş ətri gəldi baharın,
Elimin sevinci aşıb-daşıbdır.
Sifəti nurlanıb ağsaqqalların,
Ağbirçək analar cavanlaşıbdır.

Dünyanı mat qoyub bu arzu, həvəs,
Xalqımın öyünən günüdür bu gün.
Bütün ürəklərin həmrəy, həmnəfəs
Sevinclə döyünən günüdür bu gün.

Ən gözəl kəlmələr axtarın, seçin,
Dostlar, alqışlardan Azərbaycana.
Hələ neçə-neçə bayraqlar biçin
Qızıl qumaşlardan Azərbaycana!

Bayramın mübarək, ey ana Vətən!
Hünərlər, zəfərlər izləyir səni,
Şöhrətin ən uca zirvəsindəsən,
Hələ çox zirvələr gözləyir səni!



Çap üçün deyil

# İZAHLI LÜĞƏT*

## A

**Acımaq** – yazığı gəlmək, ürəyi yanmaq, rəhmi gəlmək.
**Aciz** – bacarıqsız, qabiliyyətsiz, əlindən iş gəlməyən.
**Ağlına batmaq** – məsələnin doğruluğuna inanmaq.
**Ah-fəğan** – ah-nalə, fəryad, ağlama.
**Anadangəlmə** – lap doğulandan xas olan, yaradılışında olan.
**Aram-aram** – asta, yavaş-yavaş, aramla.
**Ardıc** – çox zaman qayalıqlarda bitən iynəyarpaqlı, həmişəyaşıl kol.
**Arşın** – metrik ölçü sistemi qəbul olunanadək işlədilən uzunluq ölçüsü (0,71 metrə bərabərdir).
**Aşırım** – dağın beli, dağın aşılıb keçilən yeri.
**Avtoqraf** – bir müəllifin özü tərəfindən yazılmış əlyazması.
**Ayin** – dini mərasim.
**«Azadlıq»** – burda radiostansiyanın adı mənasındadır.

## B

**Bab** – tay, bərabər, uyğun, münasib.
**Bac almaq** – vergi almaq, keçmişdə qalib gələn hökmdarın məğlub olan hökmdardan təzminat almağı.
**Barrikada** – küçə vuruşmasında müxtəlif şeylərdən (şalban, daş, ağac və s-dən) düzəldilən səngər; küçə səngəri.
**Bədii nümunə** – bədii əsər.
**Bədəməl** – pis işlər görən.
**Bədgüman** – həqiqəti bilmədən, zənn və təxminə görə bir şey haqqında pis fikirdə olan, şübhə edən.
**Bəhs etmə** – bir şey haqqında ətraflı danışma.
**Bənzərsiz** – oxşarı olmayan, tayı-bərabəri olmayan.
**Bihuşdarı** – bihuşedici maddə.
**Boran** – çovğun, qasırğa, küləkli qar.
**Bordür** – yolu səkidən ayıran nisbətən hündür sərhəd.
**Bölgə** – müəyyən əlamətə görə seçilən ərazi.
**Buqələmun** – mühitə görə dərisinin rəngini dəyişdirmək qabiliyyətinə malik olan sürünən heyvan.
**Bülənd** – göyə qalxmaq, yüksəlmək, ucalmaq.

## C

**Cahangir** – dünyanı tutan, ölkələr fəth edən.
**Ceyranbatan** – Azərbaycan Respublikası ərazisində su anbarı.
**Cədd** – ata və ya ananın atası, baba.
**Cəfəngiyyat** – boş, mənasız, dəyərsiz sözlər.
**Cələf** – çəlimsiz, zəif.
**Cəllad** – ölüm hökmünü icra edən adam – qaniçən, qəddar, mərhəmətsiz adam mənasında da işlənir.
**Cəng** – dava, müharibə, vuruş, döyüş.
**Cəngi** – qəhrəmanlıq və cəngavərlik ruhunda hava.
**Cərgə** – sıra, nizamlı düzülüş.
**Cığır** – gediş-gəlişdən əmələ gələn ensiz, dar yol.
**Cırıltı** – cır-cır səsi, cırıldayan, cırıltı səsi verən.
**Cilov** – qoşqu ləvazimatının qayışdan (ya ipdən) ibarət olan və qoşulmuş atı idarə etməyə xidmət edən hissəsi.
**Cin atına mindirmək** – bərk hirsləndirmək.
**Ciyərpara** – övlad mənasında işlədilir.
**Cövhər** – hər hansı maddənin əsasını təşkil edən şirə; məhlul.

## Ç

**Çağ** – vaxt, zaman.
**Çəməngah** – çəmənlik yer.
**Çəngə** – bir ovuc.
**Çillə** – qışın böyük və kiçik çillədən ibarət ilk iki ayı (60 gün).
**Çillə qarpızı** – çillədə kəsmək məqsədilə saxlanılan qarpız.
**Çolma-çocuq** – övladlar, uşaqlar, oğul-uşaq.

---

* Lüğət Azərbaycan dilinin izahlı lüğəti (dörd cilddə. «Şərq-Qərb», Bakı, 2006) əsasında tərtib olunmuşdur.



Çap üçün deyil

**Çovğun** – küləkli qar, boran, qasırğa.
**Çul** – üstündə oturmaq və ya soyuqdan qorunmaq üçün atın və bəzi başqa heyvanların belinə salınan toxunma qalın örtük.

## D

**Dabbaqda gönünə bələd olmaq –** bir adamın keçmişinə və hər cür gizli işlərinə yaxşı bələd olmaq, keçmişini, iç üzünü bilmək.
**Dan** – sabah açılarkən havanın işıqlanması.
**Daun sindromu** – xəstəlik adı. Belə xəstələr boyca qısa olur, əqli inkişafdan geri qalırlar.
**Dehqan** – kəndli, əkinçi.
**Dəbilqə** – döyüşçülərin başlarına qoyduqları metaldan tökülmüş papaq.
**Dəhan** – ağız.
**Dərgah** – Allah qapısının ağzı, qapı önü.
**Dib** – dəniz, çay, göl və s. suyunun altındakı torpaq səthi.
**Dikdir** – dik yer, kiçik təpə.
**Dinamit** – partlayıcı maddə.
**Diziaynalı** – *burada:* dizi yerə dəyməyən, həmişə qalib gələn.
**Doğruçu** – düz danışan, düzlük sevən, düzünü deyən.
**Dolanmaq** – bir şeyin ətrafında fırlanmaq, hərlənmək, dövrə vurmaq.
**Dolaşa** – qarğa cinsindən kiçik qara rəngli quş.
**Dolanbac** – dolaşıq, əyri-üyrü.
**Dudkeş** – tüstüçəkən boru.
**Duyğu** – ətraf aləmi qavrama, hiss etmə qabiliyyəti.
**Dübarə** – ikinci dəfə, təkrar.
**DTK** – Dövlət Təhlükəsizlik Komitəsi.

## E

**Ehmalca** – yavaş, yavaşca, sakit, asta.
**Emalatxana** – istehsal və ya təmir müəssisəsi.
**Erkən** – 1. səhər tezdən, sübhdən, ertə; 2. vaxtından əvvəl, tez.
**Eyham** – ikimənalı, üstüörtülü söz və ya ifadə; işarə.

## Ə

**Əcaib-qəraib** – çox qəribə, qeyri-adi, görünməmiş.
**Ədəb-ərkan** – qanacaq, mərifət, tərbiyə.
**Ədl** – ədalət.
**Əhd** – öhdəsinə alma, söz vermə, üzərinə götürmə; and.
**Əks-səda** – qayalara, bina tağlarına və s. toxunandan sonra təkrar qayıdan səs.
**Əl-qol çırmamaq** – işə başlamaq.
**Əməllicə** – olduqca yaxşı, bütün tələbata cavab verən, mükəmməl.
**Əməlisaleh** – əməlində, işində, hərəkətində düz olan, doğru hərəkət edən, əyriliklə işi olmayan.
**Əsər etmək** – təsir etmək.
**Əsər-əlamət** – iz, nişanə, əlamət.
**Əsna** – vaxt, zaman, an.
**Ərəstun** – yunan alimi Aristotel, Şərq mənbələrində onu Ərəstun adlandırırlar.

## F

**Fağır** – yoxsul, kasıb, yazıq, aciz.
**Fəqan** – nalə, fəryad, inləmə.
**Fəqir-füqara** – cəmiyyətin aşağı, yoxsul təbəqələri, kasıblar.
**Fəraq** – ayrılıq.
**Fərli** – 1. layiqli, yaxşı, yararlı. 2. bacarıqlı, qabiliyyətli.
**Fərari** – qaçıb aradan çıxan.
**Fəryad** – acı-acı qışqırmaq.
**Firavan** – bol, varlı.

## G

**Gicgah** – kəllənin qulaqdan alın sümüyünə qədər olan hissəsi.
**Gizir** – Azərbaycan ordusunda rütbə.
**Gövdə** – bədənin, ağacın, cihazın və s-nin əsas hissəsi.
**Gözlərini oymaq** – kor etmək.
**Gurultu** – çox bərk qarışıq səs.
**Güdmək** – birini gözdən qoymamaq, gizləmək.
**Günəş sistemi** – Günəş və onun ətrafındakı planetlər.
**Günbatan** – Qərb.
**Güney** – Cənub.

## H

**Haray-həşir** – hay-küy, səs-küy.
**Havayı** – işləmədən, zəhmət çəkmədən, zəhmətsiz.



Çap üçün deyil

**Hayqırmaq** – qışqırmaq, bağırmaq, hay salmaq.
**Heyrət** – qeyri-adi, gözlənilməz, qəribə bir şeydən, hadisədən çaşqınlıq; təəccüb.
**Həmdəm** – yaxın yoldaş, yaxın dost, sirdaş.
**Hərarət** – istilik.
**Həris** – bir şeyə həddindən artıq can atan, onun düşkünü olan, gözüdoymaz.
**Həsəd aparmaq** – paxıllıq etmək.
**Hidayət** – islam dininə görə doğru yol, haqq yol.
**Hikmət** – müdrik söz, dərin fikir, dərin məna.
**Hilal** – təzə çıxmış, bir-iki günlük ay; aypara.
**Hislərini cilovlamaq** – özünü saxlamaq, hislərini boğmaq.
**Hövlnak** – qorxu, təlaş içərisində, həyəcanla.
**Hövl etmək** – qorxmaq, dəhşətə gəlmək.
**Hülqum** – ağız boşluğunu qida borusu ilə birləşdirən əzələ borusu.
**Hünər** – bacarıq, məharət, ustalıq, qabiliyyət, fərasət.

### X

**Xarabalıq** – dağılmış, sökülmüş yer.
**Xəfif** – mülayim, yüngül, yumşaq.
**Xəndək** – torpaqda uzununa qazılmış dərin çuxur.
**Xərac almaq** – vergi almaq, bac almaq.
**Xərçəng** – suda yaşayan heyvan.
**Xəzri** – Abşeron yarımadasında şimaldan əsən şiddətli külək.
**Xırhaxır** – xırıltılı səs.
**Xislət** – xasiyyət.
**Xof** – qorxu.
**Xurd-xəşil** – əzilmiş, sağ-salamat yeri qalmamış, sınıq-sınıq olmuş.

### İ

**İləri qoşmaq** – irəli getmək.
**İlham** – həvəs.
**İmansız-dinsiz** – Allahsız, kafir.
**İnadkar** – tərs, dediyindən əl çəkməyən.
**İnci** – ağ və ya çəhrayı, nadir hallarda qara rəngli qiymətli sədəf maddəsi; mirvari.
**İntiqam** – qisas, heyif alma.
**İntizam** – qayda-qanun, nizam, möhkəm qayda.
**İşğal etmək** – tutmaq, zorla soxulmaq.
**İyid** – igid mənasında verilmişdir.

### K

**Karıxmaq** – çaşmaq, fikrini çaşdırma.
**Kamal** – yetkinlik, elm, ağıl.
**Kasad** – az, kifayət qədər olmayan.
**Kazarma** – hərbi hissələri yerləşdirmək üçün xüsusi bina.
**Kəramət** – xeyirxahlıq, mərhəmət, səxavət.
**Kərən** – yonulmamış ağac, dirək.
**Kirimişcə** – sakit.
**Kirvə** – 1. uşaq sünnət olunarkən onu tutan adam; 2. yaxın adama, kişiyə müraciətdə işlənilir.
**Korluq çəkmək** – maddi cəhətdən çətinlik çəkmək.
**Kor-peşman** – peşman olmuş halda.
**Kor şeytan** – dinə görə insanlara pislik gətirən qüvvə.
**Kosmodrom** – kosmik gəmiləri və süni peykləri havaya buraxmaq üçün meydança.
**Köks** – köks qəfəsi, sinə.
**Könül** – qəlb, ürək.
**Köstəbək** – torpaq altında yaşayan xəz-dərili heyvan.
**Kreslo** – dirsəklənmək üçün qoltuqluğu olan geniş stul.
**Küdrü** – Araz və Kür çaylarının arasına əhali Küdrü düzü deyir.
**Küknar** – qozaları olan həmişəyaşıl ağac.
**Külüng** – daş çıxarma və torpaq qazma işlərində istifadə edilən bir ucu sivri, o biri ucu enli alət.
**Küp** – gildən düzəldilən iri saxsı qab.
**Kürək** – 1. torpaq, qar təmizləmək və s. atmaq üçün uzundəstəkli alət; 2. bədənin arxa hissəsi.
**Kürsü** – yanları və söykənəcəyi olmayan stul.

### Q

**Qabarmaq** – yüksəlmək, daşmaq.
**Qabartmaq** – köpürtmək, şişirtmək.



Çap üçün deyil

**Qafiyə** – şeirdə misranın sonundakı səslərin təkrarı: mənaca müxtəlif sözlərin son hecalarının uyğunlaşması ilə yaranır.
**Qanmaq** – anlamaq, başa düşmək.
**Qarabuğdayı** – qaraşın, qarabəniz.
**Qarabaqara** – izi ilə getmək, ardınca düşmək, izləmək.
**Qara qızıl** – neft.
**Qarğış** – birisinin pis hallara düşməsini diləmək.
**Qaranəfəs** – çox tələsik, birnəfəsə, çaparaq, tövşüyə-tövşüyə.
**Qapanıb qalmaq** – 1. içəridə oturub qalmaq; 2. ətrafda heç nəyə maraq göstərməmək.
**Qarmoşka** – *burada:* iki avtobusu birləşdirən rezin qatlar (qarmon musiqi alətinə bənzədiyi üçün belə adlanır).
**Qasırğa** – çox şiddətli, sürətli külək; tufan.
**Qayğısız** – heç nəyin fikrini çəkməyən, heç nəyin qeydinə qalmayan.
**Qədir-qiymət** – dəyər, qiymət, hörmət.
**Qəfil** – gözlənilmədən, birdən-birə.
**Qəlb** – könül, ürək.
**Qərar –** bir məsələni müzakirə etdikdən sonra hamı tərəfindən gəlinən nəticə.
**Qərar tutmaq**– bir yerdə, yaxud bir işdə sabitləşmək, dayanmaq.
**Qərinələr** – 33 illik dövr, əsrin 1/3 -i.
**Qərzək** – təzə qoz, fındıq kimi meyvələrin dəydikcə yarılıb tökülən üst qabığı.
**Qət etmək** – həll etmək, ayırd etmək.
**Qəzəb** – hiddət, acıq, hirs.
**Qəzəblənmək** – acıqlanmaq, hirslənmək.
**Qığıldamaq –** qığıltı, körpə uşağın çıxardığı səs.
**Qımıldamaq** – yerində yavaşca tərpənmək.
**Qımışmaq** – dodaqaltı gülmək, gülümsəmək.
**Qınamaq** – danlamaq, məzəmmət etmək, təqsirləndirmək.
**Qırıb tələf etmək** – məhv etmək, yox etmək.
**Qırmanc** – qamçı, şallaq.
**Qır-saqqız** – yapışaraq əl çəkməyən, adamı təngə gətirən.
**Qısır** – doğmayan.
**Qibleyi-aləm** – müsəlman şərqində hökmdara müraciət forması.
**Qibləgah** – qiblə yeri, qiblə tərəf.
**Qilü-qal** – söz-söhbət, dava-dalaş.
**Qovut** – qovrulmuş buğda, noxud və s. unundan hazırlanan və bəzən şəkər tozu ilə qarışdırılıb yeyilən çərəz.
**Qozbel** – beli donqar olan.
**Qu deyəndə qulaq tutulan** – tam səssizlik olan yer.
**Qundaq** – 1. körpə uşaqları bələmək üçün parça, 2. tüfəngin ağac hissəsi.
**Qurbağa gölünə daş atmaq** – birdən-birə sükut çökməsi, səslərin kəsilməsi.
**Qurşaq** – belə sarınan uzun və ensiz parça.
**Qüdrət** – böyük qüvvə, güc.
**Qüdsiyyət** – müqəddəslik, təmizlik, paklıq.
**Qürub etmək** – Günəşin batması, günbatan vaxt.

## L

**Lacivərd** – tünd-mavi rəngli qiymətli daş.
**Lağım** – yeraltı yol.
**Laləzar** – laləlik, çiçəklik, güllük.
**Ləngər vurmaq** – yırğalanmaq, o tərəf-bu tərəfə yellənmək.
**Ləngimək** – bir yerdə lazım olduğundan artıq qalmaq.
**Ləpə** – 1. kiçik dalğa; 2. dənli bitkilərin (qoz, fındıq) içi.
**Lərzə** – titrəmə, titrəyiş, əsmə.
**Loğman** – klassik ədəbiyyatda və canlı dildə bütün dərdlərə çarə edən, adamlara yol göstərən şəxs mənasında işlənir.
**Lovğa-lovğa** – özünü öyərək, dikbaşlıq edərək.
**Lopa-lopa** – topalarla (məs: lopa-lopa buludlar).
**Lütf etmək** – mərhəmət etmək, bağışlamaq, alicənablıq etmək.

## M

**Macal** – imkan, fürsət, vaxt.
**Maqqaş** – çox xırda şeyləri tutub götürmək, sıxmaq və ya qoparmaq üçün alət.
**Mancanaq** – qədim müharibələrdə qala divarlarını dağıtmaqdan ötrü daş, yanar maye dolu çəllək və s. atmaq üçün işlədilən qurğu.
**Matı-qutu qurumaq** – donub qalmaq, heyrət içində olmaq.



Çap üçün deyil

**Melodiya** – nəğmə, hava.
**Meteor** – səmada sürətlə hərəkət edən kosmik cisim.
**Meydan oxumaq** – müharibəyə, döyüşə, mübarizəyə çağırmaq, hədələmək.
**Məbəd** – ibadətgah, ibadət yeri.
**Məchul** – bilinməyən, naməlum.
**Məhəllə** – bir şəhər və ya qəsəbənin bölündüyü hissələrdən biri.
**Məğrur** – qürurlu, vüqarlı.
**Məqbərə** – qəbirlərin üzərində xüsusi tikili.
**Məlul** – qəmgin, məyus, kədərli.
**Məmləkət** – ölkə, dövlət.
**Mərhəm** – məlhəm, şəfa verən dərman.
**Məskən** – insanın yaşadığı yer, yurd, ev.
**Məyus** – ümidsiz, ümidini kəsmiş, ruhdan düşmüş; qəmli, qüssəli, bikef, pərişan, pərt.
**Məzəmmət** – danlama, qınama, töhmət.
**Mısmırıq sallamaq** – sifətinə narazı ifadə vermək, qaşqabağını sallamaq.
**Mirzə Xəzər** – «Azadlıq» radiosunun müxbiri.
**Miyana** – orta, babat.
**Möhtac** – bir şeyə çox ehtiyacı olan.
**Möhlət** – bir işin görülməsi üçün verilən vaxt, müddət.
**Muraz** – arzu, istək, dilək.
**Müdam** – daim, həmişə, aramsız, fasiləsiz.
**Müdrik** – dərrakəli, çox ağıllı, çox dərin düşünən; aqil, dünyagörmüş.
**Mühərrik** – motor.
**Mükəddər** – kədərli, qəmli, qüssəli, qəmgin.
**Müşkül** – çətin, zor, çətin başa gələn, çətin həll edilən.
**Müyəssər** – başa gələn, imkan daxilində olan; mümkün, asan.

## N

**Namərd** – etibarsız, sədaqətsiz, xəbis, pislik etməkdən zövq alan.
**Nemət** – yeyilməyə və içilməyə yararlı şeylər, ərzaq.
**Nəbadə** – birini bir işdən, bir hərəkətdən çəkindirmək üçün işlədilən söz.
**Nəbi** – xəbər verən, xəbər gətirən (peyğəmbər).
**Nəfs** – şiddətli istək, tamah, tamahkarlıq.
**Nəhayət** – son, axır, qurtaracaq.
**Nəsil** – əcdadı bir olan qohumlar.
**Nəzər** – 1. baxma, baxış. 2. gözdəymə.
**Nizam** – qayda, üsul.
**Nüfus** – əhali, camaat.
**Nüfuzlu** – hörmətli, sözükeçən.

## O

**Oğlaq** – körpə, südəmər keçi balası; çəpiş.
**Operator** – müəyyən istehsal prosesinin icrasına cavabdeh olan şəxs.
**Ovuntaq** – ovulmuş.
**Oylaq** – məskən, yer.
**Oymaq** – el-oba, kənd.

## Ö

**Öndər** – rəhbər, başçı, lider.

## P

**Pak** – təmiz, saf.
**Peyk** – planetin ətrafında fırlanan göy cismi.
**Pərvanə** – işığın ətrafına dolanan xırda kəpənək.
**Pilot** – təyyarəçi.
**Pirani** – qoca, ağsaqqal, nurani.
**Porsuq** – xəzli yırtıcı heyvan.
**Post** – bir şeyi və ya şəxsi müşahidə altında saxlamaq üçün yer.
**Pöhrə** – ağac və kolların dibindən göyərən zoğ, cavan budaq, qol.
**Pörtmüş** – 1. istidən qızarmış. 2. nədənsə pərt olmuş.
**Pusquda durmaq** – bir yerdə gizlənib adamı və ya ovu gözləmək.

## R

**Ram** – özünə tabe etmək, özünə alışdırmaq, baş əydirmək.
**Rəfiqə** – qız yoldaşı (dostu).
**Riz** – cığır, iz.
**Ruzi** – azuqə, ərzaq.

## S

**Sadəlövh** – hər şeyə tez inanan.
**Sağsağan** – ağ-qara rəngli quş.



Çap üçün deyil

**Sal** – 1. iri, bütöv, yastı daş. 2. suda hərəkət etmək üçün ağacdan düzəldilən vasitə.
**Sayaq** – cür, kimi, tək.
**Seyr** – 1. baxmaq, görmək. 2. əylənmək və istirahət məqsədilə gəzinti.
**Səxavət** – əliaçıqlıq.
**Səksəkə** – həyəcan, təlaş, narahatlıq.
**Səqf** – tavan.
**Səngər** – güllədən, qəlpədən qorunmaq üçün qazılan çuxur, xəndək.
**Sərmayəsiz** – mayasız, kapitalsız.
**Sərv** – həmişəyaşıl ağac.
**Sığınmaq** – bir təhlükədən etibarlı bir yerdə gizlənmək.
**Sıldırım qaya** – çılpaq, dik, qaya.
**Sıyıq** – südlə və ya su ilə bişirilən duru xörək.
**Siftə** – qabaqca, əvvəlcə, əvvəl, ilk dəfə olaraq.
**Soldat** – əsgər.
**Soraqlamaq** – soruşa-soruşa axtarmaq, ondan-bundan soruşaraq öyrənmək.
**Sövq-təbii** – özündən asılı olmadan, qeyri-ixtiyari.
**Srağagün** – dünəndən əvvəlki gün.
**Suflyor** – tamaşa zamanı aktyorlara rolların sözlərini yavaşcadan söyləyən teatr işçisi.
**Sükan** – gəmidə, avtomobildə, təyyarədə və s-də istiqamət götürmək üçün qurğu.
**Sükut** – susma, danışmama, dinməmə.
**Süst** – halsız, taqətsiz.

## Ş

**Şaxı sınmaq** – azca istilənmək.
Məs: havanın şaxı sındı.
**Şəfəq** – Günəş çıxarkən və batarkən səmada yaranan işıq, qızartı, parıltı, şölə.
**Şəhd** – bal, şirə.
**Şığımaq** – sürətlə hücum etmək, üzərinə atılmaq.
**Şövkət** – cəlal, dəbdəbə.
**Şumlamaq** – torpağı yumşaltmaq.
**Şümşad** – çox möhkəm oduncaqlı həmişəyaşıl ağac.

## T

**Tamarzı** – yeməli, içməli bir şeyin arzusunda, həsrətində olma.
**Tapdalamaq** – ayaqlamaq, ayağı ilə basdalamaq.
**Təbil** – iri nağara.
**Təcəddüd** – yenilənmə, təzələnmə.
**Təcavüz etmək** – soxulmaq, zəbt etmək.
**Tədricən** – yavaş-yavaş, az-az.
**Təklif** – irəli sürülən fikir.
**Təlaş** – həyəcan, narahatlıq.
**Təməl** – 1. bünövrə, özül. 2. bir şeyin əsası, kökü.
**Təmənnasız** – özü üçün fayda, mənfəət güdməyən.
**Tənək** – üzüm ağacı, meynə.
**Təntimək** – tələsmək, darıxmaq, hövsələsini itirmək
**Tərəddüd** – bir işi görməkdə, bir məsələni həll etməkdə qətiyyət göstərməmə, qəti qərara gələ bilməmə.
**Tərcüman** – tərcüməçi.
**Tifil** – uşaq.
**Ting** – calaq üsulu ilə yetişdirilən ağac şitili.
**Topuq** – ayaqda oynaq.
**Torağay** – əsasən, çöldə yaşayan oxuyan quş.
**Tozağacı** – ağ qabığı olan enliyarpaqlı ağac.
**Töhfə** – hədiyyə, bəxşiş, pay.
**Tövbə** – etdiyi pis əməldən peşman olub bu işi daha etməyəcəyinə söz vermə.
**Tullamaq** – bir əşyanı yavaş, yaxud sərt hərəkətlə atmaq.
**Türbə** – qəbir, məzar.

## U

**Ustad** – elm və ya sənət sahəsində dərin məlumatı və qabiliyyəti olan şəxs.

## Ü

**Üfüq** – göyün uzaqda sanki yer və ya su səthi ilə bitişik kimi göründüyü yer.
**Üzüqoylu** – üzü üstə.

## V

**Vahimə** – xəyala gələn qorxulu şeylər.



Çap üçün deyil

**Vasil olmaq** – çatmaq, yetişmək, qovuşmaq, nail olmaq.
**Verimli torpaq** – bol bəhrəli torpaq.
**Vəfadar** – vəfalı, dostluğunda sabit və sədaqətli olan, dostunu unutmayan.
**Vəzn** – şeir ölçüsüdür. Vurğulu və vurğusuz hecaların, yaxud uzun və qısa hecaların düzülüş qaydasıdır.
**Vurnuxmaq** – boş-boşuna o tərəf-bu tərəfə getmək.

## Y

**Yabanı** – çöldə özbaşına bitən, vəhşi.
**Yağmur** – yağış, yağıntı.
**Yaquar** – xaricdə istehsal olan avtomobil markası.
**Yalın** – çılpaq, açıq, heç bir şeylə örtülü olmayan.
**Yarğan** – su axınlarının əmələ gətirdiyi dik yamaclı çuxur.
**Yarıuzanmış** – bədənin yuxarı hissəsinin bir qədər dik və bir şeyə söykənmiş vəziyyəti.
**Yayma** – mayasız xəmirdən bişirilən nazik çörək.
**Yer-yurd** – yaşayış yeri, bir adamın yaşadığı yer, vətən.
**Yovşan** – kəskin qoxulu çöl bitkisi.
**Yüyürmək** – qaçmaq, qaça-qaça getmək.

## Z

**Zağ** – qılınca, bıçağa itiləməklə verilən parlaqlıq.
**Zəm-zəm** – Məkkə yaxınlığında suyu müsəlmanlar tərəfindən müqəddəs sayılan quyunun adı.
**Zirvə** – dağın təpəsi.
**Zümrüd** – yaşıl rəngli qiymətli daş.



Çap üçün deyil

**Aşağıda təqdim edilən İnternet səhifələrindən əlavə məlumat ala bilərsiniz**

**Hikmət Ziya**
www.Google.az: açar söz: Hikmət Ziya
az.wikipedia.org/wiki/Hikmet_Ziya

**Ələmdar Quluzadə**
www.Google.az: açar söz: Ələmdar Quluzadə

**Süleyman Rəhimov**
www.Google.az: açar söz: Süleyman Rəhimov
az.wikipedia.org/wiki/Süleyman_Rehimov
edebiyyat.info/
youtube.com (Lider Tv Online – Xalq Yazıçısı Süleyman Rehimovun Xatiresi Anılır)

**Bəxtiyar Vahabzadə**
www.Google.az: açar söz: Bəxtiyar Vahabzadə
az.wikipedia.org/wiki/Bextiyar_Vahabzade
www.vahabzade.net
youtube.com (açar söz: Bəxtiyar Vahabzadə).

**Gülhüseyn Hüseynoğlu**
www.Google.az: açar söz: Gülhüseyn Hüseynoğlu
az.wikipedia.org/wiki/Gülhüseyn_Hüseynoğlu
youtube.com Mücrü. film. (açar söz: Gülhüseyn Hüseynoğlu)

**Nizami Gəncəvi**
www.Google.az: açar söz: Nizami Gəncəvi
az.wikipedia.org/wiki/Nizami_Gəncəvi, nizami.az/
html-www.video.az/ru/video/18200/nizami-gencevi-senedli-film
youtube.com Nizami Gəncəvi 870, Xeyir və şər (film, 1980 açar söz: Nizami Gəncəvi)
https://ru.wikipedia.org/wiki/Александр_Македонский

**Süleyman Rüstəm**
www.Google.az: açar söz: Süleyman Rüstəm
az.wikipedia.org/wiki/Süleyman_Rüstəm
youtube.com (açar söz: Süleyman Rüstəm).



Çap üçün deyil

**Səməd Vurğun**
www.Google.az: açar söz: Səməd Vurğun
az.wikipedia.org/wiki/Səməd_Vurğun
edebiyyat.info/
youtube.com (açar söz: Səməd Vurğun).

**Mixail Prişvin**
www.Google.az: açar söz: Mixayil Prişvin
Google.az-açar söz-Mixayil Prişvin.

**Əliağa Kürçaylı**
www.Google.az: açar söz: Əliağa Kürçaylı
az.wikipedia.org/wiki/Əliağa_Kürçaylı
youtube.com (açar söz: Əliağa Kürçaylı)

**Zəlimxan Yaqub**
www.Google.az: açar söz: Zəlimxan Yaqub
az.wikipedia.org/wiki/Zəlimxan_Yaqub
kultaz.com/2008/02/23/zelimxan-yaqub-yeni-seirler/
youtube.com (açar söz: Zəlimxan Yaqub)

**Eyvaz Zeynalov**
www.Google.az: açar söz: Eyvaz Zeynalov
kultaz.com.

**Sabir Əhmədli**
www.Google.az: açar söz: Sabir Əhmədli
az.wikipedia.org/wiki/Sabir_Əhmədli

**İsmayıl Şıxlı**
www.Google.az: açar söz: İsmayıl Şıxlı
az.wikipedia.org/wiki/İsmayıl_Şıxlı
youtube.com (açar söz: İsmayıl Şıxlı)

**Mustafa Çəmənli**
www.Google.az: açar söz: Mustafa Çəmənli
az.wikipedia.org/wiki/Mustafa_Çəmənli.



Çap üçün deyil

**Teymur Elçin**
www.Google.az: açar söz: Teymur Elçin
az.wikipedia.org/wiki/Teymur_Elçin

**Əzizə Əhmədova**
www.Google.az: açar söz: Əzizə Əhmədova
az.wikipedia.org/wiki/Əzizə_Əhmədova
www.youtube.com Toplan və kölgəsi (film, 1977)
(açar söz: Əzizə Əhmədva)

**Əzizə Cəfərzadə**
www.Google.az: açar söz: Əzizə Cəfərzadə
az.wikipedia.org/wiki/Əzizə_Cəfərzadə
www.kataloq.net/v2/shexsler/ Əzizə-Cəfərzadə-100
youtube.com Aziza Jafarzade-Əzizə Cəfərzadə (açar söz: Əzizə Cəfərzadə)
www.masalli-mks.az/kitablar/Ceferzade% 20Ezize.pdf

**Sədi Şirazi**
www.Google.az: açar söz: Sədi Şirazi
zeka.az, az.wikipedia.org/wiki/Sədi, mesiha.blogspot.com.

**Rəşid bəy Əfəndiyev**
www.Google.az: açar söz: Rəşid bəy Əfəndiyev
az.wikipedia.org/wiki/Rəşid_bəy_Əfəndiyev
www.gomap.az
youtube.com (açar söz: Rəşid bəy Əfəndiyev)



Çap üçün deyil

# DƏRSLİYƏ DAXİL EDİLMİŞ ƏSƏRLƏRİN MÜƏLLİFLƏRİ HAQQINDA QISA MƏLUMAT



***Nizami Gəncəvi*** *dahi Azərbaycan şairidir. O, dünya ədəbiyyatı tarixində ən şərəfli yerlərdən birini tutur. Şair yunan dili ilə də tanış olmuş, qədim yunan tarix və fəlsəfəsini, astronomiya, tibb və həndəsə elmlərini yaxşı mənimsəmişdir. Ömrü boyu Gəncədə yaşamışdır. Dünya ədəbiyyatında 5 poemadan ibarət «Xəmsə»si («Beşlik») ilə məşhurdur.*



***Bəxtiyar Vahabzadə*** *Azərbaycanın görkəmli ədibi, Xalq şairidir. «İkinci səs», «Vicdan», «Yağışdan sonra», «Yollara iz düşür», «Fəryad» və «Hara gedir bu dünya», «Özümüzü kəsən qılınc», «Cəzasız günah», «Dar ağacı», «Rəqabət» pyeslərinin, «Muğam», «Gülüstan» poemalarının, 70-dən artıq şeir kitabının müəllifidir.*



***Səməd Vurğun*** *Azərbaycan şeirinin ən görkəmli nümayəndələrindən biridir. Elə bir azərbaycanlı yoxdur ki, şairin «Azərbaycan» şeirini əzbər bilməsin. Xalqına, vətəninə məhəbbətlə dolu əfsanəvi və tarixi mövzularda poemaları müasir Azərbaycan ədəbiyyatının nadir inciləridir. «Xalq şairi» fəxri adı Azərbaycanda ilk dəfə Səməd Vurğuna verilmişdir.*



***Hikmət Ziya*** *ədəbi yaradıcılığa 1952-ci ildə «Azərbaycan pioneri» qəzetində çap edilən «Qeqola» adlı şeiri ilə başlamışdır. Çoxlu təmsilləri, «Atamın hədiyyəsi», «Bahar gözəldir, ya qış?», «Milçək ürəyi» və s. kitabları nəşr olunmuşdur.*



***Süleyman Rəhimov*** *Azərbaycan ədəbiyyatında böyükhəcmli romanların müəllifidir. İlk əsəri – «Şamo» 1930-cu ildə işıq üzü görmüşdür. «Sazlı», «Ata və oğul», «Mehman», «Ana və abidəsi» və s. kimi əsərləri çap olunmuşdur. Xalq yazıçısı adı almışdır.*

Çap üçün deyil



***Süleyman Rüstəm** «Ələmdən nəşəyə», «Ulduzlar», «Gecənin romantikası», «Şairin səsi», «Ananın ürəyi» kimi onlarla kitabın müəllifidir. Onun böyük oxucu rəğbəti qazanmış «Cənub şeirləri» adlı kitabında Cənubi Azərbaycanı tərənnüm edən şeirləri toplanmışdır.*



***Nəbi Xəzri** şair, nasir, dramaturq, publisist, tərcüməçidir. Azərbaycan Yazıçılar Birliyinin üzvü, Xalq şairidir. Nəbi Xəzrinin yaradıcılığı müasir Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir. Yazıçı «İllər və sahillər», «Ulduz karvanı», «Torpaq sənə and içirəm», «Əsrin qanlı laləsi» və s. kitabların müəllifidir.*



***İsmayıl Şıxlı** yaradıcılığa «Quşlar» şeiri ilə başlamışdır. «Həkimin nağılı», «Kerç sularında», «Qonaq», «Qara at» hekayələrinin, «Dəli Kür», «Ayrılan yollar» romanlarının müəllifidir.*



***Teymur Elçin** ədəbiyyat aləminə ilk cığırı «Qar qız» şeirlər kitabı ilə açmışdır. «Qulaq asın danışım», «Laylalar», «Torağayın nəğməsi», «Balaca ulduzlar» kitablarının müəllifidir. Uşaqlar üçün yazdığı şeirlərinə gözəl uşaq mahnıları bəstələnmişdir.*



***Sabir Əhmədli** ədəbi fəaliyyətə «Poçtalyon» hekayəsi ilə başlamışdır. «Bir payız axşamı», «Toğana», «Mavi günbəz», «Gedənlərin qayıtmağı», «Dünyanın arşını», «Yanvar hekayələri», «Axirət sevdası», «Şəhid ruhu» və s. dəyərli kitabların müəllifidir. Xalq yazıçısı, Əməkdar incəsənət xadimi fəxri adlarına layiq görülmüşdür.*



Çap üçün deyil

***Əzizə Cəfərzadə*** *uşaqlar üçün yazılmış «Qızımın hekayələri», «Anamın nağılları», «Çiçəklərim», «Pişik dili» kimi hekayə və nağılların müəllifidir. 2001-ci ildə «Azərbaycan Anası» və Xalq yazıçısı kimi yüksək adlara layiq görülmüşdür.*



***Zəlimxan Yaqub*** *«Saz», «Göyçə dərdi», «Borçalıda qalan izlər», «Ey vətən oğulları», «Haqq-ədalət», «Əbədiyyət dastanı», «Peyğəmbər» və digər sanballı əsərləri ilə oxucuların qəlbinə yol tapmışdır. Haqqında ciddi elmi məqalələr yazılmış, filmlər çəkilmişdir.*



***Əliağa Kürçaylı*** *«İnsan həsrəti», «Uşaqlıq», «Durnalar cənuba uçur», «Adil adam», «Ana» və s. poemaların müəllifidir. Əməkdar incəsənət xadimi adına, «Bütövlük» adlı son kitabına görə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.*



***Tofiq Bayram*** *Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar incəsənət xadimidir. Yazıçı «Mənim şair xalqım», «Azərbaycan deyəndə», «Məsləkim-silahım» və s. kimi kitabların müəllifidir.*



***Gülhüseyn Hüseynoğlu*** *yaradıcılığa «Ana» adlı ilk hekayəsi və «Bənövşə əfsanəsi» adlı ilk mənsur şeiri ilə başlamışdır. 30-a yaxın kitabın müəllifidir. Azərbaycan ədəbiyyatında mənsur şeirin yaradıcısı kimi tanınır.*



Çap üçün deyil



***Rəşid bəy Əfəndiyev*** *«Uşaq bağçası» (1818), «Bəsirətül-ətfal» (1902) dərsliklərinin müəllifidir. «Qan ocağı», «Saqqalın kəraməti», «Pul dəlisi» və s. kitabları müxtəlif illərdə işıq üzü görmüşdür.*



***Mustafa Çəmənli*** *milli musiqi ifaçılığı sənətinin təbliğinə görə Mətbuat Fondunun «Dan ulduzu» mükafatına, «Xallı gürzə» tarixi romanına görə «Yaddaş» milli mükafatına, Milli Mədəniyyətin Təbliği Mərkəzinin «Uğur-2008» mükafatına layiq görülmüşdür.*



***Əzizə Əhmədova*** *«Xınalı qayalar», «Yaz qarı», «Onu çiçəklər sevdi», «Bu ellərə vurulmuşam», «O günlərə baxıram», «Bir ürək sındırmışam», «Çiçəklərim» kitablarının və uşaqlar üçün yazılmış «Damda yaşayan Karlsonla bacada yaşayan Damdabacanın macəraları» əsərinin müəllifidir.*



***Ələmdar Quluzadə*** *Azərbaycan uşaq şeirinin maraqlı nümunələrini yaratmışdır. «Dağların yaddaşı», «Ömür-gün qabaqdadır», «Qarabağ oyunu», «Şəhid şəhər», «Alay komandiri», «Qadan alım, Qarabağ» və s. kimi on beşə qədər kitabın müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.*



***Məmməd Namaz*** *şair, nasirdir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Dövri mətbuatda tez-tez uşaqlar və gənclər üçün yazdığı şeir və hekayələrlə çıxış edir.*

Çap üçün deyil



***Sədi Şirazi*** *Şərqin böyük orta əsr şairidir. Onun ən məşhur əsərləri «Bustan» və «Gülüstan»dır. «Bustan» islami nəsihətlərdən, «Gülüstan» əsəri isə hekayətlərdən, lətifələrdən, hikmətli sözlərdən, məsləhətlərdən və qısa şeirlərdən ibarətdir.*



***Eyvaz Zeynalov*** *2007-ci ildə «Avropa Nəşr Mətbu Evi»nin «Ən yaxşı vətənpərvər yazıçı» Beynəlxalq Qızıl mükafatına layiq görülmüş, 2008-ci ildə Mahmud Kaşğari adına Beynəlxalq Hekayə Müsabiqəsinin qaliblərindən biri (3-cü yer) olmuşdur. Vətənpərvər mövzuda yazılmış «Qisas» povestinin və «İntiqam», «Türkün etirafı», «Yad dağlarda», «Qarabağ dərdi» hekayələrinin müəllifidir.*



***Fuad Tanrılı*** *«Uçub səni taparam», «Mənim günəşim», «Gilavar-2 əməliyyatı», «Elçinurun üç səyahəti», «Mənim evim nağıldadır» və s. kitabların müəllifidir.*



***Mixail Prişvin*** *«Saşok», «Sehrli kürənin arxasında», «Meşə damcısı», «Təbiətin təqvimi» və s. xatirələr və nağıllar kitablarının müəllifidir. Onun «Bir qurtum su», «Meşə hakimi», «Qartal yuvası», «Quşların və heyvanların danışığı» kimi hekayələri təsviri əsərlərin gözəl nümunələridir. Bu əsərlərinə görə M.Prişvini «rus təbiətinin nəğməkarı» adlandırırlar.*

Çap üçün deyil

## MÜNDƏRİCAT

«Ədəbiyyat» fənni vasitəsilə nəyi öyrənəcəksən? ................................5

OXU HAQQINDA NƏ BİLİRİK

Biz necə oxuyuruq? H.Ziya.«Birinci zəng» ..................................8
Oxunun təşkili yolları.................................................9
Ə.Quluzadə. «Alim və quldur» (İxtisarla)...................................11

BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR

S.Rəhimov. «Usta-şagird» hekayəsi. (Bədii əsərlərdə təsvirin müəyyən edilməsi) ...........................................15

I. Bədii əsərlərdə ideyanın müəyyən edilməsi

B.Vahabzadə. «Ağ saçlar» şeiri. (Bədii əsərlərdə ideyanın müəyyən edilməsi)..................................18
G.Hüseynoğlu. «Müəllimin arzusu» hekayəsi. (Əsər üzərində iş) ........22
N.Gəncəvi. «İsgəndərin taxta çıxması». (Əsər üzərində iş) ................26
S.Rüstəm. «Azərbaycana gəlsin» şeiri. (Əsər üzərində iş)..................29
«Göy yarpaqlı, al çiçəkli, yaşıl otlar topasımı?» (C.Cabbarlı) mövzusunda essenin yazılması ..................................30

II. Bədii əsərlərdə fikrin obrazlı ifadəsi

S.Vurğun. «Azərbaycan» şeiri. (Bədii təsvir vasitələri, məcazlar).......36
M.Prişvin. «Tala» hekayəsi. (Bənzətmə və epitetin müəyyən edilməsi) .....40
Ə.Kürçaylı. «Bakı» şeiri. (Hislərin təsviri)....................................45
İbrətamiz hekayələr. (Təsviri mətndə dəqiqləşdirici faktlar).............47
«Möcüzə». «Allaha şükür edən şikəst». (Əsər üzərində iş)................50
Z.Yaqub. «Qara xəbərin acısı» şeiri. (Müstəqil iş) ...........................53
«Qışda şəhərimiz (kəndimiz, qəsəbəmiz)». Essedə təsvir vasitələri ......56
Esse üzərində iş ..............................................................57

III. Bədii əsərin hissələri

E.Zeynalov. «Oğru» hekayəsi. (Bədii mətnin hissələrinin müəyyən edilməsi)....59
S.Əhmədli. «Şəhidlər xiyabanı» hekayəsi. (Əsər üzərində iş)..............65
S.Əhmədli. «İşığı söndürmə» hekayəsi. (Əsər üzərində iş) .................68
Essenin hissələrinin yaradılması ................................................71
Esse üzərində iş: yazılmış essenin yoxlanılması ...............................71

BƏDİİ ƏSƏRLƏRDƏ NƏQLETMƏ

İ.Şıxlı. «Sənə aslanım deyən» hekayəsi. (Bədii əsərlərdə nəqletmə) .....75
M.Çəmənli. «İgid Mübariz». (Mətnin oxusu. Proqnozlaşdırma)...........81

I. Bədii əsərlərdə obrazlar

M.Çəmənli. «İgid Mübariz». (Əsərdə obrazın başlıca xüsusiyyətləri) ..........................................86



Çap üçün deyil

«Mərd və Namərdin nağılı». (Əsərdəki obrazların xüsusiyyətlərinin müqayisəsi)......88
T.Elçin. «Qarğanın məktəbi», Ə.Əhmədova «Ana laylası». (Ayrı-ayrı əsərlərdəki əsas obrazların oxşar və fərqli cəhətlərinin müəyyən edilməsi)......96
Nəqletmə xarakterli essedə obrazın yaradılması......106

## II. Nəqletmə xarakterli əsərin quruluşu

Ə.Cəfərzadə. «İki ana» hekayəsi. (Nəqli xarakterli mətndə hadisələr və onların ardıcıllığı)......108
S.Şirazi. «Ana ürəyi» hekayəsi. (Əsər üzərində iş)......111
Nəqletmə xarakterli essedə hadisələrin ardıcıllığı......116
«Çillələr» əfsanəsi. (Nəqletmə xarakterli mətnlərdə hadisələri müəyyən etməklə onu hissələrə ayırma)......117
«Qaranquş əfsanəsi». (Əsər üzərində iş)......122
Cəsarət tələb edən əhvalatla bağlı nəqletmə xarakterli esse. (Essenin hissələri)......124
«Şir və tülkü» nağılı. Nəqletmə xarakterli mətnin elementləri......125
R.Əfəndiyev. «Uşaq və qarışqa». «Ayı və qarışqa» (Nağıl) (Nəqletmə xarakterli mətnlər arasında oxşar cəhətlərin müəyyən edilməsi)......130
Nəqletmə xarakterli essenin elementləri......135
F.Tanrılı. «Mən azərbaycanlıyam» hekayəsi. (Əsərin nəql edilməsi)...136
Əsərin ümumiləşdirilməsi və nəticənin çıxarılması......140
Nəqletmə xarakterli essenin yazılması......141
İnşa yazının təşkili......142
Yazının planlaşdırılması və qeydlərin götürülməsi......145
İlkin nümunənin hazırlanması......146
Yazının şagirdlər tərəfindən yoxlanması......147
Z.Yaqub. «Bir dahi doğulub gəldi dünyaya» şeiri. (Ümumiləşdirici dərs)......149
**Layihə:** «Vətəni çiçəkləndirmək lazımdır!» *Məmməd Namaz*......153
«Alqış deyim». *Tofiq Bayram*......155

## Sinifdənxaric oxu

Darıxır. *Tofiq Mütəllibov*......157
Laylalar......157
Yaxşılığa yamanlıq. *Tofiq Mütəllibov*......158
Payız mənzərəsi. *Mirmehdi Seyidzadə*......160
Ən qiymətli mükafat......161



Çap üçün deyil

Xan çinarın bir yarpağı. *Mikayıl Rzaquluzadə* ....................................162
Həzrəti İsmayıl. *Natiq Rəhimov* ....................................164
Elegiya. *Leyla İlham qızı Əliyeva* ....................................166
Azərbaycan bayrağına. *Cəfər Cabbarlı* ....................................166
Həmrəylik bayramın mübarək olsun. *Mirəli Vəkiloğlu* ....................................167
Bizi Vətən çağırır! *Məmməd Araz* ....................................167
Azərbaycan cavanları. El çələngi ....................................168
Qisas. *İbrahim Təlbəyəğli (Vahabov)* ....................................168
Xocalı. *Oqtay Rza* ....................................173
Bərk ayaqda (İxtisarla). *Gülhüseyn Hüseynoğlu* ....................................173
Ana məhəbbəti. *Mobil Quluzadə* ....................................178
Novruz bayramı. *Aşıq Şəmşir* ....................................179
Bizim planet. *Əliağa Kürçaylı* ....................................179
Qarabağdan əlini çək. *Oqtay Rza* ....................................180
Ana dilim. *Mir Sabir* ....................................181
Şuşa (İxtisarla). *Rəsul Rza* ....................................181
Kiçik qəhrəman. *Abdulla Şaiq* ....................................182
Müəllim. *İslam Səfərli* ....................................185
Elm haqqında. *Marağalı Əvhədi* ....................................185
Loğman. Azərbaycan xalq nağılı ....................................186
Dəvənin balasıyla söhbəti. *Hikmət Ziya* ....................................189
Ən gözəl. *Tofiq Bayram* ....................................190
İzahlı lüğət ....................................191
İnternet ünvanlar ....................................198
Dərsliyə daxil edilmiş əsərlərin müəllifləri haqqında
qısa məlumat ....................................201

---

***Afət Yaqub qızı Süleymanova***
***Təranə Böyükxan qızı Bağırova***
***İlhamə İbrahim qızı Muradova***
**ƏDƏBİYYAT**
*(Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün*
*«Ədəbiyyat» fənni üzrə dərslik)*
Bakı, «Təhsil», 2016.

Redaktoru *Gülər Mehdiyeva*
Bədii və texniki redaktoru *Abdulla Ələkbərov*
Kompüter tərtibatçısı *Səadət Quluzadə*
Rəssamı *Azər Dadaşov, Gündüz Ağayev*
Korrektoru *Ülkər Şahmuradova*

Kağız formatı 70x100$^1/_{16}$.
Ofset çapı. Ofset kağızı. Məktəb qarnituru. Fiziki çap vərəqi 13,0.
Uçot nəşr vərəqi 12,6. Sifariş 63. Tiraj 66500. Pulsuz.

«Təhsil Nəşriyyat-Poliqrafiya» MMC
Bakı, AZ 1052, F.Xoyski küç., 121$^A$

Çap üçün deyil